

# MÜSTƏQİL DÖVLƏTİMİZ VƏ PARLAMENTİMİZ

# OUR INDEPENDENT STATE AND THE PARLIAMENT

# MÜSTƏQİL DÖVLƏTİMİZ
# VƏ
# PARLAMENTİMİZ

---

# OUR INDEPENDENT STATE
# AND
# THE PARLIAMENT

*Müstəqil Azərbaycan on ildir yaşayır və bundan sonra da on illər də yaşayacaq, əbədiyyətə qədər yaşayacaqdır. .*

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

☼ ☼ ☼

***Azerbaijan is independent for over ten years and will be independent for decades in future and will be independent forever.***

**Mr. Heydar ALIYEV,**
**President of the Republic**
**of Azerbaijan**

*AzərbaycanRespublikasının*
*dövlət müstəqilliyinin*
*onuncu ildönümünə həsr olunur*



***Devoted to the tenth anniversary of the state independence of the Republic of Azerbaijan***

# MÜSTƏQİL DÖVLƏTİMİZ
# VƏ
# PARLAMENTİMİZ

**Məsul redaktor**
**Murtuz ƏLƏSGƏROV**

**AZƏRBAYCAN RESPUBLİKASI**
**MLLİ MƏCLİSİNİN NƏŞRİ**

**Bakı – 2001**

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN ONUNCU İLDÖNÜMÜ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Bu il Azərbaycan xalqının həyatında əlamətdar tarixi hadisənin – Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin 10 ili tamam olur. 1991-ci il oktyabrın 18-də «Azərbaycanın dövlət müstəqilliyi haqqında» Konstitusiya Aktının qəbul edilməsi ilə Azərbaycan tarixinin yeni bir dövrü – müstəqil inkişaf dövrü başlandı.

Azərbaycan Respublikasının öz dövlət müstəqilliyini əldə etməsi keçmiş SSRİ-də və bütün dünyada 80-ci illərin ortalarından başlayaraq gedən ictimai-siyasi proseslərin labüd nəticəsi idi. Bu obyektiv tarixi gerçəklik SSRİ-nin dağılmasına, Kommunist Partiyasının tarix səhnəsindən çəkilməsinə və nəticə etibarilə müttəfiq respublikaların hər birinin müstəqil dövlətə çevrilməsinə gətirib çıxardı. Bunun ardınca yeni müstəqil dövlətlərin, eləcə də Azərbaycan Respublikasının dünya ölkələri, müxtəlif beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınması beynəlxalq hüquq normalarının qanuni təzahürü oldu.

Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir. Müstəqillik yoluna qədəm qoymuş Azərbaycan Respublikasının da qarşısında yeni tarixi inkişaf mərhələsində dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət qurulması, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi, Dağlıq Qarabağ probleminin milli maraqlara uyğun həlli, əhalinin təhlükəsizliyinin və rifahının təmin edilməsi kimi taleyüklü, mühüm tarixi vəzifələr dururdu. Bütün bunlar ardıcıl, məqsədyönlü, düşünülmüş daxili və xarici siyasət kursunun hazırlanıb həyata keçirilməsini və bu məqsədlə ölkənin intellektual və sosial-iqtisadi potensialından, ictimai-siyasi qüvvələrindən səmərəli istifadə olunmasını tələb edirdi.

Təəssüf ki, 1991-1993-cü illərdə bu istiqamətdə heç bir iş aparılmadı. Müstəqil Azərbaycan dövlətinin keçdiyi yeni mərhələdə ölkənin iqtisadi, siyasi maraqları, təhlükəsizliyi, ərazi bütövlüyünün təmin olunması ilə bir araya sığmayan daxili və xarici siyasəti müstəqil dövlətçiliyə, onun sonrakı taleyinə ağır zərbələr vurdu. Azərbaycanda Ermənistanın təcavüzü ilə yanaşı, daxili ictimai sabitlik də pozulmuş, müxtəlif qanunsuz silahlı dəstələr yaradılmış və ölkənin daxilində qızğın hakimiyyət çəkişməsi başlanmışdı.

Bu dövrdə hökumətin daxili və xarici siyasətini xarakterizə edən əsas cəhət aydın, ardıcıl və prinsipial bir kursun olmaması idi. Dövlət idarəçiliyi vahid bir konsepsiya və sistem əsasında deyil, məsul vəzifə sahiblərinin qrup maraqlarını ifadə edən təsadüfi bəyanatlar, əksər hallarda bir-birini inkar edən, ziddiyyətli və emosional çıxışlar üzərində qurulurdu. XX əsrdə xalqımızın gərgin əməyi ilə yaradılmış qüdrətli iqtisadi potensial amansızcasına dağıdıldı, milli sərvətlər talan edildi. İctimai-siyasi həyatda, iqtisadiyyatda hərc-mərclik, bir qarışıqlıq, «dövlət reketi» hökm sürürdü. Belə düşünülməmiş və səriştəsiz siyasət milli və vətəndaş qarşıdurmasının kəskinləşməsinə, hakimiyyətin ölkə daxilində öz nüfuzunu itirməsinə gətirib çıxardı. Nəticədə, 1993-cü ilin yayında Azərbaycan dövlətçiliyi böhran və məhvolma təhlükəsi qarşısında qaldı, ölkə vətəndaş müharibəsi və parçalanma həddinə çatdı. 1991-ci ildə əlverişli tarixi şəraitin və taleyin xalqımıza bəxş etdiyi imkanlardan yaranmış müstəqil dövlətimiz səriştəsiz siyasət nəticəsində süquta uğramaq təhlükəsi ilə üz-üzə qaldı. Beləliklə, 1991-1993-cü illər Azərbaycanın müstəqillik tarixində nəinki itirilmiş illər, hətta müstəqilliyimiz üçün təhlükə törədən bir çox təzahürlərin əmələ gəldiyi bir dövr kimi səciyyələndirilə bilər.

1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə ölkədə hakimiyyət dəyişikliyi baş verdi. Hakimiyyət vakuumu aradan götürüldü, baş qaldırmış separatçı qüvvələr, Azərbaycan dövlətçiliyinə, müstəqilliyə, ərazi bütövlüyünə qəsdlər törədən cinayətkar ünsürlər zərərsizləşdirildi, dövlət ilə xalqın birliyi, yekdilliyi təmin edildi.

Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qorumaq, ölkədə ictimai-siyasi sabitliyə nail olmaq üçün təxirəsalınmaz vəzifələrdən biri davam etməkdə olan Ermənistan-Azərbaycan müharibəsi ilə bağlı qəti addımlar atılmasından ibarət idi. Milli ordumuzun formalaşdırılması, onun döyüş qabiliyyətinin yüksəldilməsi, torpaqlarımızın müdafiə olunması üçün geniş miqyaslı tədbirlərin həyata keçirilməsi nəticəsində hərbi qarşıdurmada tarazlıq yarandı. Cəbhə bölgələrindəki yeni vəziyyət erməni tərəfini atəşin dayandırılması barədə ciddi düşünməyə vadar etdi. 1994-cü ilin mayında atəşkəs haqqında razılaşma əldə olundu, beş ildən artıq bir müddət ərzində davam etmiş hərbi əməliyyatlar dayandırıldı, münaqişənin dinc yolla aradan qaldırılması üçün ilkin şərait yarandı.

Müharibənin dayandırılması, ölkədaxili vəziyyətin nizamlanması, ictimai-siyasi sabitliyin bərqərar edilməsi, regionda qonşu dövlətlərlə yaranmış gərginliyin aradan qaldırılması və münasibətlərin normal məcraya salınması Azərbaycanın müstəqil dövlət kimi yaşamasını və sonrakı inkişafını şərtləndirən amillərdən oldu.

Azərbaycan daxildə yaranmış nisbi sabitlikdən və beynəlxalq aləmdə ona münasibətdə artan inam və maraqdan istifadə edərək, 1994-cü ilin sentyabrında dünyanın iri neft şirkətləri ilə «Əsrin müqaviləsi» adlandırılan ilk neft kontraktlarını imzaladı. Ölkənin çoxsaylı sosial-iqtisadi

problemlərinin həlli istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilməyə başlandı.

Azərbaycanda başlanmış bu işlər dövlətçiliyimizin əleyhinə olan daxili və xarici qüvvələrin ciddi müqaviməti ilə üzləşdi. 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlət çevrilişinə silahlı cəhdlər göstərildi. Azərbaycan dövlətinin qətiyyəti, bütün xalqın qızğın dəstəyi ilə bu təhlükəli cəhdlərin qarşısı alındı. Görülmüş tədbirlər nəticəsində Azərbaycanda zor gücünə, silahlı dəstələrdən istifadə etməklə hakimiyyətə gəlmək ənənəsinə son qoyuldu. Azərbaycan dövləti keyfiyyətcə yeni bir mərhələyə daxil oldu, dövlət quruculuğunda, iqtisadi, sosial və mədəni həyatda böyük işlərə başlamaq üçün ictimai-siyasi sabitliyin və qanunçuluğun bərqərar edildiyi ölkəyə çevrildi. 1995-ci ilə qədər bəzi sahələrdə bir sıra müsbət dəyişikliklər əldə edilsə də, ölkədə bütün istiqamətlərdə geniş miqyaslı islahatların ardıcıl şəkildə həyata keçirilməsi məhz tam ictimai-siyasi sabitliyin təmin edilməsindən sonra mümkün oldu.

1995-ci il noyabrın 12-də müstəqil respublikamızın ilk Konstitusiyası qəbul olundu və müstəqillik tariximizdə ilk parlament seçkiləri keçirildi. Müstəqil Azərbaycanın Konstitusiyası ölkəmizdə yeni dövlət quruculuğu üçün, dövlət fəaliyyətinin və cəmiyyətin inkişafının gələcək modeli üçün hüquqi əsas yaratdı. Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması baxımından tariximizin ən məhsuldar dövrünün təməli qoyuldu.

Ölkədə demokratik islahatlar kursu müəyyən edildi və bu istiqamətdə ardıcıl iş həyata keçirilməyə başlandı. Azərbaycanda demokratik dövlət yaradılması üçün yeni iqtisadi sistemin formalaşması, iqtisadiyyat sahəsində demokratik islahatların həyata keçirilməsi zərurəti ön plana çəkildi. Bazar iqtisadiyyatının formalaşması üçün müvafiq hüquqi bazanın yaradılması yolunda böyük iş aparıldı. Torpaq və aqrar islahatlar haqqında, özəlləşdirmə, sahibkarlığın inkişafı, vergi, maliyyə-bank sisteminin yenidən qurulması, ticarətin liberallaşdırılması, inhisarçılığın aradan qaldırılması və rəqabətin inkişafı barədə, əhalinin sosial müdafiəsini təmin edən mühüm qanunvericilik aktları qəbul edildi. İqtisadi islahatların dərinləşməsində həlledici rol oynayan özəlləşdirmə prosesi sürətləndirildi. Bu sahədə görülmüş ardıcıl iş sayəsində kiçik özəlləşdirmə başa çatdırıldı, ölkədə ticarət, ictimai iaşə və bütün xidmət obyektləri, demək olar ki, artıq sahibkarların əlində cəmləşdi. Orta və iri sənaye müəssisələrinin özəlləşdirilməsi başlandı.

İstehsalda yaranmış geriləmə hallarının qarşısı bazar iqtisadiyyatına keçid istiqamətində görülən məqsədyönlü tədbirlər sayəsində alındı, ölkədə makroiqtisadi sabitlik təmin olundu. Həyata keçirilən tədbirlər nəticəsində sənaye istehsalında artım meylləri yarandı. Sənayenin, demək olar ki, bütün sahələrində, o cümlədən neft və qaz, neft və neft kimyası, metallurgiya, maşınqayırma, tikinti materialları, yüngül və yeyinti sənayesi sahələrində, habelə sənayenin qeyri-dövlət sektorunda ciddi irəliləyiş əldə edildi.

Ölkədə torpaq islahatının həyata keçirilməsi, torpağın xüsusi mülkiyyətə verilməsi, kolxoz və sovxozların əmlakının özəlləşdirilməsi digər sahələrlə müqayisədə kənd təsərrüfatında islahatların daha sürətlə aparılmasına imkan yaratdı. Bu sahədə əldə edilmiş müsbət dəyişiklikləri dəstəkləmək, meydana çıxan problemləri aradan qaldırmaq məqsədi ilə xüsusi qanun və fərmanlar qəbul edildi. Aqrar sektorun, torpaq vergisi istisna olmaqla, digər vergilərdən beş il müddətinə azad edilməsi, büdcəyə olan vergi borclarının silinməsi, yanacağın güzəştli satışı və digər tədbirlər kənd təsərrüfatı istehsalına əhəmiyyətli təsir göstərdi.

Gənc müstəqil dövlət, xüsusən Azərbaycan kimi xarici təcavüzə, böyük dağıntılara və itkilərə məruz qalmış ölkə müstəqilliyə nail olduqdan sonra iqtisadiyyatını öz daxili imkanları hesabına vaxtında inkişaf etdirə bilməzdi. Bu baxımdan Azərbaycana xarici investisiyanın cəlb olunması əsas məqsədlərdən biri idi. İqtisadi yüksəlişin həlledici şərti hesab olunan investisiya qoyuluşu sahəsində mühüm nailiyyətlər əldə olundu. Kapital qoyuluşunun artmasında ölkəmizə xarici kapital axını həlledici rol oynayır. Ölkə iqtisadiyyatına böyük həcmdə xarici investisiya yönəldilmişdir. Xarici investisiya qoyuluşunda «Əsrin müqaviləsi» və ondan sonrakı neft kontraktları mühüm rol oynayır. Azərbaycanda yalnız neft sektoruna deyil, iqtisadiyyatın digər sahələrinə də xarici investisiya qoyuluşu xeyli artmışdır. Hazırda Azərbaycanda adambaşına düşən xarici investisiyanın həcmi Müstəqil Dövlətlər Birliyi məkanında ən yüksək göstərici hesab olunur.

Azərbaycan dövlətinin neft strategiyasının işlənib hazırlanması və ardıcıl surətdə həyata keçirilməsi ölkəmizin əldə etdiyi nailiyyətlərin ən əsasıdır. Bu sahədə bir çox faydalı sazişlər imzalanıb, işlər görülmüşdür. Müstəqil neft strategiyasının həyata keçirilməsi vasitəsi ilə Azərbaycan dünyanın bir çox ölkələrinin diqqətini, marağını özünə cəlb etmişdir. Azərbaycanın neft strategiyası ölkəyə həm iqtisadi inkişaf üçün əlverişli şərait yaradıb, həm də dünyanın bir çox dövlətləri ilə qarşılıqlı surətdə faydalı əlaqələr qurmağa imkan veribdir. Ümumiyyətlə, Azərbaycanın neft strategiyası və bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlər nəinki mühüm sosial-iqtisadi, həm də böyük siyasi əhəmiyyət kəsb edir. Bu da Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun artmasına və dövlət müstəqilliyinin möhkəmlənməsi işinə xidmət edir.

Aparılan islahatların sosial yönümü və əhalinin sosial müdafiəsi tədbirləri dövlətin iqtisadi siyasətində mühüm yer tutur. Əmək haqqının artırılması barədə dövlət tədbirlərinin həyata keçirilməsi nəticəsində işçilərin orta aylıq nominal əmək haqqı xeyli artmışdır. Əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması hər vaxt dövlətin diqqət mərkəzində olmuşdur. Ölkənin sosial-iqtisadi imkanları yaxşılaşdıqca və büdcənin mədaxili artdıqca, müvafiq olaraq bu istiqamətdə tədbirlər həyata keçiriləcəkdir.

Bu gün Azərbaycanın sosial-iqtisadi inkişafında yeni mərhələnin təməli qoyulmuş və yüksək iqtisadi artım üçün əsaslı zəmin yaradılmışdır. Bu,

iqtisadiyyatın daha yüksək templə inkişafının təmin edilməsi, ölkədə işsizliyin azaldılması, əhalinin rifahının yaxşılaşdırılması, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya edilməsi yolunda mühüm mərhələ olacaqdır.

Azərbaycan Respublikası demokratik inkişaf yolu ilə inamla irəliləyir. Ölkəmizdə bunun üçün zəruri olan təsisatlar və hüquqi baza artıq formalaşmışdır. Dövlət quruculuğu sahəsində aparılan islahatlar dövlət hakimiyyətinin hakimiyyətlərin bölünməsi prinsipi əsasında gerçəkləşməsini təmin etdi. Respublikada müxtəlif yönlü siyasi partiyaların, ictimai təşkilatların azad fəaliyyət göstərməsi, çoxsaylı mətbuat orqanlarının sərbəst çıxması, özəl televiziya və radio kanallarının öz verilişlərini efirə çıxarması və sairə kimi hallar Azərbaycanda siyasi plüralizm, fikir azadlığı, demokratiya ab-havasının hökm sürməsinin konkret əyani nəticəsidir. Vicdan və söz azadlıqları, şəxsiyyətin toxunulmazlığı, əsas insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi, tolerantlıq mühitinin bərqərar olması əsl vətəndaş cəmiyyətini formalaşdırmaq üçün atılmış mühüm addımlardır. Məhkəmə-hüquq sisteminin beynəlxalq standartlara, o cümlədən İnsan hüquqları üzrə Avropa Konvensiyasının tələblərinə uyğun yenidən qurulması məqsədi ilə aparılan islahatlar hüquqi dövlət quruculuğunun uğurla həyata keçirilməsi, ölkəmizdə insan hüquqlarının təmin edilməsi və qorunması üçün böyük əhəmiyyət kəsb edir.

Sosial-iqtisadi sahələrdə, dövlət quruculuğunda, insan hüquqları və azadlıqlarının təmin edilməsi yolunda qazanılmış uğurlarla yanaşı, Azərbaycan dövlətinin yeritdiyi məqsədyönlü siyasət sayəsində digər istiqamətlərdə də əldə edilmiş mühüm nailiyyətlər ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsinə xidmət edir. Azərbaycanın silahlı qüvvələri qüdrətli bir orduya çevrilib və ölkəni hərbi təcavüzlərdən qoruyacaq qədər güclənib, inkişaf edibdir. Müstəqil respublikamızın nüfuzlu beynəlxalq təşkilatlara, o cümlədən Avropa Şurasına tam hüquqlu üzv qəbul edilməsi onun beynəlxalq mövqeyinin möhkəmləndirilməsinə, dünya ölkələri içərisində öz layiqli yerini tuta bilməsinə əlverişli şərait yaratmışdır. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi işinə xidmət edən xarici siyasət dünyanın bütün dövlətləri ilə bərabər hüquqlu əsaslar üzərində faydalı əlaqələr qurmaq və inkişaf etdirmək istiqamətində ardıcıl şəkildə aparılır. Azərbaycan dövlətçiliyi möhkəmlənib, günü-gündən güclənməkdədir.

On il tarixi baxımdan böyük müddət deyildir. Azərbaycanda bu qısa müddət ərzində demokratik, hüquqi, dünyəvi dövlət qurulmuş, onun təsisatları yaradılmışdır. Azərbaycan iqtisadi islahatlar apararaq bazar iqtisadiyyatını inkişaf etdirir. Ölkəmiz artıq intensiv inkişaf dövrünü yaşayır.

Azərbaycanın dövlət müstəqilliyinin onillik yubileyinin ölkəmizin ictimai-siyasi həyatında böyük, əlamətdar hadisə olduğunu nəzərə alaraq və eləcə də Azərbaycan Respublikasının on il ərzində keçdiyi müstəqil inkişaf yolunda əldə etdiyi nailiyyətlərin təhlili və təbliğini gücləndirmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onillik yubileyi ölkəmizdə geniş qeyd olunsun.

2. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onillik yubileyi ilə bağlı tədbirlər planı təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsini təmin etsin və bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 mart 2001-ci il.
№ 448.

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN ONUNCU İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

Əziz həmvətənlər!

Hörmətli xanımlar və cənablar!

Sizi Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının onuncu ildönümü münasibəti ilə ürəkdən təbrik edirəm, xalqımıza, millətimizə, dövlətimizə daim istiqlaliyyət arzulayıram.

On il Azərbaycanın çoxəsrlik həyatında tarixi nöqteyi-nəzərdən az bir zamandır. **Amma bu on il içərisində Azərbaycan xalqı böyük məsafə qət edibdir. On il müstəqil yaşamaq, yaratmaq, irəliyə getmək - bu on ilin mənası və xalqımız üçün böyük əhəmiyyəti budur. On il ərzində Azərbaycan xalqı bəyan etdiyi demokratik, hüquqi, dünyəvi dövlət qurubdur, onun təsisatlarını yaradıbdır. Bu dövlətin yaşaması üçün, inkişaf etməsi üçün çoxsaylı qanunlar qəbul edibdir. Bazar iqtisadiyyatı yolu ilə gedərək, bütün sahələrdə islahatlar aparıb və bu islahatların nəticəsinə nail olubdur. On il müddətində Azərbaycan dünya miqyasında özünə layiq yerini tutubdur,** bütün beynəlxalq təşkilatlarda təmsil olunur. Dünyanın bütün ölkələri ilə diplomatik əlaqələr yaradıb, bir çox ölkələrlə qarşılıqlı faydalı, çox uğurlu əməkdaşlıq edir. **Bu on il bizim xalqımızın çoxəsrlik həyatında ən böyük tarixi hadisədir, ən qiymətli nemətdir.**

Azərbaycan bu on il müddətində çox ağır, çətin, keşməkeşli yol keçibdir. Azərbaycan xalqı bütün sınaqlardan keçərək, bütün təhlükələrin qarşısını alaraq müstəqilliyini qoruyub, saxlayıb və daim inkişaf etdiribdir. İndi bu on ili başa vurarkən qətiyyətlə deyə bilərik ki, Azərbaycan xalqı bu nailiyyətlərlə fəxr edə bilər. Azərbaycanın dövlətçiliyi bütün dünyaya nümayiş etdirilibdir. Azərbaycanın müstəqil dövlət olaraq dövlət rəmzləri var. Himni dünyanın hər yerində səslənir, milli gerbi Azərbaycanın dövlətçiliyini hər yerdə nümayiş etdirir, dövlət bayrağı Azərbaycanın üzərində uğurla dalğalanır və daim dalğalanacaqdır.

Biz bu günlər böyük qürur hissi keçiririk. Ona görə ki, biz müstəqilliyimizi bəyan edəndən sonra bu on il içərisində bütün dünyaya nümayiş etdirmişik və sübut etmişik ki, Azərbaycan xalqının müstəqil yaşamaq arzusu həmişə olmuşdur. Ancaq **on il müddətində Azərbaycan bu**

**istək və arzularını tam yerinə yetirib və sübut edibdir ki, müstəqil dövlət kimi yaşaya bilər və daim yaşayacaqdır.**

Qeyd etdiyim kimi, ötən on il Azərbaycanın həyatında çox ağır və çətin bir dövr olubdur. Amma bu illəri Azərbaycan xalqı şərəflə qət edibdir. **Azərbaycan xalqı bütün çətinliklərin qarşısını alaraq, bütün sınaqlardan keçərək, bütün təhlükələrdən xilas olaraq on il dövlət müstəqilliyini qoruyub, saxlayıb, yaşadıb, bu gün də yaşadır və gələcəkdə də yaşadacaqdır.**

Azərbaycan dövlət müstəqilliyini bəyan edən zaman, yəni 1991-ci ilin oktyabr ayının 18-də çox ağır, mürəkkəb bir dövr yaşayırdı. **O vaxt Azərbaycanda bəziləri Azərbaycanın müstəqil yaşamaq imkanına şübhə edirdi, yaxud inanmırdı. Bəziləri heç bunu istəmirdi. Bəziləri buna mane olurdu. Amma Azərbaycan xalqının çox əsrlər ərzində qəlbində yaşatdığı istək və arzu bütün bunların hamısına qalib gəldi, Azərbaycan dövlət müstəqilliyini əldə etdi və müstəqillik yolu ilə uğurla irəliləyir.**

O vaxt Azərbaycanın müstəqilliyinin əleyhinə çıxanlar var idi. Xatirimdədir, 1991-ci ilin əvvəli və nəhayət, onun sona çatması. Xalq, millət müstəqillik arzusu ilə yaşayırdı. Azərbaycanda isə Azərbaycana rəhbərlik edən şəxslər müstəqillik haqqında düşünmürdülər və müstəqilliyə inanmırdılar. Ona görə də xalqın bu istəyinin, arzusunun qarşısını almaq istəyirdilər. Təsadüfi deyil ki, 1991-ci ilin mart ayının 7-də Azərbaycanın Ali Sovetində SSRİ tərəfindən ortaya atılmış yeni bir tədbir - SSRİ-nin qorunub saxlanması haqqında referendumun keçirilməsi tədbiri müzakirə olunarkən, o vaxtkı respublika rəhbərliyi nəyin bahasına olursa-olsun, SSRİ-nin, Moskvanın bu arzusunu yerinə yetirmək istəyirdi.

Ona görə də deputatların az bir qismi referendumun keçirilməsinin əleyhinə çıxdığı halda, tam əksəriyyəti referendumun keçirilməsinin tərəfdarı oldu.

Mən o vaxtkı hadisələrin canlı şahidiyəm. Güman edirəm, bu salonda oturanlardan da o dövrü xatırlayanlar var. Kim referendumun əleyhinə çıxış edirdisə, ona mənfi münasibət göstərilirdi. Mən SSRİ-yə uzun müddət xidmət etmiş bir şəxs olaraq, amma eyni zamanda, xalqımın, millətimin müstəqilliyinə çatması üçün yaranmış şəraiti dərk edərək, referendumun keçirilməsinin əleyhinə çıxış etdim. İndi bəzi televiziya kadrları onları hərdən bir yada salır. Həmin o Ali Sovetin iclas salonunda referendumun keçirilməsinin əleyhinə çıxışım və gətirdiyim sübutlar və dəlillər böyük hay-küylə, etirazla qarşılandı. O vaxt bilirdilər ki, mən belə bir çıxış edəcəyəm. Başqalarının çıxışı onları bəlkə də o qədər narahat etmirdi. Ancaq mənim çıxışım onlarda böyük təhlükə yaratmışdı. Ona görə də əvvəldən hazırlanmış bir neçə deputat mənim çıxışımdan sonra dərhal məni tənqid etdilər və sübut etməyə çalışdılar ki, SSRİ saxlanmalıdır, biz SSRİ-siz yaşaya bilmərik, müstəqillik bizə lazım deyildir.

Martın 17-də referendum keçirildi və xalqın iradəsinə zidd olaraq, referendum nəticə verdi ki, Azərbaycan əhalisi, seçiciləri SSRİ-nin saxlanmasının tərəfdarıdır. Ancaq hadisələr çox sürətlə inkişaf edirdi. Ümumiyyətlə, 80-ci və 90-cı illərdə dünyada gedən proseslər, Avropada, xüsusən Şərqi Avropa ölkələrində gedən proseslər və SSRİ-nin özündə gedən proseslər artıq SSRİ-nin ciddi laxladığını göstərirdi. Artıq onun yaşamaq imkanının olmadığını göstərirdi. Təbiidir ki, bu fürsətdən istifadə etmək lazım idi. Ancaq təəssüflər olsun ki, o vaxt bəziləri bunu anlamırdılar və yaxud bunu istəmirdilər. Daha doğru desək, çoxları istəmirdi. Amma xalq isə, millət isə bunu istəyirdi.

Martın 17-dən sonra SSRİ-nin dağılması ilə əlaqədar Moskvada 19 avqust hadisələri baş verdi, SSRİ dağıldı və bundan istifadə edən bütün müttəfiq respublikalar öz istiqlaliyyətini bəyan etdi və Azərbaycan da oktyabr ayının 18-də müstəqillik haqqında Konstitusiya Aktı qəbul etdi. **Ancaq təəssüflər olsun ki, Azərbaycanı o vaxt idarə edənlər bundan sonra da müstəqilliyə inanmırdılar. Düşünürdülər ki, bəlkə bu, hələ müvəqqəti bir şeydir, SSRİ yenə də bərpa olunacaqdır.** Ancaq xalq yox. Xalq bunu istəyirdi, buna inanırdı. Amma xalq çox ağır və gərgin bir proseslər içində yaşayırdı. O da Ermənistanın Azərbaycana təcavüzü, Dağlıq Qarabağ probleminin meydana çıxması və Azərbaycanın daxilində ictimai-siyasi sabitliyin pozulması, Azərbaycan iqtisadiyyatının tənəzzülünün başlanması ilə əlaqədar idi.

Azərbaycanın istiqlaliyyətini bəyan etməsindən və sonra keçən on ili bir neçə mərhələyə bölmək olar. Birinci mərhələ oktyabrın 18-dən sonrakı dövr idi. 1992-ci ilin mart ayında Azərbaycanda hakimiyyət dəyişikliyi, hakimiyyət böhranı baş verdi. Bu hakimiyyət böhranı bir neçə ay davam etdi.

Azərbaycanın Prezidenti vəzifəsini bir nəfər bir neçə ay icra etdi, ondan sonra digər nəfər. Nəhayət, 1992-ci ilin iyununda Azərbaycanda yeni Prezident seçildi. Baxın, belə bir ağır vəziyyətdə, Ermənistanla müharibə getdiyi bir zamanda Azərbaycanın həyatında hərc-mərclik, xaos, özbaşınalıq hökm sürürdü və bunların da hamısının səbəbi hakimiyyətsizlik idi. Çünki istiqlaliyyət elan ediləndən sonra olan hakimiyyət özünü rahat hiss edə bilmirdi. Bu da mart ayında dövlət böhranı ilə və o hakimiyyətin səhnədən getməsi ilə qurtardı. Bundan sonra bir neçə ay Azərbaycanda çəkişmələr, toqquşmalar elə bir şərait yaratdı ki, Azərbaycanda bir neçə ay yeni bir hakimiyyət yaratmaq, yeni bir başçı seçmək imkanı olmadı. Hər biri də özünü müvəqqəti hesab edir, bəziləri də belə bəyan edirdilər ki, biz kimik, biz sadəcə, «peşkayıq». Ancaq «peşka» təkcə onlar deyildi, o vaxt orada «şah» yox idi, hamısı «peşka» idilər.

Demək olar ki, bu, on ilin birinci mərhələsidir. Bəlkə də ikinci mərhələsidir - dövlət böhranından sonra Prezident seçilənə qədər. 1992-ci ilin iyun ayında Prezident seçildi, Xalq Cəbhəsi hakimiyyətə gəldi, xalq onlara inandı, onlara etimad göstərdi. **Ancaq onlar anlamadılar ki, Azərbaycanı bu ağır şəraitdə idarə etməyə qadir deyillər. Onlar küçələrdə hay-küy**

**edə bilərdilər, meydanlarda nitqlər söyləyə bilərdilər. Həmin nitqlər də lazım idi, digər şeylər də lazım idi. Ancaq dövləti idarə etmək, xalqı birləşdirmək, xalqın hamısını bir yerə yığmaq - onlar buna qadir deyildilər.** Ona görə onların bir illik hakimiyyət dövrü, demək olar ki, Azərbaycanda sürətlə gedən dağıdıcı, pozucu bir prosesə çevrildi. Nəhayət, 1993-cü ildə Azərbaycanda həm iqtisadi, həm siyasi böhran, həm də dövlət böhranı baş verdi.

Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə malik olan, böyük təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətlərə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi, hakimiyyət mübarizəsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı. **Bəzən onların bir çoxu müxalifət düşərgəsində olaraq, o bir il haqqında hətta dastanlar yazmaq arzusundadırlar. Yazmaq olar, amma əgər bu dastanlar həqiqəti əks etdirsə.**

Sadəcə, bir şeyi demək lazımdır. Nə üçün 1992-ci ilin mart ayında dövlət böhranı baş verdi və hakimiyyət istefa verməyə məcbur oldu? Xalq ona etimad göstərmədi, ona görə də istefa verməyə məcbur oldu.

1992-ci ilin iyun ayında xalq digər bir qüvvələrə etimad göstərdi. Ola bilər, tam yox, ancaq böyük bir hissəsi etimad göstərdi. Demək, inandı. Amma 1993-cü ildə məlum hadisələr baş verdiyi zaman xalq həmin hakimiyyətin arxasında durmadı, onu dəstəkləmədi. Bir ilin müddətində inamını itirdi, etibarını itirdi və Azərbaycan böyük bir fəlakət qarşısında idi. Bu da on illiyin bir mərhələsidir.

Biz sizinlə 1993-cü ili bir yerdə yaşadıq. Gərək bu heç vaxt unudulmasın. **Gərək heç kəs də bunu unutmasın ki, 1993-cü ildə Azərbaycan parçalanmaq, bir ölkə kimi, müstəqil dövlət kimi məhv olmaq təhlükəsi qarşısında idi. Azərbaycanda vətəndaş müharibəsi baş vermişdi. Bundan istifadə edən bəzi qüvvələr, həmin o Xalq Cəbhəsinin içərisindən çıxmış qüvvələr Azərbaycanın cənubunda yeni bir «cümhuriyyət» yaratmağa çalışdılar.**

Şimalında yeni hərəkat başladı, separatçılıq meylləri artıq özünü göstərdi. Bir tərəfdən də Ermənistanın Azərbaycana qarşı 1988-ci ildən başlanmış təcavüzü, müharibə və Azərbaycanın daxili vəziyyətinin bu qədər ağır, bu qədər çətin olması, idarə oluna bilməməsi. Bundan istifadə edərək, Ermənistan silahlı qüvvələri çox hallarda heç bir müqavimətə rast gəlmədən Azərbaycanın torpaqlarını sürətlə işğal etməyə başladılar.

**1993-cü ildə Azərbaycan yanırdı. Ancaq xalq yenə də müdrikliyini göstərdi. Xalq bu böyük sınaqdan çıxdı. Azərbaycanı dağıtmaq, məhv etmək istəyən qüvvələrin qarşısı alındı. Azərbaycanda dövlət böhranı**

**aradan götürüldü. İctimai-siyasi sabitlik tədricən normallaşmağa başladı.** Ancaq yenə də Azərbaycan təhlükələrdən xilas ola bilmədi. Ona görə xilas ola bilmədi ki, - bunu mən açıq, qətiyyətlə deyirəm, - 1988-ci ildə Ermənistanın Azərbaycana təcavüzü başlayandan Azərbaycanda ictimai-siyasi sabitliyin pozulması, Azərbaycan iqtidarının o vaxtlarda ölkəni idarə edə bilməməsi daxildə ayrı-ayrı qüvvələrin hakimiyyət uğrunda mübarizəsinin əsasını qoymuşdur.

Əgər nəzərə alsaq ki, 1990-cı il yanvarın 20-də Azərbaycan xalqına böyük bir zərbə vuruldu, mənsub olduğu dövlətin hökuməti tərəfindən ona təcavüz edildi, onda təsəvvür edə bilərsiniz ki, Azərbaycan nə vəziyyətdə idi. Azərbaycan alovun içində yanırdı. **Ancaq görün, bizim xalqımız - Azərbaycan xalqı, bizim millətimiz nə qədər dözümlüdür. Eyni zamanda, nə qədər müdrikdir ki, bu dövrlərdə böyük itkilər verərək, böyük qurbanlar verərək, şəhidlər verərək, böyük məhrumiyyətlər içərisində yaşayaraq öz vətənini, öz millətini, öz dövlətini qorumaq əzmindən çəkinmədi.**

Nəhayət, Azərbaycanın müstəqillik yoluna düşməsi üçün yeni bir addım atıldı. Ancaq bizdə bu hakimiyyət hərisliyi, hakimiyyət xəstəliyi, təəssüflər olsun ki, o qədər dərin köklər salmışdı ki, 1993-cü ildə yaranmış müəyyən sabitliyi sonradan yenə də pozmaq istədilər.

1994-cü ilin oktyabr hadisələri... Bir il keçmişdi ki, biz artıq Azərbaycanda vəziyyəti müəyyən qədər normallaşdırırdıq. Ancaq yenə də Azərbaycandan əl çəkmirdilər - həm xarici qüvvələr, həm də ki, heç bir şeyə, necə deyərlər, qabil olmayan, heç bir qabiliyyəti olmayan, heç bir bacarığı olmayan insanlar. Bu insanlar hakimiyyət xəstəliyinə düşərək, 1994-cü ilin oktyabr ayında Azərbaycanda yenidən hakimiyyəti zorla, silah gücü ilə devirməyə cəhd göstərdilər. Çox ağır dövr idi. O dövrü də unutmaq lazım deyildir. O günləri unutmaq lazım deyildir. **Bəlkə xalqımız o günlər bizim Azərbaycanın rəhbərliyində olanların və şəxsən Azərbaycan Prezidenti kimi mənim keçirdiyim ağır dəqiqələri, saniyələri, saatları bilmir və bilə də bilməz.**

Ancaq mən görürdüm, hiss edirdim ki, Azərbaycan yenə də hansı bir fəlakətin qarşısındadır. Çünki silahlı dəstələrin əksəriyyəti həmin o oktyabr hadisələrini başlayanlar idilər.

1994-cü ilin sentyabrında Azərbaycanda terror hadisələrini törədənlər, Azərbaycan Prokurorluğunu zəbt edənlər, sonra isə Azərbaycanın bir qismində hakimiyyəti ələ keçirənlər artıq elə hesab edirdilər ki, indi hakimiyyət daha tamamilə onların əlindədir. Ancaq yenə də xalqın, millətin müdrikliyi bunun qarşısını aldı.

**Xatirinizdədir ki, mənim axşam televiziya ilə müraciətimdən sonra Prezident sarayının qarşısına yüz minlərlə insan toplaşdı. Onların hamısı dövlətçiliyi müdafiə etmək üçün toplaşmışdı. Onlar həmin o silahlı qüvvələrin qarşısını aldılar. Təbiidir ki, dövlətin Prezidenti ilə xalqın**

**birliyi bunun qarşısını aldı. O, bizim üçün böyük dayaq oldu, böyük inam verdi ki, biz bu ağır vəziyyətdən çıxa bilərik, ölkəmizi qoruya bilərik, ölkəmizi saxlaya bilərik. Qoruduq da, saxladıq da, həmin o qüvvələri məğlub etdik də.**

1994-cü ilin oktyabr hadisələri haqqında danışarkən bir faktı qeyd etmək istəyirəm. Dediyim kimi, 1992-ci ilin əvvəlində Azərbaycanda hakimiyyət böhranı başlandı. Xalq o vaxtkı hakimiyyətin əleyhinə çıxdı. Hər halda xalqın əksər hissəsi. Bunun nəticəsində o vaxt xalqın içərisində olan Xalq Cəbhəsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəldi. Ancaq 1993-cü ildə Azərbaycanda dövlət böhranı başlayan zaman, - böyük silahlı dəstələr Gəncədən məlum Surət Hüseynovun başçılığı ilə artıq Azərbaycanın rayonlarının çoxunu əllərinə keçirmişdilər, özü də çox asanlıqla, müqavimətsiz və Bakıya doğru irəliləyirdilər, - Surət Hüseynovun 3-4 nəfər nümayəndəsi gəlib hansısa bir rayonda görünən kimi, Xalq Cəbhəsi tərəfindən təyin olunmuş hakimiyyət qorxub qaçırdı. Beləliklə, onlar Azərbaycanın böyük bir qismini asanlıqla əllərinə keçirmişdilər. Hətta gəlib burada, Sumqayıtda da icra hakimiyyətinin başçısını qovmuşdular və onun yerinə istədikləri adamı qoymuşdular. **Təbiidir ki, hakimiyyət əgər xalqın inamını itirməmiş olsaydı, xalq bunlara yol verməzdi. Xalq hər bir rayonda, hər bir şəhərdə onların qarşısını alardı. Nəhayət, həmin o Surət Hüseynovun qoşunlarının Bakıya girmək təhlükəsi zamanı xalq ayağa qalxardı, əvvəlki zamanlar kimi meydanlara çıxardı, küçələrə çıxardı və dövlətçiliyini, dövləti, dövlət başçılarını müdafiə edərdi.**

**Amma bu olmadı. Nə üçün? Çünki dövləti idarə etmək üçün gərək dəyərli insanlar olsun. Xalqın inandığı insanlar olsun. Xalqın daim etibar etdiyi insanlar olsun. Bu hakimiyyət, təbiidir ki, belə xüsusiyyətlərə malik deyildi.**

Ancaq biz hələ də xətalardan xilas olmamışdıq. 1995-ci ilin mart ayında, - bu, həmin Surət Hüseynovun başladığı hərəkatın davamı idi, - bir çox xarici ölkələrin ayrı-ayrı paytaxtları nümayəndələrinin dəstəyi ilə, Azərbaycanda həmin Xalq Cəbhəsi hakimiyyətinin nümayəndələrinin dəstəyi ilə XTPD hakimiyyət uğrunda mübarizəyə başladı. Bəli, o vaxt onlar da, demək olar ki, Qazax rayonunu, onun ətrafında olan rayonları əllərinə keçirə bilmişdilər. Hesab edirdilər, bəyanatlar verirdilər, hətta bunu başqa ölkələrin televiziyaları da verirdi ki, artıq real hakimiyyət onlardadır. Ancaq yenə də Azərbaycanın dövlətçiliyi, dövlətin qüdrəti, yenə də xalqın Azərbaycan dövlətinə inamı bizi bu böyük xətadan qurtardı.

Ondan sonrakı hadisələr də məlumdur, bir neçə terrora cəhdlər göstərilmişdi. Prezidentin təyyarəsini raketlə vurmaq, yaxud da ki, körpünü partladıb ətrafdakı bütün evləri dağıtmaq, başqa terror hadisələri... **Bunların heç biri bizi nə qorxutdu, nə çəkindirdi, nə də bizi harasa qaçmağa vadar etdi. Qaçmaq da elə onun təzahürüdür ki, bu insan idarə edə bilmir. Bir xırda çətinlik görəndə öz canı haqqında düşünür, milləti haqqında yox,**

**xalqı haqqında yox.** Ona görə də təsadüfi deyildir ki, Azərbaycanın bir Prezidenti Rusiyanın təyyarəsində Moskvaya qaçdı, o biri Prezidenti dağlarda yerləşən Kələki kəndinə qaçdı. Ancaq öz canlarını qurtarmaq üçün. **Amma dövlətçilik haqqında düşünən adam - həm adi vətəndaş, həm dövlət işində işləyən, xüsusən dövlətə başçılıq edən insanlar heç vaxt öz canı haqqında düşünməməlidir. Öz canı haqqında düşünən və xırda bir çətinlikdə ancaq qaçmaqla canını qurtarmaq istəyən insanlar - bunlar heç vaxt xalqın hörmətini, xalqın etimadını qazana bilməzlər.**

Azərbaycanda müstəqillik haqqında Konstitusiya Aktı qəbul olunandan sonra, 1995-ci ilə qədər ölkə bu gərgin proseslərin içərisində, ağır vəziyyətdə yaşayırdı, böyük təhlükə altında yaşayırdı. Bu da, təbiidir ki, müstəqil dövlət kimi onun iqtisadiyyatını, elə əvvəlki illərdən də pozulmuş iqtisadiyyatını pozurdu, dağıdırdı.

Bir çox bədxah adamlar da bu fürsətdən istifadə edib ancaq öz mənafelərini güdərək, Azərbaycanın böyük iqtisadi potensialını dağıdırdı və ölkə gəlib belə bir ağır dövrə düşdü. Ancaq belə bir ağır dövrdə biz Azərbaycanın müstəqilliyini elan etdiyi zaman verdiyi bəyanatı əsas götürdük. Çünki bu bəyanat bizim ürəyimizdən gələn bəyanat idi. Ona görə də bütün çətinliklər içərisində dövlət quruculuğu prosesini apardıq. Azərbaycanda hüquqi, demokratik dövlətin qurulmasına nail olduq.

**1995-ci ildə müstəqil Azərbaycanın ilk milli Konstitusiyası qəbul olundu. Həmin o il Azərbaycanın ilk Milli Məclisi seçildi.** Baxmayaraq ki, 1995-ci ildə biz hələ ağır iqtisadi vəziyyətdə yaşayırdıq, ictimai-siyasi vəziyyət ardıcıl surətdə sabitləşdirildi. Bunların hamısı bizə Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək, Azərbaycana xarici investisiyanın cəlb edilməsini təmin etmək, Azərbaycanın ordusunu yaratmaq, onu möhkəmləndirmək və insanların rifah halını yaxşılaşdırmaq üçün imkanlar yaratdı.

Mən qeyd etdim ki, biz Konstitusiyanı qəbul etdik və bu müddətdə çoxsaylı qanunlar qəbul etdik. **Milli Məclis 500-dən artıq qanun qəbul edibdir. Hər bir qanunun arxasında Azərbaycanda dövlət quruculuğunu təmin etmək, iqtisadi islahatları həyata keçirmək, siyasi islahatları həyata keçirmək, sosial islahatları həyata keçirmək məsələləri durur. Azərbaycanı keçmiş sosialist ictimai-siyasi, iqtisadi sistemindən yeni sistemə keçirmək prosesini biz bu illərdə apardıq və buna da nail olmuşuq.** Məhz bunların nəticəsində indi Azərbaycanda demokratik, hüquqi dövlət öz fəaliyyətini uğurla həyata keçirir. **Azərbaycan xalqı bunların nəticəsində öz müstəqil ölkəsində tam azadlığa çıxıbdır. Azad, sərbəst yaşayır. Demokratiyanın verdiyi bütün imkanlar Azərbaycanın hər bir vətəndaşı üçün təmin olunubdur. Söz azadlığı, vicdan azadlığı, fikir azadlığı, fikir müxtəlifliyi - bunların hamısı Azərbaycanın bugünkü gerçəkliyidir.**

Beləliklə, 1995-ci ildən biz bu hadisələrin qarşısını alandan sonra Azərbaycanın iqtisadiyyatının inkişaf etməsi üçün artıq müəyyən əsas və imkan yaratdıq. Bu sahədə bizim ən böyük nailiyyətimiz 1994-cü ilin sentyabr ayında Azərbaycanın zəngin neft və qaz yataqlarının işlənməsi və xalqın ondan istifadə etməsi, iqtisadiyyatın inkişaf etməsi və xalqın rifah halının yaxşılaşdırılması üçün həyata keçirilən tədbirlər olubdur. O da Qərbin böyük və müasir texnologiya və texnikaya malik olan neft şirkətləri ilə Azərbaycanın imzaladığı ilk müqavilə - «Əsrin müqaviləsi»dir.

**Bəli, 1994-cü ilin sentyabrında bu müqavilə Azərbaycanın düşmənlərinin köksünə bir süngü kimi sancıldı. Ona görə buna dözə bilmədilər. Azərbaycanda baş verən və dövlətçiliyin əleyhinə olan hadisələrin bir çoxu məhz bundan sonra başladı. Çünki daxildə olan adamlar da və xaricdə olanlar da bilirdilər ki, əgər Azərbaycan artıq bu cür addım atıbsa, deməli, Azərbaycan bundan sonra daha da uğurlu addımlar atacaqdır. Azərbaycan iqtisadi cəhətdən inkişaf edəcək, Azərbaycan qüdrətlənəcək, Azərbaycan möhkəmlənəcəkdir.**

Ancaq bir bu deyildir. **Biz keçmiş SSRİ məkanında, demək olar ki, bütün başqa müttəfiq respublikalarla müqayisədə torpaq islahatını ilk həyata keçirən respublikalardan biriyik. O vaxt çoxları şübhə edirdi ki, torpaq islahatı keçirsək, hər şey dağılacaqdır. Ancaq ötən illər göstərir ki, biz nə qədər düzgün yoldaydıq, biz nə qədər uzaqgörən idik.** Çünki bunun nəticələri göz qabağındadır.

Özəlləşdirmə proqramı, onun hazırlanması və həyata keçirilməsi... Bunu da biz çox ağılla, düşüncə ilə apardıq. Başqa ölkələrdə tələm-tələsik, ayrı-ayrı şəxslərin mənafeyinə uyğun olaraq keçirilən özəlləşdirmə hallarını öyrəndik, onlardan nəticə çıxardıq. Bunların əsasında özəlləşdirmə proqramı, demək olar ki, bütün başqa təcrübələrdən istifadə olunaraq tərtib edildi, həyata keçirildi. İndi özəlləşdirmə sürətlə irəli gedir və Azərbaycanın iqtisadiyyatında çox böyük rol oynayır.

Dövlət quruculuğu sahəsində, idarəetmədə struktur dəyişiklikləri... Biz bunları bir gündə yox, bir ayda yox, bəlkə də bir ildə yox, tədricən həyata keçiririk. Çünki bunun üçün də həm təcrübə lazımdır, həm də gərək səhv buraxılmasın. Biz bunları keçirdikcə Azərbaycanda idarəetmə orqanlarının işi təkmilləşir. Hesab edirəm ki, biz bunu başa çatdırandan sonra bu sahədə də ölkəmizin iqtisadiyyatı üçün daha da böyük imkanlar açılacaqdır.

Hüquqi islahatlar keçirdik. Bizim bütün hüquq mühafizə orqanları, məhkəmə orqanlarının hamısı yenidən, dünya təcrübəsi əsasında təşkil olundu. Biz bunların da müsbət nəticəsini görürük - birinci növbədə xalq üçün, vətəndaşlarımız üçün, eyni zamanda, həmin orqanların daha da səmərəli fəaliyyət göstərməsi üçün.

Onlar da öz nəticəsini verir. Səhiyyə sahəsində islahatlar keçirilir. Onlar da öz nəticəsini verir. Beləliklə, artıq 1995-ci ildən başlayaraq indiyə qədər

ötən 5-6 il ərzində biz çox böyük işlər görmüşük və yaxşı nəticələr əldə etmişik.

Bunları danışarkən biz heç vaxt unutmamalıyıq ki, Azərbaycan dövlət müstəqilliyini heç də quru yerdə almayıbdır. Azərbaycanda müstəqillik arzusu ilə yaşayan xalq öz arzularını əsrlər boyu yerinə yetirə bilməyibdir. XX əsr bəşər tarixində böyük dəyişikliklər əsri olmuşdur. O cümlədən Azərbaycan üçün də. XIX əsrin sonunda və XX əsrin əvvəllərində Azərbaycanın vətənpərvər, mütəfəkkir insanları ölkəmizdə millətin içərisində olan müstəqillik arzularını gücləndirmək üçün milli oyanış, milli özünütanıma, öz millətini qiymətləndirmə fikirlərini ardıcıl olaraq oyatmağa başlamışdılar. Bizim böyük şəxsiyyətlərimiz XIX əsrin sonunda, XX əsrin əvvəllərində, əgər elə təkcə 1906-cı ildə böyük Cəlil Məmmədquluzadə tərəfindən nəşr olunan «Molla Nəsrəddin» jurnalını götürsək, o ağır dövrdə Azərbaycanda milli oyanış, milli dirçəliş, mədəniyyətə, dünyəvi həyata nə qədər təsir göstərmişdir, böyük arzu və istəklərin oyanmasının əsasını qoymuşdur.

Böyük Üzeyir Hacıbəyovun əsrin əvvəlində yazdığı əsərlər dünyaya sübut etmişdir ki, Azərbaycan tarixən Şərq adət-ənənələrini, milli dəyərlərini daşıyan bir xalq kimi, eyni zamanda, Şərqlə Qərbin qovuşduğu yerdə yerləşən bir ölkə kimi, ümumbəşəri dəyərlərin hamısından istifadə etmək arzusundadır və inkişaf yolu ilə, tərəqqi yolu ilə getmək arzusundadır.

Bunların hamısı XX əsrin əvvəllərində Azərbaycanda xalqımızı daha da çox oyatdı, müstəqillik arzularını daha da artırdı, gücləndirdi. Təbii ki, o vaxt burada fəaliyyət göstərən müxtəlif siyasi xadimlərin də böyük xidməti olmuşdur. Bunlar hamısı bir yerdə bir proses təşkil etmişdir. Çar Rusiyası imperiyası dağılan zaman, o inqilabdan sonra, ümumiyyətlə, Birinci Dünya müharibəsindən sonra dünyada yaranmış yeni bir şəraitdə Azərbaycanın böyük insanlarını bu fürsətdən istifadə edib Azərbaycanın müstəqilliyi uğrunda mübarizəyə qaldırdı.

Onlar Şərq aləmində ilk dəfə Azərbaycanda müstəqil Xalq Cümhuriyyəti yaratdılar. **Hesab edirəm ki, bu, bütün Şərq aləmində ən böyük qiymətə layiq olan tarixi hadisədir.** Bunu Azərbaycan xalqı yaratdı, Azərbaycanın görkəmli şəxsiyyətləri, insanları yaratdı. Ancaq nə qədər ağır, çətin şəraitdə yaratdılar, onların qarşısında nə qədər maneələr var idi.

Bilirsiniz ki, əvvəlcə Cənubi Qafqaz ölkələri Zaqafqaziya seymi yaratmaq istəyirdilər. Sonra razılığa gələ bilmədilər. Gürcüstan, Azərbaycan, Ermənistan eyni zamanda dövlət müstəqilliyini bəyan etdi. Ancaq Azərbaycanda vəziyyət daha gərgin idi. Çünki Azərbaycan, yəni onun paytaxtı Bakı artıq başqa düşmən qüvvələrin əlində idi. Ona görə də ilk Xalq Cümhuriyyəti bir neçə ay öz ölkəsinin paytaxtına gələ bilmədi. Nəhayət, gəldi və ilk gündən böyük fəaliyyətə başladı.

Xalq Cümhuriyyəti 23 ay yaşadı. Ancaq süqut etdi. Bu da tarixin o vaxtkı tələbləri idi. O vaxt, artıq Rusiya imperiyası dağılandan sonra kommunist bolşevik hakimiyyəti keçmiş imperiyanın ərazilərinin hamısını ələ keçirməyə

çalışdı. **Bunun üçün yenə də Azərbaycan, Bakı xüsusi yer tuturdu. Təsadüfi deyil ki, Qızıl Ordu Cənubi Qafqaza öz yürüşünü Azərbaycandan, Bakıdan başladı.**

Təbiidir ki, belə bir şəraitdə Xalq Cümhuriyyəti artıq yaşaya bilməzdi. Mən bu gün bir də deyirəm, onların günahı deyil ki, o, yaşaya bilmədi. Doğrudur, orada daxili çəkişmələr də var idi, vuruşmalar da var idi. Ancaq bunlar da yeni qurulmuş bir hakimiyyət, dövlət üçün təbii qəbul olunmalıdır. Ancaq onların süqutunun əsas səbəbi sovet Qızıl Ordusunun Azərbaycana gəlib, Cənubi Qafqazı işğal etməsi oldu.

**Biz bu gün Azərbaycanın dövlət müstəqilliyi aktı haqqında danışarkən, mütləq qeyd etməliyik ki, həmin müstəqillik aktı Azərbaycanın 1918-ci ildə yaranmış ilk müstəqil Xalq Cümhuriyyətinin bərpasıdır. Bəli, biz onların varisiyik. Onların işinin davamçısıyıq - ancaq yeni şəraitdə, yeni bir tarixi zamanda.**

**Bu gün biz müstəqilliyimizin onuncu ildönümünü qeyd edərkən böyük iftixar hissi ilə deyə bilərik ki, on illik bu müstəqillik Azərbaycan xalqının müstəqillik arzusu ilə yaşayan vətənpərvər insanlarına, 1918-ci ildə Məmmədəmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli və bir çox başqalarının yaratdığı Xalq Cümhuriyyətinə bizim tərəfimizdən, bugünkü nəsillər tərəfindən yüksəlmiş böyük bir abidədir. Əgər Xalq Cümhuriyyəti 1920-ci ildə, o vaxtkı tarixi şəraitdə yaşaya bilmədisə, indi Azərbaycan müstəqil dövlət olaraq, on il yaşayıb, bundan sonra da yaşayacaq və müstəqillik əbədi olacaq, daimi olacaqdır.**

Azərbaycan dövlət müstəqilliyini əldə edəndə artıq onun böyük sosial-iqtisadi potensialı var idi, intellektual potensialı var idi, böyük mədəniyyəti, böyük təhsili var idi. 1920-ci ildən 1922-ci ilə qədər Azərbaycan sosialist respublikası kimi müəyyən qədər müstəqil yaşayırdı. Baxmayaraq ki, kommunist, sosialist ideologiyası o dövlətin əsasını təşkil edirdi. 1922-ci ildə Azərbaycan SSRİ-yə daxil oldu və SSRİ o vaxt təşkil olundu. Amma biz o dövrü də unutmamalıyıq, o insanlara qiymət verməliyik.

Biz bu yaxınlarda Azərbaycanın dövlət dili haqqında böyük bir qərar qəbul etdik. Azərbaycanda latın əlifbasını bərpa etdik. Ancaq unutmamalıyıq ki, ilk dəfə Azərbaycanın çoxəsrlik dövründə və bütün Şərq aləmində latın əlifbası 1923-cü ildə qəbul olunmuş qərardan başlayaraq tətbiq edilmişdir. Onları unutmamalıyıq. Ondan sonra, əlbəttə, dövr Azərbaycan xalqı üçün, bir tərəfdən, çox məşəqqətli olubdur, məhrumiyyətlər olubdur, qurbanlar verilibdir, insanlar günahsız repressiyaya uğrayıblar.

**İkinci tərəfdən də, Azərbaycanda xalq inkişaf edibdir, savadsızlıq tamamilə ləğv olunubdur. Ali təhsil ocaqları, universitetlər yaranıbdır, elmi müəssisələr yaranıbdır, böyük sənaye potensialı yaranıbdır, böyük iqtisadi potensial yaranıbdır. Mədəniyyətimiz çox sürətlə inkişaf edibdir. Ədəbiyyat, incəsənət inkişaf edibdir.**

Biz iki gün bundan öncə Rəşid Behbudovun xatirə gecəsini keçirdik və bir daha gördük ki, o illər bizim mədəniyyətimiz nə qədər inkişaf edibdir. Azərbaycan xalqının nə qədər istedadlı xalq olduğunu bütün dünyaya nümayiş etdiribdir. Ancaq təəssüf ki, bunlar hamısı bizim müstəqilliyimiz vaxtı olmayıbdır. Biz ümumi bir dövlətin, SSRİ-nin, böyük imperiyanın tərkibində olmuşuq. Çox işlər görmüşük, amma çox şeylərdən də məhrum olmuşuq. **Bunlara baxmayaraq, xalq yaşayıb, nəsillər nəsilləri əvəz edib, Azərbaycanın neft sənayesi və bütün başqa sahələr inkişaf edibdir. İndi bunlar bizim müstəqil dövlətimiz üçün böyük iqtisadi, sosial, elmi potensial yaradıbdır. Buna görə biz bu dövrü də layiqincə qiymətləndirməliyik. Tarixdə heç bir səhifə təhrif olunmamalıdır. Müsbət müsbət, mənfi mənfi.** Təəssüf olsun ki, konyunkturaya uyan bəzi tarixçilər, yaxud yazıçılar, başqaları özlərini göstərmək üçün hər dövrün konyunkturası çərçivəsində qeyri-obyektivliyə yol verirlər, ədalətsizlik edirlər. Bunlar olmamalıdır.

Biz keçmişdə olanları bağışlayırıq. Amma indi Azərbaycan, müstəqil dövlət, azad xalq, dünya xalqları içərisində öz yerini tutmuş bir xalq artıq buna yol verməməlidir. Bizim tariximiz böyükdür, çoxəsrlidir. Bizim minilliklərdən gələn tariximiz var. Biz «Dədə Qorqud» dastanının 1300 illiyini qeyd etdik. Bizdə nə qədər böyük iftixar hissi yaratdı. Hansı padşahın, hansı hakimiyyətin dövründə olub - fərqi yoxdur, bu, Azərbaycan xalqının mədəniyyətinin, ədəbiyyatının böyük bir abidəsidir. Biz bununla bütün dünyaya sübut etdik ki, bəli, Azərbaycan xalqı belə qədim mədəniyyətə malikdir. **Amma vaxtilə «Dədə Qorqud»u qadağan etmişdilər. Bu, ədalətsizlikdir. Amma indi biz keçmiş tariximizdən hansı şeyi qadağan etsək, bu da ədalətsizlik olacaqdır.**

**Ona görə, yenə də deyirəm, bizim xalqımızın tarixi həmişə obyektiv, ədalətli əks olunmalıdır.**

**Bu on ildə bizim ən böyük nailiyyətlərimizdən biri Azərbaycanın dövlət dilinin, ana dilinin hakim olmasıdır.** Vaxt var idi Azərbaycanda Azərbaycan dilində danışanlar az idi. Hələ bəziləri indiyə qədər də öz ana dilini, Azərbaycan dilini yaxşı öyrənə bilməyiblər. Nə üçün? Çünki biz SSRİ-nin tərkibində idik. Ümumi bir dil var idi, dövlətin dili.

Yadımdadır, **1978-ci ildə biz Azərbaycanın Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında maddə daxil edəndə, Moskvadan bizim başımıza nə qədər oyunlar açıldı, nə qədər təzyiqlər göstərildi. Ancaq biz bu təzyiqlərə dözdük.** Hələ 1978-ci ildə qəbul olunmuş Konstitusiyada, bir çox başqa respublikalardan fərqli olaraq, Azərbaycan dili haqqında maddə yazdıq və Azərbaycanın dövlət dilinin Azərbaycan dili olduğunu orada göstərdik. Amma bu da bizdə Azərbaycan dilinin hakim olmasını təmin edə bilmədi. Çünki biz böyük bir dövlətin içində idik. Bütün işlər o dildə keçirilirdi.

**Amma indi biz Azərbaycan dilini, bizim ana dilimizi, millətimizin dilini hakim dil etmişik və bütün dünyaya nümayiş etdiririk ki, dünyada**

**Azərbaycan xalqı var, Azərbaycan milləti var, Azərbaycan mədəniyyəti var və bu xalqın doğma ana dili, dövlət dili - Azərbaycan dili vardır.**

Bu on ilin son dövrü, yəni 1995-ci ildən sonra olan dövrü Azərbaycanın bütün sahələrdə inkişaf dövrü olmuşdur. Biz bu inkişafı, adətən, rəqəmlərlə ifadə edirik. Əgər 1991-ci ildən indiyə qədərki on ili götürsək, 1991-ci ildən 1995-ci ilə qədər Azərbaycanın iqtisadiyyatının bütün sahələri tənəzzülə uğramışdı. Həm sənaye istehsalı, həm kənd təsərrüfatı istehsalı, həm ümumi daxili məhsul və başqa iqtisadi göstəricilər ildə 20-25 faiz aşağıya enirdi. Təbiidir ki, bu da iqtisadiyyatı dağıdırdı. Burada inkişafdan söz gedə bilməzdi. İnsanların həyatını çox ağır vəziyyətə qoymuşdu. O vaxt inflyasiya yüksək idi. Təsəvvür etmək olar ki, xalqımız o illər necə əzab-əziyyətli dövr yaşadı. Amma yaşadı. Yaşadıq, inanaraq ki, biz bu ağır dövrü keçəcəyik.

Sonra isə biz ictimai-siyasi həyatda olduğu kimi, iqtisadiyyatda da sabitliyi təmin etdik, yəni tənəzzülün qarşısını aldıq və keçirilən müxtəlif islahatlar nəticəsində iqtisadiyyatımızı ardıcıl surətdə inkişaf etdirə bildik. **İndi biz böyük inkişaf dövrü keçiririk. İqtisadiyyatda əsas göstəricilər makroiqtisadi göstəricilərdir.** 1991-ci ildən 1995-ci ilə qədər ümumi daxili məhsul 58 faiz, sənaye məhsulu 67 faiz, kənd təsərrüfatı məhsulu 48 faiz azalmışdı. Görün, nə qədər azalmışdı.

**Amma 1996-cı ildən 2001-ci ilə qədər ümumi daxili məhsul 57 faiz artmışdır. İqtisadiyyatı bilən adamlar, yəqin, razı olarlar ki, bu, çox yüksək göstəricidir. Sənaye məhsulu 20 faiz artmışdır. Kənd təsərrüfatı məhsulu 30 faiz artmışdır. Bunlar çox yaxşı göstəricilərdir.**

Əgər 1991-1995-ci illərdə kapital qoyuluşunun həcmi 43 faiz azalmışdırsa, 1996-2001-ci illərdə 4 dəfə artmışdır. Əgər 1991-1995-ci illərdə inflyasiyanın səviyyəsi ildə 14-18 dəfə artırdısa, görün bu, insanların həyatına nə qədər təsir edirdi. Çünki maaş az idi və əgər onu bir az artırsan da, inflyasiya onu tamamilə heç edirdi. Ona görə ki, istehlak mallarının qiyməti düşmək əvəzinə, inflyasiyaya görə artırdı.

1996-2001-ci illərdə isə, demək olar ki, inflyasiya yoxdur. Ümumən 15 faiz təşkil edir. Bu isə iqtisadi-maliyyə nöqteyi-nəzərindən tamamilə normal bir haldır. Yəni inflyasiyanın tamamilə olmaması da mümkün deyildir. Bütün ölkələrdə inflyasiya var. Amma iş ondadır ki, inflyasiya hansı həcmdədir.

Məsələn, son illəri xatırlayın. Dünyanın bir çox bölgələrində böyük inflyasiya baş verdi. Uzaq Şərqdə, Cənubi və Şərqi Asiyada, Rusiyada böyük inflyasiya - defolt meydana çıxdı. Bu bir çox ölkələrin iqtisadiyyatına mənfi təsir göstərdi və o ölkələrdə inflyasiyanın səviyyəsini artırdı. Amma biz bundan özümüzü qoruya bildik.

Mən bu gün sizə böyük iftixar hissi ilə deyirəm ki, dünyanın bütün müxtəlif bölgələrində baş vermiş güclü inflyasiya Azərbaycanın maliyyə-iqtisadi sahəsinə mənfi təsirini göstərə bilmədi. Biz inflyasiyanın qarşısını daim alırıq və manatın dəyəri dollara görə daim öz yerindədir.

İqtisadiyyatın inkişafı üçün əsas amillərdən biri investisiya qoyuluşudur. Əgər iqtisadiyyata ardıcıl surətdə investisiya qoyulmasa, olan iqtisadiyyat da ya yerində qalacaqdır, ya da get-gedə azalacaqdır. 1995-2001-ci illərdə iqtisadiyyata 34 trilyon manatdan çox, 9 milyard dollara yaxın investisiya yerləşdirilmişdir. Onlardan 25 trilyon manatı və ya 6 milyard dolları xarici investisiyanın payına düşür.

Mən dünən Ukraynanın xarici işlər naziri ilə söhbət edirdim. Doğrudur, bunu bəlkə burada demək lazım deyil. Ancaq o böyüklükdə ölkə cəmi 4 milyard dollar xarici investisiya alıbdır.

Neft sənayesinə 3,5 milyard dollar investisiya qoyulubdur. Digər sahələr və məqsədlər üçün isə 2,5 milyard dollar investisiya istifadə olunubdur. Bizim iqtisadiyyatımızın inkişafını təmin edən bunlardır.

İqtisadiyyatımızı inkişaf etdirmək üçün hər şeyə sərbəstlik verdik. Xarici ticarəti liberallaşdırdıq, sərbəstlik verdik. O vaxt da bunun əleyhinə çıxanlar, bunu təhlükəli hesab edənlər var idi. Ancaq biz buna inanırdıq. Biz bunun nəticəsində indi başqa ölkələrlə ticarətimizi, mal mübadiləsini çox yaxşı vəziyyətə gətirib çıxarmışıq. Biz 120-dən çox ölkə ilə xarici ticarət aparırıq. 1995-2000-ci illərdə xarici ticarət dövriyyəsi 1991-1995-ci illərə nisbətən 2,2 dəfə artıbdır. O cümlədən ixrac 2,8 dəfə artıbdır. 1 milyard 700 milyon ABŞ dolları həcmində ixrac olubdur. İdxal isə 1,7 dəfə artıbdır. Bu da 1 milyard 200 milyon dollar edir. Bu müsbət dəyişikliyi görürsünüz. İxracın miqdarı artıb, idxalın miqdarı azalıbdır.

**İdxalın strukturunda daxili istehsalın inkişafı nəticəsində ərzaq məhsullarının payı azalır. İnvestisiya yönümlü malların, maşın və avadanlığın sayı isə artır. Bu da yaxın gələcəkdə iqtisadiyyatın inkişafı üçün real baza yaradır.**

Özəlləşdirmə, bütün iqtisadi islahatların, bütün sahələrdə olan islahatların həyata keçirilməsi iqtisadiyyatımızda, dediyim kimi, yüksək nəticələrə gətirib çıxarıbdır. İqtisadiyyatda özəl bölmənin, özəl sektorun payı ümumi daxili məhsulda indi 70 faizdədkdir. Sənayedə 48 faizdir. Kənd təsərrüfatında 99 faiz, ticarətdə 98 faiz, tikintidə 64 faiz, yük daşımalarında 54 faiz, sərnişin daşımalarında 83 faiz, rabitədə 61 faizdir. Bu göstəricilər nə deyir? Onu deyir ki, biz düz yoldayıq, özəlləşdirməni aparmışıq. **Əgər özəlləşdirməni aparmasaydıq, torpaq islahatını aparmasaydıq, bu qədər yüksək göstəricilərə nail ola bilməzdik. Torpaq islahatı çox böyük nəticələr veribdir. Məsələn, bu il bizdə 2 milyon tondan artıq taxıl istehsal olunubdur. Bu, rekord rəqəmdir.**

Mən keçmiş illərdə təsərrüfat işinin bilavasitə iştirakçısı kimi, bu işləri təşkil edən şəxslərdən biri kimi onu deyə bilərəm ki, Azərbaycanda adətən 1 milyon 200 min tondan artıq taxıl istehsal olunmamışdır. Bu il isə 2 milyon ton taxıl istehsal olunubdur. Bu nə deməkdir? Torpaq verilib kəndlilərə, kəndlilər özləri əkirlər, özləri biçirlər, özləri beçərirlər. Yüksək keyfiyyətli to-

xum sortlarından istifadə edirlər. Bunların nəticəsində, demək olar ki, Azərbaycan artıq özü-özünü taxılla təmin etmək ərəfəsindədir.

Kartof istehsalı Azərbaycanda 3,8 dəfə artıbdır. Bu da rekord göstəricidir. Mən bir neçə dəfə bunu demişəm, bəlkə kiməsə kartof elə bir əhəmiyyət kəsb etmir, amma bizim ərzaq məhsulları içərisində, hesab edirəm ki, çox əhəmiyyətli rol oynayır. Yəqin ki, indi kababdan başqa digər yeməklərin hamısının içərisində kartof olur. Amma keçmişdə biz bu məhsulun qıt olmasından nə qədər əziyyət çəkirdik. Çünki özümüz istənilən qədər kartof istehsal edə bilmirdik. Bizə bunu Rusiyadan, Ukraynadan göndərirdilər. Onlar da ayrılmış normanı göndərmirdilər. Keyfiyyəti də aşağı olurdu. Biz bundan əziyyət çəkirdik. Hətta mən bunu bir dəfə demişəm, 1991-1992-ci illərdə burada bəzi, necə deyərlər, üzdəniraq biznesmenlər, fırıldaqçılar Azərbaycan neftini aparıb Polşada kartofa dəyişdirirdilər. Sonradan məlum oldu ki, o da heç kartof deyilmiş, başqa şey imiş.

Kartof, əsasən, bizim dağ rayonlarında istehsal olunur. Kartofçuluğun mərkəzi də Gədəbəy rayonudur. Mən o illərdə respublikanın başçısı olarkən, çox ciddi tələb edirdim ki, axı, Gədəbəydə niyə kartof lazımi qədər istehsal olunmur? Min bəhanə gətirirdilər. Amma indi o qədər istehsal edirlər, heç bilmirlər ki, hara qoysunlar. Mənim xatirimdədir, biz az-az hallarda 100 min tondan artıq kartof istehsal edə bilirdik. 2001-ci ildə isə, demək olar ki, 600 min ton kartof istehsal olunmuşdur. Demək, 1995-ci ilə nisbətən kartof istehsalı 2,2 dəfə artmışdır.

Tərəvəz... Bu da artmışdır. Bu il 916 min ton tərəvəz istehsal olunmuşdur. Bu, rekord göstəricidir. Bostan məhsulları, demək olar ki, 7 dəfə artmışdır. 288 min ton bostan məhsulları istehsal olunmuşdur ki, bu da rekord göstəricidir. Meyvə-giləmeyvə 50 faiz artmış, 502 min ton olmuşdur. Ət 40 faiz artmışdır. Süd 30 faiz artmışdır. Bizdə mal-qara çoxalıbdır. Mal-qaranı kəndlilərə paylayandan sonra onlar ondan çox səmərəli istifadə edirlər. Mal-qara çoxalıb. İndi hər bir vətəndaş özü görür ki, Azərbaycanda ət problemi yoxdur. Bəzən küçələrdə ət satırlar. Amma burada oturanların bir çoxunun, yəqin, xatirindədir ki, hətta 1980-ci illərdə - mən o vaxt burada işləyirdim - əti talonla verirdilər. Ayda hər adama, bilmirəm, 1 kiloqram, yoxsa 2 kiloqram ət verirdilər. Ondan artıq vermirdilər. Bax, budur kənd təsərrüfatında aparılan islahatların nəticəsi, budur bazar iqtisadiyyatının nəticəsi, budur bizim gördüyümüz işlərin nəticəsi. **Bütün bunların hamısı, təbiidir ki, bir əsas hədəfə - xalqın rifahını yaxşılaşdırmağa, sosial problemləri həll etməyə yönəldilibdir.**

Demək olmaz ki, bunun hamısını həll etmişik. Yox. Ancaq 1995-2000-ci ilə qədər Azərbaycanda işləyən adamların orta aylıq əmək haqqı 3,5 dəfə artıbdır. Orta aylıq pensiyaların məbləği 4 dəfə artıbdır. İndi bir işçinin orta aylıq nominal əmək haqqı 255 min manatdır. Bu da 55 ABŞ dolları təşkil edir.

Təbiidir, mən hesab etmirəm ki, bunlar bizim xalqımızın, işləyənlərin bütün tələbatlarını təmin edir. Yox. Mən özüm bunu qənaətbəxş hesab etmirəm.

Ancaq hər şey bir gündə, bir ildə olmur. Amma görün artım nə qədərdir - 3,5 dəfə, 4 dəfə. İndi, sağlıq olsun, bundan sonra daha da artıracağıq. Beləliklə, insanların rifahı daha da yaxşılaşacaqdır. 2000-ci ildə məcburi köçkünlərin yemək xərci 3 dəfə artmışdır.

Bir göstərici də var. Buna bəlkə heç kəs fikir vermir. Heç kəsi maraqlandırmır. Amma bu, çox mühüm bir göstəricidir. Keçmişdə də biz həmişə müqayisə edirdik ki, hansı ölkədə insanların orta ömrü neçə ildir?

Yaponiyada orta ömür ən yüksəkdir. İkinci bir sosial göstərici də vardır - hər min doğulana görə uşaq ölümü neçə faizdir. Yadımdadır, insanların ömrünün az olmasına görə yox, uşaq ölümünə görə Azərbaycanı tənqid edirdilər ki, SSRİ-nin başqa respublikalarının bir çoxundan fərqli olaraq, hər min doğulana görə uşaq ölümü o biri respublikalardan çoxdur. Düzdür, bizdə o vaxt Şirəli Müslümov vardı, 140 il yaşamışdı, Eyvazov vardı, 150 il yaşamışdı. Bunlar az idi. Amma Azərbaycanda orta ömür SSRİ-nin bəzi respublikalarına nisbətən aşağı idi, dünyanın inkişaf etmiş ölkələrindən də aşağı idi. Bunun da səbəbi məlumdur: həm sosial problemlər, həm ərzaq problemi və başqa problemlər. İndi mən sizə bunu demək istəyirəm ki, 1995-2000-ci illərdə əhalinin orta ömür müddəti 2,5 il artmışdır. Düzdür, qadınların ömrü bir qədər az - 2,2 il artmışdır, kişilərinki isə 2,9 il artmışdır. Uşaq ölümünün isə əmsalı 2 dəfəyə yaxın azalmışdır. Bunlar Azərbaycanın iqtisadiyyatında gedən dəyişikliklərin son nəticələridir.

**Bunları çox adam unudur. Amma biz - dövləti idarə edən adamlar bunları unutmuruq. Bunların hər birinə biz fikir veririk.**

Bütün bunların nəticəsində bizim hər il dövlət büdcəmizin həcmi artır. Məsələn, **1993-1994-cü illərdə Azərbaycanın dövlət büdcəsi, demək olar, 277 milyard manat təşkil edirdi. Amma indi, 2001-ci ildə 3,6 trilyon manata çatıbdır.**

**Gələn ilin büdcə gəliri isə 4,2 trilyon manat nəzərdə tutulmuşdur ki, bu da 900 milyon dollardan çoxdur. Görün, büdcəmiz nə qədər artıbdır. Büdcə ona görə artıbdır ki, gəlirlərimiz çoxalıbdır. Gəlirlərimiz artıbdır, ona görə ki, istehsal çoxalıbdır.** Özəlləşmə, xüsusi mülkiyyət, bizim apardığımız bütün başqa-başqa tədbirlər... **Bizim Vergilər Nazirliyi və Gömrük Komitəsi vergilərin hamısını toplaya bilsəydi, bəlkə gəlirlərimiz bundan da artıq ola bilərdi. Arzu edirəm ki, onlar bunu nəzərə alsınlar.**

Bunları deyərək, heç də sizi arxayın salmaq istəmirəm. Heç də göstərmək istəmirəm ki, biz qarşımızda duran vəzifələri yerinə yetirmişik. Ancaq hər şey dinamikada, müqayisədə qiymətləndirilə bilər. Bu on ildə bizim keçdiyimiz dövr, mən qeyd etdim: birinci dövr - 1991-ci ildən 1995-1996-cı ilə qədər, ikinci dövr isə 1996-cı ildən 2001-ci ilə qədər. Görün nə qədər fərq var.

Mən bir də deyirəm, əgər bütün bu işləri, yəni bazar iqtisadiyyatı, islahatlar, başqa tədbirlər, nizam-intizamın möhkəmlənməsi və s. - bunları həyata keçirməsəydik, biz bu nəticələri əldə edə bilməzdik. Bu göstəricilərə görə

Azərbaycan keçmiş MDB-yə daxil olan ölkələr, Sovetlər İttifaqına mənsub olan respublikalar içərisində ön sıralarda gedir.

Ancaq biz yaxşı dərk edirik ki, Azərbaycanda hələ işsizlik problemini də həll edə bilməmişik. Bu bizi incidir. Amma bunu anlamaq da lazımdır. Çünki vaxtilə yaranmış böyük sənaye müəssisələri indi müxtəlif səbəblərdən tam gücü ilə işləmir, yaxud heç işləmir. Səbəb də ondan ibarətdir ki, vaxtilə vahid sovet iqtisadiyyatı vardı, hər bir müəssisə nə isə istehsal edib başqasına verirdi. Zavod da, müəssisə də, insanlar da işləyirdi. Onun məhsulunun nəticəsindən asılı olmayaraq, o öz maaşını da alırdı. Amma indi yox. İndi bazar iqtisadiyyatıdır.

Vaxtilə bizim yaratdığımız, xüsusən mən işlədiyim dövrdə yaratdığımız böyük zavodlar, böyük fabriklər indi 15-20 faiz gücü ilə işləyir. Nə üçün onları biz o vaxt işlədə bilirdik, indi yox? Çünki indi, birincisi, istehsal olunan məhsul gərək dünya rəqabətinə davam gətirə bilsin, ikincisi, özünə bazar tapa bilsin. İndi təsəvvür edin, Azərbaycanda mağazalara baxırsan, dünyanın hər yerindən nə qədər müxtəlif mallar gətirib satırlar. Özü də, - mən o gün şəhərə çıxmışdım, gəzirdim, mağazalara baxırdım, - hansı mağazaya girirsən, elə bil ki, Parisin mağazasına girirsən, yaxud Nyu-Yorkun mağazasına girirsən. Hər şey var. Soruşuram, ticarət necə gedir, deyirlər ki, yaxşı gedir. Amma nəticə çıxarıram, nə üçün yaxşı gedir, çünki malı xaricdən gətirir. Bunun gətirilməsi üçün haqq verir, burada satır, mənfəət götürür, yenə də alıb gətirir. Əgər o, mənfəət götürməsə, ikinci dəfə o malı almaz. Amma bu mal satılmasa, yenidən həmin malı alıb gətirə bilməz. Demək, bunun son nəticəsi odur ki, Azərbaycanda insanların alıcılıq imkanları xeyli artıbdır. Əgər belə olmasaydı, mağazalarda bir belə, dünyanın müxtəlif ölkələrindən gətirilən mallar satılmazdı. Onlar muzey düzəltməyiblər ki, gətirib bu malları düzsünlər. Onlar ticarət edirlər. Özü də hərəsi bir sahibkardır. Hərəsi özü üçün pul qazanır.

İndi Bakıya gələnlər çoxdur. Hər dəfə mənə deyirlər ki, Bakıda nə qədər böyük tikintilər gedir. Dövlət heç bir şey tikmir. Bunları şəxsi firmalar tikir. Amma gözəl evlər tikirlər. Bunu da mən özüm üçün araşdırıram. Mən bilirəm ki, sovet dövründə bir ev tikmək üçün nə qədər vəsait, nə qədər material lazım idi, hansı çətinliklərlə sement, daş gətirilirdi, ayrı-ayrı mexanizmlər gətirirdilər və sair. Amma indi firma bunu edir. Nə üçün edir? Çünki evi tikir, mənzilləri satır, pul qazanır. Deməli, onun əsas məqsədi bu əməliyyatdan pul qazanmaqdır. Amma əgər Azərbaycanda həmin mənzilləri, həmin evləri almaq imkanı olmasaydı, o evi necə tikə bilərdi? Firma bir evi tikir, pul qazanır, o birini tikir. Oradan da pul qazanır, digərini tikir. Deməli, görürsünüzmü, nə qədər böyük bir proses gedir. Bu proses də, təbiidir ki, müsbət prosesdir. **Bunların hamısı Azərbaycanda yaranmış şəraitin, bazar iqtisadiyyatının, sərbəst iqtisadiyyatın, sahibkarlığın nəticəsidir. Mən bu gün bəyan edirəm ki, bunların nəticəsini bilərək, biz bundan sonra da bazar iqtisadiyyatına geniş imkanlar verəcəyik. Mən bir də deyirəm ki, bütün hüquq mühafizə**

**orqanları, başqa orqanlar sahibkarların işinə qarışmasınlar. Hərə öz işini görsün, vergisini versin. Qalan işlərə qarışmaq lazım deyildir.**

Mən bu gün bu on il və ondan əvvəlki dövr haqqında bir qədər geniş məlumat verərkən, təbiidir, istəyirəm ki, xalqımız yaxşını da bilsin, pisi də bilsin. Mən dedim ki, bizim bir çox çətinliklərimiz, problemlərimiz var. İşsizlikdir, yoxsulluqdur. Bu proqramlar üzərində biz işləyirik.

Ən ağır problemimiz Azərbaycanın ərazi bütövlüyünün pozulması və torpaqlarımızın 20 faizinin işğal olunması, bir milyona qədər Azərbaycan vətəndaşının qaçqın-köçkün şəraitində yaşamasıdır. Biz 1994-cü ilin may ayında müharibəni dayandırdıq. Çox il keçibdir, 7 il keçibdir. **Bəziləri düşünə bilər ki, müharibəni niyə dayandırdıq? Onda gəlin baxaq, ondan əvvəlki müharibə Azərbaycana nə verdi: qanlar töküldü, şəhidlər verdik, daxili ictimai vəziyyət pozuldu, iqtisadiyyatımız tənəzzülə uğradı, heç bir nəticə də əldə olunmadı. Nə üçün belə oldu? Çünki hələ 1988-ci ildə Ermənistanın millətçi dairələri Dağlıq Qarabağda olan separatçı əhval-ruhiyyə ilə yaşayan bəzi insanları qızışdırıb, bu məsələni ortaya atandan sonra Azərbaycanın o vaxtkı rəhbərləri bunların qarşısını ala bilmədi. Təsəvvür edin, dörd il Ermənistan-Azərbaycan münaqişəsi Azərbaycanın da, Ermənistanın da SSRİ-nin tərkibində olduğu dövrdə olubdur. Dörd il...**

Böyük bir dövlət, onun tərkibində olan bərabər hüquqa malik 15 respublika idi. Bəs nə üçün bu xalq birləşə bilmədi, nə üçün Azərbaycanın rəhbərləri vaxtında, bir dövlətin tərkibində olarkən bunun qarşısını ala bilmədi? Nə üçün? Yenə də dediyim sözlərə gəlirəm. Xalq o vaxt ayağa qalxdı. **Xalq Azərbaycana qarşı olan ədalətsizliyə etirazlar etdi, meydanlara çıxdı. Ancaq xalqla Azərbaycanı idarə edənlərin arasında birlik olmadı. Bu xalqın gücündən istifadə edib o münaqişənin qarşısını almaq əvəzinə, onların bəziləri burada daxili intriqalarla, öz şəxsi işləri ilə məşğul idilər.**

Dağlıq Qarabağ, faktiki olaraq, 1989-cu ilin yanvar ayında Azərbaycandan ayrılıb. Xatırlayın, o vaxt SSRİ Ali Soveti qərar çıxardı ki, Dağlıq Qarabağın idarə edilməsi üçün xüsusi idarəetmə komitəsi yaradılsın və bu, birbaşa SSRİ hökumətinə tabe olsun. Buna yol vermək olardımı? İndi biz deyirik ki, bəli, Dağlıq Qarabağ Azərbaycanın ən qədim torpağıdır. Bu belədir, bizim doğma torpağımızdır, orada bir qisim ermənilər yaşayıb, bir qisim azərbaycanlılar yaşayıblar. Heç bir ölkədə əhalinin tərkibi təkcə bir millətdən ibarət deyildir. Ancaq buna necə razılıq vermək olardı ki, hələ 1989-cu ildə Dağlıq Qarabağı Azərbaycanın içərisindən çıxarıb Moskvaya tabe etsinlər.

**Bununla Dağlıq Qarabağın Azərbaycandan ayrılmasının əsası qoyuldu. Ondan sonra aparılan danışıqlar, vuruşlar, nə bilim, sonra müharibə, filan - bunların hamısı nəticə vermədi. Çünki o vaxt fürsət əldən verilmişdi. Dağlıq Qarabağın müqəddəratı o vaxt müəyyən qədər həll olunmuşdu.**

Amma bunlara baxmayaraq, biz indi müstəqil dövlət olaraq bu münaqişəni sülh yolu ilə həll etməyə çalışırıq. Bilirsiniz ki, Minsk qrupu fəaliyyət gös-

tərir. Onun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları, Fransadır. İndi çox danışıqlar gedir, istənilən nəticəni vermir. Təbiidir ki, gərək, birincisi, həm Ermənistan, həm də Azərbaycan beynəlxalq hüquq normalarına riayət etsinlər. Ermənistan buna riayət etmir. İkincisi də, yaranmış belə şəraitdə müəyyən, bərabər çəkidə kompromislər olmalıdır. Ermənistan bunu da etmir. Ona görə də vəziyyət hələ ki olduğu kimi qalıbdır.

**Ancaq mən ümidvaram və qəti ümidvaram ki, bu danışıqlar, Minsk qrupunun fəaliyyəti nəticəsində biz torpaqlarımızın işğaldan azad olunmasına, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinə və yerindən-yurdundan didərgin düşmüş insanların öz torpaqlarına qayıtmasına, onların orada yenidən həyat qurmasına nail olacağıq. Biz buna sülh yolu ilə nail olmaq istəyirik. Ona görə də dözümlülük göstəririk. Çox dözümlülük göstəririk. Ancaq hamı onu da bilməlidir ki, Azərbaycan heç vaxt öz torpaqlarını kiməsə verə bilməz. Biz torpaqlarımızı mütləq azad edəcəyik. Əgər sülh yolu ilə həll edilməsə, bizim bütün imkanlarımız, güclü ordumuz vasitəsi ilə bu məsələni həll edəcəyik.**

İndi dünya birliyi çox təhlükəli hadisələrlə rastlaşıbdır. **Sentyabrın 11-də Amerika Birləşmiş Ştatlarına qarşı edilən terror aktı, demək olar ki, bütün bəşəriyyətə, bütün insanlığa, azadlığa, demokratiyaya qarşı edilən bir aktdır. Biz ilk dəqiqədə bəyan etdik ki, bu aktı pisləyirik, terroru pisləyirik və terrorun kökünün kəsilməsi üçün bütün tədbirlərin həyata keçirilməsində öz fəaliyyətimizi göstərməyə hazırıq. Amerika Birləşmiş Ştatlarına bildirmişik və onlar bilirlər ki, biz bu barədə onlarla birik və bir alyansdayıq.**

Bu hadisə, əlbəttə ki, bütün dünyanı çalxalayıbdır. Ancaq belə hadisələr bizim üçün yeni deyildir. **Bizim ölkəmiz 1988-ci ildən terrora məruz qalmış bir ölkədir. Xalqımız o illərdən terrora məruz qalmışdır. Terror əvvəllər ayrı-ayrı insanlara qarşı, sonra bütün xalqa qarşı edilibdir. Çoxsaylı terrorlar haqqında Avropa Şurasında bizim nümayəndə heyəti çox geniş məlumat verdi və orada çox böyük təəssürat yaratdı.** Ona görə də biz terrorun nə qədər təhlükəli olduğunu çoxlarından yaxşı bilirik. Terror gərək yer üzündən götürülsün. Kimə qarşı olursa-olsun. **Biz terrorun kökünün kəsilməsi üçün öz payımızı verəcəyik. Ancaq eyni zamanda, bütün dünya birliyi də bilməlidir ki, Azərbaycana edilən terrorun da qarşısı alınmalıdır.**

Əziz dostlar, **bu günlərdə keçirdiyimiz bayram, hesab edirəm ki, Azərbaycan xalqının həyatında indiyə qədər olan ümumxalq, ümummilli bayramların hamısından qiymətli, hamısından yüksək, hamısından əzizdir.** Çünki biz müstəqilliyimizin 10-cu ildönümünü bayram edirik. Bu, bizdə nə qədər böyük iftixar hissi doğurur. Xalqımız qürur içərisində yaşayır.

**İnsan cürbəcür şəraitlərdə yaşaya bilər. Amma insan üçün, xalq üçün hər şeydən qiymətli, hər şeydən əziz müstəqillikdir, azadlıqdır. Biz çox əsrlər bu azadlığın, bu müstəqilliyin arzusunda olmuşuq. İndi buna nail**

**olmuşuq. Ötən on ildə bu müstəqilliyimizi möhkəmləndirmişik, inkişaf etdirmişik, dönməz etmişik və gələcək nəsillərə bu müstəqilliyi töhfə edirik və inanıram ki, xalqımız bu müstəqilliyi heç vaxt bir daha əlindən verməyəcəkdir.**

**Müstəqil Azərbaycan on ildir yaşayır və bundan sonra on illər də yaşayacaq, əbədiyyətə qədər yaşayacaqdır.**

*Murtuz ƏLƏSGƏROV,*
***Azərbaycan Respublikası***
***Milli Məclisinin sədri***

# MÜSTƏQİL DÖVLƏTİMİZ VƏ PARLAMENTİMİZ: 83 İL ÖNCƏ VƏ BU GÜN

1991-ci il oktyabrın 18-də «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» Konstitusiya Aktının qəbul edilməsi ölkəmizin tarixində yeni bir dövrün – müstəqil inkişaf dövrünün başlanğıcı oldu. 83 il əvvəl Şərq aləmində ilk demokratik respublikanı yaratmış Azərbaycan xalqı XX əsrin sonuna yaxın öz dövlət müstəqilliyini bərpa edə bildi. «Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında» Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyevin 1998-ci il 30 yanvar tarixli sərəncamında deyilir: **«Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti istiqlaliyyətimizi elan edərək xalqımızın müstəqillik əzmini nümayiş etdirmişdir.**

**Azərbaycan Xalq Cümhuriyyəti ölkənin daxilində və xaricində yaranmış gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmişdir. Bu dövlətin qısa bir müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində böyük iz buraxmışdır. Milliyyətindən, siyasi və dini mənsubiyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, dövlət sərhədlərinin müəyyən olunması, Azərbaycan dövlətçiliyi atributlarının qəbul edilməsi, ana dilinin dövlət dili elan olunması Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm zəmin yaratmışdır. Demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahələrində atılmış addımlar Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyətini əks etdirən əsas istiqamətlərdir.**

**… 1991-ci ildə dövlət müstəqilliyini bərpa edən xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin qısa müddətli fəaliyyətinin zəngin ənənələrindən istifadə etmiş və bu tarixi varislik üzərində müstəqil Azərbaycan dövlətini yaratmışdır.»**

1918-20-ci illər Azərbaycan xalqının siyasi şüurunun təşəkkül tapdığı, milli özünüdərk proseslərinin misilsiz vüsət aldığı bir dövrdür. Azərbaycan Xalq Cümhuriyyəti məhrumiyyətlərlə dolu olan çox mürəkkəb tarixi şəraitdə meydana gəlmişdi. Birinci dünya müharibəsi nəticəsində zəifləmiş çar Rusiyasını siyasi intriqalar, bir-birinin ardınca baş verən inqilablar didib-parçalayırdı. Rusiya artıq öz hegemon rolunu itirmişdi, əsrlər boyu xalqları

əsarətdə saxlamış imperiya süquta doğru gedirdi. 1917-ci ilin fevral inqilabı «ikibaşlı əjdaha»nı birdəfəlik devirdi. Zaqafqaziyadan Dövlət Dumasına seçilmiş deputatlardan ibarət Zaqafqaziyanın idarəsi üzrə xüsusi komitə, sonra isə Zaqafqaziya Komissarlığı adı ilə tanınan hökumət təşkil edildi. İlk dəfə təsis edilən bu vahid hökumət 1918-ci il fevralın 14-də Tiflisdə Zaqafqaziya Seymini çağırdı. Zaqafqaziyanın üç əsas xalqının, habelə digər millətlərin nümayəndələrindən ibarət olan Seym 1918-ci il aprelin 9-da Zaqafqaziyanın istiqlalını elan etdi.

Müstəqil siyasi fəaliyyət dövrünə qədəm qoyan Zaqafqaziya Seymi həmin il aprelin 22-də Azərbaycan, Gürcüstan və Ermənistandan ibarət Zaqafqaziya Federativ Respublikasını təsis etdi, lakin müəyyən amillərin təsiri nəticəsində bu dövlət qurumu az sonra dağıldı. 1918-ci il mayın 26-da Gürcüstan Federasiyadan çıxaraq öz istiqlaliyyətini elan etdi. Bu hadisədən bir gün sonra, may ayının 27-də Azərbaycan Milli Şurasının ilk iclası çağırıldı. Milli Şuranın rəyasət heyətinə Mehdi bəy Hacınski, Nəsib bəy Yusifbəyli, Xəlil bəy Xasməmmədov, Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlikaslanov, Camo bəy Hacınski, Əkbər ağa Şeyxülislamov, Xosrov Paşa bəy Sultanov daxil oldular. Gizli səsvermə yolu ilə Məmmədəmin Rəsulzadə Azərbaycan Milli Şurasının sədri seçildi.

1918-ci il mayın 28-də Həsən bəy Ağayevin sədrliyi ilə Milli Şuranın iclasında Azərbaycanın İstiqlal Bəyannaməsi qəbul edildi. Xalqımızın milli mənlik şüurunda dərin iz salmış bu tarixi sənəddə deyilirdi: «Bu gündən etibarən Azərbaycan xəlqi hakimiyyət həqqinə malik olduğu kimi, Cənubi-Şərqi Zaqafqaziyadan ibarət Azərbaycan dəxi kamil-əl-hüquq müstəqil bir dövlətdir.»

Milli Şura təxirə salmadan Fətəli xan Xoyskinin rəhbərliyi ilə Azərbaycan Xalq Cümhuriyyətinin ilk hökumətini təşkil etdi. Milli Şuranın və hökumətin yaradılması zərurətini, onların məramını əhaliyə izah etmək məqsədi ilə ölkənin müxtəlif bölgələrinə nümayəndələr göndərildi.

1918-ci il noyabrın 19-da keçirilən iclasında Milli Şura qanun qəbul edərək 120 üzvdən ibarət Azərbaycan Parlamentini formalaşdırmağı qərara aldı. İclasda bildirilmişdir ki, Azərbaycanda müxtəlif millətlər məskunlaşdığı üçün onun qanunvericilik orqanında bütün millətlərin nümayəndələri təmsil olunmalıdır. Bu məqsədlə Parlamentə müsəlmanlardan 80, ermənilərdən 21, ruslardan 10, alman və yəhudi millətlərinin isə hərəsindən 1 nümayəndə çağırılması nəzərdə tutulmuşdu. Parlamentin yaradılması ilə əlaqədar noyabrın 29-da Milli Şuranın «Bütün Azərbaycan əhalisinə!» adlı müraciətnaməsi dərc edildi. Müraciətnamədə deyilirdi: «… Şurai-Millinin ən əvvəl qəbul etdiyi qanun sırf Azərbaycan müsəlmanlarına məxsus olan Şurai-Millini milli bir şəkildən çıxarıb da dövləti bir şəkilə salmaq oldu. Bu ayın 19-da qəbul etdiyi qanunnaməyə görə Şurai-Milli dekabrın 3-nə qədər 120 əzalıq bir Məclisi-Məbusan (Parlament) halına gələcəkdir. Bu məclisə azlıqda qalan

millətlərdən nümayəndələr cəlb olunduğu kimi, məmləkətin vilayətlərindən də vəkillər çağırılmışdır.

… Bütün Azərbaycan vətəndaşları bilafərq millət və məzhəb, bir vətənin övladlarıdırlar. Ümumi vətəndə müştərək həyatlarını qurmaq və bərabərlikdə kəndi səadətlərini hazırlamaq üçün onlar bir-birlərinə əl uzatmalı və yardım etməlidirlər.»

1918-ci il dekabrın 7-də Hacı Zeynalabdin Tağıyevin qız məktəbinin binasında Şərq aləmində ilk Parlamentin iclası keçirildi. İclasda Əlimərdan bəy Topçubaşov Parlamentin sədri, Həsən bəy Ağayev onun birinci müavini, Mehdi bəy Hacınski isə baş katib seçildilər. O dövrdə Əlimərdan bəy Topçubaşov Azərbaycanda olmadığına görə Parlamentin iclasına Həsən bəy Ağayev sədrlik edirdi. Azərbaycan müvəqqəti hökuməti işə başlamış Parlament qarşısında istefa verdi. Yeni hökumətə rəhbərlik etmək və onun tərkibini müəyyənləşdirmək yenə də Fətəli xan Xoyskiyə tapşırıldı.

Qeyd etmək lazımdır ki, Parlamentdə erməni və rus nümayəndələri üçün yerlər ayrılmasına baxmayaraq onlar Azərbaycan Parlamentinin ilk iclasında iştirak etmədilər. Bakı Rus Milli Şurasının Parlamentdə iştirak etməmək haqqında qəbul etdiyi qərarda göstərilirdi ki, Azərbaycan «vahid və bölünməz Rusiya» ideyasına xilaf çıxmışdır. Onların parlament və hökumətdə təmsil olunması «Azərbaycanın Rusiyadan ayrılması faktının tanınması» demək olardı. Lakin Azərbaycanda yaşayan rus əhalisinin təzyiqi ilə Rus Milli Şurası təqribən bir ay sonra Parlamentin işində iştirak etməyə dair qərar qəbul etməyə məcbur oldu.

Ölkədə fəaliyyət göstərən pozucu qüvvələr isə vəziyyətin ağırlığından istifadə edərək Azərbaycan əraziləri hesabına öz torpaqlarını genişləndirmək istəyən erməni şovinistlərinə dəstək verirdilər. Erməni milli komitələri Azərbaycanın müstəqilliyi ilə heç cür razılaşmaq istəmir, Azərbaycan Parlamentinə öz nümayəndələrini göndərmirdilər. Ancaq bir müddət sonra onlar reallıqla barışaraq Parlamentdə erməni və daşnaksütyun fraksiyalarını yaratdılar. Çox keçməmiş məlum oldu ki, bu hərəkətləri ilə onlar «Böyük Ermənistan» xülyasını həyata keçirmək üçün Parlamentin tribunasından istifadə etmək niyyəti güdürmüşlər.

Azərbaycan Parlamenti öz fəaliyyətini demokratik dövlətlərə xas prinsiplər əsasında qururdu. Parlamentdə müxtəlif partiya fraksiyaları və qruplar təmsil olunmuşdu. Bu fraksiya və qruplar öz bəyanatlarında bildirirdilər ki, onların əsas məqsədi ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün qorunması, qonşu dövlətlərlə dostluq münasibətlərinin yaradılması və islahatların həyata keçirilməsidir. Təəssüf ki, Parlamentdə təmsil olunmuş bəzi partiyaların nümayəndələri özlərinin fəaliyyətində ölkənin mənafeyindən daha çox, təmsil etdikləri siyasi qurumların mənafelərinə xidmət edirdilər.

Çətin və mürəkkəb şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti və hökuməti sosial-iqtisadi,

hərbi, mədəni sahələrdə qarşıya qoyduğu minimum proqramı yerinə yetirə bildi. Parlamentdə dövlət və cəmiyyət həyatının müxtəlif sahələrinə aid mühüm qanunvericilik aktları qəbul edildi.

Dövlət quruculuğu ilə bağlı «Azərbaycan vətəndaşlığı haqqında», «Bakı Dövlət Universiteti haqqında», «Milli Bankın yaradılması haqqında» və bir sıra başqa qanunlar qəbul olundu, habelə Azərbaycanın dövlət rəmzləri – respublikanın himni, bayrağı təsdiq edildi, dövlət gerbinin hazırlanması üçün müsabiqə elan olundu.

İlk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti Azərbaycan dilini dövlət dili elan etdi və bu barədə xüsusi qanun qəbul olundu.

Hüquqi dövlət quruculuğu məqsədi ilə Xalq Cümhuriyyətində hakimiyyətin bölgüsü prinsipinə də riayət edilirdi. Parlament o dövrdə ölkə qarşısında duran əsas vəzifələrin həyata keçirilməsi və qanunvericilik bazasının yaradılması baxımından əhəmiyyətli işlər görür, gənc Azərbaycan dövlətinin dünya dövlətləri tərəfindən tanınması üçün var qüvvəsini sərf edirdi. Qonşu ölkələrlə iqtisadi, ticarət və digər əlaqələrin inkişaf etdirilməsinə də ciddi fikir verilirdi. Parlamentdə qəbul olunan qanun və qərarlar hökumətin fəaliyyətinin əsas istiqamətlərinin müəyyənləşdirilməsində mühüm rol oynayırdı.

O dövrün ictimai-siyasi vəziyyəti ordu quruculuğu məsələlərini ön plana çıxarmışdı. Məhz bu sahənin gücləndirilməsi ölkənin ərazi bütövlüyünün qorunub saxlanılması üçün müstəsna əhəmiyyət kəsb edirdi.

Parlament elm, təhsil, mədəniyyət sahələrinə də ciddi diqqət yetirirdi. Xalq maarifinin inkişafı, tədris və teatr müəssisələrinin milliləşdirilməsi, müəllimlərin maddi vəziyyətinin yaxşılaşdırılması deputatların ciddi məşğul olduqları məsələlərdən idi. Parlamentin bu istiqamətdə qəbul etdiyi ən mühüm aktlardan biri də indiki Bakı Dövlət Universitetinin təsis edilməsi haqqında 1919-cu il 2 sentyabr tarixli qanun idi. Milli kadrların yetişdirilməsi məqsədi ilə Parlament xarici ölkələrin ali məktəblərində təhsil almaq üçün yüz nəfər azərbaycanlı gəncin dövlət hesabına xaricə göndərilməsi barədə qanun qəbul edərək xüsusi komissiya yaratmışdı. Tez bir zamanda istedadlı gənclər Fransa, İtaliya, İngiltərə və Türkiyə kimi ölkələrin ali məktəblərinə oxumağa göndərildilər.

Azərbaycan Xalq Cümhuriyyətinin ən böyük nailiyyətlərindən biri də Paris sülh konfransının iştirakçısı olan dövlətlər tərəfindən Azərbaycanın müstəqilliyinin tanınması idi. Bu məqsədlə 1918-ci il dekabrın 28-də Parlamentin sədri Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə Fransaya nümayəndə heyəti göndərildi. Nümayəndə heyətinin gərgin fəaliyyəti sayəsində 1920-ci il yanvarın 12-də Paris sülh konfransında iştirak edən əsas ölkələr Azərbaycanın müstəqilliyini tanıdılar. Həmin il aprelin 22-də Parlament İngiltərə, Fransa, İtaliya, İsveçrə, Polşa və ABŞ-da diplomatik nümayəndəliklər açmaq haqqında qanun qəbul etdi.

Zaqafqaziyada yaranmış respublikalar arasında sərhəd məsələlərinin həlli də Parlamentin diqqət mərkəzində idi. Lakin ərazi və sərhəd məsələləri ilə əlaqədar Azərbaycanla Gürcüstan arasında aparılan danışıqlarda ümumi razılığa gəlmək mümkün olsa da, Ermənistanla heç cür razılığa gəlmək mümkün olmamışdı. 1920-ci il martın 20-də İranla Azərbaycan arasında dostluq, konsulluq əlaqələri və s. haqqında ikitərəfli müqavilələr imzalanmış və aprelin 15-də Parlament bunları təsdiq etmişdi.

Xalqımızın dövlətçilik şüurunun formalaşmasında misilsiz rol oynamış ilk Parlament cəmi 17 ay fəaliyyət göstərməsinə baxmayaraq sübut etdi ki, Azərbaycan xalqı demokratik prinsiplərə əsaslanaraq öz milli dövlətini qurmağa və xalq cümhuriyyəti yaratmağa qadirdir.

Bütün bunlarla yanaşı, hələ XX əsrin əvvəllərində Rusiyada ilk parlamentin formalaşmasına Azərbaycan xalqı da öz layiqli töhfəsini vermişdir. Bakı, Yelizavetpol (Gəncə) və İrəvan quberniyaları da daxil olmaqla Azərbaycandan Rusiyanın I Dövlət Dumasına 6 nəfər deputat seçilmişdi. Əlimərdan bəy Topçubaşov, Məmmədtağı Əliyev, Əsədulla bəy Muradxanov, İsmayılxan Ziyadxanov, Əbdürrəhim bəy Haqverdiyev və Ataxan İrəvanski Dumanın işində fəal iştirak edirdilər. I Dumada Rusiyanın müxtəlif regionlarını təmsil edən 36 deputatdan ibarət müsəlman fraksiyası yaradılmışdı. Fraksiyanın ilk iclasında Əlimərdan bəy Topçubaşov onun rəhbəri seçilmişdi.

II Dövlət Dumasına da Azərbaycandan 6 nəfər deputat seçilmişdi: Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, İsmayıl Tağıyev, Məmmədağa Şahtaxtinski, Mustafa Mahmudov və Zeynal Zeynalov. Bu deputatların hamısı parlamentin müsəlman fraksiyasına daxil edilmiş, Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov isə büronun üzvü olmuşdular. III və IV Dövlət Dumalarında da Azərbaycan təmsil olunmuşdu.

Bütün bu faktlar Azərbaycan xalqının Rusiyada parlamentarizm ənənələrinin təşəkkülünə və inkişafına verdiyi töhfənin bariz nümunəsidir.

Milli Məclisin nümayəndə heyəti Rusiyaya bu yaxınlardakı səfəri zamanı Rusiya Dövlət Dumasının 95 illiyinin qeyd olunduğu mərasimdə iştirak etmişdir. Həmin tədbirdə çıxış edərkən azərbaycanlı deputatların fəaliyyətindən danışaraq dedim ki, Azərbaycanı İrəvan, Bakı, Yelizavetpol (Gəncə) quberniyalarından seçilmiş deputatlar ləyaqətlə təmsil edirdilər. Onların fəallığı, Əlimərdan bəy Topçubaşovun müsəlman fraksiyasına başçılıq etməsi Azərbaycanın qədim dövlətçilik tarixinə, zəngin parlamentarizm mədəniyyətinə malik olduğunun sübutudur. Orada erməni nümayəndə heyətinin başçısı da çıxış etdi, lakin konkret söz deyə bilmədi, çünki o vaxt erməni dövləti yox idi.

XX əsrin əvvəllərində düşmənlərimiz Şərqdə ilk dəfə qurulmuş Cümhuriyyəti məğlub etsələr də, azadlıq ruhu, müstəqillik ideyası xalqımızı heç zaman tərk etməmiş, 1991-ci ildə sovet imperiyasının dağılması nəticəsində Azərbaycan yenidən öz istiqlalına qovuşmuşdur. Müstəqilliyin ilk

illərində baş verən hadisələr 1918-20-ci illərdə cərəyan edən hadisələrin təxminən eyni idi, erməni təcavüzü, xarici dövlətlərin Azərbaycana qarşı təxribatları oxşar xarakter daşıyırdı. Azərbaycan çox mürəkkəb problemlərlə qarşılaşaraq çıxılmaz vəziyyətə düşmüşdü.

Lakin bu dəfə xalqımızın xoşbəxtliyi onda oldu ki, dövlətçiliyinin müqəddəratının həll edildiyi 1993-cü ilin iyun günlərində dünya miqyaslı siyasi və dövlət xadimi Heydər Əliyev yenidən hakimiyyətə gələrək Azərbaycanın parçalanıb dağılmasının qarşısını aldı və onu dəhşətli fəlakətlərdən xilas etdi. Möhtərəm Heydər Əliyevin zəngin siyasi təcrübəsi, misilsiz idarəçilik məharəti, möhkəm qətiyyəti, əzmkarlığı sayəsində müstəqil dövlətçiliyimizin məhvinə səbəb ola biləcək problemlər uğurla həll edildi.

Ölkəni dağılmaq və parçalanmaq həddinə gətirib çıxarmış dövlət və hakimiyyət böhranına son qoyuldu, vətəndaş müharibəsinin qarşısı alındı. Dövlət çevrilişi cəhdləri, terror aktları dəf edildi. Cəbhədə atəşkəs elan olundu. Ordu quruculuğunda mühüm işlər görüldü. Azərbaycan beynəlxalq aləmdə öz layiqli yerini tutdu. Onun haqq işi dünya miqyasında dəstəkləndi. Respublikamız ardıcıl inkişaf yoluna çıxdı.

Ölkədə möhkəm ictimai-siyasi sabitlik yaradıldı. Xəzərin Azərbaycan sektorundakı enerji ehtiyatlarının işlənilməsi üçün dünyanın iri şirkətləri ilə sazişlər imzalandı, yeni neft strategiyası öz bəhrələrini verməyə başladı.

Hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar edilməsi, Azərbaycanın Avropa xalqları ailəsinə inteqrasiyası sahəsində böyük uğurlar əldə olundu. Cəmiyyət və dövlət həyatının bütün sahələrində köklü dəyişikliklər baş verdi. Geniş miqyaslı özəlləşdirmə, torpaq islahatı aparıldı.

Müstəqil dövlətimizin yeni Konstitusiyası qəbul edildi, demokratik şəraitdə Prezident, parlament və bələdiyyə seçkiləri keçirildi. Qanunun aliliyinin təmin edilməsi, insan hüquqlarının və azadlıqlarının qorunması ilə məşğul olan təsisatlar yaradıldı. Şərq və müsəlman aləmində ilk dəfə olaraq ölüm cəzası ləğv edildi.

Respublikamız dünya proseslərinə təsir göstərə bilən böyük iqtisadi layihələrin təşəbbüsçüsü və fəal iştirakçısı oldu. Ölkəmiz tarixi İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilməsi layihələrinin mərkəzinə çevrildi. Azərbaycanın müstəqilliyi «əbədi, dönməz və sarsılmaz» oldu.

Müstəqil dövlətimiz üçüncü minilliyə inamla qədəm qoymuşdur. XXI əsrin ilk günlərində respublikamız Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tam hüquqlu üzv qəbul olunmuşdur.

Bugünkü müstəqil Azərbaycan Respublikası 1918-20-ci illərdə mövcud olmuş Xalq Cümhuriyyətinin, Milli Məclis isə o vaxtkı Parlamentin varisidir. Möhtərəm Prezidentimiz Heydər Əliyev bu münasibətlə belə demişdir: **«Azərbaycan Respublikasının Milli Məclisi Xalq Cümhuriyyətinin yaratdığı Parlamentin indi də varisidir. Varislik həmişə, eyni zamanda,**

**böyük məsuliyyət demək olubdur. Varislik o demək deyil ki, sən o hadisəni olduğu kimi təkrar edəsən, yaxud o səviyyədə yaşayasan. Hər bir varis varislik prinsipini əziz tutaraq, o dövrün, o hadisənin varisi olaraq o hadisəni, o dövrü, o quruluşu daha da yüksəklərə qaldırmalıdır. Biz Azərbaycanda bunu edirik və bu sahədə çox şeylərə nail olmuşuq. Hesab edirəm ki, Azərbaycanın bugünkü Milli Məclisi varislik adını şərəflə daşıyır, eyni zamanda, ötən illərdə və xüsusən son dövrdə Azərbaycanın müstəqil dövlətini inkişaf etdirmək üçün çox işlər görübdür.»**

Azərbaycan dövlətçiliyinin memarı Heydər Əliyevin rəhbərlik etdiyi komissiya tərəfindən hazırlanmış, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası və demokratik əsaslarla seçilmiş ilk parlamenti ölkəmizin siyasi tarixində yüksəliş və inkişaf mərhələsinin başlandığını nümayiş etdirmişdir. Dövlət hakimiyyətinin bir şaxəsi olan Milli Məclis Konstitusiya ilə müəyyənləşdirilmiş qanunvericilik səlahiyyətlərini yerinə yetirərək möhtərəm Prezidentimiz Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən nəhəng quruculuq işlərinin, siyasi və iqtisadi islahatların hüquqi bazasını yaratmış və təkmilləşdirmişdir.

Öz fəaliyyətini demokratiya, çoxpartiyalılıq, plüralizm, qanunun aliliyi prinsipləri üzərində quran parlament 1995-ci ilin noyabr ayından etibarən 428 iclas keçirmiş, ümumən 1221 sənəd, o cümlədən 987 qanun, 192 qərar və digər normativ hüquqi aktlar qəbul etmişdir. Parlamentdə qanun layihələri hazırlanarkən inkişaf etmiş dünya ölkələrinin təcrübəsindən istifadə edilmiş, Avropa Şurası Parlament Assambleyasının və ATƏT-in təklif və tövsiyələri nəzərə alınmışdır. Bütün bunlar Avropa dəyərlərini milli dəyərlərimizlə üzvi şəkildə birləşdirərək, qanun yaradıcılığı prosesinin səmərəliyini artırmağa imkan vermişdir.

İnamla söyləmək olar ki, Milli Məclisin hərtərəfli müzakirələrdən sonra qəbul etdiyi qanunvericilik aktları, o cümlədən Mülki Məcəllə, Mülki-Prosessual Məcəllə, İnzibati Xətalar Məcəlləsi, Cinayət Məcəlləsi, Cinayət-Prosessual Məcəllə, Cəzaların İcrası Məcəlləsi, Əmək Məcəlləsi, Ailə Məcəlləsi, Gömrük Məcəlləsi, Vergi Məcəlləsi, Ticarət Gəmiçiliyi Məcəlləsi, «Vətəndaşlıq haqqında», «Sərbəst toplaşmaq azadlığı haqqında», «Kütləvi informasiya vasitələri haqqında», «Məlumat azadlığı haqqında», «Qaçqınların və məcburi köçkünlərin statusu haqqında», «Konstitusiya Məhkəməsi haqqında», «Məhkəmələr və hakimlər haqqında», «Prokurorluq haqqında», «Polis haqqında», «Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında», «Vəkillər və vəkillik fəaliyyəti haqqında», «Diplomatik xidmət haqqında», «Notariat haqqında», «Atmosfer havasının mühafizəsi haqqında», «Məşğulluq haqqında», «Ahıllara sosial xidmət haqqında» və digər qanunlar Azərbaycanın demokratik yolla ardıcıl inkişafı üçün bütün hüquqi təminatları yaratmışdır. Məmnuniyyət hissi ilə

qeyd etmək istəyirəm ki, Milli Məclis respublikamızın hüquqi dövlətə çevrilməsi üçün zəruri olan qanunvericilik aktlarını qəbul etmiş və bundan sonra da qəbul edəcəkdir.

Parlamentin qanunvericilik fəaliyyətinin mühüm bir istiqaməti cəmiyyət və dövlət həyatının bütün sahələrində ardıcıl surətdə və qətiyyətlə aparılan əsaslı islahatların hüquqi mexanizmini qurmağa yönəlmişdir. Milli Məclis iqtisadiyyatda köklü dəyişikliklərin həyata keçirilməsi, özəlləşdirmə, torpaq islahatı, ölkəyə xarici sərmayələrin cəlb edilməsi, əhalinin sosial müdafiəsi, qaçqınlara və məcburi köçkünlərə qayğı göstərilməsi, mədəniyyət, elm və təhsilin inkişaf etdirilməsi məsələlərini daim diqqət mərkəzində saxlamışdır. Möhtərəm Prezidentimizin təşəbbüsü ilə parlament insan və vətəndaş hüquqlarının, azadlıqlarının qorunması sahəsində çox mühüm qanunlar qəbul etmişdir. 1993-cü ilin iyununda möhtərəm Heydər Əliyevin hakimiyyətə tarixi qayıdışından sonra Azərbaycan ölüm cəzasının tətbiqi üzərində moratorium qoyaraq, 1997-ci ildə Şərq aləmində ilk dəfə olaraq həmin cəzanı ləğv etmişdir. Dövlət başçısının təklifi ilə parlament dəfələrlə amnistiya aktları qəbul etmiş, minlərlə insanı öz ailəsinə qovuşdurmuşdur. Respublikamızın qanunvericilik orqanı Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə ABŞ-ın, Böyük Britaniyanın, Norveçin, Fransanın, Türkiyənin, Rusiyanın, Yaponiyanın və başqa ölkələrin iri neft şirkətləri arasında imzalanmış 20-dən çox kontraktı təsdiq etmiş, Qafqaz bölgəsində müstəqil dövlətimizin lider mövqelərini daha da möhkəmləndirəcək Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəmərinin, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin reallaşması, qədim tarixi İpək Yolunun bərpası üçün hüquqi təminatları yaradaraq öz xeyir-duasını vermişdir.

Qanunvericilik fəaliyyəti ilə yanaşı Milli Məclis ölkəmizdə cərəyan edən ictimai-siyasi proseslərdən də kənarda qalmamış, seçicilərin arzu və istəklərinə həmişə diqqətlə yanaşmışdır. Respublikamızın bütün bölgələrindən daxil olan on minlərlə müraciəti nəzərə alaraq, 1997-ci il iyunun 27-də parlament dünya şöhrətli ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıtdığı və müstəqil dövlətimizi məhv olmaq təhlükəsindən xilas etdiyi, xalqımızı dəhşətli fəlakətlərdən qurtardığı 15 iyun gününü Azərbaycan xalqının milli qurtuluş günü elan etmişdir. Bu münasibətlə Milli Məclis möhtərəm Prezidentimizin şərəfli xilaskarlıq missiyasından bəhs edən «Qurtuluş» kitabını hazırlayaraq nəfis tərtibatda çap etmişdir. 31 mart - azərbaycanlıların soyqırımı günü münasibəti ilə nəşr edilmiş «Tariximizin faciəli səhifələri: soyqırımı» kitabı, parlamentin deputatlarından bəhs edən «Birinci çağırış Azərbaycan Respublikasının Milli Məclisi», «İkinci çağırış Azərbaycan Respublikasının Milli Məclisi» kitabları da ötən illərdə görülmüş işlərin sırasındadır.

Avropa Şurasının və BMT-nin xətti ilə Milli Məclisdə qaçqınların və məcburi köçkünlərin problemlərinə, insan hüquqlarına, qeyri-hökumət təşkilatlarının fəaliyyətinə, vətəndaşlıq, gender məsələlərinə, bələdiyyə

seçkilərinə aid seminarlar, elmi-praktik konfranslar keçirilmişdir. Təqdirəlayiq haldır ki, Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsini təşkil edən bir sıra beynəlxalq konvensiyalar, o cümlədən qaçqınların statusuna, insan hüquqlarına aid konvensiyalar, habelə 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyaları və onlara əlavə protokollar BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının və Beynəlxalq Qırmızı Xaç Komitəsinin respublikamızdakı nümayəndəlikləri ilə əməkdaşlıq şəraitində ilk dəfə olaraq Azərbaycan dilinə rəsmi tərcümə edilmiş və yüksək poliqrafik səviyyədə nəşr olunmuşdur.

Milli Məclisin diqqət mərkəzində saxladığı mühüm problemlərdən biri də Azərbaycan dövləti üçün xaricdən gözlənilən təhlükələrin qarşısının alınması olmuşdur. Parlament Rusiya Federasiyasından Ermənistana 1 milyard dollarlıqdan çox qanunsuz silah göndərilməsi, Rusiya-Ermənistan hərbi ittifaqının möhkəmləndirilməsi faktlarına kəskin münasibətini bildirmiş, xalqımızın haqq işinin dünya miqyasında dəstəklənməsinə nail olmaq, erməni şovinistlərinin Azərbaycana qarşı apardıqları böhtan və qarayaxma kampaniyasını puça çıxarmaq üçün lazım olan bütün tədbirləri həyata keçirmişdir. «Erməni soyqırımı» əfsanəsinin müzakirə mövzusuna çevrilməsinə etiraz əlaməti olaraq Fransa, Avstriya, Almaniya, Böyük Britaniya, İtaliya, İsveç, Norveç, Danimarka, Rusiya və başqa ölkələrin parlamentlərinə əsl tarixi həqiqətləri açıqlayan müraciətlər göndərilmişdir.

Milli Məclisin beynəlxalq əlaqələrinin inkişafı sahəsində də xeyli iş görülmüşdür. Parlamentdə dünyanın 60-dan çox qanunvericilik orqanı ilə əlaqələr üzrə işçi qrupları yaradılmışdır. Bu qruplar ölkəmizin dünya dövlətləri ilə münasibətlərinin inkişafı üçün əhəmiyyətli işlər görmüşlər. Milli Məclisin nümayəndə heyətləri bir sıra xarici ölkələrdə rəsmi səfərlərdə olmuş, üzv olduğumuz beynəlxalq təşkilatların işində yaxından iştirak etmişlər. Milli Məclis dünyanın 7 beynəlxalq təşkilatının fəal iştirakçısına çevrilmişdir. Hazırda Milli Məclis Parlamentlərarası İttifaqın, ATƏT-in Parlament Assambleyasının, Qara dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisinin, MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının, Avropa Şurası Parlament Assambleyasının, İslam Konfransı Təşkilatı Parlament Məclisinin və digər nüfuzlu beynəlxalq qurumların üzvüdür.

Milli Məclisin ötən dövrdə yerinə yetirdiyi işlərin təhlili göstərir ki, qanunvericilik sahəsində çoxşaxəli fəaliyyəti ilə parlament Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyevin müdrik daxili və xarici siyasətini dəstəkləyərək, gənc müstəqil dövlətimizin daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi üçün öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev müstəqil dövlətimizin ilk parlamentinin səmərəli fəaliyyətini yüksək qiymətləndirmişdir. Milli Məclisin 2001-ci il 23 fevral tarixli iclasındakı nitqində o demişdir: **«1995-ci ildə seçilmiş Milli Məclis Azərbaycanın**

**müstəqilliyinin möhkəmlənməsi üçün, hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesinin inkişafı üçün, sosial-iqtisadi, hüquqi-siyasi islahatların keçirilməsi üçün çox iş görmüşdür və görülən işlərin əsas mənası da qəbul olunmuş qanunlardır. Tam cəsarətlə deyə bilərəm ki, ötən beş il ərzində Azərbaycanın Milli Məclisi çox məhsuldar işləmiş, çox böyük əhəmiyyətə malik olan və mürəkkəb xarakter daşıyan qanunlar qəbul etmişdir. Bu qanunlar Azərbaycanda müstəqil dövlətin inkişafı, iqtisadi islahatların aparılması üçün, qanunun aliliyini təmin etmək, hüquqi dövlət yaratmaq üçün çox əhəmiyyətli olmuşdur. Eyni zamanda, Milli Məclis Azərbaycan dövlətinin xarici siyasətinin həyata keçirilməsində də parlamentlərarası əlaqələr vasitəsi ilə, başqa vasitələrlə bizim ümumi işimizə öz payını vermişdir. Ona görə biz dövlət müstəqilliyi əldə ediləndən sonra Azərbaycanın ilk Konstitusiyası əsasında seçilmiş Milli Məclisin, keçmişdə olan Milli Məclisin fəaliyyətini bu gün məmnuniyyət hissi ilə layiqincə qiymətləndirməliyik.**

**Tam əminəm ki, işinə yeni başlamış Milli Məclis keçən dövrdən də məhsuldar işləyəcək və əldə olunmuş təcrübədən səmərəli istifadə edəcəkdir. Beləliklə, Azərbaycanda dövlət müstəqilliyinin daha da möhkəmlənməsi və müstəqil dövlətin qarşısında duran vəzifələrin həyata keçirilməsi üçün ali qanunvericilik orqanı kimi öz üzərinə düşən vəzifələri yerinə yetirəcəkdir.»**

Bəli, bu gün Azərbaycan Respublikasının Milli Məclisi bütün fəaliyyətini dövlətimizin və xalqımızın ehtiyacları və tələbatı üzərində quraraq, 83 il öncə siyasi həyata qədəm qoymuş Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin işini uğurla davam etdirir, müstəqil dövlətimizin möhkəmlənməsinə və inkişafına dəyərli töhfələr verir. Əminəm ki, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin varisi olan bugünkü Milli Məclis dövlətçiliyimizin əbədiyyətə qədər davam etməsi üçün öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirərək öz işi ilə dünyanın qabaqcıl ölkələrinin parlamentləri səviyyəsinə yüksələcəkdir.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikası*
*Milli Məclisinin deputatı,*
*AŞPA-da Azərbaycan daimi*
*nümayəndə heyətinin rəhbəri*

# AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİ AVROPA ŞURASININ PARLAMENT ASSAMBLEYASINDA

Azərbaycan Respublikasının Avropa Şurası kimi nüfuzlu bir beynəlxalq təşkilatın tam hüquqlu üzvlüyünə qəbul edilməsi yeni əsrin əvvəllərində xalqımızın taleyində baş verən ən mühüm hadisələrdən biridir. Ölkəmizin Avropa xalqları ailəsinə inteqrasiyasını reallığa çevirmiş bu hadisə Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyəti yaradılması, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar edilməsi sahəsində görülən nəhəng işlərin məntiqi nəticəsi olmuşdur.

Otən əsrin sonuna doğru öz dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan qısa dövr ərzində çox çətin tarixi sınaqlardan keçməli olmuşdur. 1993-cü ilin iyunundan bəri möhtərəm Prezidentimiz Heydər Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan gələcəyə inamla baxan, demokratik inkişaf yolu ilə qətiyyətlə addımlayan bir dövlətə çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin sözləri ilə desək, **«Tarixən çox qısa bir müddət ərzində biz qabaqcıl Avropa təcrübəsinə əsaslanaraq, çox şeyə nail ola bildik. Biz bütün çətinliklərə baxmayaraq liberal iqtisadiyyat və sivil cəmiyyət quruculuğu yolu ilə irəlilədik. Biz insan haqlarının qorunmasını önə çəkdik, vətənimizin və vətəndaşlarımızın totalitarizm dövrünün ağır irsindən xilas olmasına çalışdıq. Biz demokratiyanın inkişafı üçün mühüm şərtlərdən olan daxili sabitliyə nail olduq. Biz azad söz, azad mətbuat və çoxpartiyalı siyasi sistem yaratdıq. Biz müddəalarının üçdə biri insan haqlarının və əsas azadlıqlarının qorunmasına həsr olunmuş yeni Konstitusiya qəbul etdik. Şərqdə ilk dəfə ölüm hökmünü aradan qaldırdıq, yeni qanunvericilik sistemini yaratdıq, prezident, parlament və bələdiyyə seçkiləri keçirdik. Bir sıra mühüm siyasi və iqtisadi islahatlar apardıq və aparırıq.»**

Əlverişli coğrafi mövqeyə, zəngin təbii sərvətlərə malik Azərbaycan son illər iqtisadi inkişaf sahəsində də böyük uğurlar qazanmışdır. Xəzər hövzəsinin Azərbaycan sektorunda karbohidrogen ehtiyatlarının istifadəyə verilməsi ilə bağlı dünyanın nüfuzlu neft şirkətləri tərəfindən ölkəmizə iri həcmli sərmayə qoyuluşu, tarixi İpək yolunun bərpası, Avropa-Qafqaz-Asiya

nəqliyyat dəhlizinin inkişafı və s. beynəlxalq layihələrdə fəal iştirakımız bunlara parlaq sübutdur. Son illər dövlət rəhbərliyi tərəfindən balanslaşdırılmış xarici siyasətin həyata keçirilməsi nəticəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzu xeyli möhkəmlənmiş, ölkəmizin dünya birliyinə inteqrasiyası prosesi güclənmişdir. Hazırda Azərbaycan Respublikası bir sıra mötəbər beynəlxalq təşkilatların üzvüdür. Bu təşkilatlardan biri də Avropa Şurasıdır.

Avropa Şurası 1949-cu il mayın 5-də 10 Avropa ölkəsi (Belçika, Böyük Britaniya, Danimarka, İrlandiya, İsveç, İtaliya, Lüksemburq, Niderland, Norveç və Fransa) tərəfindən hökumətlərarası və parlamentlərarası beynəlxalq təşkilat kimi təsis edilmişdir. İllər ötdükcə təşkilat çərçivəsindəki əməkdaşlığın səmərəliyi bir sıra Avropa dövlətlərini də bu prosesə cəlb etmiş, təşkilata üzv olan ölkələrin sayı 40-ı keçmişdir.

İnsan hüquqlarının və plüralist demokratiyanın müdafiəsi, Avropa mədəniyyətinə aid xüsusiyyətlərin inkişafı, üzv ölkələrdə siyasi, qanunvericilik və konstitusional islahatların həyata keçirilməsinə kömək göstərilməsi kimi məqsədlərin daşıyıcısına çevrilmiş bu təşkilata qanunun aliliyi prinsipini tanıyan, insan hüquq və azadlıqlarının tətbiqinə lazımi şərait yaradan dövlətlər üzv ola bilərlər. Təşkilatın gördüyü mühüm işlərdən biri də Avropa konvensiyalarının qəbul edilməsidir. İndiyədək qəbul olunmuş 155 Avropa konvensiyası 75 min ikitərəfli müqaviləni əvəz edir. Təşkilata üzv olmaq istəyən dövlətlər Avropa Şurasının olduqca sərt tələblərinə cavab verməlidirlər. Buraya ölkə daxilində insan hüquqlarına riayət edilməsi, müstəqil məhkəmə sisteminin mövcud olması, insan hüquqları üzrə Avropa konvensiyasına qoşulmaq və başqa şərtlər daxildir.

Azərbaycanın Avropa Şurasına tam hüquqlu üzv olması istiqamətində mühüm işlər görülmüşdür. Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin 1996-cı il iyulun 8-də «Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında», 1998-ci il yanvarın 20-də «Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında», 1999-cu il mayın 14-də «Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında» imzaladığı sərəncamlar ölkəmizin Avropa Şurasına qəbul edilməsi üçün səylərin artırılmasına və məqsədyönlü fəaliyyətə zəmin yaratmışdır. Bu sərəncamlarda Avropa ölkələrində qəbul edilmiş standartlara uyğunluq baxımından Cinayət, Cinayət-Prosessual, Mülki və Mülki-Prosessual məcəllələrin, digər məcəllələrin hazırlanmasının sürətləndirilməsi, respublikamızın Avropa Şurasının bir sıra saziş və konvensiyalarına qoşulması məsələsinin öyrənilməsi tövsiyə edilmişdi. Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanunvericilik aktları Azərbaycanın demokratik yolla ardıcıl inkişafı, cəmiyyət və dövlət həyatının bütün sahələrində Avropa

dəyərlərinin bərqərar edilməsi üçün bütün hüquqi təminatları yaratmışdır. Azərbaycan Respublikası ilə Avropa Şurası arasında sıx əməkdaşlığın nəticəsi kimi ölkəmiz təşkilatın 21 konvensiyasına qoşulmuşdur.

Azərbaycan Avropa Şurasına həmişə bir məqsəd kimi deyil, Avropa dəyərlərindən bəhrələnmək istiqamətində mühüm bir vasitə kimi baxmışdır. 1996-cı ilin iyun ayından ölkəmizin təşkilatda xüsusi dəvət olunmuş qonaq statusu ilə iştirakı milli qanunvericiliyimizin Avropa standartları səviyyəsinə yüksəldilməsinin işlək mexanizmini hazırlamağa imkan vermişdir.

2000-ci il iyunun 28-də Avropa Şurası Parlament Assambleyasının növbəti sessiyasında Azərbaycan Respublikasını Avropa Şurasının tam hüquqlu üzvü seçmək barəsində təşkilatın Nazirlər Komitəsinə tövsiyə qəbul edilmişdir.

Avropa Şurası Nazirlər Komitəsinin məsələ ilə bağlı iclaslarında respublikamızın Avropa Şurasına qəbul olunması barədə səmərəli fikir mübadiləsi aparılmış, müvafiq tövsiyələr verilmişdir. Nəhayət, 2001-ci il yanvarın 17-də Nazirlər Komitəsi Azərbaycanın təşkilatın tam hüquqlu üzvlüyünə qəbul olunması barədə qərar qəbul etmişdir. Yanvarın 25-də Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin iştirakı ilə Strasburqda Avropa Şurasının binası önündə müstəqil dövlətimizin üçrəngli bayrağının ucaldılması Azərbaycanın Avropa ailəsinə qovuşduğunu bütün dünyaya nümayiş etdirmişdir.

Ölkəmiz Avropa Şurasının tam hüquqlu üzvü olduqdan sonra Azərbaycan Respublikası Milli Məclisinin AŞPA-da daimi nümayəndə heyəti Avropa Şurası Parlament Assambleyasının 2001-ci il yanvarın 22-26-da Strasburqda keçirilmiş növbəti sessiyasında ilk dəfə olaraq iştirak etmişdir. Nümayəndə heyətinin tərkibinə Milli Məclisin deputatları Səməd Seyidov, Gültəkin Hacıyeva, Nairə Şahtaxtinskaya, Vaqif Vəkilov, Qulamhüseyn Əliyev və nümayəndə heyətinin katibi Azər Qasımov daxildirlər. Bundan başqa, Milli Məclisin 6 deputatından ibarət əvəzedici heyət də təşkilatın işində iştirak edir.

Bu sessiya dövründə Strasburqda nümayəndə heyətimiz təşkilatın rəhbərləri və milli nümayəndə heyətlərinin üzvləri ilə bir sıra görüşlər keçirmiş, Cənubi Qafqaz bölgəsində baş verən ictimai-siyasi proseslər haqqında ətraflı məlumat vermişdir. Nümayəndə heyətimiz təşkilatın sessiyasında və komitələrinin iclaslarında müzakirə olunan məsələlərə öz münasibətini bildirmiş, Dağlıq Qarabağ probleminin bölgənin inkişafı üçün törətdiyi maneələr, 1 milyon qaçqın və köçkün azərbaycanlının dözülməz vəziyyəti, regional əməkdaşlığın genişləndirilməsi, milli qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması barədə öz fikirlərini açıqlamışdır.

Strasburqda nümayəndə heyətimiz Avropa Şurası Parlament Assambleyasının sədri lord Rassel-Constonla və baş katibi Bruno Hallerlə çox səmərəli görüşlər keçirdi. Bu görüşlər zamanı Azərbaycanın Avropa Şurasına daxil olmasının tarixi əhəmiyyəti xüsusi qeyd edildi.

Aparılan danışıqlarda Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün Avropa Şurasının öz töhfəsini verəcəyinə əminlik ifadə edildi. AŞPA rəhbərliyinin diqqətinə belə bir məqam da çatdırıldı ki, Azərbaycan və Ermənistanın eyni vaxtda Avropa ailəsinə daxil olması o deməkdir ki, bir ailənin iki üzvü düşmən ola bilməz. Lord Rassel-Conston və Bruno Haller Azərbaycanın Avropa Şurasına qəbul olunmasını tarixi hadisə kimi qeyd edərək respublikamızı inkişaf yolunda olan bir ölkə kimi dəyərləndirdilər.

Nümayəndə heyətimizin Parlament Assambleyasının 2001-ci il aprel sessiyasında iştirakı da uğurlu olmuşdur. Bu sessiyada biz «Ermənistanda və Dağlıq Qarabağda saxlanılan hərbi əsirlər və girovlar haqqında», «Azərbaycan mədəni irsinin zəbt edilməsi və dağıdılması barədə», «Azərbaycan Respublikasında ekoloji vəziyyət barədə» sənədlərin sessiya iştirakçıları arasında yayılmasına nail olmuşuq.

Sessiya dövründə nümayəndə heyətimiz ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımının tanınması haqqında bəyannamə hazırlayıb yaydı. 29 deputatın imzaladığı bu sənəddə azərbaycanlıların məruz qaldığı soyqırımı və etnik təmizləmə siyasətinin bütün mərhələləri aydın şəkildə göstərilmişdir. Qeyd etmək istəyirəm ki, yazılı bəyannamələr Avropa Şurasının rəsmi sənədi hesab olunur və qeydiyyata alınır.

Xatırlamaq yerinə düşər ki, ermənilərin azərbaycanlılara qarşı soyqırımı ilk dəfə idi ki, beynəlxalq təşkilatın sənədində öz əksini tapırdı. Bu gələcəkdə daha ciddi sənədlərin qəbulunda və ümumiyyətlə, tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında bir istinad nöqtəsi ola bilər.

Nümayəndə heyətinin rəhbəri kimi mən aprelin 24-də «Avropanın iqtisadi və transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizəsi» məsələsinin müzakirəsində çıxış etdim. Çıxışımda qeyd etdim ki, Azərbaycan müzakirə olunan məsələdən xüsusilə narahatdır. Azərbaycanın torpaqlarını Ermənistanın zəbt etməsi nəticəsində Dağlıq Qarabağda və onun ətrafında qeyri-qanuni əməliyyatlar keçirilir. Xüsusilə narkotik bitkilərin becərilməsi və onların nəqli, habelə qanunsuz silahlı birləşmələrin hazırlanması və digər məsələləri vurğuladım. Bildirdim ki, Avropa Şurası, o cümlədən Avropanın bütün müvafiq qurumları Ermənistana güclü təsir göstərməlidirlər ki, o, işğal olunmuş torpaqlardan çəkilsin, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun və bir milyon qaçqın öz doğma yurd-yuvalarına qayıtsın.

Azərbaycan parlament nümayəndə heyəti 2001-ci il iyunun 25-29-da Avropa Şurası Parlament Assambleyasının növbəti sessiyasında da iştirak etmişdir. Sessiyanın gündəliyinə təşkilata üzv ölkələrdə ölüm cəzasının ləğvi, Cenevrə Konvensiyalarının 50 illiyi, münaqişə zonalarında qaçqın və köçkünlərin vəziyyəti, Ukrayna və Türkiyənin təşkilat qarşısında götürdükləri öhdəliklərin yerinə yetirilməsi, quruma üzv ölkələrdə qarşılıqlı hüquqi yardım və sair məsələlər daxil edilmişdi.

Sessiya zamanı nümayəndə heyətimiz Azərbaycandakı qaçqın və köçkünlərin acınacaqlı, dözülməz vəziyyəti barədə tədbir iştirakçılarına məlumat vermişdir.

Sessiya iştirakçıları arasında «Azərbaycan mədəni irsinin zəbt edilməsi və dağıdılması barədə» sənəd də yayılmışdır. 18 deputatın imzaladığı bu sənəddə Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində mədəniyyət abidələrinin məhv edilməsindən danışılır və Avropa Şurasının məsələyə qarışması xahiş olunur.

Sessiyada həmçinin «Azərbaycan Respublikasında ekoloji vəziyyət barədə» sənəd yayılmışdır. Sənəddə işğal olunmuş ərazilərdə – Dağlıq Qarabağda, Şuşa, Laçın, Qubadlı, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl və Zəngilan rayonlarında yaranmış gərgin ekoloji vəziyyət ilə bağlı narahatlıq öz əksini tapmışdır.

Avropa Şurası Parlament Assambleyasının 2001-ci il sentyabr sessiyasında da Milli Məclisin nümayəndə heyəti çox səmərəli fəaliyyət göstərmişdir. Sessiyanın elə ilk günündə nümayəndə heyətimizin AŞPA-nın Nazirlər Komitəsinə ünvanladığı Azərbaycanın ərazi bütövlüyünün Ermənistan tərəfindən tanınması barədə yazılı sorğu 43 ölkənin nümayəndələrinin iştirakı ilə müzakirə edilmişdir. Nazirlər Komitəsi sorğu ilə bağlı qərar qəbul edərək, beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərə, suverenliyə və dövlətlərin ərazi bütövlüyünə dəstəyini təsdiq etmiş, Dağlıq Qarabağ probleminin yalnız Azərbaycanın ərazi bütövlüyü nəzərə alınmaqla həll oluna biləcəyini ifadə etmişdir. Qərarda deyilir ki, torpaq əldə etmək məqsədi ilə gücdən istifadə qəbuledilməzdir və ondan irəli gələn heç bir nəticə qanuni sayıla bilməz. Sənəd Avropa Şurası Nazirlər Komitəsinin iclasında yekdilliklə qəbul olunmuşdur.

Parlament Assambleyasının sentyabrın 25-də keçirilmiş iclasında beynəlxalq terrorizm məsələsi müzakirə edilərkən bir çox ölkələrin deputatları çıxış edərək sentyabrın 11-də ABŞ-ın Nyu-York və Vaşinqton şəhərlərində törədilmiş dəhşətli faciəni pisləmiş, terrorun yeni forma – siyasi terror forması almasından öz narahatlıqlarını ifadə etmişlər. Ermənistan nümayəndəsi iclasda çıxış edərkən Dağlıq Qarabağın erməni əhalisinə qarşı Azərbaycanın guya terror siyasəti yeritdiyini iddia etmişdir. Buna cavab olaraq mən öz çıxışımda bölgədəki vəziyyət barədə fikirlərimi açıqladım. Bildirdim ki, Ermənistanın Azərbaycana qarşı təcavüzünün başlandığı vaxtdan erməni terrorçu qrupları Azərbaycana qarşı 32 terror aktı törətmiş və bunun nəticəsində Azərbaycanda 2000 nəfər öldürülmüş, on minlərlə insan yaralanmışdır. Bununla yanaşı, erməni terrorçu təşkilatı «Asala» Ermənistanın Azərbaycana qarşı son 13 ildə həyata keçirdiyi terror və soyqırımı siyasətində çirkin rol oynayır. Tam nəzarətsiz olan Dağlıq Qarabağ ərazisində təkcə Ermənistandan deyil, digər ölkələrdən də gələn terrorçuların hazırlanması üçün düşərgələr yaradılmışdır. Burada narkotik maddələrin dövriyyəsindən əldə edilən gəlir terror məqsədləri üçün xərclənir.

Mən öz çıxışımda minlərlə günahsız insanın ölümü və yaralanması ilə nəticələnmiş terror aktları ilə bağlı Amerika Birləşmiş Ştatlarının hökumətinə və Amerika xalqına səmimi başsağlığı verdim. Dəhşətli cinayəti törətmiş şəxslərin tapılması və ədalət mühakiməsinə cəlb olunması ilə əlaqədar Azərbaycan hökuməti adından Birləşmiş Ştatlara tam dəstəyi bir daha bildirdim. Qeyd etdim ki, Azərbaycan terrorizmə qarşı mübarizədə Amerika Birləşmiş Ştatları, bütün demokratik dünya ilə bir alyansdadır.

Avropa Şurasının Parlament Assambleyasındakı nümayəndə heyətimiz respublikamız üçün böyük əhəmiyyət kəsb edən daha iki sənədin – «Avropada təhsilin gələcək inkişaf kontekstində Azərbaycanda qaçqınların və məcburi köçkünlərin təhsil hüquqları», habelə «Ermənistan-Azərbaycan (Dağlıq Qarabağ) münaqişəsinin həlli ilə bağlı təkliflər» adlı sənədlərin Parlament Assambleyası tərəfindən qəbul edilərək yayılmasına nail olmuşdur.

Avropa Şurasının Parlament Assambleyasında söylənilən hər bir söz, hər bir bəyanat hökmən rəsmi xarakter alır, yəni sənədləşdirilir. Biz bu imkandan çox səmərəli şəkildə istifadə etməliyik ki, Azərbaycanın haqlı mövqeyi bütün dünya ictimaiyyətinə çatsın. Ermənistan bizim torpaqlarımızı işğal edib və Azərbaycan tələb edir ki, bu işğala son qoyulsun. Biz əminik ki, parlament nümayəndə heyətimizin fəaliyyəti bu münaqişənin həllinə öz müsbət təsirini göstərəcəkdir. Çalışacağıq ki, işğalçı Ermənistanın həqiqi mahiyyəti açılıb bütün Avropaya göstərilsin. Biz bunu edirik və bundan sonra da edəcəyik.

Hazırda Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlıq inkişaf etməkdədir. Bu günlərdə Avropa Şurası Parlament Assambleyasının sədri lord Rassel-Constonun ölkəmizə səfəri dediklərimə sübutdur. Səfər müddətində o, bir sıra rəsmi şəxslərlə görüşlər keçirmiş, bu görüşlər zamanı Azərbaycanla Avropa Şurası arasında əməkdaşlığın gələcək perspektivləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

Azərbaycanın Avropa Şurasının tam hüquqlu üzvlüyünə qəbul edilməsi, heç şübhəsiz, ölkəmizdə hüquqi, demokratik və dünyəvi dövlət quruculuğuna verilən dəstək olub cəmiyyət və dövlət həyatının bütün sahələrində Avropa dəyərlərinin bərqərar edilməsi işini daha da sürətləndirəcək, respublikamızın bu nüfuzlu beynəlxalq təşkilatla hərtərəfli və səmərəli əməkdaşlığına yeni təkan verəcək, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, xalqımızın zəngin mədəni irsinin Avropaya və dünyaya tanıdılması üçün geniş imkanlar yaradacaqdır.

Avropa Şurası demokratik inkişaf yoluna yeni qədəm qoymuş Azərbaycan üçün nə qədər vacibdirsə, Avropanın Asiyaya açılan qapısı rolunu oynayan Azərbaycan da Avropa Şurası üçün bir o qədər önəmlidir. Sülh və sabitlik şəraitində tərəqqi edən Azərbaycan üçüncü minilliyin vahid və bölünməz Avropasının yaradılması üçün müstəsna əhəmiyyət kəsb edir. Müstəqil dövlətimizin bu nüfuzlu beynəlxalq qurumla əlaqələrinin günbəgün genişlənməsi və dərinləşməsi labüddür.

Biz bu quruma daxil olarkən mən Avropa Şurasının rəhbərliyi ilə rəsmi görüşlərdə bildirmişdim ki, Azərbaycan Avropa Şurasının çox dəyərli üzvü olacaqdır. Artıq biz buna nail oluruq. Əminəm ki, gələcəkdə biz təkcə Azərbaycanın problemlərinin deyil, Avropa ölkələri qarşısında dayanan problemlərin də həllində yaxından iştirak edəcəyik.

Mən inanıram ki, Avropa Şurasının Parlament Assambleyası çərçivəsində fəaliyyətimiz bundan sonra da ölkəmizin Avropa ailəsində yerinin möhkəmlənməsinə, beynəlxalq aləmdə nüfuzunun artmasına, demokratiyanın daha da inkişaf etdirilməsinə, Azərbaycan həqiqətlərinin beynəlxalq aləmdə daha geniş yayılmasına xidmət edəcəkdir.

*Arif RƏHİMZADƏ,*
*Azərbaycan Respublikası Milli Məclisi*
*sədrinin birinci müavini*

# QURTULUŞDAN TƏRƏQQİYƏ

Bu il biz ölkəmizin ictimai-siyasi həyatında əlamətdar bir tarixi hadisəni - müstəqilliyimizin onuncu ildönümünü qeyd edirik. 1991-ci il oktyabrın 18-də «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» Konstitusiya Aktının qəbul edilməsi ilə Azərbaycan tarixinin yeni bir dövrü başlandı.

On il tarix baxımından böyük müddət olmasa da, Azərbaycan bu zaman kəsiyində qərinələrə bərabər bir yol keçmişdir. Tarix göstərir ki, öz inkişaf yolunda xalqlar bir çox ağır müsibət və sarsıntılarla üzləşməli olurlar. Azərbaycan xalqının qismətinə də belə sınaqlardan çox düşüb. Təkcə XX əsrdə xalqımız bir neçə dəfə milli faciə miqyaslı böyük təhlükələrlə qarşı-qarşıya dayanıb. Məsələn, 1918-ci ildə erməni şovinistlərinin azərbaycanlılara qarşı apardığı siyasət nəticəsində Azərbaycan xalqı məhv olmaq təhlükəsi ilə üzləşmişdi.

Bizim yeni tariximizdən başqa misallar da gətirmək olar. Lakin bu gün tam məsuliyyətlə deyə bilərik ki, faciələrin miqyasına, münaqişəli vəziyyətlərin mürəkkəbliyinə görə 90-cı illərin başlanğıcı respublikamız üçün ən ağır dövr olmuşdur. O vaxtkı vəziyyətin yaranması səbəblərini dərk etmək, Azərbaycan xalqının ölüm-dirim məsələsi qarşısında qalmasına gətirib çıxarmış şəraiti başa düşmək üçün bir qədər əvvələ qayıdaq.

1980-ci illərin axırlarında Sovet İttifaqında dağıdıcı proseslər artıq dönməz xarakter almışdı. Müttəfiq respublikalarda mərkəzdənqaçma meylləri gündən-günə güclənirdi. Azərbaycana qarşı köhnə ərazi iddialarını həyata keçirmək üçün çoxdan fürsət gözləyən erməni millətçiləri və onların havadarları Moskvanın zəifliyini hiss edərək yaranmış şəraitdən istifadə etməyə çalışırdılar. «Böyük Ermənistan» xülyasına düşmüş bu qüvvələri İttifaq rəhbərliyində müdafiə edənlər, onların azğın niyyətlərinə rəvac verənlər, qonşu respublikaya qarşı qanunsuz hərəkətlərinə göz yumanlar da çox idi. Ermənistan Respublikasının Azərbaycana əsassız ərazi iddiaları, Dağlıq Qarabağ Muxtar Vilayətində dinc azərbaycanlılara divan tutulması 1988-ci ildə Azərbaycana qarşı hərbi təcavüz səviyyəsinə çatmışdı.

Qarabağda baş verən hadisələr respublikamızda həyatın normal ahəngini pozmuşdu. Mərkəzi hökumətin Dağlıq Qarabağ məsələsində ədalətsizliyinə, erməni separatçılarının qarşısını vaxtında və qətiyyətlə almamasına, o vaxtkı respublika rəhbərliyinin milli mənafelərə biganəliyinə, öz hakimiyyətini saxlamaq xatirinə Moskva ilə hər cür sövdələşmələrə getməsinə etiraz edən xalq küçə və meydanlara axışırdı.

Azərbaycan xalqını dünya ictimaiyyətinin gözündən salaraq, mənfi obrazını yaratmaq üçün Sumqayıt hadisələri törədilmişdi. Bu gün hamıya aydındır ki, həmin hadisələrdən məqsəd Azərbaycana qarşı ərazi iddialarına haqq qazandırmaq, 250 min azərbaycanlının Ermənistandakı ata-baba yurdlarından qovulmasına nail olmaq, Dağlıq Qarabağda etnik təmizləməyə, Azərbaycan ərazisinin bir hissəsini qoparıb Ermənistana birləşdirməyə zəmin hazırlamaq idi.

Təəssüf ki, xalqımızın həyatının bu çətin dövründə respublika rəhbərliyini elə şəxslər təmsil edirdilər ki, onlar mürəkkəb vəziyyətdən baş çıxara bilmir, hadisələri obyektiv qiymətləndirməyi bacarmır, xalqın düçar edildiyi müsibəti dərk edə bilmirdilər. Azərbaycanın keçmiş rəhbərləri Əbdürrəhman Vəzirovun və Ayaz Mütəllibovun hakimiyyəti dövründə Azərbaycan torpaqlarının işğalının əsası qoyulmuşdur. Onların səbatsız siyasətinin törətdiyi ən böyük faciə Xocalı qırğını oldu. Əsrin ən dəhşətli cinayətlərindən biri olan Xocalı faciəsində bütöv bir şəhər tamamilə yox edildi. Düşünülməmiş siyasətin, hakimiyyət davasının nəticəsi kimi 1992-ci ilin mayında Şuşa, sonra isə Laçın işğal olundu.

Lakin belə bir faciəli vəziyyət də vəzifə hərisliyinə son qoymadı. Xalq Cəbhəsi yaranmış şəraitdən öz məqsədləri üçün istifadə edərək, hakimiyyəti qeyri-qanuni yolla mənimsədi. Özlərini demokrat adlandıran «bəylər» şəxsi mənafelərini dövlətin mənafeyi ilə dəyişik salırdılar, ölkədə hərc-mərclik, mənəm-mənəmlik baş alıb gedirdi. İnsan hüquqlarının tapdalanması, başqa cür düşünənlərə fiziki təzyiq göstərilməsi, hədə-qorxular adi hal almışdı. Daxili işlər naziri İsgəndər Həmidov insanları qanunsuz həbs edir, yüksək vəzifədə də öz kriminal düşüncə tərzindən əl çəkə bilmirdi. Heç kəslə hesablaşmayan müdafiə naziri Rəhim Qazıyevin yeganə fikri hakimiyyət davası idi. Vətənpərvərlikdən, qeyrətdən, namusdan dəm vuran bu adam məqsədinə nail olmaq üçün düşmən qüvvələrlə əlaqəyə də girirdi. O, müdafiə naziri olmasına baxmayaraq daha yüksək vəzifə tutmaq üçün dəridən-qabıqdan çıxırdı. Rusiya haqqında düşmən obrazı yaradılmasında xüsusi rolu olmuş bu adam Rusiyanın hərbi dairələri ilə əlaqə saxlayır, onlarla əməkdaşlıq etməkdən belə çəkinmirdi.

Prezident Əbülfəz Elçibəy isə ölkədəki real vəziyyətdən, cəbhədəki durumdan bixəbər idi. Ali Baş komandan olduğunu unutmuş Əbülfəz Elçibəy nazirlərin fəaliyyətinə nəzarət etməyi lazım bilmirdi. Əslində bunun üçün onun zəruri səriştəsi və bacarığı da yox idi.

1993-cü il may ayının 25-də Prezident Aparatında hüquq mühafizə orqanları işçilərinin müşavirəsində Əbülfəz Elçibəy vəziyyəti belə xarakterizə etmişdi: «Xalq deyir, kaş canımız bu Xalq Cəbhəsinin əlindən qurtaraydı. Prokurorluqdan, məhkəmədən xahiş edirəm, buna cavab versinlər. Bu gün respublika niyə dağılır?»

Dövlət katibi Əli Kərimov isə iqtisadi vəziyyət barəsində belə demişdi: «İqtisadi cinayətkarlıq elə bir vüsət alıb ki, dövlət əmlakının açıq-aşkar

mənimsənilməsi, qeyri-qanuni yollarla xaricə satılması, bir sözlə, dövlət əmlakının talan edilməsi adi hala çevrilib. Respublikada rəsmi özəlləşdirmə başlamamış, qeyri-qanuni yolla dövlət əmlakının özəlləşdirilməsi adı ilə mənimsənilməsi prosesi gedir.»

O vaxtlar Milli Məclisin foyesində şahidi olduğum bir hadisə AXC-Müsavat iqtidarının rəhbərləri üçün olduqca səciyyəvidir. Milli Məclisin üzvlərindən biri iqtidardakıların hərəkətlərinin demokratiyaya, qanuna uyğun olmadığını bildirəndə Pənah Hüseynov müsahibinə belə cavab vermişdi: «Siz hansı demokratiyadan, qanundan danışırsınız? Nə demokratiya? Biz, bir neçə lotu, yığışdıq, hakimiyyəti ələ aldıq. Bildiyimiz kimi də idarə edirik.»

Xalq Cəbhəsinin qərarı ilə yerli təşkilatlara qeyri-qanuni olaraq silah göndərilirdi. Hətta iş o yerə çatmışdı ki, Milli Məclisin qarşısında pencək altında avtomat gəzdirən adamların olmasına adi hal kimi baxırdılar. İnsanlar qaranlıq düşəndən sonra küçəyə çıxa bilmirdilər. Günün günorta çağı polis geyimində şəxslər mağazalara girib «dövlətin ehtiyacını» ödəmək adı ilə soyğunçuluq edirdilər. Hər «özünə hörmət edən adam» silahlı dəstələr yaradırdı.

Tarixin dönüş məqamında düzgün xarici və daxili siyasət yeridilməməsi, dövlət idarəçiliyində yol verilən kobud səhvlər nəticəsində Azərbaycan böyük fəlakətlərin astanasında dayanmışdı. 90-cı illərin əvvəllərində baş verən proseslər barəsində respublika Prezidenti möhtərəm Heydər Əliyevin 2001-ci il 20 mart tarixli fərmanında deyilir: **«XX əsrdə xalqımızın gərgin əməyi ilə yaradılmış qüdrətli iqtisadi potensial amansızcasına dağıdıldı, milli sərvətlər talan edildi. İctimai-siyasi həyatda, iqtisadiyyatda hərc-mərclik, bir qarışıqlıq, «dövlət reketi» hökm sürürdü. Belə düşünülməmiş və səriştəsiz siyasət milli və vətəndaş qarşıdurmasının kəskinləşməsinə, hakimiyyətin ölkə daxilində öz nüfuzunu itirməsinə gətirib çıxardı. Nəticədə, 1993-cü ilin yayında Azərbaycan dövlətçiliyi böhran və məhvolma təhlükəsi qarşısında qaldı, ölkə vətəndaş müharibəsi və parçalanma həddinə çatdı. 1991-ci ildə əlverişli tarixi şəraitin və taleyin xalqımıza bəxş etdiyi imkanlardan yaranmış müstəqil dövlətimiz səriştəsiz siyasət nəticəsində süquta uğramaq təhlükəsi ilə üz-üzə qaldı.»**

Belə mürəkkəb və faciəli anda, 1992-ci ilin oktyabrında bir qrup Azərbaycan ziyalısı Heydər Əliyevə müraciət edərək ondan yeni siyasi partiyanın yaradılmasını xahiş etdilər. Bu müraciətin arxasında Azərbaycanın nüfuzlu insanları – görkəmli alimlər, ziyalılar, mədəniyyət və incəsənət xadimləri, sadə əmək adamları dururdu. 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Heydər Əliyev partiyanın sədri seçildi. Tezliklə bu siyasi qurum öz ətrafında sağlam düşüncəli insanları toplaya bildi.

1993-cü ilin iyununda Azərbaycanda vəziyyət son dərəcə kəskinləşdi. AXC-Müsavat iqtidarı bir daha öz fərsizliyini nümayiş etdirərək Gəncə şəhərində hərbi əməliyyat keçirib qardaş qanı tökdü. Bu, əslində vətəndaş

qarşıdurmasının başlanğıcı idi. Azərbaycana arxadan zərbə vuran Əlikram Hümbətovun və onun ətrafındakı quldur dəstələrinin cənub bölgəsində «Talış-Muğan Respublikası» elan etməsi, şimalda separatçılıq meyllərinin güclənməsi vəziyyəti daha da kəskinləşdirirdi.

Gəncə hadisələri ölkədəki xaos və anarxiyadan cana doymuş xalqın səbr kasasını dolduran son damla oldu. Hazırda müxalifətin bir sıra xadimləri Surət Hüseynov faktorunun yaranmasını müxtəlif qüvvələrin marağının olmasında görürlər. Aydındır ki, bununla onlar məsuliyyətdən qaçmaq, qardaş qırğınını başqasının ayağına yazmaq niyyəti güdürlər. Surət Hüseynov kimi adamların yüksək vəzifələrə qalxması və sonradan azğınlaşmasının səbəbkarı məhz AXC-Müsavat iqtidarı idi.

Məişət düşüncəsi səviyyəsindən yuxarı qalxa bilməyən Surət Hüseynova Milli qəhrəman adı, polkovnik rütbəsi verilmiş, o, Prezidentin Dağlıq Qarabağ üzrə səlahiyyətli nümayəndəsi, Baş nazirin müavini təyin edilmişdi. Az bir zaman ərzində yüksək vəzifələr əldə edən Surət Hüseynov isə özünü, həqiqətən, böyük sərkərdə, xalqın taleyini həll edə biləcək təkrarsız bir adam saymağa başlamışdı.

4 iyun hadisələri AXC-Müsavat hakimiyyətinin məntiqi süqutunu yaxınlaşdırdı. O vaxtlar müxtəlif dairələrdə və geniş xalq kütlələri arasında Heydər Əliyevin hakimiyyətə dəvət edilməsi barədə fikirlər getdikcə daha tez-tez səslənirdi. İyunun 9-da Heydər Əliyev xalqın arzusu və iqtidarın dəvəti ilə Bakıya gəldi. Onun parlamentdə çıxışı, sonra isə Gəncəyə səfəri respublika əhalisində böyük ümidlər yaratdı. Səfər vətəndaş qarşıdurmasının genişlənməsinin qarşısını aldı. 1993-cü il iyunun 15-də Heydər Əliyev Ali Sovetin sədri seçildi. 1993-cü il iyunun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətləri möhtərəm Heydər Əliyevə verildi. Həmin ilin avqustunda keçirilən referendumda ölkə vətəndaşları AXC - Müsavat iqtidarına tam etimadsızlıq göstərdilər. Oktyabrda keçirilən Prezident seçkilərində isə xalqın mütləq əksəriyyəti öz müdrik oğlu Heydər Əliyevə səs verdi və onu dövlət başçısı seçdi.

Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanı 1920-ci ildəki aqibətdən xilas etdi. On minlərlə zəhmətkeşin, ziyalının, xalqın müxtəlif təbəqələrinin müraciətini nəzərə alaraq Azərbaycan Respublikasının Milli Məclisi 1997-ci il 27 iyun tarixli qərarı ilə Heydər Əliyevin hakimiyyətə qayıdışını Azərbaycan xalqının və müstəqil Azərbaycan dövlətinin qurtuluşunun başlanğıcı kimi dəyərləndirərək, 15 iyun gününü Milli qurtuluş günü elan etmişdir.

Bu qayıdışla Azərbaycan onu gözləyən fəlakətlərdən xilas oldu. Müstəqilliyimizin dönməzliyi və əbədiliyi təmin edildi, ölkə dövlət və hakimiyyət böhranından azad olundu. Respublikamızın ərazi bütövlüyünə böyük təhlükə olan «Talış-Muğan Respublikası» iddiasına son qoyuldu.

Uzaqgörən siyasətçi kimi Heydər Əliyev yaxşı bilirdi ki, xalqı, dövləti Qurtuluşdan Tərəqqiyə aparmaq üçün sabitlik lazımdır. Ölkədə vətəndaş

müharibəsi dayandırıldı. Cəbhə xəttində atəşkəs əldə olundu. Dövlət çevrilişi cəhdlərinin, terror aktlarının qarşısı alındı, ordu quruculuğunda əməli tədbirlər görüldü və Azərbaycanın güclü silahlı qüvvələri yaradıldı.

Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizama salınmasına dair danışıqlara başlanıldı. Azərbaycanın haqq səsi dünya birliyi tərəfindən dəstəkləndi. Heydər Əliyevin dünyanın aparıcı dövlətlərinin başçıları ilə keçirdiyi görüşlər münaqişənin sülh yolu ilə həllinə böyük zəmin yaratdı.

Ölkədə əsl quruculuq işi başlandı, ağır iqtisadi və siyasi məsələlərin həlli ilə bağlı mühüm tədbirlər görüldü, Azərbaycan tarixinin qaranlıq səhifələri açıldı, xalqın milli-mənəvi dəyərlərinin qorunması və dilimizin inkişafı sahəsində əməli addımlar atıldı.

Azərbaycanlılara qarşı yeridilən etnik təmizləmə siyasəti ilk dəfə açıqlandı və Prezidentin 1997-ci il 18 dekabr tarixli «1948-53-cü illərdə azərbaycanlıların Ermənistan SSR-dəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında» fərmanında ona siyasi qiymət verildi. Qaçqınların vəziyyəti ilə əlaqədar ölkənin qanunvericilik orqanı onların statusu haqqında bir sıra hüquqi aktlar qəbul etdi.

Dövlət başçısı 2001-ci il avqustun 22-də «Erməni millətçilərinin apardığı etnik təmizləmə nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında» və 2001-ci il 7 sentyabr tarixli «Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğalı nəticəsində Ağdam və Füzuli rayonlarından didərgin düşmüş və çadır düşərgələrində müvəqqəti yerləşdirilmiş məcburi köçkünlərin bir qisminin həmin rayonların ərazisində məskunlaşdırılması ilə bağlı bəzi tədbirlər haqqında» fərmanlar imzaladı. Bu fərmanlarla ilk dəfə olaraq neft sənayesinin inkişafı sayəsində Dövlət Neft Fondunda toplanmış vəsaitin böyük bir hissəsi qaçqınlar və məcburi köçkünlər üçün ayrıldı.

1995-ci ildən başlayaraq Azərbaycanda iqtisadiyyatda, mədəniyyətdə, mənəviyyatda tərəqqi dövrü yaşandı. Ölkəyə xarici investisiya axını başladı. Neft, kimya, elektroenergetika, kənd təsərrüfatı, yeyinti sənayesi və iqtisadiyyatın digər sahələrində müsbət nəticələr əldə edildi. İlbəil artan iqtisadi inkişaf sayəsində əhalinin həyat səviyyəsi yüksəldi.

Azərbaycan bölgənin iqtisadi tərəqqisinə təkan verəcək Qədim İpək Yolunun bərpası, Bakı - Tbilisi - Ceyhan əsas neft ixrac kəmərinin, Bakı - Tbilisi - Ərzurum qaz kəmərinin çəkilməsi kimi nəhəng layihələrin əsas iştirakçılarından birinə çevrildi.

Azərbaycan Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in, Parlamentlərarası İttifaqın, Avroatlantika Tərəfdaşlıq Şurasının, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının, İslam Konfransı Təşkilatının, Müstəqil Dövlətlər Birliyinin, İqtisadi Əməkdaşlıq Təşkilatının və bir sıra digər nüfuzlu beynəlxalq təşkilatların bərabər hüquqlu üzvü, Gürcüstanı, Ukraynanı, Özbəkistanı, Azərbaycanı, Moldovanı birləşdirən GUÖAM regional qurumunun təşəbbüsçüsü və fəal iştirakçısıdır.

Ən böyük nailiyyətlərimizdən biri yeni əsrin ilk günlərində Azərbaycanın Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata üzv qəbul edilməsidir. Bu gün Azərbaycanın üçrəngli bayrağı Strasburqda Avropa Şurasının binası önündə dalğalanır.

Respublika Prezidentinin rəhbərliyi ilə müstəqil dövlətimizin Konstitusiyası qəbul olundu. Azərbaycanın dövlətçilik tarixində ilk dəfə olaraq real hakimiyyət bölgüsü prinsipi tətbiq edildi. Qanunvericilik və icra hakimiyyəti ilə bərabər, hakimiyyətin müstəqil bir qolu kimi məhkəmə orqanlarının fəaliyyəti təmin edildi. Hakimiyyətin hər üç qolu arasında əməli əməkdaşlıq yarandı.

Müstəqil Azərbaycanın Milli Məclisinə, yerli özünüidarə orqanlarına azad və demokratik seçkilər keçirildi. Seçkili orqanlarda xalqımızın ən layiqli oğul və qızları təmsil olundu. Parlament seçkilərində Yeni Azərbaycan Partiyası Milli Məclisdə ən çox sayda yer əldə edərək böyük uğur qazandı və bununla ölkənin aparıcı siyasi partiyası olduğunu bir daha sübut etdi. Hələ 1992-ci ilin oktyabrında «91-lər»in Yeni Azərbaycan Partiyasının yaradılması ilə əlaqədar Heydər Əliyevə etdikləri müraciətdə belə bir fikir vurğulanırdı: **«Əgər bu partiyanın əsası Sizin kimi təcrübəli dövlət xadimi tərəfindən qoyularsa, onda o, bizim xalqın bir neçə nəsli üçün siyasi kamillik məktəbinə çevrilə bilər.»** Tarix bu sözlərin doğruluğunu bir daha təsdiqlədi.

Ötən on il ərzində Yeni Azərbaycan Partiyası sıralarında siyasətçilərin yeni nəsli yetişmişdir. Onların arasında birincilər sırasında İlham Əliyevin adını çəkə bilərik. İctimai-siyasi və dövlət quruculuğu sahələrində fəaliyyəti sayəsində o, geniş xalq kütləsinin böyük rəğbətini qazanmışdır. İlham Əliyev ictimai şüurda özünü lider kimi təsdiqləyə bilmişdir.

Əsrlər boyu azadlıq amalını qəlbində yaşatmış xalqımız XX əsrin sonlarında əldə etdiyi müstəqilliyini bütün türk dünyasının ən nadir tarixi simalarından sayılan Heydər Əliyev dühası ilə qoruyub saxlayaraq onun əbədiliyini və dönməzliyini təmin edə bildi. Ötən on il ərzində müstəqil Azərbaycan mübarizələrlə dolu şərəfli bir yol keçərək xalqımızın azad, müstəqil yaşamaq əzmini bütün dünyaya nümayiş etdirdi. Respublika Prezidenti bu barədə belə demişdir: **«…bütün çətinliklərə baxmayaraq Azərbaycan xalqı on il müstəqil yaşayıb və bundan sonra da daim müstəqil yaşayacaqdır.»**

Xalqımız inanır ki, XXI əsrdə doğma Azərbaycanımız daha yüksək zirvələr fəth edərək, öz tarixinin yeni şanlı səhifələrini yazacaqdır.

*Ziyafət ƏSGƏROV,*
*Azərbaycan Respublikası*
*Milli Məclisi sədrinin müavini*

# DÖVLƏT MÜSTƏQİLLİYİMİZİN ONUNCU İLDÖNÜMÜ – AZƏRBAYCAN PARLAMENTİ MÜASİR MƏRHƏLƏDƏ

Azərbaycan xalqının ikinci dəfə azadlığa qovuşması, daha dəqiq desək, müstəqilliyimizin bərpası çox gərgin, keşməkeşli bir dövrə təsadüf edir. 1991-ci il oktyabrın 18-də ölkə parlamentində qəbul olunmuş «Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında» Konstitusiya Aktında deyilir: **«Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan Milli Şurasının 1918-ci il mayın 28-də qəbul etdiyi İstiqlal Bəyannaməsinə, Azərbaycan Respublikasının demokratik prinsiplərinin və ənənələrinin varisliyinə əsaslanaraq və «Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında» Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli bəyannaməsini rəhbər tutaraq bu Konstitusiya Aktını qəbul edir və müstəqil Azərbaycan Respublikasının dövlət quruluşunun, siyasi və iqtisadi quruluşunun əsaslarını təsis edir.»**

Azərbaycan xalqının tarixində son dərəcə böyük əhəmiyyət kəsb edən bu əlamətdar hadisəyə qədər, yəni xalqımız əsrlər boyu ürəyində yaşatdığı müqəddəs amalına - müstəqilliyinə qovuşana qədər keçdiyimiz yol heç də hamar olmamışdır. Müstəqilliyimiz qəhrəman vətən övladlarının qanı bahasına qazanılmışdır. Bu tarixi dönəmə qədər keçilmiş mübarizə dolu illər hamımızın yaxşı xatirindədir.

Məlumdur ki, 1980-ci illərin sonlarında Sovet imperiyasının dayaqları sarsılmışdı. Buna baxmayaraq, imperiyapərəst qüvvələr keçmiş Sovetlər Birliyini hər vəchlə yaşatmağa çalışır, bunun üçün dəridən-qabıqdan çıxırdılar. Eyni ssenarilər üzrə keçmiş sovet respublikaları arasında qəsdən nifaq yaradılır, «parçala, hökm sür» prinsipinə uyğun olaraq, ayrı-ayrı nöqtələrdə süni şəkildə müharibə ocaqları yaradılırdı. Bu ocaqlardan biri də Dağlıq Qarabağda peyda oldu. «Böyük Ermənistan» yaratmaq xülyası ilə uzun illər boyu bütün bəd niyyətlərini həyata keçirməyə cəhd edən məkrli erməni separatçıları torpaq iddiası ilə müxtəlif terror aktları həyata keçirməyə başladılar. Tarixən öz torpağına, yurduna böyük sədaqətlə bağlı olan xalqımız ayağa qalxdı.

Artıq etiraz dalğası bütün Azərbaycanı bürümüşdü. Səslənən şüarlar təkcə Qarabağla bağlı deyildi. Xalq sovet imperiyasının çürük mahiyyətini dərk

etdiyindən onun süqutunu açıq-aydın görür, müstəqilliyimizin əldə edilməsi naminə əlindən gələni əsirgəmirdi.

Sovet imperiyasının üzdəniraq rəhbərləri və onların respublikamızdakı əlaltıları o vaxt xalqın istəyi əleyhinə gedərək başqa yol tutmuşdular. Bu yol azərbaycanlıları susdurmaq, kölə vəziyyətinə salmaq, Qarabağı ermənilərə «peşkəş etmək» idi. Məhz elə bu səbəbdən də 1990-cı ilin 20 yanvarında hər birimizin xatirində qanlı bir faciə kimi qalmış dəhşətli hadisə baş verdi. Sovet imperiyasının tankları Azərbaycanın paytaxtında əliyalın insanları qanına qəltan etdi. Təkcə Bakı şəhərində deyil, Azərbaycanın digər bölgələrində də şəhidlər xiyabanları yarandı. Lakin qara qüvvələr yanılırdılar. 20 yanvar ölümlə, faciə ilə bitsə də, şəhidlər öz qanları ilə ana torpağımıza azadlıq toxumu səpdilər. İmperiyapərəst qüvvələr isə öz bəd niyyətlərindən əl çəkmədilər, Ermənistan-Azərbaycan münaqişəsini daha da alovlandırdılar. 20 yanvar şəhidlərinə Qarabağ şəhidləri əlavə edildi. Lakin Sovet İttifaqı yaşaya bilmədi. Tarixi prosesin qarşısına əngəl çıxarmaq istəyən sovet ideoloqları başa düşdülər ki, bu quruluşa nə qədər yamaq vurulsa da, daha onu yaşatmaq mümkün deyildir.

Beləliklə, Sovet İttifaqı dağıldı, respublikalar, sözün həqiqi mənasında, müstəqillik əldə etdilər. Bu müstəqilliyi qazananlardan biri də Azərbaycanımız oldu.

Aradan on il ötüb. Bu illər ərzində Azərbaycan parlamentinin keçdiyi inkişaf yolunu mən **iki mərhələyə ayırmaq istərdim. Birinci mərhələ 1991-ci il oktyabr ayının 18-dən 1993-cü il iyun ayının 15-nə qədərki dövrdür. İkinci mərhələ isə 1993-cü ildən bu günə kimi - ümummilli liderimiz möhtərəm Heydər Əliyevin başçılığı ilə keçdiyimiz inkişaf yoludur.**

Birinci mərhələdə 50 nəfər deputatdan ibarət Milli Şura yaradıldı. Sonra onun adı dəyişdirilərək Milli Məclis edildi. Dövlət atributlarımız - himnimiz, bayrağımız, gerbimiz qəbul edildi. Bir sıra qanunvericilik aktları qəbul olundu. Lakin ölkədəki qeyri-sabit vəziyyət, Azərbaycan dövlətinin və parlamentinin başında duranların siyasi naşılığı, Əbdürrəhman Vəzirovun, daha sonra Ayaz Mütəllibovun «buyruq qulu» olması, hakimiyyət başına gələn Əbülfəz Elçibəyin və parlamentin sədri İsa Qəmbərin ambisiyalı çıxışları, düşünülməmiş hərəkətləri, 25 nəfəri iqtidardan, 25 nəfəri isə müxalifətdən olan deputatların müxtəlif siyasi oyunlara cəlb edilməsi hakimiyyət böhranını günbəgün dərinləşdirdi. Doğrudur, bu illərdə parlamentdə reallığı dərk edən, siyasi korluğa qarşı qətiyyətlə mübarizə aparan deputatlarımız da var idi. Lakin onlar azlıqda idilər.

AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə torpaqlarımız bir-birinin ardınca işğal olunurdu. 1992-ci il fevral ayının 26-da Xocalıda faciə baş verdi. Bəşər tarixində görünməmiş cinayət işləndi. Uşaqlar, qocalar, qadınlar erməni qəsbkarlarının və onların havadarlarının güllələrinə tuş gəldi. Bunun ardınca 1992-ci il may ayının 8-də Şuşa, həmin il may ayının 18-də Laçın, 1993-cü il

aprel ayının 2-də isə Kəlbəcər işğal olundu. Dəhşətlisi o idi ki, şəhidlər xiyabanlarında cəbhədə döyüşən əsgərlər üçün əvvəlcədən məzarlar qazılırdı.

Milli Məclisdə isə xalqın başına gətirilən bu müsibətləri olduğu kimi xalqa çatdırmaq əvəzinə, iclasların qapalı, yaxud birbaşa yayımlanması ilə əlaqədar uzun-uzadı müzakirələr aparırdılar. Yəqin ki, həmin hadisələri əks etdirən, televiziya ilə verilən videoyazıları hamınız xatırlayırsınız. Qapalı iclas tərəfdarları olan dırnaqarası liderlər həqiqəti, real vəziyyəti xalqdan gizlətmək istəyirdilər.

Məhz belə bir vaxtda həm xarici, həm də daxili qüvvələr Azərbaycanı parçalamaq fikrinə düşdülər. Bu, ikinci dəfə qazandığımız müstəqilliyimizin itirilməsi ərəfəsi idi. Ən əziz nemət olan azadlığımızı itirmək təhlükəsi ilə üz-üzə dayanmışdıq. Xalq başa düşürdü ki, Azərbaycanı bütün bu bəlalardan, müsibətlərdən, faciələrdən yalnız Heydər Əliyev dühası qurtara bilər.

Azərbaycan xalqının qabaqcıl ziyalıları o vaxtlar Naxçıvan Ali Məclisinin sədri vəzifəsində çalışan Heydər Əliyevi Bakıya dəvət etdilər. Bu tarixi qayıdış öz bəhrəsini verdi. Möhtərəm Heydər Əliyev iyun ayının 15-də Ali Sovetin sədri seçildi və bu vəzifədə həmin il oktyabr ayının 3-nə qədər fəaliyyət göstərdi. Sonra isə xalqın arzu, istək, rəğbət və məhəbbətinə uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti seçildi.

Heydər Əliyevin Ali Sovetin 1993-cü il 15 iyun tarixli iclasındakı çıxışından: **«Mənə bu gün böyük etimad göstərdiyinə görə Milli Məclisin üzvlərinə, Azərbaycanın Ali Sovetinə minnətdarlığımı bildirirəm və sizi əmin edirəm ki, bütün imkanlardan istifadə edib bu böyük vəzifəni, ağır bir yükü aparmağa çalışacağam və bu vəzifənin ləyaqətlə yerinə yetirilməsinə səy edəcəyəm. Bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm.»**

Bu, elə bir vaxt idi ki, Gəncədə 4 iyun hadisələri baş vermiş, qan tökülmüşdü. Elə bir vaxt idi ki, Əlikram Hümbətov kimi separatçılar qondarma «Talış-Muğan Respublikası» yaratmaq, Azərbaycanı parçalamaq istəyirdilər. Elə bir vaxt idi ki, hələ də cəbhədə qan tökülür, torpaqlarımız düşmən tərəfindən zəbt edilirdi.

Belə çətin, ağır, mürəkkəb bir şəraitdə Heydər Əliyev Milli Məclisdəki fəaliyyətində ilk addım olaraq xalqla birbaşa təmasa keçdi. Milli Məclisin bütün iclasları, bütün mətbuat konfransları, brifinqlər, problem məsələlərə həsr olunmuş müşavirələr birbaşa yayımla televiziya ekranlarında göstərildi. Xalq hər şeydən xəbərdar oldu. Tədricən problemlərin həlli yolları ilə əlaqədar konstruktiv tədbirlər həyata keçirilməyə başlandı. 20 yanvar faciəsinə hüquqi və siyasi qiymət verildi. Qondarma «Talış-Muğan Respublikası» xülyası xalqın öz əli ilə məhv edildi. İqtisadiyyatda və həyatın başqa sahələrində irəliləyiş, inkişaf yarandı. Xalqın itirilmiş inamı özünə qaytarıldı.

Nüfuzlu dövlətlərlə AXC–Müsavat cütlüyü vaxtında pozulmuş münasibətlər bərpa edildi. Ən başlıcası isə sabitlik yarandı. İnsanlar qorxub-çəkinmədən küçəyə çıxa bildilər. Bütün bunlar Heydər Əliyev idarəçiliyinin, Heydər Əliyevin müdrik siyasətinin bəhrələri idi.

Heydər Əliyevin 1993-cü il iyunun 15-dən oktyabrın 3-dək Ali Sovetə rəhbərlik etdiyi dövrdə parlamentarizm ənənələri yeni nəfəs, yeni qüvvə aldı. Ordu quruculuğu sahəsində mühüm qərarlar qəbul edildi. «Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Konstitusiyada və müxtəlif hüquqi sənədlərdə dəyişikliklər edildi. Azərbaycan parlamentinin 1993-1994-cü illərdə fəaliyyəti, respublika Prezidenti Heydər Əliyevin Azərbaycanı dünya miqyasında tanıtmaq səyləri və bu sahədə əldə edilmiş uğurlar xarici düşmənləri və onların daxildəki tör-töküntülərini qorxuya saldı. 1994-cü ilin oktyabr və 1995-ci ilin mart aylarında dövlət çevrilişinə cəhdlər oldu. Amma bu çirkin, xain oyunlar heç bir nəticə vermədi. Həmişə olduğu kimi, bu dəfə də öz doğma xalqına arxalanan Heydər Əliyev dühası bəd niyyətlilərin arzusunu gözündə qoydu.

Möhtərəm Heydər Əliyev dövlət müstəqilliyimizin on illiyinə qiymət verərkən demişdir: **«Bu il Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsinin onuncu ildönümüdür. Oktyabr ayında biz bu tarixi hadisənin on illiyini layiqincə qeyd edəcəyik. Mən bu barədə xüsusi fərman vermişəm. Müxtəlif tədbirlər planı hazırlanır və biz on illik yubileyi qeyd etmək üçün ciddi hazırlaşmalıyıq və onunla bir daha nümayiş etdirməliyik ki, bütün çətinliklərə baxmayaraq Azərbaycan xalqı on il müstəqil yaşayıb və bundan sonra da daim müstəqil yaşayacaqdır.»**

Dövlət müstəqilliyi dövründə Azərbaycan parlamentinin keçdiyi yola nəzər saldıqda 1995-ci ildə Azərbaycanın yeni Konstitusiyasının qəbulunu və demokratik əsaslarla seçilmiş ilk parlamentinin həm birinci çağırışdakı, həm də indiki mərhələdəki fəaliyyətini xüsusi qeyd etməliyik. Beynəlxalq hüquq təcrübəsində sınaqdan çıxmış hakimiyyətin bölünməsi prinsipi əsasında fəaliyyət göstərən Azərbaycan Respublikasının Milli Məclisi onun qarşısında duran vəzifələrin öhdəsindən layiqincə gələrək Konstitusiya ilə müəyyən edilmiş səlahiyyətlərini həyata keçirməkdədir. Respublika Prezidenti möhtərəm Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda aparılan hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunda, müasir bazar münasibətlərinə söykənən iqtisadi islahatların həyata keçirilməsində, sosial münasibətlərin inkişafını təmin edən qanunvericilik bazasının yaradılmasında böyük irəliləyiş əldə edilmişdir.

Respublika Prezidenti möhtərəm Heydər Əliyev Milli Məclisin 1995-ci il 24 noyabr tarixli iclasında çıxış edərkən demişdir: **«Hesab edirəm ki, yeni seçilmiş parlament xalqımızın, Azərbaycanın intellektual, mədəni səviyyəsini, xalqımızın mənəvi varlığını təmsil edən, təcəssüm edən bir parlamentdir. Biz belə bir parlamentlə fəxr edə bilərik. Parlamentdə**

**Azərbaycanın tanınmış, hörmətli adamları, ziyalı adamları var. Belə olan halda, şübhəsiz ki, parlamentin işi də səmərəli olacaqdır və belə olan halda, hesab edirəm ki, hazırlanan, qəbul edilən qanunlar da Konstitusiyaya uyğun, bizim tutduğumuz yola, demokratiya prinsiplərinə uyğun qanunlar olacaqdır.»**

Ötən illər ərzində Milli Məclis öz işini Azərbaycan Respublikasının Konstitusiyası, Milli Məclisin Daxili Nizamnaməsi və «Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında» qanun əsasında qurmuşdur. Milli Məclis Respublika Prezidenti möhtərəm Heydər Əliyevin daxili və xarici siyasətini dəstəkləyir, ölkənin qanunvericilik orqanı qarşısında dayanan vəzifələri həyata keçirmək üçün əlindən gələni əsirgəmir.

1997-ci il iyun ayının 27-də Milli Məclis xalqımızın müxtəlif zümrələrinin, minlərlə seçicinin müraciətlərini, arzu və istəklərini nəzərə alaraq görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin respublikada hakimiyyətə qayıtdığı 15 iyun gününün Azərbaycan xalqının milli qurtuluş günü elan edilməsi barədə xüsusi qərar qəbul etdi. Bu qərar Azərbaycanın böyük oğlu, görkəmli siyasi xadim Heydər Əliyevə ümumxalq məhəbbətinin parlaq təzahürü idi.

Azərbaycanın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə ölkədə siyasi, iqtisadi, sosial islahatların həyata keçirilməsi, dövlətimizin beynəlxalq birliyə tam hüquqlu üzv kimi qəbul olunması üçün müvafiq hüquqi bazanın yaradılması istiqamətində Azərbaycan Respublikasının Milli Məclisi mühüm addımlar atmışdır.

Bunlar bir tərəfdən Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunun təmin edilməsi, çoxpartiyalılığa, müxtəlif siyasi cərəyanların ideyalarının azad ifadə olunmasına əsaslanan siyasi sistemin yaradılması, insan və vətəndaş hüquqlarının qorunmasına qulluq edən təsisatların formalaşması, digər tərəfdən isə, ölkəmizdə azad rəqabətə, inkişaf etmiş mülki dövriyyəyə, müasir bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın qurulması məqsədini güdən qanunvericilik tədbirlərini əhatə etmişdir.

İlk növbədə qeyd etməliyəm ki, müstəqil Azərbaycan Respublikasının dövlət hüquq təsisatlarının və yerli özünüidarə sisteminin formalaşması üçün parlamentimiz «Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında», «Azərbaycan Respublikası Prezidentinin seçkiləri haqqında», «Bələdiyyələrə seçkilərin qaydaları haqqında» qanunları qəbul etmişdir. Bu qanunlar dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarının hüquq ekspertizasından keçərək yüksək qiymət almışdır. Bu və digər qanunlar əsasında hakimiyyətin müxtəlif qolları – qanunvericilik, icra, məhkəmə hakimiyyətləri daha da inkişaf etmiş, eyni zamanda ölkəmizdə ilk dəfə olaraq dünya praktikasına əsaslanan yerli özünüidarə sistemi yaranmışdır.

Azərbaycanda yeni hüquqi sistemin yaradılması istiqamətində də parlamentimiz tərəfindən bir çox önəmli addımlar atılmışdır. Burada mən ilk növbədə yeni məcəllələrin - Cinayət, Cinayət-Prosessual, Mülki, Mülki-

Prosessual, İnzibati Xətalar, Əmək, Ailə, Vergi, Gömrük məcəllələrinin qəbulunu xüsusi vurğulamaq istəyirəm. Belə irimiqyaslı qanun yaradıcılığı tədbirlərinin həyata keçirilməsi Azərbaycanda hüquq təfəkkürünün yüksək səviyyəsindən, parlament üzvlərinin tarixi məsuliyyətini dərk etməsindən və ölkənin inkişafı üçün əllərindən gələni əsirgəmədiklərindən xəbər verir. Bir məsələni də ayrıca qeyd etmək istərdim. Bütün qəbul edilən sənədlərdə dövlətimizin başçısının xüsusi həssaslıqla yanaşdığı insan hüquqlarının qorunması prinsipi təmin edilmişdir.

Möhtərəm Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən hüquq islahatları hüquq mühafizə orqanları sisteminin yenidən formalaşmasını tələb edirdi. Bu məqsədlə Milli Məclis tərəfindən «Konstitusiya Məhkəməsi haqqında», «Məhkəmələr və hakimlər haqqında», «Polis haqqında», «Prokurorluq haqqında», «Əməliyyat-axtarış fəaliyyəti haqqında», «Vəkillər və vəkillik fəaliyyəti haqqında», «Dövlət məhkəmə ekspertizası haqqında», «Məhkəmə və hüquq mühafizə orqanlarının dövlət mühafizəsi haqqında» qanunlar qəbul edilmişdir. Beynəlxalq standartlar səviyyəsində hazırlanan bu qanunlar ölkəmizdə inkişaf etmiş hüquqi təsisatlar yaradılmasına imkan vermişdir.

İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunması üçün hüquqi təminatlar daim Milli Məclisin diqqət mərkəzində olmuşdur. Bu sırada mən xüsusi olaraq bir məsələni vurğulamaq istəyirəm.

1998-ci ildə respublika Prezidenti möhtərəm Heydər Əliyevin təşəbbüsü ilə Şərqdə ilk dəfə olaraq ölkəmizdə ölüm cəzası ləğv edilmiş və bu barədə Milli Məclisdə müvafiq qərar qəbul olunmuşdur. Yeni Cinayət Məcəlləmizdə belə bir cəza artıq nəzərdə tutulmur və bu addım ümumiyyətlə dövlətin cəza siyasətinin humanistləşməsinin mühüm bir göstəricisidir.

Həmçinin qeyd etməliyəm ki, keçən dövr ərzində insanpərvərlik və humanizm prinsiplərinə əsaslanan dövlət başçısı möhtərəm Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclis tərəfindən 6 dəfə amnistiya qərarları qəbul edilmiş və bunlar nəticə etibarilə 63.777 nəfərə tətbiq edilmişdir.

Ölkəmizdə insan hüquqlarının qorunması üzrə yeni sistemin yaranmasının parlaq təzahürlərindən biri də «İnsan hüquqları üzrə müvəkkil (ombudsman) haqqında» qanun layihəsinin müzakirəyə çıxarılmasıdır. Belə bir hüquqi təsisatın yaradılması qabaqcıl dövlətlərdə tətbiq edilən səmərəli institutların ölkəmizdə fəaliyyət göstərməsinə şərait yaradacaqdır.

Milli Məclis söz və mətbuat azadlığı sahəsində də aparılan dövlət siyasətini həmişə dəstəkləmişdir. Ölkədə mətbuat üzərindən senzura tamamilə götürülmüş, «Kütləvi informasiya vasitələri haqqında» yeni demokratik qanun Milli Məclisin müzakirəsinə verilmiş və qəbul edilmişdir. Bu qanun Azərbaycan Respublikasında kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi və yayılmasının ümumi qaydalarını müəyyənləşdirmiş, bu sahədəki fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən etmişdir.

Milli Məclisdə əhalinin sosial təminatının yaxşılaşdırılması, aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi sahəsində də əhəmiyyətli sənədlər qəbul olunmuşdur. Onlardan «Əhalinin sağlamlığının qorunması haqqında», «Sosial sığorta haqqında», «Əlillərin sosial müdafiəsi haqqında» və başqa sənədləri misal gətirmək olar.

Ötən dövrdə Milli Məclis mütəmadi olaraq Azərbaycan Respublikası Dövlət büdcəsinin təsdiqi, onun icrası məsələlərinə xüsusi diqqət yetirmiş, «Dövlət büdcəsi haqqında» və «Dövlət büdcəsinin icrası haqqında» qanunlar qəbul etmişdir.

1996-1997-ci illərdə ölkədə aparılan islahatların həyata keçirilməsi istiqamətlərini müəyyənləşdirən 282 qanun, 81 qərar qəbul edilmişdir.

1998-ci ilin payız sessiyasında (sentyabrın 30-dan dekabrın 29-dək), 1999-cu ilin yaz və növbədənkənar sessiyalarında (fevralın 1-dən iyulun 2-dək) ümumən 178 sənəd, o cümlədən 151 qanun, 27 qərar qəbul olunmuşdur. Bu dövrdə 48 qanuna dəyişikliklər və əlavələr edilmiş, 55 qanunla beynəlxalq müqavilələr və konvensiyalar təsdiq olunmuşdur. Naxçıvan Muxtar Respublikası Konstitusiyasının təsdiq edilməsi haqqında Konstitusiya Qanunu qəbul edilmişdir.

1999-cu ilin payız sessiyasında (sentyabrın 30-dan dekabrın 29-dək), 2000-ci ilin yaz və növbədənkənar sessiyalarında (fevralın 1-dən iyulun 17-dək) ümumən 369 sənəd, o cümlədən 213 qanun, 20 qərar qəbul olunmuşdur. Bu dövrdə 25 qanuna dəyişikliklər və əlavələr edilmiş, 111 beynəlxalq müqavilə və konvensiya təsdiq olunmuşdur.

2001-ci ilin yaz və növbədənkənar sessiyalarının 43 iclasında 118 qanun və qərar, o cümlədən «Qırmızı Xaç və Qırmızı Aypara emblemlərindən istifadə və onların müdafiəsi haqqında», «Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında», «Diplomatik xidmət haqqında», «Ahıllara sosial xidmət haqqında», «Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında», «Narkoloji xidmət və nəzarət haqqında», «Cinayət işlərinə dair hüquqi yardım haqqında», «Prokurorluğun rəsmi emblemi haqqında», «Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim forması haqqında», «Prokurorluq orqanlarında qulluq keçmə haqqında», «İnsan hüquqları üzrə müvəkkil (ombudsman) haqqında» qanunlar qəbul olunmuş, habelə «Dövlət vergi orqanlarında xidmət haqqında», «Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında», «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında» əsasnamələr təsdiq edilmişdir.

Parlamentimizin fəaliyyətinin mühüm bir hissəsini də nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq təşkil etmişdir. Bu sırada mən Avropa Şurasının Parlament Assambleyası, NATO-nun Parlament Assambleyası, Avropa Parlamenti, Parlamentlərarası İttifaq, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisi, ATƏT-in, MDB-nin, İslam Konfransı Təşkilatının Parlament Məclisləri ilə səmərəli əməkdaşlığı nümunə göstərə bilərəm.

Mən həmçinin parlamentimizin bir sıra məsələlərə dair keçirdiyi tədbirləri də qeyd etmək istərdim. Bunların sırasında Milli Məclisdə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı ilə birlikdə keçirilən «Azərbaycan Respublikasında ombudsman təsisatı» mövzusunda elmi-praktik konfrans, Avropa Şurası ilə birlikdə keçirilən «Qanun yaradıcılığı texnikası və prosedurları» seminarı xüsusi vurğulanmalıdır.

Milli Məclis ölkəmizin təbii sərvətlərindən xalqın rifahı naminə istifadə edilməsi sahəsində də mühüm işlər görmüşdür.

Xəzərin Azərbaycana məxsus sektorunda neft yataqlarının kəşfiyyatına, işlənməsinə və hasilatın pay bölgüsünə dair Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə ABŞ-ın, Böyük Britaniyanın, Norveçin, Fransanın, Rusiyanın, Yaponiyanın, İtaliyanın və sair dövlətlərin iri neft şirkətləri arasında imzalanmış sazişlər Milli Məclisdə geniş müzakirədən sonra təsdiqlənmiş və qanuni qüvvəyə minmişdir.

Bu gün respublikamız təkcə regional deyil, qlobal layihələrin də həyata keçirilməsinin təşəbbüsçülərindən və fəal iştirakçılarından biridir. Qədim Tarixi İpək yolunun bərpası istiqamətində mühüm işlər görülmüşdür. «Tarixi İpək yolunun bərpası üzrə Beynəlxalq Konfransda imzalanmış Bakı Bəyannaməsinin təsdiq edilməsi barədə», «Tarixi İpək yolunun bərpası üzrə Beynəlxalq Konfransda imzalanmış Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafına dair Beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Sazişin təsdiq edilməsi barədə» qanunları misal göstərmək olar.

İqtisadiyyatda bazar münasibətlərinin bərqərar edilməsi, özəlləşdirmənin mərhələlərlə həyata keçirilməsi, bu sahədə islahatların mütəşəkkil aparılması üçün hüquqi bazanın yaradılması da daim Milli Məclisin diqqət mərkəzində olmuşdur. Bu qanunlar iqtisadiyyatda aparılan islahatların qanunvericilik bazasını xeyli möhkəmləndirmiş, bu sahədə daha böyük nailiyyətlərin əldə edilməsi üçün hüquqi təminat yaratmışdır.

Milli Məclis kənd təsərrüfatı sahəsində köklü islahatların həyata keçirilməsinə dair böyük əhəmiyyətli qanunlar qəbul etmişdir. Torpağın xüsusi mülkiyyətə verilməsini nəzərdə tutan «Torpaq islahatı haqqında» Qanun, mübaliğəsiz demək olar ki, postsovet məkanında kənd təsərrüfatı islahatlarının aparılması sahəsində atılmış ən cəsarətli addımlardan biridir.

1999-cu il dekabr ayının 12-də bələdiyyə seçkilərinin keçirilməsi üçün görülmüş işlər xüsusi əhəmiyyətə malikdir. Belə ki, parlament bu sahədə çoxlu qanunlar qəbul etmişdir.

Hərbi qanunvericilik sahəsində də ciddi işlər görülmüşdür. Ordu quruculuğu, silahlı qüvvələrin möhkəmləndirilməsi və bu sahəyə qayğının artırılması Milli Məclisin diqqətindən kənarda qalmamışdır.

Milli Məclis respublikada mədəniyyət, elm və təhsilin inkişafına böyük diqqət yetirmiş, qanun layihələri üzərində ciddi iş aparılmışdır.

Ermənistanın Azərbaycana təcavüzü nəticəsində respublikamızda bir milyondan artıq qaçqın və məcburi köçkün vardır. Onların sosial durumunun

yaxşılaşdırılması, onlara dövlət qayğısının artırılması ilə bağlı Milli Məclis qanunvericilik hakimiyyəti kimi «Qaçqınların və ölkə daxilində köçürülmüş şəxslərin (məcburi köçkünlərin) statusu haqqında», «Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında», «Erməni silahlı qüvvələrinin hərbi təcavüzünə məruz qalmış ərazilərin yaşayış məntəqələrindəki fiziki və hüquqi şəxslərin 1998-ci il yanvarın 1-dən 2002-ci il yanvarın 1-dək əmlak vergisini ödəməkdən azad edilməsi haqqında» qanunlar qəbul etmişdir.

Dağlıq Qarabağ problemi ilə əlaqədar Milli Məclisin deputatları Azərbaycanın haqq səsinin beynəlxalq təşkilatlar vasitəsi ilə dünya ictimaiyyətinə çatdırılması üçün səmərəli fəaliyyət göstərirlər. Parlamentimiz Dağlıq Qarabağ məsələsinin Azərbaycanın ərazi bütövlüyü, dövlət sərhədlərinin toxunulmazlığı əsasında ədalətli həlli üçün öz səlahiyyətləri daxilində bütün imkanlardan istifadə edir və gələcəkdə də edəcəkdir.

Ən böyük nailiyyətlərimizdən biri 2001-ci ilin yanvar ayında Avropa Şurasına üzv qəbul olunmağımızdır. İndi müstəqil Azərbaycanın üçrəngli bayrağı Avropa Şurası kimi nüfuzlu təşkilatın binası önündə dalğalanır.

Bu gün bizim ən böyük problemimiz Ermənistan-Azərbaycan münaqişəsidir. Bu il fevral ayının 23-də və 24-də Prezidentimizin təşəbbüsü ilə Milli Məclisdə keçirilən iclaslar, möhtərəm Heydər Əliyevin dərin məzmunlu nitqləri, aparılan müzakirələr bir daha təsdiq etdi ki, bu problemin həlli yolunda bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. Həmin yığıncaqda möhtərəm Heydər Əliyev demişdir: **«Onu bilin, bu gün də, sabah da Heydər Əliyev Azərbaycan xalqının mənafeyinə zidd olan heç bir şeyi qəbul etməz.»**

Heydər Əliyevin bu qətiyyətli sözləri xalqımızda bir daha böyük inam yaradır ki, Ermənistan-Azərbaycan münaqişəsinin həlli müdrik öndərimiz, ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə mümkündür.

Möhtərəm Heydər Əliyev Milli Məclisin 2001-ci il 23 fevral tarixli iclasında parlamentin fəaliyyətinə isə aşağıdakı kimi qiymət vermişdir:

**«Biz dövlət müstəqilliyi əldə ediləndən sonra Azərbaycanın ilk Konstitusiyası əsasında seçilmiş Milli Məclisin, keçmişdə olan Milli Məclisin fəaliyyətini bu gün məmnuniyyət hissi ilə layiqincə qiymətləndirməliyik.**

**İkinci dəfə seçilən Milli Məclis, hesab edirəm ki, öz tərkibinə görə, səviyyəsinə görə daha da keyfiyyətlidir. Tam əminəm ki, işinə yeni başlamış Milli Məclis keçən dövrdən də məhsuldar işləyəcək və əldə olunmuş təcrübədən səmərəli istifadə edəcəkdir. Beləliklə, Azərbaycanda dövlət müstəqilliyinin daha da möhkəmlənməsi üçün və müstəqil dövlətin qarşısında duran vəzifələrin həyata keçirilməsi üçün ali qanunvericilik orqanı kimi öz üzərinə düşən vəzifələri yerinə yetirəcəkdir.»**

Bu gün Azərbaycanın Milli Məclisi möhtərəm Prezidentimizin həyata keçirdiyi daxili və xarici siyasəti dəstəkləyərək Azərbaycanın 83 il bundan

öncə fəaliyyətə başlamış ilk parlamentinin işini davam etdirir, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə yönəldilmiş mühüm qanunvericilik aktlarının qəbul edilməsi istiqamətində məqsədyönlü fəaliyyət göstərir.

İnanıram ki, Milli Məclis öz üzərinə düşən tarixi vəzifələri bundan sonra da layiqincə həyata keçirəcək, demokratik islahatların hüquqi bazasının yaradılmasında əlindən gələni əsirgəməyəcəkdir.

*Gövhər BAXŞƏLİYEVA,*
*Azərbaycan Respublikası*
*Milli Məclisi sədrinin müavini*

# PARLAMENTİMİZ VƏ QADIN DEPUTATLAR

Yaşadığımız 2001-ci il Azərbaycanın ictimai-siyasi həyatında bir çox əlamətdar hadisələrlə zəngindir. Bunlardan ən önəmlisi isə Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin fərmanı ilə dövlət müstəqilliyimizin 10 illiyinin qeyd olunmasıdır.

Xalqımızın azadlıq və milli istiqlal uğrunda mübarizə tarixi şanlı və şərəfli olduğu qədər də faciəvi olub. Faciəvi olub ona görə ki, zaman-zaman tarixi şəraitin və xalqın azadlıq ruhunun hökmü ilə milli haqlarımız uğrunda gedən mücadilələr bir çox hallarda son nəticədə məğlubiyyətə uğramış, ata-babalarımızın müstəqillik arzusu yadelli işğalçılar tərəfindən qan içində boğulmuşdur. Ən ibrətamiz və təəssüfləndirici hal odur ki, bu acı məğlubiyyətlərdə obyektiv proseslərlə yanaşı, subyektiv amillərin də ciddi təsiri olmuşdur. Daxili çəkişmələr və münaqişələr, regional və sinfi maraqların milli mənafelərdən üstün tutulması, başlıcası isə, xalqın bütün təbəqələrini vahid məqsəd ətrafında birləşdirməyi bacaran ümummilli liderin olmaması məhz bu cür subyektiv amillərdəndir ki, xarici müdaxiləyə meydan açmış, milli müstəqillik üçün yaranmış tarixi şansın gerçəkləşməsinə imkan verməmişdir. Bunu bütün dünyada milli dövlətlərin formalaşması prosesinin getdiyi bir zamanda (XVIII əsrdə) Azərbaycanın xanlıqlara parçalanması da, Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin cəmi 23 ay yaşadıqdan sonra süquta uğraması da təsdiq edir.

XX əsrin sonunda xalqımızın milli istiqlala qovuşması üçün növbəti tarixi şərait yarandı. 1991-ci ildə SSRİ-nin süquta uğraması digər müttəfiq respublikalarla yanaşı Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi ilə nəticələndi. Lakin bir tərəfdən Ermənistanın torpaqlarımıza təcavüzü, digər tərəfdən isə hakimiyyət təcrübəsi və səriştəsi olmayan qüvvələrin daxili və xarici siyasətdə buraxdığı səhvlər xalqımızı ciddi sınaq qarşısında qoydu. Siyasi didişmələr və silahlı qruplaşmaların mübarizəsi ölkəni vətəndaş müharibəsi həddinə gətirib çıxardı. Daxili hərc-mərclik, hakimiyyət orqanlarının iflic vəziyyətinə düşməsi yenicə qazanılmış müstəqilliyin itirilməsinə səbəb ola bilərdi. Lakin bu dəfə tarix təkrarlanmadı, çünki əvvəlki dövrlərdən fərqli olaraq indi xalqın bütün təbəqələrinin inandığı və hörmət bəslədiyi ümummilli lider, böyük siyasi iradəyə və təcrübəyə malik şəxsiyyət - Heydər Əliyev şəxsiyyəti var idi. Xalqın mütləq əksəriyyətinin, o cümlədən

hakimiyyət nümayəndələrinin təkidli tələbi ilə Bakıya gəlib Ali Sovetin sədri, daha sonra ölkə Prezidenti seçilən Heydər Əliyev müstəqilliyimizə qarşı yönəlmiş, necə deyərlər, ənənəvi ssenarini pozdu. Azərbaycanın hansısa xarici qüvvələrin əlində oyuncağa çevrilməsinə imkan vermədi. Bu, çoxminillik tariximizdə şəxsiyyətin roluna dair ən bariz nümunə, ən parlaq örnəkdir.

1993-cü ilin son dərəcə gərgin şəraitində möhtərəm Prezidentimizin daxili sabitliyi təmin etmək, xarici təzyiqlərin qarşısını almaq və beləliklə, dövlət müstəqilliyimizi qoruyub saxlamaq istiqamətində həyata keçirdiyi nəhəng işlər, daha sonra dövlət quruculuğu prosesinin uğurla aparılması, bazar iqtisadiyyatına keçid üçün məqsədyönlü tədbirlərin görülməsi, ordu quruculuğu, beynəlxalq münasibətlərdə bərabərhüquqlu əlaqələrin inkişaf etdirilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, demokratik vətəndaş cəmiyyətinin yaradılması yolunda ciddi addımların atılması və başqa tədbirlər bu gün öz bəhrəsini verir. Ötən illər ərzində Azərbaycan dövləti möhkəmləndirildi və inkişaf etdirildi, onun geosiyasi əhəmiyyəti yüksəldi, ölkəmiz qlobal əhəmiyyətli iqtisadi layihələrin mərkəzinə çevrildi.

Son illər Azərbaycan Respublikasında gedən inkişaf proseslərinin üstün istiqamətlərindən biri demokratikləşmə fonunda qadın problemi, qadın hərəkatı, qadın hüquqlarının müdafiəsi, qadınların fəal ictimai qüvvəyə çevrilməsidir. Məhz bunun nəticəsidir ki, bu gün qadınlarımızın həyat tərzinin yaxşılaşdırılması dövlətin həyata keçirdiyi sosial-iqtisadi siyasətin aparıcı istiqamətlərindən birinə çevrilmişdir. Bu siyasətdə, təbii ki, Azərbaycan qadınının ailədə və cəmiyyətdə ənənəvi həyat və təfəkkür tərzini qoruyub yaşadan milli dəyərlər ön plana çəkilir.

Bu gün xalqımızın üzləşdiyi müharibədə Azərbaycan qadını da çox böyük iztirablara, əzablara düçar olmuşdur. İstər Ermənistandan, istərsə də Dağlıq Qarabağdan və ətraf rayonlardan qovulmuş milyonlarla insanın çox hissəsini qadınlar, uşaqlar təşkil edir. Bu günahsız insanlar erməni şovinistlərinin iyrənc işğalçılıq siyasətinin, erməni terrorizminin qurbanlarına çevrilmişlər. Çadır şəhərciklərində dözülməz şəraitdə yaşayan Azərbaycan qadını öz doğma yurd-yuvasına qayıdacağı günü səbirsizliklə gözləyir.

Möhtərəm Prezidentimiz Heydər Əliyev qadın problemlərinin həllini dövlət siyasətinin tərkib hissəsi hesab edərək, Azərbaycan qadınlarının cəmiyyətdə mühüm mövqe tutmasına həmişə böyük diqqət və qayğı göstərmişdir.

1998-ci ildə Prezidentin fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır ki, bunu da ölkəmizdə qadın problemlərinin həllinə dövlət qayğısı kimi qiymətləndirmək olar.

2000-ci il martın 6-da ölkə Prezidenti «Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında» fərman imzalamışdır. Fərmanda qadınların kişilərlə bərabərliyini, xüsusilə onların dövlət idarəçiliyi

sistemində lazımi səviyyədə təmsil olunmasını əməli surətdə təmin etmək kimi vəzifələr öz əksini tapmışdır.

Dövlət başçısının üçüncü minilliyin gəlişi münasibəti ilə xalqa müraciətində də Azərbaycan qadınlarının inkişaf yoluna xüsusi nəzər salınmış, qadın hərəkatı yüksək qiymətləndirilmişdir. Bu sənəddə cəmiyyət və dövlət həyatının müxtəlif sahələrində qadınlarımızın nailiyyətləri bir daha təqdir edilmişdir.

Azərbaycan Respublikasının qanunvericiliyi həyatın bütün sahələrində qadın və kişilərin bərabərliyi ideyalarını ifadə edir. 1995-ci ilin iyununda Azərbaycan Respublikası BMT-nin «Qadınlara münasibətdə hər cür ayrı-seçkiliyin ləğv edilməsi barədə» Konvensiyasına qoşularaq öz üzərinə müvafiq öhdəliklər götürmüşdür. Ümumilikdə, müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan dövləti qadınların və uşaqların hüquq və azadlıqları ilə əlaqədar 20-dən çox beynəlxalq konvensiyaya qoşulmuşdur.

Bu gün Azərbaycan qadınları kişilərlə bərabər hüquqlara malik olaraq cəmiyyətin inkişafında mühüm rol oynayırlar. Müstəqil respublikamızın 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Konstitusiyasında qadınların kişilərlə bərabər hüquqlara malik olması öz əksini tapmış, demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazası yaradılmışdır.

Tarixən şərəfli yol keçmiş, öz ucalığını qoruyub saxlamış Azərbaycan qadını bu gün cəmiyyətin bütün sahələrində fəal rol oynayır, bilik və bacarığını müstəqil dövlətimizin möhkəmlənməsinə və inkişafına sərf edir. Bu gün ölkəmizdə elə bir sahə tapılmaz ki, orada qadınlarımız kişilərlə bərabər çalışmasın və ya rəhbər vəzifə tutmasınlar. Müstəqil dövlətimizin parlamentində qadınların deputat kimi fəaliyyəti də onların Azərbaycan cəmiyyətində yüksək nüfuza malik olmasının göstəricisidir. Bu gün qadınlarımızın səsi BMT, Avropa Şurası, Parlamentlərarası İttifaq, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, İslam Konfransı Təşkilatı kimi nüfuzlu beynəlxalq qurumların tribunalarından eşidilir. Avropa Şurasının tam hüquqlu üzvü olan Azərbaycanı bu mötəbər təşkilatın Parlament Assambleyasında kişi deputatlarımızla yanaşı qadın deputatlarımız da təmsil edirlər.

Birinci çağırış Azərbaycan Respublikası Milli Məclisində xalqın bütün təbəqələrini təmsil edən qadınlarımız da olub. Onların 3 nəfəri elmlər doktoru, 2 nəfəri elmlər namizədi, 1 nəfəri SSRİ-nin, 2 nəfəri Azərbaycanın xalq artisti, 1 nəfəri SSRİ, 2 nəfəri Azərbaycan Dövlət mükafatı laureatı idi. Birinci çağırış Azərbaycan Respublikası Milli Məclisində fəaliyyət göstərən 11 daimi komissiyadan 9-da qadınlarımız qanun layihələrinin işlənib hazırlanmasında fəal iştirak ediblər. Onlardan 1 nəfəri (Asya Manafova) daimi komissiyanın sədri, 2 nəfəri (Nigar Ələkbərova, Nairə Şahtaxtinskaya) daimi komissiyaların sədr müavinləri kimi çalışmışlar. Qadın deputatlarımızın hər biri qanun layihələrinin müzakirəsində xüsusi səriştə nümayiş etdirmiş,

onların qəbulunda fəal iştirak etmişlər. Qadınlarımız dəfələrlə nüfuzlu beynəlxalq toplantılarda iştirak etmiş, Azərbaycanda baş verən ictimai-siyasi proseslər, demokratik islahatlar barədə dünya ictimaiyyətinə məlumat vermişlər. Asya Manafova, Fatma Abdullazadə, Nigar Ələkbərova, Nairə Şahtaxtinskaya, Şəfiqə Məmmədova, Elmira Qasımova, Çimnaz Əliyeva, Minayə Əliyeva, Əsmətxanım Məmmədova, Səmayə Piriyeva, Tərlan Musayeva və başqaları müstəqil dövlətimizin qanunvericilik bazasının yaradılmasında, Azərbaycanın haqq səsinin dünya birliyinə çatdırılmasında xüsusi xidmətlər göstərmişlər. Hesab edirəm ki, qadın deputatlarımızın hər biri üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməyə çalışmış və buna nail olmuşdur.

İkinci çağırış Azərbaycan Respublikasının Milli Məclisində 13 qadın deputat fəaliyyət göstərir. Onların 3 nəfəri elmlər doktoru, 3 nəfəri elmlər namizədi, 1 nəfəri SSRİ-nin, 2 nəfəri Azərbaycanın xalq artisti, 2 nəfəri Dövlət mükafatı laureatıdır. Qadınlarımızın 8 nəfəri cəmiyyətin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının üzvü, 5 nəfəri isə bitərəfdir.

Qadın deputatlarımız ölkəmizdə həyata keçirilən hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunun, vətəndaş cəmiyyəti yaradılmasının, bazar iqtisadiyyatı prinsiplərinin tətbiqinin, geniş miqyaslı islahatlar aparılmasının qanunvericilik bazasının yaradılması, təkmilləşdirilməsi və inkişaf etdirilməsi sahəsində onlara həvalə olunan vəzifələri layiqincə yerinə yetirir, parlamentin fəaliyyətinin səmərəli olması üçün bütün qüvvə və bacarıqlarını sərf edirlər.

Milli Məclisin üzvü Asya Manafova parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya məsələləri daimi komissiyasının sədri kimi ölkəmizin təbii sərvətlərindən istifadənin hüquqi mexanizminin təkmilləşdirilməsi istiqamətində uğurlu fəaliyyət göstərir. O, Müsəlman Dövlətləri Qadın Parlament Üzvləri Təşkilatının, «Qloba» ekoloji təşkilatının üzvü, habelə Azərbaycan-Norveç parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəridir.

Milli Məclisin İnsan hüquqları daimi komissiyası sədrinin müavini Rəbiyyət Aslanovanın insan haqlarının qorunmasına, hüquqi, demokratik dövlət quruculuğuna dair qanun layihələrinin hazırlanmasında fəaliyyəti təqdirəlayiqdir. O, Azərbaycan-Moldova parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəridir.

Gültəkin Hacıyeva Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyası sədrinin müavini, eyni zamanda, Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan Respublikası Milli Məclisi daimi nümayəndə heyətinin üzvüdür. O, AŞPA-nın Hüquq məsələləri və insan haqları, Ekologiya və kənd təsərrüfatı, Qadın və kişilərin bərabərliyi komitələrinin üzvüdür.

Nairə Şahtaxtinskaya Avropa Şurası Parlament Assambleyasının Qaçqınlar və miqrasiya komitəsi sədrinin müavini kimi nəinki Azərbaycan məkanında, eləcə də Avropa miqyasında müxtəlif problemlərin həlli ilə

məşğuldur. O, Azərbaycan-Albaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri kimi də səmərəli fəaliyyət göstərir.

Gülər Əhmədova Milli Məclisin İntizam komissiyasının katibi olmaqla yanaşı, Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri kimi məsul bir vəzifənin öhdəsindən də layiqincə gəlir. Eyni zamanda, o, Respublika Uşaq Təşkilatının sədri kimi ölkəmizdə uşaqların problemləri ilə yaxından məşğul olur.

Xalqımızın sevimli sənətkarı Zeynəb Xanlarova Azərbaycan-Hindistan parlamentlərarası işçi qrupunun rəhbəridir. O, Milli Məclisdə mədəniyyət sahəsində hazırlanan qanun layihələrinin təkmil olması üçün əlindən gələni əsirgəmir.

Amaliya Pənahova da görkəmli mədəniyyət xadimidir, eyni zamanda, millət vəkili kimi uğurla çalışır. O, MDB Parlamentlərarası Assambleyasının Mədəniyyət, informasiya, turizm və idman daimi komissiyası sədrinin müavini, Azərbaycan-İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəridir.

Respublikanın ictimai-siyasi həyatında özünəməxsus yeri olan deputat Bahar Muradova Azərbaycan-Litva parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri kimi də fəaliyyət göstərir.

Görkəmli alim və pedaqoq kimi geniş ictimaiyyətin rəğbətini qazanmış deputat Gülçöhrə Məmmədova Milli Məclisin Elm və təhsil məsələləri daimi komissiyasının üzvü kimi bu sahələrə aid qanun layihələrinin hazırlanmasında fəal iştirak edir.

Bir çox ictimai tədbirlərin təşəbbüsçüsü və təşkilatçısı olan deputat Məlahət Həsənova Azərbaycan-Qırğızıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupuna rəhbərlik edir.

Əsmətxanım Məmmədova təcrübəli pedaqoq olmaqla yanaşı, Milli Məclisin Regional məsələlər daimi komissiyasının, Azərbaycan-İran parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü kimi də səmərəli fəaliyyət göstərir.

Gənc deputatımız, şahmat üzrə beynəlxalq qrossmeyster Aynur Sofiyeva Azərbaycan-Yaponiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəridir.

Bir sözlə, qadın deputatlar Azərbaycan parlamentinin çox dəyərli üzvləri olub müstəqil dövlətimizin qanunvericilik bazasının möhkəmləndirilməsində və inkişaf etdirilməsində mühüm rol oynayırlar. Bu gün Azərbaycan Respublikasında geniş vüsət almış demokratikləşdirmə proseslərinin uğurla həyata keçirilməsinə qadınlarımız böyük töhfə verirlər.

Bildiyimiz kimi, Azərbaycanın Qarabağ kimi ağrılı bir problemi vardır. İndi cəbhə xəttində atəşkəs rejimi hökm sürsə də, problemin birdəfəlik aradan qaldırılmaması bütün cəmiyyətimizi, o cümlədən qadınları narahat edir. Həmişə sülhün tərəfdarı olan qadınlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizama salınması üçün möhtərəm

Prezidentimiz Heydər Əliyevin göstərdiyi səyləri ürəkdən dəstəkləyirlər. Onlar inanırlar ki, müstəqil dövlətimizin inkişafı yolunda ən böyük maneə olan bu problem tezliklə həll ediləcək, Azərbaycan sabit inkişaf yolu ilə inamla irəliləyən qüdrətli bir dövlətə çevriləcəkdir. Bu müqəddəs amalın həyata keçməsi üçün qadınlarımız, o cümlədən Azərbaycan Respublikası Milli Məclisinin deputatı olan qadınlarımız bundan sonra da öhdələrinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklər.

*Nizami XUDİYEV,*
*Azərbaycan Respublikası*
*Milli Məclisinin deputatı*

# DAHİ XİLASKAR

Dağlar planetimizin zirvələridir. Böyük insanları həmişə böyük dağlara, uca zirvələrə bənzədiblər. Çünki nəhəng dağlar planetin ümumi orta müstəvisinə sığmadığı, o orta səthdən ayrılıb kosmosa, kainatın sonsuz dərinliklərinə baş qaldırdığı kimi, böyük insanlar, dahilər də bəşər həyatının, cəmiyyət yaşantılarının adiliklər müstəvisinə sığmır, tarix, sivilizasiya yollarının bütöv mərhələlərində zirvəyə dönərək, dünən–bu gün–sabah ölçülərində görünür, öz ucalığı və o ucalıqdan bütün həqiqətləri aşkar görməsi ilə xalq həyatının müdrik uzaqgörəninə, yolgöstərəninə çevrilirlər. Uzaqları görmək üçün ucalarda dayanmamalısan; o ucalara kimlərinsə təkanıyla, açdığı yolla, taleyin xoş təsadüfləri nəticəsində yox, zaman-zaman, pillə-pillə, öz zəhmətin, hünərin, qətiyyətin, fədakarlığınla ucalmalısan. Necə deyərlər, «Ayaq bir-bir qoyarlar nərdivanə» (Ş.İ.Xətai). Zaman göstərir, sübut edir ki, yalnız belə yüksələnlər, qəlbində, beynində tarixin təkamül yollarını gedərək, o yolların ibrət dərslərində yetişərək, bəşəri təfəkkürə tam sahiblənərək zirvələşənlər, sivilizasiya gedişatının, cəmiyyət həyatının o uca, qarlı zirvələrində əbədi qərar tuta bilirlər.

* * *

Çoxdan, bəlkə illərlə ürəyimdə, beynimdə gəzdirdiyim bir yazını ilk baxışda qəribə görünən belə bir girişlə başlamağım təsadüfi deyil. Çünki mən bu yazıda tariximizin bütöv mərhələsində ən geniş milli-mənəvi bir dağ – Heydər Əliyev dağı, Heydər Əliyev zirvə həqiqətləri haqqında danışmaq və o əlçatmaz zirvələrə aparan yamac yolları, yoxuş dolayları ilə inamla, əzmlə, fədakarlıqla irəliləyən bir yolçu – İlham Əliyev fenomeni haqqında düşünmək istəyirəm. Niyə? Çünki belə yazıların müasir gənclərə, gənc nəslə, ümumən, cəmiyyətimizin mənəvi-əxlaqi, etik-fəlsəfi, siyasi-intellektual tərbiyəsinə, formalaşmasına kömək edə biləcəyinə, ümummilli ruhi səfərbərliyə, sosial saflaşmaya təkan verə biləcəyinə qəlbən inanıram. İnanıram ki, Heydər Əliyev ideyaları milli istiqlala qovuşan azad, müstəqil Azərbaycanın daha xoşbəxt gələcəyə gedən dönməz tərəqqi, intibah yollarında ən sərfəli, ən real, ən perspektivli xilaskar qüvvədir. Əsas məsələ o ideyaların kütlələrə, bütövlükdə xalqımıza olduğu kimi, bütün əzəməti, tarixi həqiqətləri ilə çatdırılması, ümumxalq təfəkküründə modelləşdirilməsi, ümumi Azərbaycan bütövlüyündə reallığa çevrilməsidir. Heydər Əliyev ideyaları milli bayrağımızda rəmzləşən Türkçülük, Müasirlik, İslamçılıq xətlərinin, sosial-ideoloji istiqamətlərinin üz-

vi vəhdətini yaradaraq həqiqi Azərbaycançılıq məfkurəsini ortaya qoyur. Tam cəsarətlə demək olar ki, Heydər Əliyev ideyaları fundamental əsaslarda, konseptual genişlikdə Azərbaycançılıq məfkurəsinin bel sütunudur, hərəkətverici beyin mərkəzidir. Bu ideyalar Azərbaycan reallığının bütöv tarixi yollarının, inkişaf, intibah pillələrinin, eləcə də müəyyən dövrlərdəki tənəzzül, böhranlı eniş məqamlarının analitik dərkindən çıxış edərək bu günün və sabahın, perspektiv gələcəyin yaxın və uzaq yollarını göstərir. 1969-cu ildən, hələ bir qədər də əvvəlki illərdən başlayaraq, Azərbaycan reallıqlarına tətbiq olunan bu ideyalar Heydər Əliyevin əsl Azərbaycançılıq xəttində necə mübariz, qətiyyətli, dönməz olduğunu, bu müqəddəs yolda necə tarixi hünərlər, fədakarlıqlar göstərdiyini sübut edir.

Bu məqamda 1967-ci ilin baharını, Bakını, bütün Azərbaycanı bürüyən Novruz şənliklərini xatırlayıram. Bu, uzun sürən ayrılıq, «Şəbi-hicran» gecələrinin sübhü, sabahı idi. Bu, xalqın neçə minilliklər arzu və istəklərinə, Novruzlu duyğu və düşüncələrinə vurulan qandalların qoparılıb atılması, bütün varlığıyla sovet adamı – sosial robot – sərfəli işçi qüvvəsi yaradılmasına, yetişdirilməsinə yönələn sovet sosialist ideologiyasının Azərbaycan məkanında qəfil tərk-silah edilməsi, sinəsindən vurulması idi. Aydın həqiqətdir ki, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Komitəsinin sədri, general Heydər Əliyevin razılığı, xüsusi müsbət münasibəti, gizli-aşkar təqdiri, müdafiəsi olmasaydı, belə sosial-siyasi xarakterli tədbirlər – geniş miqyaslı Novruz şənlikləri də baş tuta bilməzdi. 1967-ci ilin Novruz intibahı, xalqın Novruz özünəqayıdışı DTK generalı Heydər Əliyevin xeyir-duası, gizli-aşkar təqdiri, köməyi ilə araya-ərsəyə gəlmişdi, tarixi reallığa çevrilmişdi. Bu tipli hadisələrlə Azərbaycan cəmiyyəti, bütövlükdə Azərbaycan xalqı gələcək azadlıq hərəkatının ilkin dövrlərini yaşayır, sosial-psixoloji, milli-mənəvi güc toplayırdı. Azərbaycanın qədim və qüdrətli tarix yollarında, azadlıq, müstəqillik mübarizələrində Heydər Əliyev epoxası başlanmışdı və bu başlanğıc elə güclü, elə qətiyyətli idi ki, otuz ildən artıq böyük bir dövrdə heç kim, heç bir qüvvə onu saxlaya, susdura bilmədi. Bu, yüz illər boyu qaranlıqlara bürünən Azərbaycan tarix yollarında Heydər Əliyev səhərinin başlanğıcı idi. Bu, tanrının Azərbaycan xalqına rəhmi, köməyi, ilahi təyinatlı göndərişi idi.

* * *

Yadıma «Tikdim ki, izim qala» sənədli telefilm serialını çəkərkən keçirdiyim hisslər düşür. Heyrətlənirdim ki, bir insan bu qədər böyük ümumxalq əhəmiyyətli işləri necə görə bilib! Bütün Azərbaycanı başdan-başa tikinti-quruculuq meydanına, sosial, mədəni, texniki tərəqqi məmləkətinə çevirmək, bu yolda bütün gizli-aşkar maneələrə, məkrli imperiya maraqlarına, Moskva təzyiqlərinə mərdanəliklə sinə gərmək, öz əqidəsinin, yolunun, milli mövqeyinin, öz sözünün sahibi olmaq – bunu yalnız xalqını, vətənini həqiqi vətəndaş qeyrəti, əsl övlad məhəbbəti ilə sevən, xalqının, vətəninin yolunda hər bir çətinliyə, məhrumiyyətə hazır olan fədakar insanlar, dahi şəxsiyyətlər edə bilərdi.

Heydər Əliyev belə bir millət fədaisi, dahi dövlət xadimi olduğunu bütün ömrü boyu son dərəcə geniş miqyaslı, fenomenal fəaliyyəti ilə dəfələrlə sübut edib. Artıq hamıya – xalqımıza da, dünya ictimaiyyətinə də tam aydındır ki, XX əsrin əvvəllərində Mustafa Kamal Paşa Atatürk Türkiyəni qlobal məhvolmadan, faciəli iflasdan necə xilas etmişdirsə, həmin əsrin 90-cı illərində, xüsusilə böhranlı iyun ayında Heydər Əliyev Azərbaycanı parçalanaraq məhvedilmə fəlakətindən, dövləti intihardan eləcə xilas etdi. Mustafa Kamal Atatürk və Heydər Əliyev Türkiyə və Azərbaycanın dahi xilaskarları kimi yola saldığımız əsrin ən uca zirvələrini fəth ediblər – bu, danılmaz həqiqətdir! Ədəbiyyat və incəsənətimiz, bütövlükdə ümumxalq fikri bu həqiqəti tam aşkarlığı ilə qəbul edib, hər an sevgi və ehtiramla yada salır.

* * *

Azərbaycan oğuz şerinin 1500 illik, yazılı ədəbiyyatımızın azı min illik yaddaşında Azərbaycan hökmdarlarına səmimi sənətkar sevgisi ilə ithaflar, təqdir və təsdiqedici əsərlər çox yazılıb. Orxon–Yenisey kitabələrində, müxtəlif tarixi məxəzlərdə ulu Bilgə xaqanlar, Atilla və Gültiqinlər tərənnüm olunub, dahi Nizami Gəncəvi fateh İskəndərlə Nüşabənin qarşılaşmasında mənəvi qələbə zirvəsini Azərbaycan hökmdarına layiq bilib, bu qələbəni vəsf edib, «poeziya peyğəmbəri» adlandırılan Məhəmməd Füzuli «Bəngü-badə» əsərində qılınc və qələm qəhrəmanı Şah İsmayıl Xətainin bütöv «Məmləkəti-Azərbaycan» istiqamətində uğurlarını alqışlayıb: «Onun dövranı behişti-bərrinə bənzər... Onun feyz camından şadlanmayanlar qoy şərab xıltı tək həmişəlik puç olsunlar!».

Şah İsmayılın sayəsində varlı da, kasıb da asudə keçinir. Allah onun hökmdarlığını əbədi etsin!

*...Məclisəfruzi - bəzmigahi-xəlil,*
*Cami-əyyam, Şah İsmayıl.*
*Ondan asudədir qəniyyü gəda,*
*Xəllədəllahü mülkəhu əbəda!*
*(Allah mülkünü əbədi etsin!)1*

Dediyimiz kimi, ədəbiyyatımızın yaddaşından böyük hökmdarlarımıza böyük sənətkarlarımızın hörmət və ehtiramından, təqdir və təsdiqedici münasibətindən xeyli misal gətirmək olar. Məqsədimiz bu deyil. Məqsədimiz Azərbaycan ədəbiyyatının, bütövlükdə milli mədəniyyətimizin dahi hökmdarlarımıza qarşı həmişə həssas olduğunu, onların böyük işlərini hər zaman layiqincə qiymətləndirdiklərini diqqətə çatdırmaqdır. Bu baxımdan ədəbiyyatımızın Heydər Əliyev sevgisini bütöv tariximizin bir neçə dahi hökmdarına olan müsbət münasibətlə, məsələn, ədəbiyyatımızın Şah İsmayıl Xətai sevgisi ilə müqayisə etmək olar. Bunun çox sadə bir səbəbi var: hər iki dövlət xadimi öz

xalqına ləyaqətlə, şərəflə, tarixi perspektivlər baxımından qlobal miqyasda, taleyüklü sanbalda xidmət edib. Şah İsmayıl Xətai və Heydər Əliyevə həsr olunan saysız-hesabsız ədəbi nümunələr, – mən onların hamısının yüksək bədii səviyyədə olduğunu demək fikrindən uzağam, – ən əvvəl bu iki tarixi şəxsiyyətə, dövlət xadiminə xalqın sevgisinin, səmimi hörmət və ehtiramının təzahürü, təsdiqidir. Bu, deyərdim ki, böyük şəxsiyyətlərə ümumxalq sevgisinin meyarıdır, məhək daşıdır.

Heydər Əliyev təkcə Azərbaycan miqyasında yox, türk dünyası miqyasında da görünən, təsdiq və etiraf olunan nəhəng dövlət xadimidir. 50–60-cı illərdən başlayaraq, o, bu böyük miqyasda düşünür, fəaliyyət dairəsi reallaşdırmağa çalışır, Azərbaycan xalqının, bütövlükdə türk dünyasının ümid və arzuları, problem və perspektivləri müstəvisində tarixi işlər görməyə can atırdı. İstedadlı alim, dostum Nizami Cəfərov «Türk dünyası: xaos və kosmos» kitabında bu baxımdan maraqlı analitik təhlillər aparır:

*«...Hansı qiyafədə təzahür edirsə etsin, mahiyyəti etibarı ilə bir türk dövləti olan Rusiya–SSRİ dövlətçilik təfəkkürü zəif rus-slavyan xadimləri tərəfindən heç zaman normal idarə edilə bilməmişdir. Türklər isə XVII əsrdən etibarən yüksək idarəçiliyə, demək olar ki, buraxılmamışlar... Ona görə də rus-slavyanlarla azsaylı (az qorxulu!) qeyri-türklər arasında həmişə nə isə bir yaxınlaşma, dövlət idarəçiliyində qarşılıqlı münasibət, qeyri-rəsmi saziş özünü göstərmişdir.*

*Heydər Əliyev öz böyük türk ağlı ilə bunları görürdü. Və əslində çox şeyləri görürdü... Sovet türklüyü kommunizm bayrağı altında taktiki hərəkət qabiliyyətini bütünlüklə itirmişdi, rus-slavyan düşüncəsi bir kənddə qurduğu kommunizmi – kolxozu bütöv bir ölkədə qurmağa çalışırdı, azsaylı (lakin çevik) xalqlar kosmopolit mühitdə sərbəst hərəkət edir, arabir donquldanan rus ayısını sığallayırdılar ki, onları qapmasın...*

*...70-ci illərin sonu – 80-ci illərin əvvəllərində Sov.İKP MK-nın Siyasi Bürosunda (faktiki olaraq ölkə rəhbərliyində) üç türk vardı: Dinmühəmməd Kunayev (qazax), Şərəf Rəşidov (özbək) və əlli yaşlarında olan Heydər Əliyev... Zaman bu türklərdən üçüncüsünü tədricən ön mövqeyə – ruslarla təkbaşına mübarizə meydanına çıxardı...»2*

Aradan on illər keçəndən sonra indi tam qətiyyətlə demək olar ki, Heydər Əliyev o mübarizə meydanında cəsarətlə döyüşdü və mənən qalib gəldi.

Ədəbiyyatımız Heydər Əliyev şəxsiyyətini, Heydər Əliyev ideyalarını niyə sevir? Çünki Heydər Əliyev ədəbiyyatımızı, ədəbi-mədəni xəzinəmizdə təmsil olunan neçə minillik milli-mənəvi dünyamızı sevir; o, ədəbiyyatımızda, mədəniyyətimizdə obrazlaşan, kodlaşan Azərbaycan varlığını, Azərbaycan həqiqətlərini – 1300 yaşlı «Dədə Qorqud» eposundakı böyük sivilizasiya zirvələrini, Orxon-Yenisey bəngüdaşlarındakı misilsiz vətən, türk-oğuz təəssübkeşliyini, bədii sözün Nizami Gəncəvi müdrikliyini, Nəsimi inamının «Ənəlhəq» ucalığını, Məhəmməd Füzuli poeziyasının dünyaya «hökm edən» bədii-fəlsəfi qələbələrini, Şah İsmayıl Xətai qılınc və qələminin tanrısal ucalığını,

Mirzə Fətəli Axundov və Həsən bəy Zərdabi, Mirzə Ələkbər Sabir və Cəlil Məmmədquluzadə, Hüseyn Cavid və Üzeyir Hacıbəyov, Cəfər Cabbarlı və Səməd Vurğun, Şəhriyar və Səhənd, Rəsul Rza və Məmməd Araz... sözünün işığını, yaradıcı, qurucu, qoruyucu qüdrətini sevir. Çünki bütün bu və digər ədəbi-mədəni qaynaqlarda Azərbaycanın tədricən milli-mənəvi yaddaşı, söz-fikir enerjisi toplanıb, əbədiləşib; bu misilsiz yaddaş enerjisini oyatmaq, mövcud Azərbaycan cəmiyyətinə cəlb etmək, beləliklə, yüz illərin müəyyən yaddaş – tarix itkinliyindən xilas olmaq, o amansız boşluğun yerini doldurmaq, xalqı öz yaddaşı ilə yenidən qovuşdurub səfərbər etmək xalqa tarixdə ən böyük, analoqu olmayan bir xidmətdir. Bu böyük, misilsiz xidmət ən müxtəlif yollarla, uzaqgörən taktiki, strateji gedişlərlə reallaşdırılırdı. Bu baxımdan «Böyük yubileylər» siyasəti dərindən düşünülmüş etnokulturoloji manevr, mədəniyyət hadisəsi idi.

Heydər Əliyev on illər boyu «Böyük yubileylər» siyasəti ilə məhz bu misilsiz xidməti həyata keçirmiş, Azərbaycanı milli-mənəvi yaddaşına qovuşduraraq ruhən səfərbər edə bilmişdir. Azərbaycan hüdudlarını aşan, keçmiş SSRİ məkanı və çox halda dünya miqyasında qeyd edilən yubileylər – Azərbaycanın itirilən, unudulan tarixi həqiqətlərinin yenidən təsdiq və etirafı idi. Dünya Heydər Əliyevin «Böyük yubileylər» siyasəti sayəsində geniş miqyaslı Azərbaycan dərsləri keçirdi. Bundan daha əhəmiyyətlisi isə, artıq dediyim kimi, Azərbaycanın itkin yaddaş enerjisi, tarixi gücü özünə qayıdırdı.

Bu istiqamətdə bir qədər ətraflı yazmağım təsadüfi deyil. Dilçi-türkoloq kimi, Heydər Əliyevin qeyd olunan xidmətini (təəssüf ki, bu haqda az danışılıb) Azərbaycana, Azərbaycançılığa sevginin dahiyanə nümunə örnəyi hesab edirəm. Və buradaca qeyd etməyi özümə borc bilirəm ki, son otuz illik tariximizin «Böyük yubileylər» siyasəti haqqında ciddi elmi-fəlsəfi tədqiqata, analitik-kulturoloji fundamental təhlilə ehtiyac var. Yəqin ki, nüfuzlu elm və sənət adamları, siyasətşünas alimlər, filosoflar bu istiqamətdə söz deyəcək, dəyərli tədqiqat əsərləri yaradacaqlar. Bir daha vurğulayıram ki, bu tipli analitik-kulturoloji təhlillərə, ciddi monoqrafik tədqiqat əsərlərinə on yaşlı azad, müstəqil məmləkətimizin, qədim tarixli gənc dövlətimizin və dövlətçiliyimizin, bütöv halda müasir cəmiyyətimizin, çağdaş milli-mənəvi mühitimizin böyük ehtiyacı var. Bu sosial-psixoloji ehtiyacı, tələbatı ödəmək isə müasir elmi-fəlsəfi, etik-estetik, eləcə də sosial-ideoloji fikrimizin şərəfli borcu, vətəndaşlıq vəzifəsidir.

* * *

Məşhur bir fikir var: «Xalqın dili onun ruhudur və xalqın ruhu onun dilidir - bundan da güclü olan eynilik təsəvvür etmək çətindir» (Vilhelm Humboldt). Doğrudan da, dil xalqın tarixi gücünün, etnogenetik potensial imkanlarının, milli-mənəvi yaddaşının beşiyi, saxlancıdır. Hətta belə bir fikir də mövcuddur ki, xalqın tarixini, torpağını, bütün qazandıqlarını əlindən alsan da, o, ölməz,

özünü yaşadar. Lakin dilini əlindən alsan, həmin xalq məhv olar. Çünki dil min illər, bəlkə milyon illər boyu xalq yaşantılarının əksi, kodlaşmış enerci mənbəyi, həqiqətən ümumetnos, ümumxalq ruhunun daşıyıcısı, əbədi qoruyucusudur. Və mən bu sözləri yaza-yaza dahi rəhbər Heydər Əliyevin öz doğma ana dilinə – Azərbaycan dilinə sonsuz sevgisinin, heç vaxt tükənməyən qayğı və diqqətinin əsas mənasını bir dilçi-türkoloq kimi yenidən, bütün qlobal miqyası ilə dərindən dərk edir və son dərəcə yüksək qiymətləndirirəm. «Heydər Əliyev və Azərbaycan dili» tədqiqat əsərini yazarkən, həmin əsər əsasında eyni adlı elmi-kütləvi sənədli televiziya filmini çəkərkən, Heydər Əliyevin Azərbaycan dilinə qoruyucu, yaradıcı münasibətini, bu istiqamətdə misilsiz, tarixdə analoqu olmayan fenomenal fəaliyyətini tam dolğunluğu ilə açmağa, təhlil etməyə çalışmışdım.

Azərbaycan xalqının bütün yeraltı, yerüstü xəzinələrdən daha qiymətli, əzəli-əbədi bir sərvəti var; bu, Azərbaycan dilidir. Dünyanın ilkin insan məskənlərindən sayılan Azıx mağarasına, Qafqazın ən uca zirvələrinə, ən qədim yurd yerlərinə ad verən Azərbaycan dili! Bəşər sivilizasiyasının Gəmiqaya, Qobustan binələrindən, iki çay arasının Şumer, böyük Çölün Orxon-Yenisey daş yaddaşından, bu günümüzə yazılan neçə-neçə «Oğuznamə»dən, tariximizin, taleyimizin oğuz məktublarından bu dilin ulu xatirələri, əbədi səsləri boylanır...

1300 yaşlı «Kitabi Dədə Qorqud» dastanlarının, min illik yazılı ədəbiyyatın sahibi, Nəsimilər, Füzulilər, Xətailər, Mirzə Fətəlilər, Sabirlər, Mirzə Cəlillər, Cavidlər, Cəfərlər yetirən, dünya mədəniyyətini zaman-zaman dahiyanə söz, sənət zirvələri ilə ucaldan, zənginləşdirən Azərbaycan dili!

* * *

Zaman-zaman məşhur alimlər, səyyahlar, salnaməçilər bu dili «Şərqin açarı», «Qafqazın qapısı» adlandırdı. Böyük rus şairi Lermontov Azərbaycan dilinin Qafqazdakı mövqeyini fransız dilinin Avropadakı o vaxt çox geniş, aparıcı mövqeyi ilə müqayisə etdi. Bu, Qafqazda əsas danışıq dili, xalqlararası ünsiyyət vasitəsi olan Azərbaycan dilinin dahi rus şairi tərəfindən səmimi etirafı idi.

Tarix boyu dahilər yetirən Azərbaycan dili zaman-zaman dahi oğullarının çiynində ucaldı. XVI yüzilin birinci yarısında Azərbaycan dilinin keşiyində Şah İsmayıl Xətai Heydəroğlu dayanırdısa, XX yüzilin ikinci yarısında bu tarixi, şərəfli missiya Heydər Əliyevə nəsib oldu. Xalqın xoşbəxtliyi, milli taleyimizə tanrı töhfəsi idi ki, Azərbaycan dövlətçiliyinin, Azərbaycan dilinin bəxtinə Heydər Əliyev düşdü...

* * *

Şərqin ilk respublikasını – 23 aylıq Azərbaycan Xalq Cümhuriyyətini qan içində boğan, xalqın azadlığına, dövlət müstəqilliyinə qənim kəsilən bolşevik

işğalı, qırmızı imperiya illər ötdükcə ideoloji hücum xəttini daha da genişləndirdi. Azərbaycanın neçə-neçə generalı, dövlət xadimi, söz, sənət adamı güllələndi, uzaq Sibirin gedər-gəlməzinə, Şimal dənizinin ada məhbəslərinə sürgün edildi. 30-cu illərə doğru maskalanmış iblis ideologiyası bütöv sistemə çevrildi, şər dahisi Leninin «bütün cəmiyyət vahid kontor və vahid fabrik olacaq» modeli tarixi həqiqətləri dumana bürüdü. Xalqı içəridən sındıran, ruhən şikəst edən, Azərbaycanı öz kökündən, etnogenetik dayaqlarından, halal tarixi yaddaşından qoparıb ayırmağa, bu yolla onu sovet xalqı içərisində əritməyə, tragik assimilyasiya burulğanlarında sosial sürüyə döndərməyə can atan iblisanə imperiya niyyətləri qəti hücuma keçdi. Qlottogenez – dilin mənşəyi, etnogenez – xalqın mənşəyi problemlərinin tədqiqi sırf siyasi məqsədlərə, imperiya maraqlarına uyğunlaşdırıldı. Azərbaycanı türk kökündən, tarixi, əzəli türk dayaqlarından məhrum etmək, onun gəlmə türk mühiti tərəfindən assimilyasiya olunduğunu sübuta yetirmək sovet tarixşünaslığı qarşısında əsas məsələ kimi qoyulmuşdu. Sovet tarixşünaslığı, eləcə də bu bədnam, iblisanə axına qoşulan bəzi Azərbaycan sovet tarixçiləri ənənəvi olaraq irəli sürürdülər ki, guya türklər və türk dili mühiti Azərbaycan ərazisinə çox-çox sonralar, yəni üçüncü-dördüncü əsrlərdən doqquzuncu-onuncu əsrlərədək müxtəlif mərhələlərlə gəlib, buradakı aborigen əhalini assimilyasiya etmişlər. Beləliklə, Azərbaycan, bütünlüklə Qafqaz tarixən türklərdən alınıb hind-avropalılara, bəzən kimliyi bilinməyən qeyri-türklərə verilirdi. İş o yerə çatmışdı ki, Azərbaycana rəhbərlik edən Mircəfər Bağırov Azərbaycanın ən böyük sənət yadigarını, dil-tarix faktını ittiham edir, 1951-ci ildə Azərbaycan Kommunist (bolşevik) Partiyasının XVII qurultayındakı hesabat məruzəsində deyirdi: «Dədə Qorqud» xalq eposu deyildir. Bu kitab başdan-başa soyğunçuluq və qırğın məqsədilə Azərbaycana gələn oğuz köçəri tayfalarının hakim yuxarı təbəqəsini tərifləməyə həsr edilmişdir. Bu kitab tamamilə millətçilik zəhəri ilə doludur. Müsəlman olmayan başqa xalqlara, əsasən qardaş erməni və gürcü xalqlarına qarşı yazılmışdır».

... Bu bədnam, qondarma, antitürk tarixşünaslığı – türklərin Azərbaycana, bütün Qafqaza gəlmə köçərilər olduğunu car çəkən bədnam ideologiya 50-ci illərə qədər tam hökmranlıqla davam etdi...

* * *

Tarix öz hökmünü verdi. Sovet sistemində buzun əriməsini xatırladan boşalma dövrü başladı. Bu ideoloji boşalmadan, sosial-siyasi mülayimləşmədən vaxtında, səmərəli istifadə etmək ümumxalq taleyinin tarixi tələbi idi. Ən böyük vəzifə isə on illər boyu yad, düşmən əllərində olan, Azərbaycana qarşı qanlı cəza maşını kimi istifadə edilən Dövlət Təhlükəsizliyi Komitəsinin saf milli kadrlarla yenidən təşkil edilməsi, Azərbaycanın milli, dövləti maraqları baxımından yenidən qurulması idi. Həmin şərəfli, tarixi vəzifəni 1944-cü ildən, xüsusilə 50-ci illərdən başlayaraq 1969-cu ilə qədər – 25 illik bütöv bir

mərhələdə general-mayor Heydər Əliyev həyata keçirdi. 1967-ci ildə bütün Azərbaycanı bürüyən, xalqın özünə, öz milli dəyərlərinə qayıdışının təntənəsi olan Novruz bayramı şənlikləri Heydər Əliyevin ilk baxışda görünməyən uzun, əzablı, cəsarətli mübarizələrinin məntiqi nəticəsi idi. Bu, on illər boyu tarixi saxtalaşdırılan, doğma dilinə amansız hücumlar edilən Azərbaycanın böyük xilaskarlıq yolunda Heydər Əliyev cəsarətinin, Heydər Əliyev siyasətinin ilk qələbəsi idi. Bu, sosial güc toplayan milli istiqlal yolumuzun ilk təkanı idi...

Azərbaycan KP MK-nın 1969-cu il iyul plenumunda respublikanın rəhbəri seçilən Heydər Əliyevin gündəlik fəaliyyətində, ümummilli siyasi xəttində Azərbaycan dilinə qayğı mühüm yer tuturdu. «Heydər Əliyev dünyaya gəldiyi torpağa, ana dilinə, xalq danışıq dilinin incəliklərinə, özünəməxsus mülayimliyinə, səmimiyyətinə, eyni zamanda sərt məntiqinə məhəbbətlə böyümüş bir azərbaycanlı kimi həmin dilin daşıdığı psixoloci gücü, mənəvi enerjini mənimsəmişdi. Rus dilini nə qədər gözəl öyrənib, həmin dildə ölkənin tanınmış ictimai-siyasi xadimlərinin belə qibtə etdikləri bir səviyyədə danışsa, nitqlər söyləsə, məruzələr etsə də doğma Azərbaycan dilinin cazibəsindən heç zaman qopmamışdı».

1970-ci ildə Azərbaycan Dövlət Universitetinin 50 illiyi münasibəti ilə keçirilən təntənəli toplantıda Azərbaycan dilində çıxış edən Heydər Əliyev incə siyasətlə respublikanın elmi, ədəbi ictimaiyyətinin, bütöv ziyalı ordusunun diqqətini doğma ana dilinə yönəltdi. «Kitabi Dədə Qorqud» dastanlarını ittiham edən, «kimin arvadı rusdur, onun işi dürüstdür» tipli qondarma, gülünc zərb-məsəllər yaratmaqla ruslaşdırma siyasətinə sosial dayaqlar axtaran əvvəlki manqurt rəhbərlərdən fərqli olaraq, Heydər Əliyev ümumrespublika tədbirlərində azərbaycanca danışmaqdan çəkinmədi, cəsarətli, qeyrətli şəxsi nümunəsi ilə milyonlarla ürəkdə öləziyən Azərbaycan dili sevgisini, milli ruh çırağını yenidən yandırdı.

70-ci illərdən etibarən Azərbaycanın müxtəlif ali məktəblərində «Ana dili və ədəbiyyat» ixtisası üzrə tələbə qəbulunun həcmi artırıldı; qəbulda ana dilindən yazılı imtahan ən müxtəlif ixtisaslar üzrə məcburi hesab edildi. Təəssüf ki, o vaxt Azərbaycan rəhbərinin «millətçi mövqeyi barədə» Moskvaya «donos» yazan ziyalılar da vardı. Bəzi elm, ədəbiyyat və mədəniyyət xadimləri isə hadisələrin axarından qıraqda, gözləmə mövqeyində dayanmağı üstün tuturdular. Məhz buna görə, 70-ci illərin ikinci yarısında Azərbaycan SSR-in Konstitusiyası (Əsas Qanunu) hazırlanarkən respublika rəhbəri Heydər Əliyev özü yaradıcı ittifaqlara xəbər göndərməli olmuşdu ki, Konstitusiyaya Azərbaycan SSR-də dövlət dilinin Azərbaycan dili olması barədə xüsusi maddə salınmasını tələb etsinlər. Yalnız bu xəbər-işarədən sonra yaradıcı ittifaqlar hərəkətə gəlmiş və Moskvanın, imperiya strukturlarının ciddi ardıcıl müqavimətini qırmaq mümkün olmuşdu. «Pərdə arxasında» gedən, cəmiyyətdən gizlədilən bu mübarizədə o vaxtkı SSRİ rəhbərliyi dəfələrlə Heydər Əliyevi öz sərt mövqeyindən çəkindirməyə çalışsa da nəticədə Heydər Əliyev iradəsi, Heydər

Əliyev cəsarəti qalib gəldi: Konstitusiyada 73-cü maddə – «Azərbaycan SSR-in dövlət dili Azərbaycan dilidir» maddəsi təsdiq olundu, tarixi fakta çevrildi. Təxminən 20 il sonra – 1995-ci il oktyabrın 31-də Azərbaycan Elmlər Akademiyasında keçirilən ümumrespublika müzakirəsində Prezident Heydər Əliyev o gərgin mübarizəni və qələbəni bir daha yada salacaqdı.

Azərbaycan Yazıçılar Birliyinin sədri, millət vəkili Anar, xalq şairi Qabil 70-ci illərin ikinci yarısını, 73-cü maddə ilə bağlı gərgin mübarizələri, Heydər Əliyevin prinsipial, cəsarətli mövqeyini və tarixi qələbəsini xatırlayırlar. Söhbətdə «Heydər Əliyev və Azərbaycan dili» mövzusunun cəmiyyətə bəlli olmayan ən müxtəlif tərəfləri işıqlandırılır.

70-ci illər Azərbaycan dili və milli dilçilik elmimizlə bağlı itirilənlərin bərpası, səhvlərin, saxtakarlıqların düzəlişi dövrü oldu. Milli-mənəvi mühitin, elmi, ədəbi, mədəni iqlimin dərin zəkalı ideoloq-analitik qüdrəti ilə, Heydər Əliyevə məxsus uzaqgörənliklə proqnozlaşdırılması, əsas inkişaf meyllərinin müəyyənləşdirilib səfərbər edilməsi ciddi yüksəlişə təkan verdi. Əslində 30-cu illərdə Azərbaycanda qadağan edilən, arzuolunmaz «qara sahə» adlandırılan türkologiya 70-ci illərdə əsaslı inkişaf dövrünə qədəm qoydu. Əsrin əvvəllərində olduğu kimi, Bakı yenidən dünya türkologiya elminin mərkəzinə çevrildi. Heydər Əliyev bunu sonralar yüksək qiymətləndirərək deyəcəkdir: **«Azərbaycanda türkologiya da çox inkişaf edibdir... Təsadüfi deyildir ki, Sovetlər İttifaqında buraxılan yeganə «Türkologiya» jurnalı Azərbaycanda nəşr edilirdi.»** 70-ci illərin sonlarında Heydər Əliyevin təşəbbüsü ilə dördcildlik «Müasir Azərbaycan dili» dərsliyinə Dövlət mükafatı verilməsi Azərbaycan dilinə böyük qayğının, əsl rəhbər diqqətinin, övlad məhəbbətinin nəticəsi idi. Bu yolla qazanılan uğurlar həm dövlət səviyyəsində qiymətləndirilir, həm də Azərbaycan dilçilik elminin bütün potensial imkanları səfərbər edilir, daha sanballı, fundamental tədqiqatlara istiqamətləndirilir, ruhlandırılırdı. «Heydər Əliyevin dil siyasəti 70-ci illərin sonlarına doğru Azərbaycanda milli dil təfəkkürünün yüksəlməsinə o qədər böyük təsir göstərdi ki, bunu ancaq XVI əsrin əvvəllərindəki – Şah İsmayıl Xətainin hakimiyyəti dövründəki, yaxud XX əsrin əvvəllərindəki vəziyyətlə müqayisə etmək mümkün idi».

* * *

Heydər Əliyev söz, sənət adamlarının, yazıçı və şairlərin böyük dostudur. 50-ci illərdə DTK zabiti olarkən Cənubi Azərbaycan şairi Məhəmməd Biriyanı Sibirin ölüm düşərgələrindən xilas edib Bakıya gətirəndə də, 60-cı illərdə «Gülüstan» poemasına görə Bəxtiyar Vahabzadəni siyasi təqiblərdən, manqurt hücumlarından qoruyanda da, 70-ci illərdə neçə-neçə ustad sənətkarlarımızı SSRİ-nin ən böyük mükafatlarına, fəxri adlarına təqdim edəndə və şəxsi nüfuzu, cəsarəti, qüdrəti ilə istəyinə nail olanda da Heydər Əliyev ilk növbədə Azərbaycan dilinin keşiyində dayanırdı. Azərbaycan dilində yaradılan ədəbiyyatı nəhəng dövlətin ən yüksək, ali mükafatlarına layiq gördürməklə dünyanın diqqət mərkəzinə çəkmək əslində Azərbaycan dilini beynəlxalq miqyasda ta-

nıtmaq, təbliğ etmək idi. Heydər Əliyevin incə, müdrik siyasəti nəticəsində dünya görür, təsdiq və etiraf edirdi ki, təxminən min illik yazılı ədəbiyyatın sahibi olan Azərbaycan dili müasir mərhələdə də inkişaf edir, yeni-yeni qiymətli əsərlərlə zənginləşir...

* * *

Heydər Əliyevin Azərbaycana, onun sosial-mədəni, elmi-intellektual, iqtisadi, siyasi inkişafına, milli-mənəvi intibahına həsr olunan, xalqımızın tarixində bütöv mərhələ təşkil edən fenomenal fəaliyyətində milli dil siyasəti həmişə mühüm mövqe, aparıcı yer tutub. Təkcə yaşanılan dövrü, müasir mərhələni yox, həm də Azərbaycan ədəbiyyat və mədəniyyətinin bütöv milli mühitini əhatə edən dil siyasəti xalqın tarixi uğurlarına əsaslanaraq, söykənərək böyük perspektivlərə istiqamətlənib. Müəyyən qədər unudulan, tarixin gizlinində xalqdan ayrı salınan milli ədəbiyyat və mədəniyyət nəhənglərinin üzə çıxarılması, bu yolla Azərbaycan dilinin böyük ədəbi yaddaşının, qanunauyğun bədii şüur hərəkətinin bərpası, nəticədə dilin daxili enerjisinin, min illər boyu yığılan etnogenetik, ruhi-mənəvi potensialının oyadılması, hərəkətə gətirilməsi Heydər Əliyevin misilsiz xidmətlərindən biridir. Bakıda, respublikanın digər şəhərlərində xalqın ədəbiyyat və mədəniyyət xadimlərinə ucaldılan çoxsaylı heykəllər həm də Azərbaycan dilinin halal haqqını, uca şərəfini təsdiqləyən abidələr idi. Yubileylər vasitəsilə xalqa yenidən bütün böyüklüyü, əzəməti ilə, olduğu kimi qaytarılan İmadəddin Nəsimilər, Molla Pənah Vaqiflər, Həsən bəy Zərdabilər... Onların heykəlləri Azərbaycan dilinin tarixi uğurlarını, sənət zirvələrini milli mühitin daimi, əbədi enerji mənbəyinə çevirir, ümummilli intibahda «gizli» iş görürdü. Beləliklə, Heydər Əliyevin Azərbaycan dili siyasəti çox geniş mənası, elmi-konseptual əsasları ilə əslində Azərbaycanı xilasetmə yolunun mühüm tərkib hissəsi idi.

* * *

Azərbaycan dilinin şairanə zərifliyinə, bədii-estetik qaynarlığına, mürəkkəb fəlsəfi fikir, məntiq tutumuna, zəngin sintaktik ifadə imkanlarına, stilistik potensiasına, güclü söz ehtiyatına, unikal frazeoloci, ideomatik xəzinəsinə dərindən bələd olan Heydər Əliyev həmişə bu böyük, ümummilli sərvətin keşiyində dayanıb, onun cəsarətli müdafiəçisi, səmimi təəssübkeşi olub. Milli televiziya ilə göstərilən iclaslarda, ümumrespublika toplantılarında «Əliyeviç» müraciətinə dəfələrlə etiraz etməsi yadımızdadır. Doğma dilə qarşı hər hansı laqeydlik, biganəlik heç vaxt Heydər Əliyevin diqqətindən yayınmayıb...

O, öz ana dilinə, doğma Azərbaycan dilinə sahib olan rəhbərdir. Onun nitqlərində dilin tarixi gücü, gizli yaddaş enerjisi oyanır, hərəkətə gəlir, rəhbər qətiyyətində zühur edərək xalqa qovuşur. Azad, müstəqil Azərbaycan Respublikasının dövlət dili – Azərbaycan dili Prezident Heydər Əliyevin qalib, qətiyyətli çıxışlarında, fenomenal nitq mədəniyyətində bütün tarixi gücü, qüdrəti ilə görünür. Heydər Əliyev nitqləri canlı Azərbaycan dili abidələridir.

* * *

Tarixin gedişi, zamanın hökmüylə uzun illərin, onillərin imperiya buludları dağıldı: dünyanın böyük bir hissəsinə hökm edən, neçə-neçə xalqı, milləti əsarətdə saxlayan qanlı sovet rejimi diz çökdü, öz varlığına son qoydu. XX əsrin ən qlobal, tarixi hadisələrindən biri olan bu iflasla – SSRİ adlanan nəhəng imperiyanın süqutu ilə dünyanın nizamı, sərhədləri dəyişdi; 70 ildən bəri sovet həbsxanasında sıxılan, amansız təzyiq, terror və repressiyalara məruz qalan xalqlar azad oldu, azadlığın, milli istiqlalın mübarək yollarına üz tutdu.

Gülüstan, Türkmənçay müqavilələri ilə ikiyə bölünən, 1918–20-ci illərin 23 aylıq azadlığından sonra milli istiqlalını yenidən itirən Azərbaycanda xalq hərəkatı dalğa-dalğa yüksəlirdi. Xalqın sinəsindən, ürəyindən, tarixi arzu və istəklərindən baş qaldıran üçrəngli, ay-ulduzlu Azərbaycan bayrağı neçə min illik qədim dövlətçiliyin yenidən bərpasına can atırdı.

Nəhayət, xalq öz tarixi hökmünü verdi – 1991-ci il oktyabrın 18-də Azərbaycanın Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilərək ümumxalq səsverməsinə çıxarıldı. Buna görə 18 oktyabr azad, suveren Azərbaycan Respublikasının tarixinə Müstəqillik günü kimi daxil oldu. Həmin tarixi gündən keçən on il ərzində çox çətin sınaqlarla üz-üzə gəldi, daxili və xarici düşmən qüvvələrinin qəsdi, qərəzi, qanlı xəyanəti ilə dönə-dönə yaralandı Azərbaycan.

15 iyun 1993-cü il – müstəqilliyimizin Milli qurtuluş günü oldu. Xalqın tələbi, təkidli çağırışı, arzusu ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev Vətən və xalq naminə, azad, müstəqil, bütöv Azərbaycan naminə qüdrətli xilaskarlıq fəaliyyətinə başladı. Azərbaycan Respublikası yaxın-uzaq imperiya maraqları ilə parçalanaraq bölüşdürülmə faciəsindən, milli, dövləti iflasdan, tam məhvolmadan xilas edildi. Beləliklə, 18 oktyabr Müstəqillik günü 15 iyun Milli qurtuluş günüylə qorundu, möhkəmləndirildi; Azərbaycanın azadlığı, dövlət müstəqilliyi əbədi və dönməz xarakter aldı.

**«Azadlıq, istiqlaliyyət hər bir xalqın milli sərvətidir»** deyən Azərbaycan Prezidenti Heydər Əliyev bütün varlığı ilə azadlığımızın, dövlət müstəqilliyimizin əbədi və dönməz xarakter almasına çalışır, bu müqəddəs yolda tarixi uğurlar qazanır. Qədim tarixli gənc dövlətimizin, azad, müstəqil Azərbaycan Respublikasının on illik yubileyini bayram etdiyimiz bu ərəfədə tam cəsarətlə deyə bilərik ki, tarixi şəxsiyyətlər yaradır, istiqamətləndirir. Bu baxımdan, son on illik müstəqillik dövrü Heydər Əliyev müdrikliyindən güc almış, onun uzaqgörən strateji ideyaları ilə silahlanmış, bütövlükdə Heydər Əliyev qələmi ilə yazılmışdır.

**«Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır. Tariximiz bizim üçün dərs olmalıdır.»** Dahi dövlət xadimi Heydər Əliyev bu müdrik sözləri ilə xalqımızı, müasir cəmiyyətimizi ayıq-sayıq olmağa, dünən, bu gün və sabah miqyasında düşünməyə, keçmişin ibrət dərslərini tam öyrənməklə, gələcəyin qapılarını açmaqla böyük, dönməz,

əbədi intibah, inkişaf yollarına çıxmağa çağırır. O, bütün görüşlərdə, toplantılarda, eləcə də xarici səfərlərdə Azərbaycanın dövlət müstəqilliyinin əbədi və dönməz olduğunu vurğulayır, diqqəti bu əsas, taleyüklü məsələyə cəlb edir, bunu Azərbaycan varlığının, Azərbaycan perspektivlərinin ən mühüm amili, dayaq nöqtəsi, xilas yolu kimi qiymətləndirir. Azərbaycançılıq istiqamətində bütövləşən, konseptual milli-mənəvi xilas yollarını ehtiva edən Heydər Əliyev ideyaları bütünlükdə Azərbaycanın azadlığına, milli istiqlalına, dövlət müstəqilliyinə və bu azadlığın, istiqlalın, müstəqilliyin, suverenliyin əbədiliyinə və dönməzliyinə əsaslanır. Heydər Əliyev ideyalarının əsas, bütöv, son məqsədi, məramı Azərbaycanın əbədi azadlığıdır.

* * *

Artıq on ildir ki, Azərbaycan müstəqildir; keçid dövrünün bütün çətinliklərinə, ağrı-acılarına, müharibənin vurduğu sarsıdıcı yaralara, işğal və qaçqınlıq faciələrinə baxmayaraq, xalqımız müstəqillik, azadlıq yolları ilə əzmlə, inadla, inamla irəliləyir. Müstəqilliyimizin təhlükə altında olduğu vaxtda – 1993-cü ilin iyununda xalqın çağırışı ilə Heydər Əliyevin hakimiyyətə xilaskar qayıdışı, əslində, əsl müstəqillik dövrünün başlanğıcı oldu. «Ömrümün qalan hissəsini də xalqıma qurban verirəm» deyib Azərbaycanın qurtuluşu naminə mübarizə meydanına atılan Heydər Əliyev tarixdə misli görünməyən fədakarlıq, siyasi müdriklik nümunəsi göstərdi. Bir daha vurğulamaq istəyirəm ki, 18 oktyabrla bünövrəsi qoyulan, 15 iyunla məhvolmadan xilas edilən milli qurtuluş yolu günbəgün, aybaay, ilbəil möhkəmləndi, davam və inkişaf etdirildi. 1994-cü ilin mayında atəşkəsə nail olunması, həmin ilin sentyabrında dünyanın aparıcı neft şirkətləri ilə böyük beynəlxalq iqtisadi sazişin – «Əsrin müqaviləsi»nin imzalanması, milli ordunun qurulması, ölkə daxilində dağıdıcı anarxiyaya, hərc-mərcliyə son qoyulması, sosial-siyasi, iqtisadi sabitliyin bərqərar edilməsi, xüsusilə iqtisadi dirçəlişin başlanması, Lissabon sammitində 53 aparıcı dövlətin dəstəyinə nail olunması, böyük İpək yolunun bərpası istiqamətində həlledici addımlar atılması – bütün bunlar milli qurtuluş günü ilə başlayan tarixi uğurların bir hissəsidir. Bəli, indi tam cəsarətlə deyə bilərik ki, Heydər Əliyevin xilaskarlıq missiyası, böyük perspektivlərə hesablanan uzaqgörən, müdrik siyasəti nəticəsində müstəqilliyimiz qorundu, milli qurtuluş yolumuz davam etdi, əbədi və dönməz xarakter aldı. Onu da məmnuniyyətlə vurğulamaq, səmimiyyətlə bildirmək istəyirəm ki, azad, müstəqil Azərbaycan dövlətini yeni, XXI əsrə Prezident Heydər Əliyev apardı. XXI əsrin ilk günlərindən başlayan böyük yolun öndəri, dahi yolgöstərəni də Heydər Əliyevdir. Bu yolun böyük uğurlara, əbədi xoşbəxtliyə qovuşacağına inanırıq. Buna Heydər Əliyevi özünə Prezident seçən bütün Azərbaycan xalqı, dünyanın 45 milyonluq bütün azərbaycanlıları inanır.

* * *

Gənc Azərbaycan Respublikasının on illik yubiley sevinclərini yaşaya-yaşaya 500 yaşlı Azərbaycan Səfəvilər dövlətini düşünürəm. Orta əsr salnamələrindən bir cümlənin səsini eşidirəm: «Şah İsmayıl Xətai ruhun bədənə qovuşduğu kimi Təbrizə daxil oldu». Eynən Heydər Əliyev də «ruhun bədənə qovuşduğu kimi» dar ayaqda, faciəli böhran məqamında Bakıya daxil oldu. Şah İsmayıl Xətainin qurduğu Səfəvilər dövlətini ondan sonra on illər boyu oğlu Şah Təhmasib ləyaqətlə qorudu, idarə etdi, daha da möhkəmləndirdi... Və məni iki Heydər oğlunun Azərbaycan tarix səhnəsində sürətli, qalib yüksəlişi sevindirir. Şah İsmayıl Xətainin atasının adı Heydər idi, o atasının yolu ilə irəliləyərək tarixi qələbələr qazandı. İlham Əliyevin də atasının adı Heydərdir və o da atasının yolu ilə şərəflə irəliləyir.

İlham Əliyev Moskva Dövlət Xarici Əlaqələr İnstitutunun Beynəlxalq münasibətlər fakültəsini müvəffəqiyyətlə bitirib, tarix elmləri namizədidir. Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti, Azərbaycan Milli Məclisinin deputatı, Avropa Şurasının Parlament Assambleyasında Milli Məclisin daimi nümayəndə heyətinin rəhbəri, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiyasının üzvü, Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidentidir. Göründüyü kimi, İlham Əliyevin fəaliyyət dairəsi çox genişdir; o, bütünlüklə Azərbaycan xalqının və dövlətinin xidmətindədir. Başlıcası odur ki, İlham Əliyev bu çoxsahəli, geniş miqyaslı xidməti, fədakar fəaliyyəti ilə bütün Azərbaycan gənclərinə əsl vətəndaşlıq, vətənpərvərlik nümunəsi göstərir.

İngilis, fransız, rus dillərini bilən, Avropa və Amerikadakı bir sıra səfərləri, rəsmi və qeyri-rəsmi görüşləri ilə nüfuzlu diplomatik dairələrin, görkəmli siyasətçilərin, dövlət xadimlərinin diqqətini cəlb edən, fenomenal intellekt və istedadı ilə seçilən İlham Əliyev artıq müasir Azərbaycan və dünya siyasətinin danılmaz faktı, perspektivli reallığıdır. 1998-ci il martın 31-də San-Fransiskoda ABŞ-ın nüfuzlu Stenford Universitetindəki orijinal, səviyyəli, sanballı çıxışı, professional diplomatik gedişləri dünyanın siyasət nəhəngləri tərəfindən maraqla qarşılanmış, yüksək dəyərləndirilmişdir. **«Müxalifət görür ki, İlham Əliyev həm biliyinə, həm ağlına, həm təcrübəsinə, həm də insani keyfiyyətlərinə görə Azərbaycanın siyasi səhnəsində öz yerini tutub. Bəli, əks effekt yaratmaq istəyirlər. Lakin yarada bilməyəcəklər. İlham Əliyev gənc, artıq siyasətlə, dövlət işi ilə məşğul olan Azərbaycan vətəndaşıdır. Onun çox böyük təhsili və biliyi var. 5-6 ildir ki, Azərbaycanda gördüyü işlərdən təcrübə toplayıb. Beynəlxalq Əlaqələr İnstitutunda müəllimlik edib. Bu, asan bir iş deyil. Diplomatlar hazırlayan bir universitetdə dərs deyib. 23 yaşında dissertasiya müdafiə edib. İnstitutdan mənə görə çıxarılanda, o gedib bizneslə məşğul olub. O təcrübəni də toplayıb. İqtisadiyyatı da bilir. Azərbaycanın neft siyasətinin həyata keçirilməsinin fəal iştirakçısıdır. Bundan əlavə, onun üzərinə başqa vəzifə də düşüb. Milli**

**Olimpiya Komitəsinin sədridir. İctimaiyyət görür ki, o bu sahədə böyük işlər görüb, beynəlxalq əlaqələri gücləndirib. İlham Əliyev Milli Məclisin deputatıdır. Görürsünüzmü, onun üzərinə nə qədər vəzifələr düşüb. Çox sevinirəm, mənim oğlum olduğuna görə ki, bu qədər vəzifənin öhdəsindən gəlir. Belə adamın, şübhəsiz ki, gələcəyi də ola bilər. Lakin bu, onun özündən asılıdır. Heç kim deyə bilməz ki, nə olacaq? Onun Heydər Əliyevin yerini tutub-tutmayacağı gələcəyin işidir. Bunu isə zamanında cəmiyyət deyəcək. İlham Əliyev YAP-da öz xidmətlərini göstərib, gələcəkdə də göstərəcək. Buna heç kəsin şübhəsi olmasın.»3**

Bu sözlər Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə məxsusdur. **«Mən seçici olsaydım, İlham Əliyevə səs verərdim» -** deyən Prezident onun böyük elmi intellektual imkanlarına, milli-mənəvi zənginliyinə, rasional-praqmatik siyasətçi yetkinliyinə inanır. Əslində son illər İlham Əliyevin çoxsahəli, gərgin fəaliyyətini izləyən hər bir sağlam düşüncəli Azərbaycan vətəndaşında, hər bir siyasət adamında belə bir inam formalaşıb. Bu, gənc, fədakar, perspektivli, intellekti, istedadı və şəxsiyyəti bütöv vəhdət yaradan insana ümumxalq inamıdır. İlham Əliyev böyük siyasətlə, dövlət işi ilə məşğul olan gənc Azərbaycan vətəndaşıdır. Dərin biliyi, yüksək intellekti, lazımi insani keyfiyyətləri vardır və Konstitusiyaya görə Prezidentliyə namizədliyini irəli sürmək hüququna malikdir. Bu hüququ müxalif yozumlara məruz qoymaq əlavə şayiələrə yol verməkdir. Unudulmamalıdır ki, biz hüquqi dövlət quruculuğu ilə, vətəndaş cəmiyyətini bərqərar etməklə məşğuluq. Konstitusiya hüququ nəzəriyyəsinə görə isə vətəndaş cəmiyyəti həyatın hüquqa və demokratiyaya əsaslanaraq zəruri və rasional qurulması, insana özünün iqtisadi və siyasi varlıq formalarını azad seçməyə təminat verən, insan hüquqlarının bərqərar olunduğu, ideoloji, plüralizmin təmin edildiyi ictimai quruluşdur.4

Bəli, İlham Əliyevin də bütün Azərbaycan vətəndaşları kimi seçməyə, seçilməyə, azad, müstəqil məmləkətimizin həyatında yaxından iştirak etməyə, xalqın səs verib layiq biləcəyi ən yüksək vəzifəni tutmağa haqqı var. O, bəzi siyasətçilərin, xüsusilə müxalifət «liderlərinin» düşündüyü kimi, sadəcə atanın oğul varisi, bioloji-genetik oğul davamçısı deyil, Azərbaycana 30 ildən artıq şərəflə, ləyaqətlə rəhbərlik edən dahi dövlət xadiminin, müdrik rəhbərin ideyalarının – Heydər Əliyev ideyalarının daşıyıcısı, davamçısıdır. Çünki o, sadəcə olaraq, bu dahi dövlət xadiminin həyat məktəbində hamıdan çox oxumuşdur, hamıdan çox dərs almışdır. O, siyasətin, politologiyanın əlifba dərslərini, bütöv anatomiyasını uşaq yaşlarından başlayaraq bütün ömrü boyu anbaan, saatbasaat, aybaay, ilbəil öyrənmişdir, böyük siyasətin Heydər Əliyev universitetini bitirmişdir. ***«Mənim xoşbəxtliyim bundadır ki, mən Heydər Əliyev adlı dahi şəxsiyyətin yanındayam və məndə öyrənmə imkanları daha çoxdur, nəinki başqa adamlarda.»5*** Buna görə səmimiyyətlə, qəti əminliklə deyə bilərik ki, İlham Əliyev təkcə atasının – Heydər Əliyevin yox, bütövlükdə Heydər Əliyev kursunun, Azərbaycançılıq ideologiyası ilə tam səsləşən, üst-üstə düşən Heydər Əliyevçiliyin varisidir, daşıyıcısıdır və davamçısıdır.

İlham Əliyev bir müsahibəsində belə demişdir: ***«...Heydər Əliyevin varisi mənim oğlum Heydər Əliyevdir. Ona görə deyə bilərsiniz ki, Heydər Əliyevin varisi Heydər Əliyevdir.»6***

Bu, tarixi bir cümlədir. Bu sadə, səmimi cümlədə təkcə baba və nəvə Heydər Əliyevdən söhbət getmir; daha çox ondan söhbət gedir ki, Heydər Əliyevin ideyaları əbədidir; onun varisi özüdür, öz ideyaları, ideallarıdır; yəni Heydər Əliyevin varisi Heydər Əliyevdir!

Azərbaycan istiqlalının, Azərbaycançılıq məfkurəsinin, milli müstəqilliyimizin dayaq nöqtəsi, enerji mənbəyi, hərəkətverici qüvvəsi olan xilaskar Heydər Əliyev ideyaları hər bir Azərbaycan vətəndaşını, bütün dünya azərbaycanlılarını birliyə, bütövlüyə, Vətən və xalq naminə fədakarlığa çağırır. Bu, dahi xilaskarın çağırışıdır. Xoşbəxtik ki, xalqımızı, azad, müstəqil məmləkətimizi, qədim tarixli gənc Azərbaycan dövlətini gələcəyin intibah, inkişaf zirvələrinə dahi xilaskar Heydər Əliyev aparır.

*Novruz MƏMMƏDOV,*
*Azərbaycan Respublikası Prezidenti*
*İcra Aparatının Xarici əlaqələr*
*şöbəsinin müdiri,*

*Əli HƏSƏNOV,*
*Azərbaycan Respublikası Prezidenti*
*İcra Aparatının İctimai-siyasi*
*şöbəsinin müdiri*

# AZƏRBAYCAN RESPUBLIKASININ XARICI SIYASƏTI MÜSTƏQILLIYIMIZIN VƏ DÖVLƏTÇILIYIMIZIN ƏBƏDILIYININ QARANTIDIR

Bəşəriyyət XXI əsrin ilk ilini yaşayır. Başa vurduğumuz XX əsr istər beynəlxalq aləmdə, istərsə də Azərbaycanda baş vermiş hadisələrin mürəkkəbliyi, əhəmiyyəti və bir sıra hallarda fövqəladə xarakteri ilə əvvəlki dövrlərdən kəskin şəkildə fərqləndi.

Bu əsr Azərbaycan xalqının tarixinə də xüsusi səhifələr yazdı. Əsrin əvvəllərində müstəqilliyini əldə edən xalqımız bəzi subyektiv və obyektiv səbəblər üzündən onu qoruyub saxlaya bilmədi. XX əsrin sonlarında tarixi nemətimiz olan milli müstəqilliyimizə təkrarən qovuşduq. İndiki nəslin ən ümdə vəzifələrindən biri qüdrətli, güclü Azərbaycan dövlətini qoruyub saxlamaqdır.

Azərbaycan xalqının tarixində Milli qurtuluş günü kimi qiymətləndirilən 1993-cü ilin 15 iyunu ərəfəsində xalqımızın və dövlətimizin mövcudluğu çox ciddi təhlükə qarşısında qalmışdı. Bir tərəfdən daxildə hakimiyyət uğrunda aramsız mübarizələr, separatçılıq cəhdləri, qanunsuz hərbi birləşmələrin törətdikləri cinayətlər və nəhayət, vətəndaş müharibəsinin alovlanması, digər tərəfdən erməni təcavüzü son dərəcə ağır vəziyyət yaratmışdı. Məhz belə bir anda ümummilli liderimiz Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdaraq şərəfli xilaskarlıq missiyasına başladı. O, canından artıq sevdiyi Vətənin taleyi üçün məsuliyyəti öz üzərinə götürdü və o zamandan bəri demokratik, hüquqi, dünyəvi Azərbaycan dövlətinin qurucusu olaraq bu ağır və çətin işi layiqincə yerinə yetirdi. Bu işin mühüm sahələrindən birini də möhtərəm Prezidentimizin həyata keçirdiyi xarici siyasət fəaliyyəti təşkil etdi.

Uzun illərdən bəri asılılıq şəraitində yaşayıb, yenicə müstəqillik əldə etmiş bir dövlətin indiki qarışıq dünyada, həm də düşdüyümüz belə ağır şəraitdə düzgün xarici siyasət xətti müəyyən etməsi və onu uğurla həyata keçirməsi

son dərəcə çətin bir iş idi. Elə bir xarici siyasət xətti müəyyən etmək lazım idi ki, o hər şeydən əvvəl milli mənafeyə, əldə olunmuş kövrək müstəqilliyimizin möhkəmlənməsinə xidmət etsin, əvvəlki rəhbərliklər dövründə düyünə salınmış problemlərimizin həllinə yol açsın, müstəqil dövlətimizin beynəlxalq mövqelərini tədricən möhkəmləndirərək Azərbaycanın dünya birliyində öz layiqli yerini tuta bilməsinə imkan yaratsın.

Xalqımızın müstəqil yaşamaq əzminə, dövlətçilik sahəsindəki tarixi ənənələrinə söykənən Heydər Əliyev dühası, onun parlaq və aydın zəkası, zəngin siyasi və dövlətçilik təcrübəsi bu taleyüklü vəzifənin öhdəsindən müvəffəqiyyətlə gəlməyə imkan verdi. Heydər Əliyev hələ 1993-cü ilin oktyabrında keçirilən andiçmə mərasimindəki çıxışında xarici siyasətimizin başlıca vəzifələrini və istiqamətlərini xalqımız və bütün dünya qarşısında bəyan edərək deyirdi: **«Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifəmiz dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir.»**

* * *

Müstəqillik əldə etdikdən sonra hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu yoluna qədəm qoymuş gənc Azərbaycan Respublikasının üzləşdiyi sosial-iqtisadi və siyasi problemlərin müvəffəqiyyətli həlli onun beynəlxalq aləmdəki mövqeyi, ayrı-yarı ölkələrlə milli dövlət mənafelərinə cavab verən qarşılıqlı faydalı əlaqələri və dünya birliyinə inteqrasiyası prosesinin intensivliyi ilə sıx bağlı idi. Bu mənada Azərbaycanın beynəlxalq əlaqələr sistemində layiqli yer tutması üçün dünya siyasətinin formalaşmasında aparıcı rol oynayan dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərinin tənzimlənməsi və inkişaf etdirilməsi böyük əhəmiyyət kəsb edirdi.

Dünya miqyaslı siyasətçi olan Heydər Əliyevin gərgin əməyi sayəsində Azərbaycan özünün geosiyasi mövqeyini, ictimai-siyasi və mənəvi-psixoloji inkişaf xüsusiyyətlərini nəzərə alaraq mövcud inkişaf modellərindən heç birinə birmənalı şəkildə üstünlük vermədən Qərb və Şərqin yaratdığı dəyərlərdən yaradıcılıqla və səmərəli şəkildə bəhrələnməyə, tarazlaşdırılmış çoxşaxəli xarici siyasət yeritməyə nail oldu.

1993-cü ilin ikinci yarısından başlayaraq Azərbaycanın geosiyasi vəziyyətinin və beynəlxalq siyasətə təsir imkanlarının dərin nəzəri təhlili əsasında xarici siyasət xəttində mövcud reallıqları nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. İlk növbədə müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ, yeni müstəqil dövlətlər və Rusiya, türkdilli

dövlətlər, xüsusən Türkiyə, müsəlman dünyası, Asiya, Afrika və Cənubi Amerika ölkələri ilə əlaqələrinin yaxın dövr üçün üstün istiqamətləri, aparıcı strategiyası müəyyənləşdirildi, hər qrupa daxil olan ölkələrlə ayrı-ayrılıqda və birgə münasibətlərin düşünülmüş, bütün amilləri nəzərə alan durumu yaradıldı.

Heydər Əliyev məhz bu reallıqları nəzərə alaraq ilk səfərini Rusiyaya etdi. Bu səfər Azərbaycanın MDB-yə daxil olması ilə paralel hazırlandı. Çünki həm Rusiya ilə münasibətlər üçün, həm də MDB-yə daxil olan ölkələrlə Azərbaycanın münasibətləri, əlaqələri və əməkdaşlığı üçün bu iş haqlı olaraq əhəmiyyətli sayıldı. Heydər Əliyev qeyd edirdi: **«Biz bu birliyin tamhüquqlü üzvü olaraq iqtisadi əməkdaşlıq və kollektiv təhlükəsizlik haqqında müqavilələrin təmin etdiyi üstünlüklərdən faydalanmaq istəyirik... Biz MDB çərçivəsindən kənarda olduğumuz vaxtdakı vəziyyətimizi araşdırdıq və belə bir qənaətə gəldik ki, MDB çərçivəsindən kənarda qalmaq ölkənin qarşısında duran problemlərin həllinə kömək etmir.»** Odur ki, bu iki məsələyə, ümumiyyətlə, Azərbaycanın xarici siyasətində Rusiyanın mühüm yeri kontekstində baxıldı. Bu addım Azərbaycan-Rusiya münasibətlərindəki gərginliyi yümşaltmaq üçün də zəruri idi.

Prezident Heydər Əliyevin Rusiya Federasiyasına səfərləri, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycana səfəri iki ölkə arasındakı münasibətlərə yeni keyfiyyət gətirdi. Müxtəlif səviyyələrdəki qarşılıqlı səfərlər, dövlətlərarası münasibətlərin müxtəlif sahələrinə dair imzalanan sənədlər iki ölkə arasında çox-çox məsələləri aydınlaşdırdı. Müstəqil dövlət quruculuğu prosesində Rusiya Federasiyası ilə əlaqələrdən bəhrələnmək, bəzi imperiyapərəst qüvvələri neytrallaşdırmaq səyləri Azərbaycanın xarici siyasət xəttində müstəqil bir istiqamət kimi həyata keçirilməyə başlandı.

Azərbaycan dövlətinin xarici siyasətinin çox vacib və əhəmiyyətli istiqamətlərindən biri də Amerika Birləşmiş Ştatları ilə münasibətləridir. Müstəqil Azərbaycanla bu ölkə arasında diplomatik münasibətlər 1992-ci il martın 18-də yaradılmışdır. Lakin bu hələ ilk addım idi. Bu yolla irəliləmək, çox-çox məsələlərə aydınlıq gətirmək, əlaqələri genişləndirmək, etimad, etibar qazanmaq, Azərbaycanı layiqincə təqdim etmək üçün çox iş görmək, böyük diplomatik fəallıq göstərmək tələb olunurdu. Bu olduqca zəruri idi, çünki hədsiz çətin problemlərlə qarşılaşmış gənc müstəqil dövlətin taleyində dünya siyasətində həlledici mövqe tutan ABŞ mühüm rol oynaya bilərdi. 1994-cü ilin sentyabrında məşhur «Əsrin müqaviləsi»nin imzalanması bu yolda ən mühüm və başlıca amil, Azərbaycanla Qərb arasındakı münasibətlərdə dönüş nöqtəsi oldu. Belə ki, Azərbaycana, onunla iqtisadi əməkdaşlığa, onun problemlərinə, geosiyasi əhəmiyyətinə maraq yarandı. Bu maraq ABŞ-ın Azərbaycanın ərazi bütövlüyünə, münaqişəli problemin dinc yolla həllinə tərəfdar olduğunu bəyan etməklə nəticələndi. Bu çox əhəmiyyətli

bəyanat idi. İndi irəli getmək, ölkəmizi, işlərimizi, məqsəd və məramımızı Amerika ictimaiyyətinə təqdim etmək, əlaqələri daha da genişləndirmək üçün yeni səylər göstərmək tələb olunurdu. Nəhayət, bu böyük səylərin davamı kimi Azərbaycan Prezidenti Heydər Əliyev ABŞ-a bir neçə dəfə çox uğurlu səfərlər etdi.

Azərbaycanın yeni xarici siyasət xəttində Avropanın böyük dövlətləri ilə münasibətlər məsələsi mühüm bir istiqamət təşkil edirdi. Hər bir ölkənin özünəməxsus xüsusiyyətlərini bütün incəliklərinə qədər nəzərə alan bu yeni xətt çevik taktiki gedişlərlə həyata keçirildi. Qısa müddət ərzində Azərbaycanın özünə Böyük Britaniya, Almaniya, Fransa, İtaliya kimi çox nüfuzlu həmfikirlər əldə etməsi Heydər Əliyev xarici siyasətinin Avropa istiqamətinin çox mühüm bir uğuru oldu.

Uzaq tarixi köklərə malik demokratik dövlətçilik ənənələri ilə seçilən böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı beynəlxalq münasibətlərə təsir gücünə görə dünya siyasətinin yönümünü müəyyən edən və beynəlxalq aləmin ən ümdə problemlərinin həllində xüsusi çəkisi olan ölkələr sırasına daxil olduğundan Azərbaycan ilə bu ölkə arasında qarşılıqlı faydalı əməkdaşlıq və dostluq əlaqələri qurmaq çox əhəmiyyətli idi.

Böyük Britaniya dövlətini Azərbaycanla dostluğa və əməkdaşlığa sövq edən bir sıra siyasi, iqtisadi və digər amillər Azərbaycan-Böyük Britaniya əlaqələrinin dostluq, qarşılıqlı surətdə faydalı əməkdaşlıq və tərəfdaşlıq münasibətləri üzərində qurulmasını şərtləndirmiş və zəruri etmişdir. Bu zərurəti dərk edən və qarşılıqlı əlaqələrin hər iki dövlət üçün verdiyi və verə biləcəyi faydanı yüksək qiymətləndirən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Böyük Britaniyanın dövlət və hökumət rəhbərləri iki ölkə arasında əlaqələrin yüksələn xətlə inkişaf etməsi üçün bütün imkanlardan istifadə etmişlər. Məhz elə bunun nəticəsidir ki, indi iki ölkə arasında münasibətlər strateji tərəfdaşlıq istiqamətində inkişaf edir.

Təcrübəli siyasi xadim və incə diplomat Heydər Əliyev Fransa dövlətinin dünyada və Avropada oynadığı rolu, malik olduğu gücü, nüfuzu və təsir dairəsini yaxşı bildiyindən, keçmiş iqtidarın dövründə Azərbaycanda yalnız «düşmən» kimi təlqin olunmuş Fransa ilə əlaqələri sahmana salmağı qərarlaşdırdı. Məhz bu məqsədlə də onun ilk rəsmi xarici səfəri Fransaya oldu.

Möhkəm təməl üzərində qurulmuş Azərbaycan-Fransa münasibətləri gələcəkdə hər iki ölkənin mənafeyinə cavab verən sıx əməkdaşlığı inkişaf etdirmək üçün geniş perspektivlər açır. Təsadüfi deyil ki, 1997-ci ilin yanvar ayında Prezident Heydər Əliyevin Fransaya növbəti rəsmi səfəri zamanı aparılan müzakirələr və iki ölkə arasında iqtisadi, siyasi və mədəni əlaqələrin inkişafına yeni təkan verən sənədlərin imzalanması müstəqil Azəraycan Respublikasının ötən illərdə gərgin diplomatik səyləri nəticəsində yaradılmış mövcud bazaya əsaslanırdı.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasət konsepsiyasında dünya siyasətində xüsusi təsir gücünə malik, nüfuzlu dövlətlərdən biri olan Almaniya Federativ Respublikası ilə münasibətlər geniş yer tutur.

1993-cü ilin ikinci yarısından başlayaraq Avropa dövlətləri ilə, xüsusən AFR kimi böyük, inkişaf etmiş və nüfuzlu ölkə ilə yeni əlaqələr və münasibətlər sisteminin yaradılması sahəsində aparılan məqsədyönlü işlər müstəqil Azərbaycan diplomatiyasının fəaliyyətində mühüm bir istiqamət kimi diqqəti cəlb edir. İkinci dünya müharibəsindən sonra qısa bir zaman ərzində iqtisadi, siyasi, sosial və mədəni inkişaf sahəsində dünyanın ən qabaqcıl ölkələri səviyyəsinə yüksələ bilmiş Almaniya Federativ Respublikası planetin qlobal problemlərinin həllində mühüm təsir gücünə malik olan, beynəlxalq və regional məsələlərdə rəyi və mövqeyi hər zaman nəzərə alınan bir dövlətdir. Belə bir dövlətlə dostluq və əməkdaşlıq etmək üçün yollar aramaq, onunla qarşılıqlı surətdə faydalı münasibətlər yaratmaq müsətəqillik yolu tutan gənc Azərbaycan Respublikası üçün həyati zərurətdən doğan bir tələbat idi. Məhz bu zərurəti dərk edən respublika rəhbərliyi bu ölkə ilə regional və beynəlxalq münasibətlər sahəsində ikitərəfli əməkdaşlığa xüsusi yer ayırmaq qərarına gəlmişdir. Ölkələrimiz arasında daha sıx münasibətlər yaratmaq məqsədi ilə atılan addımlar, Almaniyaya rəsmi səfər, keçirilən görüşlər, aparılan danışıqlar, fəal diplomatik gedişlər bunu bir daha sübut edir. Həyata keçirilən tədbirlər dostluq münasibətlərinin yaranmasına öz müsbət təsirini göstərmiş, əlaqələrin genişlənməsinə və yaxınlaşmasına əlverişli şərait yaratmışdır.

Müstəqillik illərində Azərbaycan dövlətinin xarici siyasətinin yeni istiqamətlərindən biri də İtaliya olmuşdur. Azərbaycan Prezidentinin 1997-ci il sentyabrın 25-28-də İtaliyaya səfəri ölkələrimiz arasındakı əlaqələrin vüsət götürməsi üçün əhəmiyyətli başlanğıc oldu. İtaliyada aparılmış danışıqların başlıca mövzusu Xəzərin enerji ehtiyatları olmuşdur. Səfər zamanı İtaliyanın ACİP şirkəti ilə neft müqaviləsinin bağlanması bu sahədə əməkdaşlıq üçün geniş imkan yaradır. İki ölkə arasında elm, texnika, turizm və başqa sahələrdə əlaqələrin inkişafına dair bir sıra müqavilələr imzalandı. Lakin səfər zamanı iki ölkə arasında dövlətlərarası münasibətlərin və iqtisadi əməkdaşlığın əsasları haqqında imzalanmış birgə bəyanat xüsusilə böyük əhəmiyyət kəsb edir.

Səfərin mühüm müsbət nəticələrindən biri də ölkələrimizin bir-birinə siyasi cəhətdən yaxınlaşması oldu. Buna əsas verən amillərdən biri Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdən birinin məhz İtaliya olması idisə, digəri də İtaliya rəhbərliyinin Azərbaycanın işğal olunmuş rayonlardan erməni hərbi birləşmələrinin çıxarılması və qaçqınların doğma yurdlarına qaytarılması barədə ədalətli tələbini dəstəklədiyini bəyan etməsi idi. İtaliya Prezidenti bildirmişdi ki, onun ölkəsi həmişə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinə və dövlət suverenliyinin möhkəmləndirilməsinə tərəfdar olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin məqsədyönlü xarici siyasəti nəticəsində Avropanın siyasi və iqtisadi həyatında mühüm rol oynayan Belçika Krallığı, Hollandiya, Norveç və digər ölkələrlə qarşılıqlı əlaqələrin genişləndirilməsi Azərbaycanın Avropa ilə inteqrasiyasına yeni yollar açır, beynəlxalq aləmdə nüfuzunun artmasına və mövqelərinin möhkəmlənməsinə kömək edir.

Sosializm düşərgəsinin süquta uğraması dünyanın, o cümlədən Avropanın siyasi mənzərəsinin kəskin şəkildə dəyişməsinə səbəb oldu. Yeni siyasi-iqtisadi durumun müəyyənləşməsində Şərqi Avropa ölkələrinin mövqeyi və fəal xarici siyasəti əsas amillərdən biri kimi ön plana çıxdı. Azərbaycan hələ SSRİ tərkibində olarkən Şərqi Avropanın Polşa, Macarıstan, Çexiya, Slovakiya, Bolqarıstan, Rumıniya kimi dövlətləri ilə müəyyən iqtisadi və mədəni əlaqələrə malik idi. SSRİ-nin dağılması və onun tərkibinə daxil olan respublikaların müstəqillik qazanması, eyni zamanda, Şərqi Avropa dövlətlərinin sosializm düşərgəsini tərk edərək Qərbə üz tutması bu əlaqələri daha da aktuallaşdırmış və müstəqil dövlət quruculuğu yolu tutmuş Azərbaycan üçün həyati zərurətə çevirmişdir.

Prezident Heydər Əliyev ölçülüb-biçilmiş xarici siyasət xəttində Azərbaycanla qonşu olan ölkələrlə münasibətlərə də xüsusi diqqət yetirirdi. Belə ki, bu ölkələrlə münasibətlərdə süni yaradılmış xeyli kəskin problemlər mövcud idi. Yaxın qonşumuz olan İranla hətta siyasi-ideoloji qarşıdurma, Türkiyə barəsində isə real şərait nəzərə alınmadan, ağına-bozuna baxmadan tam etnik birlik, türk birliyi zəminində aparılan emosional siyasət hər iki dost ölkə ilə münasibətlərə xələl gətirir, Azərbaycanın beynəlxalq mövqeyinə ziyan vururdu. Məhz buna görə də Heydər Əliyev çox təcrübəli siyasətçi kimi bu ölkələrlə münasibətlərdə tezliklə dönüş yaratmaq, bu ölkələrlə qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə, beynəlxalq hüquq normalarına əsaslanan sivilizasiyalı münasibətlər qurmaq üçün böyük əmək sərf etməli oldu.

Bu baxımdan dövlət başçısı Heydər Əliyevin İrana, Türkiyəyə, Səudiyyə Ərəbistanına və Pakistana səfərləri çox səmərəli oldu. Belə ki, İran və Türkiyə ilə münasibətlərdə xeyli mühüm dəyişikliklər edildi. İranla münasibətlərin yenidən qurulması, gərginliyin aradan qaldırılması, əməkdaşlığın genişləndirilməsi qısa bir zamanda bu yeni xarici siyasət xəttinin düzgün və faydalı olduğunu göstərdisə, Türkiyə ilə münasibətlərdə dərin düşünülmüş çox ağıllı dəyişikliklər ölkəmiz üçün, həm də ümumiyyətlə, ümumtürk birliyinin inkişaf edərək möhkəmlənməsi üçün çox əhəmiyyətli oldu.

Xarici siyasət fəaliyyətinin daha bir mühüm istiqaməti kimi ÇXR, Yaponiya, Hindistan və Asiyanın digər ölkələri ilə əlaqələrə böyük əhəmiyyət verildi. Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin möhkəmlənməsində, taleyüklü maraqlarının dəstəklənməsində bu ölkələrlə qurduğu mehriban dostluq, qarşılıqlı surətdə faydalı əməkdaşlıq münasibətləri xüsusi əhəmiyyət kəsb etdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bu ölkələrə səfərləri, həmin ölkələrin nümayəndə heyətlərinin Azərbaycana

səfərləri ikitərəfli münasibətlərin və əməkdaşlığın möhkəm hüquqi bazasını yaratdı və gələcək üçün geniş perspektivlər açdı.

Orta Asiya dövlətləri və Qazaxıstanla münasibətlərdə də mühüm dəyişikliklər edildi. Azərbaycanın bu çox vacib regionda zəifləmiş mövqeyini möhkəmləndirmək və milli mənafeyimizə ziyan vuran vəziyyəti aradan qaldırmaq üçün çevik diplomatik gedişlər edilərək yeni münasibətlər qurulmasını təmin edəcək forma və vasitələr düşünülüb tapıldı.

Az müddət içərisində normal vəziyyətə gətirilən münasibətlər dövlət başçılarının bir qədər sonra həyata keçirilmiş qarşılıqlı rəsmi səfərlərinin nəticələri ilə möhkəmləndirildi. Bu işdə Prezident Heydər Əliyevin Qazaxıstan və Özbəkistan respublikalarına olan rəsmi səfərləri çox mühüm rol oynadı.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dərin elmi-nəzəri bilik və zəngin təcrübə üzərində qurulmuş xarici siyasət konsepsiyasının həyata keçirilməsi nəticəsində bu gün Azərbaycan dünyanın, demək olar, bütün ölkələri ilə diplomatik münasibətlər qurmuşdur və əməkdaşlıq edir. Azərbaycan planetin ən mühüm beynəlxalq əməkdaşlıq bölgələrindən birinə çevrilib. Məhz bunun nəticəsidir ki, yalnız adı çəkilən ölkələrin deyil, Cənubi Amerikanın, Afrikanın bir sıra ölkələrinin, Kanadanın və digər dövlətlərin Azərbaycana marağı günbəgün artmaqdadır.

* * *

Azərbaycan Prezidentinin yeni xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə də böyük diqqət yetirilir. Hazırda dünyada 4 mindən çox beynəlxalq və regional təşkilat mövcuddur ki, bunların da 300-dən çoxu hökumətlərarası təşkilatdır. Beynəlxalq təşkilatlara üzv olmaq, onlarla səmərəli iş qurmaq Azərbaycanın problemlərini, Azərbaycan haqqında həqiqətləri dünyaya çatdırmaq üçün böyük əhəmiyyət kəsb edir. Odur ki, bu imkanlardan geniş istifadə edilməsi zəruridir. Məhz buna görə də hazırda Azərbaycan Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), Avropa Şurası (AŞ), Müstəqil Dövlətlər Birliyi (MDB), GUÖAM, İslam Konfransı Təşkilatı (İKT), Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QİƏT), Parlamentlərarası İttifaq, İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT), Türk Dövlət Başçıları Zirvə görüşü kimi beynəlxalq təşkilatların üzvü olmaqla bərabər, Avropa Birliyi, NATO, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və digər təşkilatlarla da fəal əməkdaşlıq edir.

Hazırda Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova və Özbəkistanı birləşdirən GUÖAM təşkilatı çərçivəsində regional əməkdaşlığın genişlənməsi üçün böyük perspektivlər açılır. Bu beş ölkə rəhbərlərinin çoxsaylı görüşləri və imzaladıqları sənədlər onların bir sıra regional və beynəlxalq məsələlərdə eyni mövqedə olduqlarını göstərdi. Bu ölkələri,

Prezident Heydər Əliyevin dediyi kimi, hər şeydən əvvəl tale ümumiliyi, qarşılaşdıqları problemlərin eyniliyi birləşdirir.

Bu gün Azərbaycan özünün coğrafi mövqeyinə, zəngin təbii ehtiyatlarına və potensialına əsaslanaraq, Böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafı, Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarlarına çıxarılması layihələrini səmərəli surətdə həyata keçirir.

Azərbaycan Avropa Birliyi, Avropanın iqtisadi strukturları ilə fəal əməkdaşlıq edir. Hazırda bu təşkilatların köməyi sayəsində 120-dən artıq milli və transregional layihə həyata keçirilir.

Azərbaycan Prezidentinin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirdiyi xarici siyasət xəttinin ən mühüm uğurlarından biri də 2001-ci ilin əvvəlində Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi, Avropa ailəsinə qovuşması oldu. Beləliklə də, müstəqilliyin ilk on ili ərzində Azərbaycan xalqı Prezident Heydər Əliyevin rəhbərliyi ilə ən mürəkkəb və sərt maneələri dəf etdi, ölkədə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunda və vətəndaş cəmiyyəti yaradılmasında qətiyyətli addımlar atdı. Azərbaycan özünün gələcəyini Avropaya tam inteqrasiya ilə bağladı. Onu da qeyd etmək lazımdır ki, bu mühüm nailiyyət Azərbaycana başqa dövlətlərlə müqayisədə ikiqat, üçqat, bəlkə də daha ağır zəhmət bahasına başa gəldi. Azərbaycanın Avropa Şurasına tam hüquqlu üzv qəbul edilməsi həm ölkəmiz üçün, həm də bu təşkilat üçün xüsusi əhəmiyyət kəsb edir.

Göründüyü kimi, bu gün beynəlxalq aləmdə nüfuzu durmadan artan, yerləşdiyi bölgədə ən mühüm dövlətlərdən biri sayılan, yüksək siyasi-iqtisadi potensiala, Avropadan Asiyaya çıxış qapısı rolu oynaması baxımından güclü imkanlara malik olan Azərbaycan Avropa üçün böyük geostrateji əhəmiyyət daşıyan ölkələrdən birinə çevrilmişdir.

Həyata keçirilən yeni xarici siyasət xəttinin müsbət nəticələri göz qabağındadır. İndi dünyanın aparıcı dövlətlərinin iqtisadi və siyasi maraqlar sisteminə daxil olan müstəqil Azərbaycan dövləti öz təhlükəsizliyi və digər dövlətlər ilə sivilizasiyalı birgəyaşayış əlaqələri yaradılması üçün etibarlı beynəlxalq təminat qazanmışdır. Nəzərə alsaq ki, müstəqil dövlət quruculuğunun həyata keçirilməsinə və onun təhlükəsizliyinə nail olmağın daxili amili əhalinin müstəqillik iradəsi və əzmi, xarici amili isə beynəlxalq təminat hesab olunur, onda bu gün inamla söyləmək olar ki, suveren Azərbaycan dövlətinin qorunmasını və inkişafını şərtləndirən hər iki amilin təmin edilməsi və möhkəmləndirilməsi 1993-cü ildən bəri Azərbaycan diplomatiyasının ən böyük uğurudur.

* * *

Azərbaycan Respublikası Prezidentinin xarici siyasət fəaliyyətində 12 ildən artıq davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ

münaqişəsinin həlli başlıca yer tutur. Bu münaqişənin tarixi və mahiyyəti, onun törətdiyi nəticələr dünya birliyinə yaxşı məlumdur. Bu münaqişə əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağı qoparıb özünə birləşdirməyə çalışan Ermənistanın Azərbaycana ərazi iddiaları nəticəsində yaranmışdır. 1988-ci ildə münaqişə başlananda keçmiş Sovet İttifaqının rəhbərliyinin Azərbaycana qarşı ədalətsiz, qərəzli mövqeyi, əsassız ərazi iddiasının qarşısını almaq istəməməsi nəticəsində münaqişə böyüyüb müharibəyə çevrildi.

1991-1992-ci illərdə hərbi əməliyyatlar genişlənməyə başladı. Erməni silahlı birləşmələri Azərbaycanın Dağlıq Qarabağ bölgəsində ən müasir silahlardan istifadə edərək 1992-ci ilin fevral ayında 800 nəfərin ölümü ilə nəticələnən Xocalı soyqırımını həyata keçirdilər. 1992-ci ilin mayında isə bu hücumlar Şuşanın, sonra isə Laçının süqutu ilə nəticələndi. Beləliklə də, erməni silahlı qüvvələri Dağlıq Qarabağın ətrafındakı rayonların da işğalına başladılar. BMT-nin Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 nömrəli qətnamələrində erməni silahlı birləşmələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması və qaçqınların öz doğma yerlərinə qaytarılması tələb olunsa da, bu sahədə beynəlxalq ictimaiyyətin səylərinə və çağırışlarına məhəl qoymayan erməni silahlı birləşmələri Azərbaycan rayonlarının işğalını davam etdirdilər. 1993-cü ilin aprelindən başlayaraq bir neçə ay ərzində Kəlbəcər, Ağdam, Cəbrayıl, Qubadlı, Füzuli, Zəngilan işğal olundu. Onu da qeyd etmək lazımdır ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti beynəlxalq ictimaiyyət tərəfindən pislənsə də, faktiki olaraq heç bir dövlət tərəfindən Ermənistan təcavüzkar kimi tanınmadı. Yalnız 1993-cü ilin aprel ayında Pakistanın Kəraçi şəhərində İslam Konfransı Təşkilatının 21-ci konfransında Ermənistan təcavüzkar kimi tanındı.

Beləliklə, Azərbaycan Respublikasına qarşı təcavüz nəticəsində ölkənin ərazisinin 20 faizi, yəni 17.000 kvadrat-kilometr torpaq sahəsi işğal altında qaldı, 18.000 nəfər həlak oldu, 50.000 nəfər yaralanaraq əlil oldu. Azərbaycan Respublikasının Qaçqınlar və məcburi köçkünlər üzrə Dövlət komissiyasının 2000-ci ildə hazırladığı statistik məlumatlara əsasən, işğal olunmuş ərazilərdə 6.000-ə yaxın kənd təsərrüfatı və sənaye obyekti, 102.000 yaşayış evi, 4366 sosial-mədəni obyekt, 7.000 ictimai bina, 693 orta məktəb, 855 məktəbəqədər müəssisə, 695 xəstəxana və digər tibb müəssisələri, 10 məscid, 160 körpü, 368 klub, 927 kitabxana, 85 musiqi məktəbi, 464 muzey və tarixi abidə, 6 dövlət teatrı dağıdılıb. 800 kilometr dəmir və avtomobil yolları, 15 min kilometr elektrik və qaz xətləri, 2300 kilometr regional əhəmiyyətli su kommunikasiya sistemləri sıradan çıxarılıb. İşğal olunmuş torpaqlarda 31 məscid, 9 tarixi saray, 1 milyon hektar kənd təsərrüfatı sahəsi, 250 min hektar meşə sahəsi, 200 poleontoloji, geoloji abidə erməni separatçılarının əlinə keçdi. Qaçqın və məcburi köçkünlərə gəldikdə isə onların ümumi sayı bir milyondan artıqdır. Onlardan 245 min nəfəri Ermənistandan, 50 min nəfəri Orta Asiyadan Azərbaycana pənah gətirmiş qaçqınlardan, 800 min nəfərə

qədəri isə ölkə daxilindən qovulmuş məcburi köçkünlərdən ibarətdir. Nəticə etibarı ilə münaqişə dövrü ərzində Azərbaycana dəyən maddi ziyan 60 milyard ABŞ dolları dəyərindədir.

9 il bundan əvvəl, 1992-ci il martın 24-də ATƏM-in Nazirlər Şurası özünün Helsinkidə çağırılmış fövqəladə iclasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hərtərəfli tənzimlənməsinə nail olmaq üçün Minsk qrupunun yaradılması haqqında qərar qəbul etdi.

Yaradıldığı andan etibarən ATƏT-in Minsk qrupunun qəbul etdiyi sənədlərdə Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının, suverenliyinin bərpasının zəruriliyi bildirilsə də, ümumilikdə onun fəaliyyəti hələlik istənilən nəticəni verməmişdir.

Prezident Heydər Əliyevin Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qorumaq, ölkədə ictimai-siyasi sabitliyə nail olmaq istiqamətində təxirəsalınmaz vəzifələrindən biri davam etməkdə olan Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı qəti addımlar atmaqdan ibarət idi. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Milli Ordumuzun formalaşdırılması, onun döyüş qabiliyyətinin yüksəldilməsi, torpaqlarımızın müdafiə olunması üçün geniş miqyaslı tədbirlərin həyata keçirilməsi hərbi qarşıdurmada tarazlıq yaratdı.

Cəbhədəki yeni vəziyyət erməni tərəfini atəşin dayandırılması barədə ciddi düşünməyə vadar etdi. Məhz möhtərəm Prezidentimizin təşəbbüsü ilə, onun qətiyyəti, əzmkarlığı və uzaqgörənliyi nəticəsində 1994-cü il may ayının 12-də atəşkəs haqqında razılaşma əldə olundu, beş ildən artıq bir müddət ərzində davam etmiş hərbi əməliyyatlar dayandırıldı.

Məhz atəşkəsə nail olduqdan sonra sülh yollarının axtarışı üçün geniş imkan və şərait yaranmış oldu və bu sahədə işlərin vüsəti xeyli artdı. Azərbaycan Prezidenti məsələnin dincliklə nizama salınmasına tərəfdar olduğunu bildirdi və onun gərgin fəaliyyəti nəticəsində ATƏT-in Minsk qrupu çərçivəsində intensiv sülh danışıqları aparıldı.

ATƏT-in 1994-cü il Budapeşt, 1996-cı il Lissabon və 1999-cu il İstanbul sammitlərində münaqişənin dinc və siyasi yollarla həlli istiqamətində bir sıra mühüm təkliflər irəli sürülmüşdür. Xüsusilə 1996-cı ildə ATƏT-in Lissabon Zirvə görüşü zamanı Prezident Heydər Əliyevin siyasi uzaqgörənliyi və müdrikliyi sayəsində Azərbaycanın mövqeyi Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən tanındı və müdafiə olundu. Lissabon sammitindən sonra ATƏT-in Minsk qrupuna yeni format verilməsi onun fəaliyyətinə bir canlanma gətirdi.

Münaqişənin həllinin ATƏT müstəvisinə keçirildiyi 1992-ci ildən başlayaraq bu təşkilatla qarşılıqlı əməkdaşlıq Prezident Heydər Əliyevin səyləri ilə Azərbaycanın xarici siyasət xəttinin əsas tərkib hissələrindən birinə çevrildi. Təkcə bir faktı xatırlamaq kifayətdir ki, 1993-2000-ci illər arasında Prezident Heydər Əliyev ATƏT rəhbərliyi və Minsk qrupunun təmsilçiləri ilə 130-dan çox görüş keçirmişdir. ATƏT-ə üzv olan ölkələrin liderləri ilə

keçirilən görüşləri, aparılan danışıqları da buraya əlavə etsək, Dağlıq Qarabağ münaqişəsini həll etməyi öz üzərinə götürmüş bu beynəlxalq qurumla Azərbaycanın nə qədər sıx və intensiv işlədiyi, qarşılıqlı əməkdaşlıq etdiyi aydın olar.

Azərbaycan Prezidenti Heydər Əliyev 1993-cü ildən indiyədək 68 ölkənin prezidentləri və dövlət başçıları ilə 485 görüş keçirmişdir. Bu görüşlərin hamısında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunmuşdur. Konkret rəqəmlərlə ifadə etsək, Prezident Heydər Əliyev ABŞ-ın Prezidenti, xarici işlər naziri ilə bu məsələni 18, Fransa rəhbərləri ilə 16, Rusiya rəhbərləri ilə 23, Türkiyə rəhbərləri ilə 78 dəfə müzakirə etmişdir. BMT-nin baş katibləri ilə onlarca görüş olmuşdur, NATO-nun, Müstəqil Dövlətlər Birliyinin zirvə görüşlərində, İslam Konfransı Təşkilatının iki, İqtisadi Əməkdaşlıq Təşkilatının dörd zirvə görüşündə, türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşlərində hər dəfə Prezident Heydər Əliyev Ermənistan-Azərbaycan münaqişəsini gündəliyə çıxarmışdır.

Məhz 1996-cı ilin dekabrında ATƏT-in Lissabon Zirvə görüşündə münaqişənin nizama salınmasının baza formulu müəyyən edildi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev çevik və dəqiq diplomatik addımları ilə Azərbaycanın dünya birliyi tərəfindən dəstəklənməsinə nail oldu. Ermənistan Respublikasından başqa ATƏT-in üzvü olan 53 Avropa ölkəsi nizamlanmanın üç əsas prinsipini dəstəklədi. Bu prinsiplər Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsini, Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyini təmin etməklə bərabər Azərbaycanın tərkibində ona ən yüksək dərəcəli özünüidarə statusu verilməsini nəzərdə tutur. Bununla da münaqişənin sülh yolu ilə həlli üçün dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən dəstəklənən ədalətli hüquqi bünövrə yaradılmış və vasitəçilərin vəzifələri müəyyən olunmuşdur.

ATƏT-in Lissabon Zirvə görüşündən sonra Minsk qrupunun həmsədrləri dünyanın üç ən böyük dövləti - Rusiya, ABŞ, Fransa oldu. Biz bu ölkələrə böyük ümidlər bəsləyirik və güman edirik ki, onların səyləri ilə münaqişə tənzimlənəcək, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq və qaçqınlar öz daimi yaşayış yerlərinə qayıdacaqlar. Lakin təəssüf ki, hələlik bütün bunlar həyata keçməmişdir. Ermənistan isə BMT-nin və ATƏT-in qəbul etdikləri qərarların heç birini yerinə yetirmir.

Minsk qrupunun həmsədrləri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair idiyədək üç təklif vermişlər. Onların 1997-ci ilin iyununda təqdim etdikləri ilk təklif münaqişənin paket həllini, 1997-ci ilin oktyabrında verdikləri ikinci təklif isə münaqişənin mərhələli həllini nəzərdə tuturdu. 1998-ci ilin noyabrında həmsədrlər yeni, üçüncü təklif - «ümumi dövlət» təklifini verdilər.

Bu təkliflərin bəzi müddəalarının beynəlxalq hüquq normalarına və prinsiplərinə zidd olmasına baxmayaraq, Azərbaycan Prezidenti həmsədrlərin birinci və ikinci təkliflərinin danışıqlar prosesinin konstruktiv istiqamətdə

davam etdirilməsi üçün əsas kimi qəbul edilməsinə razılıq verdi. Hətta belə bir vəziyyətdə də Ermənistan bu təkliflərlə razılaşmayaraq açıq-aşkar qeyri-konstruktiv mövqe tutdu.

Həmsədrlərin «ümumi dövlət» təklifini Azərbaycan tərəfi qəbul etmədi. Çünki heç bir beynəlxalq-hüquqi bazası olmayan «ümumi dövlət» məfhumu Dağlıq Qarabağı müstəqil dövlət və ərazi qurumu kimi nəzərdə tutur, ona Azərbaycan ilə bərabər hüquqlu «ümumi dövlət» subyekti statusu verir, Azərbaycanı öz ərazisinin bir hissəsindən məhrum edir və faktiki olaraq Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını qanuniləşdirirdi.

Təəssüf ki, ATƏT-in Minsk qrupunun həmsədrləri beynəlxalq hüquq prinsiplərini rəhbər tutaraq münaqişənin tezliklə tənzimlənməsinə nail olmaq, Azərbaycanın ərazi bütövlüyünün bərpasını təmin etmək, qaçqınların daimi yaşayış yerlərinə qaytarılmasına səy göstərmək sahəsində onlara bəslənən ümidləri hələlik doğrultmamışlar.

Nəhayət, 1999-cu ilin aprelindən başlayaraq, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində ATƏT-in Minsk qrupunun fəaliyyətini tamamlayan yeni bir format yaranmışdır. Bu, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa dialoqudur. İndiyə qədər Azərbaycan Prezidenti Heydər Əliyev Ermənistan Prezidenti Robert Koçaryan ilə Cenevrədə, Moskvada, İstanbulda, Parisdə, Minskdə, Davosda, Yaltada, Soçidə, habelə respublikamızın sərhədində çoxsaylı görüşlər keçirmişdir.

Ermənistan Prezidenti ilə danışıqlar zamanı Azərbaycan Prezidenti əsasən münaqişənin tezliklə sülh yolu ilə tənzimlənməsi və Ermənistan ilə Azərbaycan arasında uzunmüddətli möhkəm sülh yaradılması üçün qarşılıqlı surətdə məqbul kompromislərin axtarışı ilə məşğul olmuşdur. Qeyd etmək lazımdır ki, 1999-cu ilin axırlarında prezidentlər kompromis əldə edilməsinə yaxın idilər. Lakin Ermənistan əldə olunmuş razılaşmalardan geri çəkildi.

Son dərəcə çətin və ağır olan bu dialoq davam etdirilməkdədir. Ermənistan tərəfinin əlində təzyiq vasitəsi kimi işğal olunmuş torpaqlar var. Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və onun ətrafındakı yeddi rayonu, ümumilikdə Azərbaycan ərazisinin 20 faizini işğal etməsi nəticəsində əldə etdiyi müvəqqəti hərbi üstünlükdən, habelə işğal olunmuş torpaqlardan bir milyona qədər azərbaycanlını didərgin salaraq qaçqın vəziyyətində çadırlarda dözülməz şəraitdə yaşamağa məcbur etməsindən danışıqlarda təzyiq vasitəsi kimi istifadə edir. Ermənistan, nəyin bahasına olursa olsun, Azərbaycan ərazisinin bir hissəsini qoparıb özünə birləşdirməyə və ya Dağlıq Qarabağ üçün müstəqillik statusuna nail olmağa çalışır. Digər tərəfdən isə, beynəlxalq birliyin bitərəf mövqe tutmasını, BMT və ATƏT kimi mötəbər qurumların öz təklif və qətnamələrini həyata keçirmək üçün konkret fəaliyyət göstərməməsini, dünyanın onlarca ölkəsində erməni diasporunun məqsədyönlü lobbiçilik fəaliyyətini də Azərbaycanın haqq işinin müdafiəsinə mane olan və danışıqlar prosesində Azərbaycan Prezidentinin vəziyyətini çətinləşdirən amillər sırasına əlavə etmək lazımdır.

Lakin bütün bunlara baxmayaraq, danışıqlar davam edir və Azərbaycan xalqı Prezident Heydər Əliyevin bütün çətinliklərə rəğmən bu son dərəcə mürəkkəb və taleyüklü missiyanın öhdəsindən uğurla gələcəyinə, Azərbaycanın milli və dövlətçilik maraqlarını əzmlə qoruyacağına tam inanır və müstəqil Azərbaycan dövlətçiliyinin möhkəm zəmin üzərində formalaşmasının, onun müstəqilliyinin əbədiləşməsinin və xoşbəxt gələcəyinin təminatını yalnız Prezident Heydər Əliyevlə bağlayır.

Beynəlxalq hüququn prinsip və normalarına, BMT-nin Nizamnaməsinə uyğun olaraq, BMT-yə daxil olan hər bir müstəqil dövlətin ərazi bütövlüyünə, sərhədlərinin pozulmazlığına hamı tərəfindən və xüsusən bu münaqişənin həllinə görə məsuliyyəti öz üzərinə götürmüş ATƏT tərəfindən əməl olunmalıdır. ATƏT və onun Minsk qrupu bu prinsipə möhkəm əməl etməli, onun ciddi şəkildə yerinə yetirilməsinə hər cür kömək göstərməlidirlər.

Bu gün danışıqlar prosesində yaranmış vəziyyət isə beynəlxalq münasibətlərdə təhlükəli presedent yaradır. Dünya birliyi beynəlxalq hüquq normalarına və prinsiplərinə ciddi əməl olunmasını, bunların möhkəmləndirilməsini təmin etmək əvəzinə, qətiyyətsizlik nümayiş etdirir. Ərazi bütövlüyünün toxunulmazlığı, sərhədlərin pozulmazlığı kimi beynəlxalq hüququn fundamental norma və prinsipləri sual altına qoyulur və bununla da Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində yaşayan 100 min erməniyə görə beynəlxalq praktikanın, beynəlxalq hüququn on illər boyu formalaşmış dayaqları sarsıdılır. Hərbi təcavüzün nəticələrinin tanınması nəticəsində əldə edilmiş sülh, sabitlik və təhlükəsizlik isə möhkəm və əbədi ola bilməz.

On il tarixi baxımdan böyük müddət deyildir. Azərbaycanda bu qısa müddət ərzində demokratik, hüquqi, dünyəvi dövlət qurulmuş, onun təsisatları yaradılmışdır. Azərbaycan iqtisadi islahatlar apararaq bazar iqtisadiyyatını inkişaf etdirir. Ölkəmiz artıq intensiv inkişaf dövrünü yaşayır. Məhz Prezident Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti, gərgin və yorulmaz əməyi, zəngin dövlətçilik təcrübəsi, elmi-nəzəri cəhətdən hərtərəfli düşünülmüş və əsaslandırılmış konsepsiyası, Azərbaycan xalqına sədaqəti və məhəbbəti, onun taleyi ilə bağlı üzərinə götürdüyü məsuliyyəti sayəsində Azərbaycan demokratik inkişaf yolu ilə inamla irəliləyir və bütün maneələrə baxmayaraq beynəlxalq meydanda özünə layiq yeri tutur.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin on illik tarixinin qısa təhlili göstərir ki, ölkənin həyati mənafelərinə xidmət edən, dövlətin strateji maraqları üzərində qurulmuş, hərtərəfli işlənib hazırlanmış, özünün aydın, konkret vəzifə və istiqamətləri, prinsipləri ilə seçilən ardıcıl xarici siyasət xətti yalnız 1993-cü ilin ikinci yarısından etibarən yeridilməyə başlanmışdır. Prezident Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyini qorumağa, möhkəmləndirməyə və ölkəmizin dünya birliyinə inteqrasiyası üçün əlverişli beynəlxalq şəraiti təmin etməyə yönəlmiş çoxşaxəli, fəal xarici siyasətinin nəticəsidir ki, indi Azərbaycan dövləti bölgədə və dünyada baş verən əsas

iqtisadi, siyasi, mədəni hadisə və proseslərdə layiqincə təmsil olunur, öz mövqeyini bildirir və mənafelərini qoruyur. Respublikamızın daxilində gedən demokratik proseslər və iqtisadi dəyişikliklər də əlavə olunmaqla, uğurlu xarici siyasət bu gün dünyanın ən qüdrətli dövlətlərinin, nüfuzlu təşkilat və qurumlarının diqqətini Azərbaycana yönəltmiş, beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığın yaranmasına və inkişafına əlverişli zəmin yaratmışdır.

İnanırıq ki, müasir dünyanın görkəmli siyasi və dövlət xadimi Prezident Heydər Əliyevin rəhbərliyi ilə dövlətimizin xarici siyasət xətti bütün istiqamətlərdə uğurlu irəliləyişini davam etdirərək, Azərbaycanın beynəlxalq mövqelərinin daha da möhkəmlənməsinin, müstəqilliyinin və dövlətçiliyinin dönməzliyinin təminatçısı olacaqdır.

*Hidayət ORUCOV,*
*milli siyasət məsələləri üzrə*
*dövlət müşaviri*

# MÜSTƏQILLIYIMIZ VƏ MILLI SIYASƏTIMIZ

Artıq on ildir ki, Azərbaycan Respublikası milli müstəqilliyinə nail olaraq, beynəlxalq aləmin tam və bərabər hüquqlu üzvü kimi müstəqil daxili və xarici siyasət xəttini həyata keçirməkdədir. Əvəzsiz tarixi nailiyyətimiz olan dövlət suverenliyimizin ötən dövrü ərzində demokratik, hüquqi dövlət quruculuğu istiqamətində əsaslı islahatlar aparılmış, sivilizasiyalı beynəlxalq aləmə inteqrasiya sahəsində mühüm siyasi-iqtisadi tədbirlər görülmüşdür. Ölkəmizdə həyata keçirilən demokratikləşdirmə prosesinin dönməzliyi, dövlət müstəqiliyinin qorunub saxlanılması, cəmiyyətdə beynəlxalq prinsiplərin və hüquqi normaların bərqərar edilməsi Azərbaycan Respublikasının daxili və xarici siyasətinin başlıca istiqamətlərindəndir. Şübhəsiz ki, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, vətəndaşların hüquq və azadlıqlarının beynəlxalq standartlara uyğun olaraq tənzimlənməsi, milli azlıqların, milli-mədəni özgünlüyün qorunub saxlanması bu siyasətin üstün istiqamətidir. Bunsuz cəmiyyətdə ictimai-siyasi sabitliyə, demokratik birgəyaşayışa nail olmağın, eyni zamanda sivilizasiyalı dünyaya qovuşmağın mümkünsüzlüyü çağdaş Azərbaycan siyasətində aydın dərk olunur və bu sahədə mühüm, ardıcıl dövlət tədbirləri həyata keçirilir.

Azərbaycanın keçən il qoşulduğu «Milli azlıqların müdafiəsinə dair Çərçivə Konvensiyası»nda da qeyd olunduğu kimi, Avropa tarixində baş vermiş təlatümlər göstərdi ki, milli azlıqların qorunması bu qitədə sabitlik, demokratik təhlükəsizlik və sülh üçün zəruridir. Konvensiyadan bir məqama da diqqət çəkmək yerinə düşər: *«Dözümlülük və dialoq şəraitinin yaradılması ona görə vacibdir ki, mədəni rəngarənglik cəmiyyətdə parçalanmaya deyil, əksinə, onun daha da zənginləşməsinə xidmət edən amil və mənbə olsun.»* Çağdaş Azərbaycan siyasətində bu əsaslandırmalar tarixi dövlətçilik təcrübəsi və demokratiya prinsipləri baxımından siyasi zərurət kimi qiymətləndirilir.

Son illərdə Azərbaycanda BMT, Avropa Şurası, ATƏT və başqa beynəlxalq təşkilatlar xətti ilə keçirilən konfranslarda, seminarlarda ölkəmizdə etnik və dini tolerantlıq, milli və dini azlıqların müdafiəsi praktikası, bu sahədə tarixi-milli ənənələr və müstəqil gənc dövlətimizin apardığı düzgün siyasət yüksək dəyərləndirilmiş, eyni zamanda dövlətimiz və cəmiyyətimiz belə tədbirlər vasitəsilə sivil dünya təcrübəsini daha dərindən öyrənmək, qarşılıqlı müqayisələr aparmaq və tolerantlığın əbədiliyinə, milli

münasibətlərin davamlı tənzimlənməsinə yardım edəcək tövsiyələri diqqətlə öyrənərək həyata keçirmək imkanı qazanmışdır.

1999-cu ildə əhalinin siyahıya alınmasına görə, Azərbaycan Respublikası əhalisinin 90,6 faizini azərbaycanlılar, 9,4 faizini isə milli azlıqların nümayəndələri təşkil edirlər. Əsas yerli əhali olan azərbaycanlılarla yanaşı, respublikada ləzgilər, avarlar, talışlar, tatlar, saxurlar, kürdlər, udilər, ruslar, ukraynalılar, yəhudilər, tatarlar, beloruslar, gürcülər, ermənilər və s. məskunlaşıb yaşamaqdadır.

Azərbaycanın etnik coğrafiyası həmişə rəngarəng olub. Tarixin heç bir mərhələsində Azərbaycanda milli, dini dözümsüzlük, ayrı-seçkilik faktı qeydə alınmamış və etnik əlvanlıq günümüzə qədər qorunub saxlanmışdır. Təkcə bir faktı xatırlatmaq kifayətdir ki, dünyada cəmi bir kəndlik Xınalıq xalqı bu gün də öz dilini, mədəniyyətini, özgünlüyünü qoruyub saxlamışdır. Və yalnız ölkəmiz tarixi haqqımız olan müstəqilliyimizi bərpa etdikdən sonra bu xalqın dilində ilkin olaraq ədəbiyyat çap olunmağa başlanmış, «Xınalıq tarix-etnoqrafiya muzeyi» yaradılmışdır. Cəmi bir kəndlik, özü də ucqarda yaşayan azsaylı insanların milli-mənəvi dəyərlərinin qorunmasına, dilinin, mədəniyyətinin inkişafına dövlət səviyyəsində ardıcıl qayğı göstərilməsi faktına dünya təcrübəsində tez-tez rast gəlinmir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dəfələrlə dediyi kimi, polietnizmin qorunması bizim tarixi nailiyyətimizdir. Müstəqil demokratik Azərbaycan Respublikası bu gün də öz mütərəqqi tarixi ənənələrinə sadiqdir. Ermənistanın respublikamıza hərbi təcavüzü, 20 faiz Azərbaycan ərazisinin Ermənistan tərəfindən işğalı, ağır müharibə şəraiti, 1 milyon Azərbaycan vətəndaşının öz dədə-baba yurdlarından qaçqın salınması, keçid dövrünün ictimai-siyasi, sosial-iqtisadi çətinlikləri çoxsaylı problemlər doğursa da, Azərbaycan dövləti ardıcıl milli siyasət xətti yeritmiş, insan hüquq və azadlıqlarının təmin edilməsi, milli azlıqların qorunması sahəsində mühüm dövlət tədbirləri həyata keçirilmişdir.

Respublikanın rəsmi dövlət orqanlarında, hökumətində, parlamentində milli azlıqların nümayəndələri geniş təmsil olunmuşdur. Azlıqların sıx yaşadığı regionlarda şəhər və rayonların, qəsəbə və kəndlərin dövlət strukturlarında bir çox vəzifələri, o cümlədən rəhbər vəzifələri istisnasız olaraq yerli əhalinin nümayəndələri tuturlar ki, bu da Azərbaycan Respublikasında insan hüquqlarına, şəxsiyyət azadlığına hörmətin, irqindən, etnik mənsubiyyətindən, dini etiqadından asılı olmayaraq bütün vətəndaşların bərabərliyinin çoxsaylı əyani sübutlarındandır.

Respublikada yaşayan bütün milli azlıqların mədəniyyət mərkəzləri, xeyriyyə cəmiyyətləri və digər ictimai təşkilatları fəaliyyət göstərir. Bu cəmiyyətlər milli-mədəni özgünlüyün, etnik xüsusiyyətlərin qorunub saxlanması, azlıqların dil və mədəniyyətinin inkişafı sahəsində mühüm iş görürlər. Milli azlıqların dillərində qəzet və jurnallar nəşr edilir, dövlət radiosu ilə daimi verilişlər verilir, yerlərdə televiziyalar və radiolar fəaliyyət

göstərir. Bir çox dillərdə dövlət vəsaiti hesabına bədii kitablar, ana dili dərslikləri və tədris proqramları çap olunur, milli teatrlar, incəsənət kollektivləri, ədəbi birliklər fəaliyyət göstərir. Respublika Təhsil Nazirliyində milli azlıqların dillərində dərs vəsaitlərinin və proqramların hazırlanması və nəşri üzrə xüsusi Şura yaradılmış, onların sıx yaşadıqları bölgələrin orta məktəblərində ana dili dərslərinin tədrisi təşkil edilmişdir.

Məmnunluq hissi ilə qeyd edilməlidir ki, milli mədəniyyət təşkilatları təmsil etdikləri xalqların mədəniyyətinin və dilinin inkişafı, özgünlüyünün, adət-ənənələrinin qorunması məsələləri ilə məşğul olmaqla yanaşı ölkədə milli həmrəyliyin bərqərar edilməsinə, millətlərarası münasibətlərin daha da tənzimlənməsinə öz töhfələrini verirlər.

Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda mübarizədə yekdillik ölkəmizdə yaşayan bütün milli azlıqların milli çoxluqla sarsılmaz həmrəyliyini əks etdirən güclü amillərdən biridir. Erməni təcavüzkarlarına qarşı mübarizədə azərbaycanlılarla yanaşı kürdlər, ləzgilər, talışlar, avarlar, yəhudilər, saxurlar, tatarlar, ruslar, ukraynalılar, beloruslar və başqa xalqların nümayəndələri çiyin-çiyinə vuruşmuşlar. Onların bəziləri Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş, dövlət ordenləri və medalları ilə təltif edilmişlər.

Azərbaycanda milli azlıqların vəziyyətini, eyni zamanda xalqımızın və dövlətimizin demokratiya və insan hüquqlarının qorunmasına sədaqətini əks etdirən faktlardan biri budur ki, azərbaycanlılar Qərbi Azərbaycandan (müasir Ermənistan Respublikasından) - öz tarixi-etnik torpaqlarından son nəfərinədək qovulduqları halda, bu gün ölkəmizdə, Dağlıq Qarabağdan kənarda 30 minədək erməni yaşayır və onların hüquq və azadlıqları Azərbaycan Konstitusiyası və beynəlxalq sənədlər səviyyəsində qorunur. Razılaşmamaq olmur ki, dünya müharibələri tarixində döyüşən tərəflərdən yalnız birinin bu cür insanpərvər rəftarına çox az rast gəlmək olar.

Müstəqil Azərbaycan Respublikasında insan hüquqlarının və azadlıqlarının, habelə milli azlıqların hüquqlarının qorunması sahəsində dövlətin siyasi xəttinin əsas qanunvericilik bazasını 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiya təşkil edir. Azərbaycan Respublikasının ilk demokratik Konstitusiyasında hüquqi, demokratik, unitar dövlətçilik prinsiplərinə, habelə beynəlxalq hüquq normalarına, insan hüquqlarına sadiqlik öz əksini tapmış, Azərbaycanda yaşayan bütün vətəndaşların şəxsiyyət toxunulmazlığına, hüquq və azadlıqlarına beynəlxalq standartlara uyğun təminatlar verilmişdir.

Konstitusiyanın III fəsli («Əsas insan və vətəndaş hüquqları və azadlıqları») beynəlxalq prinsiplərə əsaslanan və çağdaş hüquqi dövlətdə insan hüquq və azadlıqlarının bütün çalarlarını özündə əks etdirən 47 maddədən ibarətdir. 25-ci maddədə («Bərabərlik hüququ») *«Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara,*

*həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir.»*

Həmin maddədə göstərilir ki, *«İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşə, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.»*

Milli azlıqların qorunmasına dair beynəlxalq sənədlərdə öz əksini tapan zəruri prinsiplərdən biri milli mənsubiyyət və dil hüququdur ki, bu da Azərbaycan Konstitusiyasında birmənalı şəkildə təsbit edilmişdir. 44-cü maddədə («Milli mənsubiyyət hüququ») göstərilir ki, *«Hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz.»* «Ana dilindən istifadə hüququ» adlanan 45-ci maddədə deyilir: *«Hər kəsin ana dilindən istifadə etmək hüququ vardır. Hər kəsin istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ vardır. Heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz.»*

Qeyd etmək lazımdır ki, milli siyasətimizdə və milli azlıqların qorunması sahəsində dövlətin xüsusi önəm verdiyi bu məqamlar hazırkı Azərbaycan gerçəkliyini tamamilə əks etdirən və maneəsiz yerinə yetirilən zəruri prinsiplərdir.

Bu gün insan hüquqlarının təmin edilməsi, milli azlıqların qorunması istiqamətində səmərəli fəaliyyətə sivilizasiyalı dünya təcrübəsinə və beynəlxalq hüquqi sənədlərə əsaslanmadan nail olmaq, şübhəsiz ki, qeyri-mümkündür. Müstəqil Azərbaycan Respublikası BMT-nin İnsan Hüquqları Haqqında Ümumi Bəyannaməsinə, Avropa Şurasının «Əsas insan hüquq və azadlıqlarına dair Avropa Konvensiyası»na, Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Helsinki Aktına, Mülki və siyasi hüquqlara dair Beynəlxalq Pakta, Milli, etnik, din və dil azlıqlarına mənsub şəxslərin hüquqları haqqında Bəyannaməyə, ATƏT-in İnsan meyarları üzrə Kopenhagen və Moskva sənədlərinə, Mədəni irs üzrə Krakov Sazişinə, Yeni Avropa üçün Paris Xartiyasına və digər beynəlxalq sənədlərə qoşulmuşdur.

Azərbaycan dövləti öz müstəqil daxili və xarici siyasətində beynəlxalq normalara, qoşulduğu beynəlxalq konvensiya və hüquqi sənədlərdən irəli gələn prinsiplərə hörmət və məsuliyyətlə yanaşır. Hazırda milli azlıqların qorunması sahəsində dövlətin siyasi xətti aşağıdakı istiqamətlər üzrə aparılır:

- dövlət suverenliyi, milli dövlətçilik və ərazi bütövlüyü prinsipinə dönmədən əməl olunması;
- Azərbaycan Respublikasında yaşayan bütün milli azlıqların hüquq və azadlıqlarının, insan haqlarının qorunması, onların dil və mədəniyyətinin inkişafına, milli-mədəni özgünlüyün qorunub saxlanmasına dövlət yardımının və qayğısının təmin edilməsi;
- milli azlıqların qorunması sahəsində Azərbaycan Konstitusiyasının tələblərinə, eyni zamanda beynəlxalq saziş və müqavilələrə uyğun siyasi

xəttin ardıcıl həyata keçirilməsi, beynəlxalq standartlara müvafiq milli qanunvericilik bazasının yaradılması;

- Azərbaycanın nadir tarixi sərvəti olan etnik rəngarəngliyin qorunub saxlanılması, nümunəvi birgəyaşayış qaydalarının, tarixi dostluq və qonşuluq ənənələrinin dirçəldilərək Azərbaycan cəmiyyətinin üstün yaşayış prinsiplərinə çevrilməsi;

- Azərbaycançılıq, Vətənçilik ideyalarının cəmiyyətdə tam bərqərar edilməsi üçün hüquqi-ideoloji, mənəvi-psixoloji bazanın daha da möhkəmləndirilməsi;

- milli-dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların hüquq bərabərliyinin təmin edilməsi, milli-irqi ayrı-seçkiliyə, dini dözümsüzlüyə yol verilməməsi.

Yuxarıda adı çəkilən beynəlxalq sənədlərdə öz əksini tapmış bir məqam üzərində də dayanmağı vacib hesab edirəm.

Artıq qoşulmuş olduğumuz «Milli azlıqların qorunmasına dair Çərçivə Konvensiyası»nda milli azlıqların və bu azlıqlara mənsub şəxslərin hüquq və azadlıqlarının səmərəli müdafiəsinin qanunun aliliyi çərçivəsində, dövlətin milli suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməklə təmin olunmasının zəruriliyi qeyd edilir. Milli azlıqların hüquq və azadlıqlarının təminatından söhbət gedərkən, eyni zamanda, onların yaşadığı dövlət qarşısında vəzifələrindən və vətəndaşlıq borcundan da danışmaq lazımdır. Beynəlxalq sənədlərdə milli əlahiddəlik, etnik separatizm birmənalı olaraq rədd edilir. Bir dövlət daxilində milli azlığın yığcam yaşadığı hər hansı bölgədə milli çoxluğun azlıqda qaldığı hallar mövcuddur. Bəzən etnik təmizləmə, şovinizm kimi təxribatlar və insan haqlarının ciddi şəkildə pozulması faktları dövlətin əsas əhalisinin azlıqda qalan hissəsinə qarşı yönəlir. Azərbaycanın acı təcrübəsi, on ildən artıq davam edən Dağlıq Qarabağ münaqişəsi, bu əzəli Azərbaycan torpaqlarında erməni separatizmi bunu sübut edir. Dağlıq Qarabağda çoxluq təşkil edən erməni separatçıları bütün beynəlxalq normaları kobudcasına tapdalayaraq, bütün dünyanın gözü qarşısında azərbaycanlılara qarşı qəddar və vəhşi üsullarla etnik təmizləmə siyasətini həyata keçirdilər. Bu vəhşi aksiya yalnız Dağlıq Qarabağla bitmədi. Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağa inzibati aidiyyəti olmayan 7 Azərbaycan rayonunu da işğal edərək 1 milyon azərbaycanlını öz dədə-baba torpaqlarından didərgin saldılar.

Çərçivə Konvensiyasının 20-ci maddəsində göstərilir ki, *«Bu Konvensiyada əks olunmuş prinsiplərdən irəli gələn hüquq və azadlıqların həyata keçirilməsi zamanı milli azlığa mənsub hər kəs milli qanunvericiliyə əməl edir və başqalarının hüquqlarına, o cümlədən əhalinin əsas milli qrupuna və ya digər milli azlıqlara mənsub şəxslərin hüquqlarına hörmətlə yanaşır.»*

21-ci maddədə beynəlxalq hüququn əsas prinsipləri ilə birlikdə, suveren bərabərlik, ərazi bütövlüyü və dövlətin siyasi müstəqilliyi prinsipləri ilə

ziddiyyət təşkil edən hər cür əməl və fəaliyyətin yolverilməzliyi qeyd olunur ki, bu da imperiya caynaqlarından qurtularaq yeni müstəqillik qazanmış dövlətlər, o cümlədən gənc demokratik Azərbaycan Respublikası üçün xüsusi siyasi əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Konstitusiyanın və Azərbaycan vətəndaşlarının hüquq və bərabərliyinin qarantı kimi insan haqları, o cümlədən milli azlıqların müdafiəsi, onların dil və mədəniyyətinin daha da inkişaf etdirilməsi, milli-mədəni özgünlüyün, etnik özünəməxsusluğun qorunması məsələsinə son dərəcə həssaslıq və qayğı ilə yanaşır. Bu sahədə həyata keçirilən siyasətdə səmərəli nəticələrə nail olmaq üçün beynəlxalq təşkilatlarla əməkdaşlığın və beynəlxalq təcrübənin milli qanunvericlikdə və praktik fəaliyyətdə tətbiq edilməsinin zəruriliyi həmişə nəzərə alınır.

Bundan sonra da Azərbaycan Respublikasının daxili və xarici siyasət xəttində insan haqlarına, o cümlədən milli azlıqların qorunmasına üstün əhəmiyyət veriləcək, Azərbaycan dövləti qoşulduğu konvensiya və paktlara, digər beynəlxalq sənədlərə daim hörmət və məsuliyyətlə yanaşacaqdır.

Müstəqillik illərində hüquqi, demokratik dövlət quruculuğu prosesində xüsusi önəm verilən məsələlərdən biri də vətəndaşların dini etiqad azadlığı və dövlət-din münasibətləri olmuşdur. Azərbaycanda ənənəvi dünya dinləri əsrlərlə dinc yanaşı mövcud olmuş, burada müsəlman məscidləri, xristian kilsələri, yəhudi sinaqoqları əmin-amanlıq şəraitində fəaliyyət göstərmişdir. Bütün bunlar, hər şeydən əvvəl, Azərbaycan xalqının milli mentalitetindən irəli gəlir. Belə ki, başqa xalqların milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə hörmət, milli-dini dözümlülük, tolerantlıq mentalitetimizin ayrılmaz keyfiyyətlərindəndir. Tarixən şovinizm, ayrı-seçkilik hissləri xalqımıza yad olmuşdur.

Müstəqilliyimizin 10 ili ərzində suveren Azərbaycan Respublikasında insan hüquq və azadlıqları, o cümlədən vicdan və dini etiqad azadlığı beynəlxalq standartlara uyğun bərqərar edilmişdir. İnsan hüquq və azadlıqları sistemində mühüm məsələlərdən olan dini etiqad azadlığı çağdaş Azərbaycan siyasətində demokratik cəmiyyət quruculuğunun zəruri atributu kimi dərk edilir və bu sahədə ardıcıl tədbirlər həyata keçirilir.

1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası, eyni zamanda «Dini etiqad azadlığı haqqında» Azərbaycan Respublikasının Qanunu (1992-ci ildə qəbul olunmuş, sonradan Qanuna əlavə və dəyişikliklər edilmişdir) əsas insan hüquq və azadlıqlarının, o cümlədən vicdan azadlığının təminatı, azlıqların dil və mədəniyyətlərinin inkişafı, dini-mənəvi özgünlüyün qorunub saxlanması sahəsində beynəlxalq normalara və sivilizasiyalı birgəyaşayış qaydalarına əsaslanan etibarlı hüquqi-siyasi zəmin yaratmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsində («Vicdan azadlığı») deyilir ki, hər bir vətəndaş vicdan azadlığı, dinə münasibətini

müstəqil müəyyənləşdirmək, dini əqidəsini sərbəst ifadə etmək və yaymaq, dini mərasimlərini sərbəst yerinə yetirmək hüququna malikdir.

Konstitusiyanın 18-ci maddəsinə görə («Din və dövlət») Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. Bütün dini etiqadlar qanun qarşısında bərabərdir. Dövlət təhsil sistemi dünyəvi xarakter daşıyır.

Azərbaycan Respublikası Konstitusiyasının beynəlxalq hüquq normalarına əsaslanan həmin maddələrinin tələbləri «Dini etiqad azadlığı haqqında» Qanunda tam aydınlığı ilə öz əksini tapmışdır. Həmin Qanun dilindən, dinindən, irqi-etnik mənsubiyyətindən, siyasi baxışından, mənşəyindən asılı olmayaraq hər bir vətəndaşın vicdan azadlığına etibarlı təminat verməklə, din-dövlət münasibətlərini sivilizasiyalı dünya qaydalarına uyğun tənzimləyən hüquqi-siyasi sənəddir.

Məlumdur ki, yaxın keçmişin uzun sürən totalitar kommunist rejimi, ateizm ideologiyası konfessiyaların, xüsusən də islam dininin sərbəst fəaliyyəti üçün ciddi qadağalar qoymuşdu. Əhalinin 90 faizdən çoxunun islam dininə mənsub olduğu Azərbaycanda rəsmən fəaliyyət göstərən 53 dini icmadan ancaq 18-i islam dini təşkilatları idi. Həmin dövrdə Azərbaycanda 31 xristian dini təşkilat və təriqəti, 4 yəhudi dini təşkilatı qeydə alınaraq fəaliyyət göstərirdi.

Hazırda respublikada 400-dən artıq müxtəlif dini icma qeydə alınaraq öz fəaliyyətini tam sərbəst yerinə yetirməkdədir. Bunlardan 350-yə qədəri islam, 60-a qədəri isə qeyri-islam dini təşkilatlardır.

Respublikada bir çox islam, xristian və yəhudi dini tədris müəssisələri fəaliyyət göstərir. Bakı İslam Universiteti, 4 orta dini ixtisas mədrəsəsi, pravoslav kilsələri yanında bazar günü məktəbləri, qeyri-ənənəvi xristian təriqətlərinin dini məktəbləri, Bibliya kursları, ivrit dilini, yəhudi dinini, mədəniyyətini və tarixini öyrədən kurslar sərbəst fəaliyyət göstərməkdədir.

Azərbaycanda mövcud olan dini təşkilatlar xarici ölkələrdəki dini mərkəzlərlə geniş əlaqələr saxlayır, beynəlxalq dini tədbirlərdə yaxından iştirak edirlər. Qafqaz Müsəlmanları İdarəsi ilə Beynəlxalq İslam Konfransı Təşkilatı, digər xarici islam və qeyri-islam dini təşkilatları arasında mehriban, işgüzar əlaqələr mövcuddur. Bakıdakı Rus Pravoslav Kilsələrinin Yepiskopluğu Xəzəryanı bölgənin xristian pravoslav kilsələrinə rəhbərlik etməklə yanaşı, yaxın və uzaq xaricdəki dini mərkəzlərlə geniş əməkdaşlıq əlaqələrinə malikdir. Azərbaycanın yəhudi dini icmaları «Sohnut», «Aqudat İsrael», «Tşuva İsrael» kimi beynəlxalq təşkilatlarla, İsrailin Mərkəzi Ravvinliyi, ABŞ, İngiltərə və digər dövlətlərin yəhudi icmaları ilə sıx əlaqə saxlayırlar. Yeni yaranan bir çox xristian və qeyri-xristian dini təriqətləri də xarici ölkə dini mərkəzləri ilə əməkdaşlıq şəraitində fəaliyyət göstərirlər.

Konfessiyalar öz dini bayram və mərasimlərini sərbəst və təntənəli qeyd etməklə, bir-birinin dini bayram və tədbirlərində, habelə respublikanın ictimai-mədəni həyatında yaxından iştirak edirlər. Dövlət başçısı konfessiyaların rəhbərləri ilə mütəmadi görüşərək məsləhətləşmələr aparır,

əlamətdar dini bayram və mərasimlər münasibəti ilə dindarları rəsmən təbrik edir. Prezident Fondundan konfessiyalara maddi yardımlar olunur. Sovet rejimi zamanı tamamilə dağıdılmış «Bibiheybət» məscidi, yenə həmin dövrdə silah-sursat anbarına çevrilmiş «Jen-Mironosets» rus pravoslav kilsəsi dövlətin yardımı və qayğısı ilə bərpa edilərək dindarların ixtiyarına verilmişdir. Bir sıra müqəddəs dini sitayiş yerləri, tarixi-dini abidələr, dini əşya və rəmzlər dövlət tərəfindən mühafizə olunur.

Təəssüflə qeyd edilməlidir ki, respublika ərazisinin Ermənistanın hərbi təcavüzü nəticəsində işğal edilmiş 20 faizlik hissəsində - Qarabağ və Qarabağətrafı bölgədə bütöv kənd və qəsəbələr, şəhərlər, rayon mərkəzləri, səhiyyə, təhsil, mədəniyyət ocaqları, ictimai binalar, yaşayış evləri, tarixi-dini abidələr, məscidlər, hətta qəbiristanlıqlar vəhşicəsinə darmadağın edilərək xarabalığa çevrilmişdir.

Bu gün dövlət cəmiyyətdə dini etiqad və vicdan azadlığının beynəlxalq hüquq normalarına uyğun bərqərar olunması üçün əlindən gələni əsirgəmir. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 21 iyun tarixli fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması da bu diqqət və qayğının təzahürüdür. Azərbaycan Respublikası Konstitusiyasının, «Dini etiqad azadlığı haqqında» Qanunun dönmədən həyata keçirilməsi, vətəndaşların dini-mənəvi azadlıqları sahəsində hüquqi-siyasi şəraitin yaradılması bu Komitənin fəaliyyətinin başlıca istiqamətləri kimi müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikasının beynəlxalq münasibətlərində xaricdə yaşayan soydaşlar problemi bu gün bütün aktuallığı ilə qarşıda durur. Artıq tarixə gömülmüş SSRİ imperiyası dövründə Azərbaycana bu vacib məsələ ilə məşğul olmağa imkan verilməmiş, son onilliklər ərzində xaricdə soydaşlarımızın sayının getdikcə artmasına baxmayaraq, Azərbaycan diasporu dağınıq halda mövcud olmuş, lobbi quruculuğuna lazımi diqqət yetirilməmişdir. Bu sahədə böyük vaxt itkisinə yol verilmişdir. Məhz bu səbəbdən gənc müstəqil dövlətimizin xarici siyasətində Azərbaycan lobbisi problemi həll olunmalı vacib məsələlər sırasındadır.

Ölkə Prezidenti Heydər Əliyevin çoxsaylı xarici səfərləri zamanı vaxt azlığına baxmayaraq, Azərbaycan diasporu ilə isti və mehriban görüşləri dövlətimizin başçısının bu məsələyə xüsusi diqqət və qayğı ilə yanaşdığını göstərir. Bu görüşlər dünya azərbaycanlılarının milli-mənəvi həmrəyliyi məsələsində son dərəcə önəmli hadisələrdir. Ölkəmizin rəhbəri xaricdə diasporumuzun formalaşmasının vacibliyini, lobbiçilik fəaliyyətimizin əsas istiqamətlərini və perspektivlərini bəyan etmişdir. Prezidentimizin illər ayrıcında - hər il dekabr ayının 31-də Dünya azərbaycanlılarının həmrəyliyi günü ilə əlaqədar Azərbaycan xalqına müraciəti, bu münasibətlə respublikamızda və xaricdə keçirilən tədbirlər xalqımızın özünüdərki, mənəvi bağlılığı istiqamətində atılan mühüm addımlardandır. Prezident Heydər Əliyevin 1995-ci il 30 dekabr tarixli müraciətindən bu sətirləri xatırlamaq kifayətdir: «**Bu əlamətdar gündə sizi bir daha əmin etmək istəyirəm ki, dünyanın**

**müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızın mənəvi vətəni olan Azərbaycanın qapıları öz övladlarının üzünə həmişə açıqdır.»**

Bu gün təxmini hesablamalara görə, dünyanın, Azərbaycan da daxil olmaqla, 70-dək ölkəsində 45 milyona qədər azərbaycanlı yaşayır.

Sovetlər birliyinin dağılması və Azərbaycanın dövlət müstəqilliyi qazanması Azərbaycan diasporunun da həyatına mühüm canlanma gətirdi. Baş verən qlobal siyasi hadisələr, Qarabağ münaqişəsi xaricdəki həmvətənlərimizin ictimai fəallığının artmasına və onların xalqımızın istiqlal mücadiləsində yaxından iştirak etməsinə təkan verdi. Soydaşlarımızın bir qismi yeni tarixi şəraitə uyğun olaraq məhdud dərnəkçilik səviyyəsindən çıxmağa və milli-siyasi yöndə təşkilatlanmağa başladı. Hazırda dünyanın 30-dan çox ölkəsində azərbaycanlıların 150-dən artıq ictimai, milli-mədəni cəmiyyət və təşkilatı fəaliyyət göstərir.

Xaricdə yaşayan soydaşlarımızın əqidə və əməl birliyinə nail olunması, təşkilatlanma işinin sürətləndirilməsi üçün müstəqillik illərində bir sıra zəruri addımlar atılmışdır. Şübhəsiz ki, bu işi canlandıran və bu həlli vacib məsələyə böyük önəm verən Prezidentimiz Heydər Əliyev olmuşdur.

Bu böyük şəxsiyyətin 1996-cı ilin iyul ayında Almaniyaya səfəri zamanı Bonnda soydaşlarımızla görüşdə söylədiyi dərin məzmunlu, proqram xarakterli nitqində müdrik tövsiyələrindən biri məhz fikir, əməl birliyinə aid idi: **«...Mən demirəm ki... azərbaycanlının hamısı bir yerə yığışsın, bu heç lazım da deyil. Ancaq hamısının qəlbi, fikri, gələcəyə baxışı və Azərbaycan haqqında fikirləri bir olsa, əlbəttə ki, respublikamız da öz müstəqilliyini bundan sonra da möhkəmləndirər, inkişaf yolunu məharətlə keçə bilər... Mən Azərbaycanın Prezidenti kimi, xalqımızın mənə göstərdiyi etimada güvənərək respublikamıza rəhbərlik edən bir şəxs kimi bu gün deyirəm: Azərbaycanın özündə də bu günümüzün, gələcəyimizin zəmanəti, rəhni birlikdir və bütün dünyada da soydaşlarımızın bir olması vacibdir.»**

Heydər Əlirza oğlu xaricdə yaşayan soydaşlarımızın bir araya gələrək təşkilatlanması, ümummilli qayəmiz ətrafında sıx birliyin yaranması, müstəqil ölkəmizlə ictimai, mənəvi, mədəni, iqtisadi əlaqələrin möhkəmlənməsi və lobbi quruculuğu zərurətini, eyni zamanda türk xalqlarının birgə lobbisinin yaranması və formalaşması fikrini siyasi gündəmə gətirmişdir və bu sahədə artıq müəyyən addımlar atılmışdır.

Son illər lobbi quruculuğu və dünya azərbaycanlılarının birliyinin yaradılması istiqamətində zəruri ilkin işlər görülmüş, Rusiya Federasiyasında, Ukraynada, Almaniyada və başqa ölkələrdə Azərbaycan milli-mədəniyyət təşkilatlarının koordinasiya qurumları yaradılmışdır. Bu təşkilatlar birləşdirici missiya və ümumi təşkilatçılıq fəaliyyəti göstərməkdədirlər.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xaricdəki soydaşlarımızla bütün görüşlərində Azərbaycanın dövlət müstəqilliyi və

azərbaycançılıq qayəsi ətrafında sıx birliyin zəruriliyi dönə-dönə vurğulanır ki, bu da lobbiçilik siyasətinin təməl məqsədlərindəndir.

Prezidentimizin xaricdə yaşayan soydaşlarımızla görüşlərindəki çıxışlarını hər bir Azərbaycan ziyalısı dərindən öyrənməli, mühacirət həyatı keçirən milyonlarla qardaş-bacılarımızın milli özgünlüyünün qorunub saxlanılması, dil və mədəniyyətinin inkişafı, insan və vətəndaş hüquqlarının qorunması, müstəqil dövlətimiz ətrafında sıx mənəvi birliyin təmin edilməsi və başqa problemlərin həllində iştirak etməlidir.

31 dekabr - Dünya azərbaycanlılarının həmrəyliyi günü xalqımızın həyatında xüsusi yeri olan böyük siyasi günlərdən biridir. Dünya azərbaycanlılarının bir araya gələrək təşkilatlanması, müstəqil Azərbaycan dövləti ətrafında sıx siyasi, iqtisadi, mənəvi birliyi müstəqil dövlət quruculuğumuzun indiki mərhələsində və müstəqilliyimizin əbədiliyinin təmin olunmasında son dərəcə önəmli bir məsələdir. 31 dekabrın xüsusi yükü və böyük qayəsi həm də ondan ibarətdir ki, bu əlamətdar gün başa vurduğumuz XX əsrdə Azərbaycanın dirçəlişi və inkişafı yolunda əvəzsiz xidmətlər göstərmiş Prezident Heydər Əliyevin bilavasitə təşəbbüsü, yenilməz iradəsi sayəsində təsis edilmiş, ümumxalq bayramına çevrilmişdir.

Azərbaycan lobbiçiliyi qarşısında duran zəruri problemlərin yoluna qoyulmasında ümummilli lider amili öz təsirli tarixi rolunu oynamaqdadır. Çünki son illərə qədər bu məsələyə heç kəs Heydər Əliyev qədər önəm verməmişdir. Məhz Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra istər daxildə, istərsə də xaricdə soydaşlarımız arasında Azərbaycan dövlətçiliyinin varlığına və gələcəyinə inam, ümid yaranmış, onların tarixi vətənlə əlaqələri genişlənərək ardıcıl xarakter almışdır. Müqəddəs Vətən amalı və Azərbaycan dövlətçiliyi ətrafında sıx birliyin zəruriliyi bu gün xaricdəki həmvətənlərimiz tərəfindən daha anlaşıqlı qarşılanır və bu istiqamətdə siyasi milli fəallığın artması müşahidə edilir. Azərbaycan rəhbərinin yorulmaz fəaliyyəti, uzaqgörən daxili və xarici siyasəti sayəsində respublikamızın beynəlxalq aləmdə nüfuzunun artması, aparıcı dünya dövlətlərinin Azərbaycan həqiqətlərinə diqqət və saygı ilə yanaşması həmin ölkələrdə yaşayan soydaşlarımızın da ictimai-siyasi fəaliyyətində canlanmaya səbəb olmuşdur. Bu gün məhz Prezident Heydər Əliyevin uğurlu siyasəti sayəsində xaricdə Azərbaycan lobbiçiliyi ilkin addımlarını atmaqdadır.

Müstəqilliyimizin on illiyi dövründə, 2001-ci il noyabrın 9-10-da Bakıda keçirilmiş Dünya azərbaycanlılarının I qurultayı Azərbaycan xalqının ictimai-siyasi həyatında böyük tarixi hadisə kimi qiymətləndirilməlidir. Dünyanın hər yerindən azərbaycanlıları bir araya gətirmiş bu qurultay, şübhəsiz ki, xaricdə yaşayan on milyonlarla soydaşımızın milli şüurunun formalaşması, onların təşkilatlanması, müstəqil Azərbaycan ətrafında sıx birliyin təmin edilməsi işində yeni mərhələ açmışdır.

Azərbaycan artıq qarşısıalınmaz milli müstəqillik və suverenlik yolundadır. Dövlətimizi və xalqımızı bu müqəddəs yoldan döndərməyin

qeyri-mümkünlüyü beynəlxalq aləm tərəfindən tarixi-siyasi zərurət kimi qavranılır. Möhtərəm Prezidentimiz Heydər Əliyevin yorulmaz siyasi-diplomatik fəaliyyəti, uzaqgörən müdrik siyasəti sayəsində dövlət müstəqilliyimiz ardıcıl və dönməz xarakter almışdır. Bu gün azad, müstəqil Azərbaycan Respublikası 45 milyonluq bir millətin müqəddəs ümidgahına, pənahına çevrilməkdədir və harada yaşamasından asılı olmayaraq, bu 45 milyon bir araya gələrək, tarixi haqqımız və milli nemətimiz olan Azərbaycan dövlətçiliyi uğrunda səfərbər olmalıdır. Bunu bizdən tarix və milli taleyimiz tələb edir.

*Yaqub MAHMUDOV,*
*Azərbaycan Respublikası*
*Milli Məclisinin deputatı*

# AZƏRBAYCANIN DÖVLƏTÇİLİK VƏ PARLAMENTARİZM ƏNƏNƏLƏRİ TARİXİNDƏN

## Ən qədim zamanlardan İslam dininin qəbuluna qədərki dövrdə Azərbaycan dövlətçiliyi

***«Biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır.»***

***Heydər ƏLİYEV***

Azərbaycan xalqı dünyanın ən qədim və ən zəngin dövlətçilik ənənələrinə malik olan xalqlarındandır. Azərbaycanın təqribən 5 min illik dövlətçilik tarixi vardır. Ölkə ərazisində **ilk dövlət qurumları** hələ eramızdan əvvəl **IV minilliyin sonu - III minilliyin əvvəllərindən** başlayaraq Urmiya hövzəsində yaranmışdı. Ən qədim Azərbaycan dövlətləri bütün regionun hərbi-siyasi tarixində mühüm rol oynayırdılar. Həmin dövrdə Azərbaycanla Dəclə və Fərat vadilərində yerləşən və dünya tarixində dərin iz qoymuş qədim Şumer, Akkad və Aşşur (Assuriya) dövlətləri, habelə Kiçik Asiyadakı Het dövləti arasında sıx qarşılıqlı əlaqələr vardı. Fəal xarici siyasət yeridən bu Azərbaycan dövlətləri öz torpaqlarını xarici təcavüzlərdən uğurla qoruyurdular. Qədim Azərbaycan tayfa birliyi olan **qutilər**, hətta, qüdrətli qonşuları olan Akkad dövlətini məğlub etmiş, öz sərhədlərini İran körfəzinə qədər genişləndirmiş, bu ərazidə yüz ilə qədər hökmranlıq etmişdilər. Onlar asılı hala saldıqları Akkad və Şumerin dövlət idarəçiliyindən faydalandıqları kimi qədim Azərbaycanın idarəçilik mədəniyyətini də həmin ölkələrə yaymışdılar. Urmiya ətrafından başlayaraq, Dəclə və Fərat vadiləri də daxil olmaqla, zaman-zaman İran körfəzinə qədərki ərazilərdə ağalıq edən qədim Azərbaycan dövlət qurumları **lullubi** və **qutilər** təkcə Azərbaycanın deyil, ümumiyyətlə, qədim Şərq dövlətçiliyinin tarixində də dərin iz qoymuşlar. Digər qədim Şərq dövlətlərindən fərqli olaraq **qutilərdə** hökmdarların seçilməsi qaydası vardı. Hakimiyyət irsi keçmirdi. Quti hökmdarları

məmləkəti öz canişinləri vasi-təsilə idarə edirdilər. Canişinlər geniş müstəqilliyə malik idilər. Görünür, bütün bunlar qədim Azərbaycan dövlətlərinin uzun zaman geniş ərazilərdə hökmranlıq etmələrində az rol oynamamışdı.

Zaman keçdikcə Azərbaycanın dövlətçilik mədəniyyəti daha da yüksəlmiş, ölkə ərazisində daha təkmil və daha geniş əraziləri əhatə edən yeni dövlətlər yaranmışdır. Eramızdan əvvəl I minillikdə - bizim eranın I minilliyinin əvvəllərində Azərbaycan torpaqlarında ***Manna***, ***İskit*** (Skit, Skif) ***şahlığı,*** **Atropatena və Albaniya** kimi qüvvətli dövlətlər mövcud olmuşdur. Bu dövlətlər Azərbaycanda dövlət idarəçiliyi mədəniyyətinin daha da yüksəlməsində mühüm rol oynamışlar.

Ənənəvi Azərbaycan dövlətçiliyinin davamı olan və eramızdan əvvəl I minilliyin əvvəllərində meydana gələn **Manna dövləti** Azərbaycanın dövlətçilik tarixində mühüm mərhələ oldu. Azərbaycanın ən qədim dövlətçilik məkanı olan Urmiya hövzəsində yaranmış bu dövlət dünyanın dövlətçilik mədəniyyəti tarixində mühüm yer tutur. Manna şimalda - Araz çayına (bəzən də ondan şimala doğru) və şimal-şərqdə - Xəzər dənizinə qədər olan Azərbaycan torpaqlarını əhatə edirdi. Bu dövlət bütün regionda baş verən hərbi-siyasi hadisələrdə yaxından iştirak edir, Azərbaycan torpaqlarını ələ keçirməyə çalışan qüvvətli qonşularına - Aşşur və Urartu dövlətlərinə qarşı uğurla mübarizə aparırdı. Aşşur və Urartu təcavüzünə qarşı mübarizədə o zaman Azərbaycanda məskunlaşmış **iskitlər** (skiflər) və **kimmerlər** də fəal iştirak edirdilər. Manna hökmdarları ölkəni **ağsaqqallar şurasının** köməyi ilə idarə edirdilər ki, bu da Azərbaycanın dövlət idarəçiliyi sahəsində qədim **məşvərət** mədəniyyətinə malik olduğunu sübut edir. Yurdumuzun cənub bölgələrində üç yüz ilə yaxın bir müddət ərzində davam etmiş və qüdrətli qonşularının aramsız hücumlarına duruş gətirmiş Manna Azərbaycanda ən qədim zamanlardan başlayaraq güclü dövlətçilik ənənələrinin mövcud olduğunu sübut edən çox qiymətli tarixi faktdır.

Eramızdan əvvəl VIII əsrin sonu - VII əsrin əvvəllərindən başlayaraq Azərbaycanın hərbi-siyasi tarixində **kimmerlər və iskitlər**, həmçinin iskitlərlə eyni toplumdan olan **saklar** və **massagetlər** mühüm rol oynamağa başladılar. **Kimmer-İskit-Sak** toplumunun tərkibində digər köklərdən olan tayfalarla yanaşı güclü **türk toplumları** da vardı. İskitlər Mannadan şimaldakı Azərbaycan torpaqlarında qüdrətli **İskit şahlığı** yaratmış, ölkə ərazisində vahid xalqın təşəkkül prosesində iştirak etmişdilər. ***İskit - Massaget*** hökmdarları da Azərbaycan torpaqlarını yadelli təcavüzlərindən uğurla müdafiə etmişdilər. **Massaget şahlığı** o dövrün ən qüdrətli imperiyalarından biri olan İran - Əhəməni imperiyasına qarşı uğurla mübarizə aparmışdı. Massaget hökmdarı Tomris ölkəyə təcavüz etmiş Əhəməni hökmdarı II Kirin özündən qat-qat güclü olan qoşunlarını e.ə.530-cu ildə darmadağın etmişdi. «Məğlubedilməz» Kirin özü də bu döyüşdə öldürülmüşdü. Midiya imperiyası, Lidiya, Babilistan kimi qüdrətli dövlətləri aradan

qaldıraraq, Parfiya torpaqları da daxil olmaqla, Mərkəzi Asiyadan Misir hüdudlarına qədər çox geniş əraziləri ələ keçirmiş və bütün bu işğallara görə **«Böyük Kir»** ləqəbi qazanmış II Kirin bu məğlubiyyəti Azərbaycan dövlətçiliyi tarixinin ən şanlı səhifələrindən biridir.

Yaxın və Orta Şərqdə çox mürəkkəb hərbi-siyasi hadisələrin cərəyan etməsinə, qonşu dövlətlərin təbii sərvətlərlə zəngin olan və hərbi-strateji baxımdan böyük əhəmiyyət kəsb edən Azərbaycan torpaqlarını ələ keçirmək siyasətinə baxmayaraq dövlətçilik ənənələrimiz davam etməkdə və zənginləşməkdə idi. Odur ki, **nə Əhəməni-İran imperiyasının uzunsürən işğal rejimi, nə də Makedoniyalı İskəndərin yürüşləri Azərbaycanın qədim dövlət idarəçiliyi mədəniyyətini məhv edə bilmədi.** Makedoniyalı İskəndərin ölümündən dərhal sonra Azərbaycan dövlətçiliyi yenidən dirçəldi. Ölkəmizin cənub torpaqlarında *Atropatena*, şimalında isə *Albaniya* dövlətləri meydana gəldi.

**Atropatena dövləti** Azərbaycanın cənub vilayətlərini əhatə edirdi. Burada müstəqil Azərbaycan dövlətçiliyinin dirçəlişi əslində hələ İskəndərin Şərqə yürüşündən xeyli əvvəl baş vermişdi. Uzaqgörən dövlət xadimi və məşhur sərkərdə Atropatın siyasi müdrikliyi sayəsində Atropatena bütün Şərqdə ilk dəfə olaraq yunan-Makedoniya asılılığından azad olmuş müstəqil dövlətə çevrildi. Müstəqil dövlətçilik ənənələrinin dirçəlişi Azərbaycanın cənub rayonlarında böyük yüksəlişə səbəb oldu. Qüdrətli Atropatena dövləti bütün regionun beynəlxalq münasibətlərində mühüm rol oynayır, Qafqaz, Volqaboyu, Orta Asiya, Hindistan, Kiçik Asiya, Mesopotamiya, Qara dəniz və Aralıq dənizi hövzələri ölkələri ilə geniş ticarət əlaqələri saxlayırdı. Daxili ticarətdə dövlətin öz pulları mühüm rol oynayırdı. Şərq və yunan dövlət sistemləri arasındakı qarşılıqlı əlaqə və təsir Atropatenada idarəçilik mədəniyyətinin də yüksəlişinə müsbət təsir göstərirdi. Azərbaycanın, həmçinin Qədim Şərqin və Yunanıstanın dövlət idarəçiliyi ənənələrindən bəhrələnən Atropatena hökmdarları öz hakimiyyətlərini daha da qüvvətləndirə bildilər. Nəticədə Atropatena Parfiya və Selevki dövlətlərinə, habelə ölkəyə hücum etmiş Roma qoşunlarına qarşı mübarizədə öz müstəqilliyini qoruyub saxlaya bildi. O zaman Atropatena ordusu bütün regionda ən güclü hərbi qüvvələrdən biri hesab olunurdu. Roma təcavüzkarları ilə döyüşə Atropatena 40 min piyada və 10 min süvari çıxarmışdı. Yaxın və Orta Şərqdə çox mühüm hərbi-siyasi qüvvə olan Atropatena dövləti ilə Roma imperiyası arasında geniş əlaqələr yaranmışdı. Roma imperiyası özünün Şərq siyasətində Atropatenaya xüsusi əhəmiyyət verirdi. Atropatena elçiləri Romaya gedib imperator Oktavian Avqustla (e.ə.27-e.14-cü illəri) diplomatik danışıqlar aparmışdılar. Roma imperatoru qonşu erməni çarlığının idarə olunmasını da Atropatena hökmdarlarına tapşırmışdı. Atropatenanın hərbi-siyasi qüdrətinə yaxşı bələd olan erməni çarları bu dövlətin himayəsinə sığınmağa çalışırdılar. Bu məqsədlə erməni çarı Tiqran öz qızını Atropatena hökmdarı Mitridata

vermişdi. Sonralar erməni çarlığı Atropatenadan asılı hala düşmüş və Atropatena hökmdarları tərəfindən idarə olunmuşdu.

Ölkənin şimalında meydana gələn **Albaniya dövlətinin** sərhədləri Dağıstanın cənubu (Dərbənd və ətrafları ilə birlik-də) da daxil olmaqla Baş Qafqaz dağlarından başlayaraq cə-nubda - Araz çayına qədər, qərbdə isə Göyçə gölü hövzəsi, Qabırrı (İori) və Qanıx (Alazan) çaylarının yuxarılarından başlayaraq şərqə doğru - Xəzər dənizinədək uzanıb gedən Azərbaycan torpaqlarını əhatə edirdi. Bu qüdrətli Azərbaycan dövlətinin paytaxtı əvvəllər Qəbələ, sonra isə Bərdə şəhərləri idi. Albaniya dövründə Azərbaycanın şimal torpaqlarında güclü inkişaf baş vermiş, alban əlifbası adlanan xüsusi əlifba yaradılmış, məktəblər açılmışdı. Ölkədə 30-dan çox şəhər vardı. Şimalla Cənubun, Şərqlə Qərbin qovşağında yerləşən və müxtəlif etnosların, dinlərin, mədəniyyətlərin qaynayıb-qarışdığı Albaniyada özünəməxsus və zəngin mədəniyyət formalaşmaqda idi. Türk etnosları dövlətin həyatında mühüm rol oynayırdılar. Aya, Göyə, Günəşə sitayişlə yanaşı **tanrıçılıq** və xristianlıq da yayılmaqda idi. Müstəqil Alban kilsəsi dini cəhətdən birbaşa Romaya tabe idi. Albaniya dövründə Azərbaycanın dövlət idarəçiliyi mədəniyyəti daha da yüksəldi. Alban hökmdarları ölkənin dünyəvi və dini başçısı idilər. Onlar, eyni zamanda, qanunlar verir, orduya başçılıq edirdilər. Dövlətin hərbi qüvvələri 80 min nəfəri (60 min piyada, 22 min süvari) aşmışdı. Albaniya hökmdarının sarayında **məşvərət şurası** fəaliyyət göstərirdi. Bu şuraya və ruhani yığıncaqlarına Albaniya hökmdarlarının özləri rəhbərlik edirdilər. Atropatena kimi, Albaniya dövlətinin də öz pulu vardı. Möhkəm və təkmil dövlət idarəçiliyi sisteminə malik olan Albaniya dövləti ölkənin müstəqilliyi üçün təhlükə törədən Parfiyaya və Roma imperiyasına qarşı uğurla mübarizə aparmışdı. Ölkəyə müdaxilə edən Roma imperiyasının qoşunları dəfələrlə ağır məğlubiyyətə uğradılmışdı. Roma imperiyası Albaniyanın hərbi-siyasi qüdrəti ilə hesablaşmağa məcbur olmuş, iki ölkə arasında qarşılıqlı əlaqələr yaranmışdı. Atropatena kimi, Albaniya elçiləri də Romaya gedib imperator Oktavian Avqustla danışıqlar aparmışdılar. Albaniya hökmdarı, görkəmli dövlət xadimi Cavanşir ölkəni ələ keçirməyə çalışan Bizans, Sasani, Xilafət və Xəzər imperiyaları kimi qüdrətli qonşulara qarşı müdrik, uzaqgörən və çevik xarici siyasət yeritmiş, özünün sərkərdəlik məharəti və döyüş şücaəti ilə yurdun müstəqilliyini qoruyub saxlaya bilmişdi. Albaniya Aralıq dənizi hövzəsi ölkələri, o cümlədən Roma imperiyası ilə də geniş əlaqələr saxlayırdı. Yaxın və Orta Şərq ölkələrini Xəzər xaqanlığı və Şərqi Avropa ilə birləşdirən beynəlxalq ticarət yollarının Albaniyadan keçməsi ölkənin xarici ticarət əlaqələrinə müsbət təsir göstərirdi.

***III*** əsrdə Azərbaycanı ***Sasani-İran imperiyası, VII*** əsrdə isə ***Ərəb xilafəti*** işğal etdi. İşğalçılar ölkəyə İranın və Ərəbis-tanın içərilərindən çoxlu İran və ərəb mənşəli əhali köçürüb gətirdilər. Gəlmə əhali mühüm hərbi-strateji əhəmiyyətə malik olan məntəqələrdə və ən məhsuldar torpaqlarda yerləşdirildi. Onlara geniş imtiyazlar verildi. Yadellilər Azərbaycanın yerli

əhalisini əridib yox etmək siyasəti yeritməyə başladılar. Lakin təqribən 600 il davam etmiş İran və ərəb zülmü də Azərbaycanın qədim dövlətçilik ənənələrini məhv edə bilmədi. Dözülməz işğal rejimi və təqiblər şəraitində Azərbaycan xalqının təşəkkülü prosesi davam etdi. İşğalçıların yerli əhalini assimilyasiyaya uğratmaq siyasətinə baxmayaraq, uzun tarixi dövr ərzində Azərbaycanın bütöv halda həmin imperiyaların tərkibində olması nəticəsində ölkənin bütün bölgələri arasında əlaqələr genişləndi. Azərbaycanın şimal və cənub, şərq və qərb bölgələri arasında etnik-siyasi və mədəni birliyin yaranmasında mühüm irəliləyiş baş verdi. İran və ərəb işğalçılarına qarşı uzun sürən birgə azadlıq mübarizəsi ölkənin türk və qeyri-türk əhalisini daha sıx birləşdirdi, onların qaynayıb-qarışmasına müsbət təsir göstərdi. Vahid xalqın yaranması prosesi sürətləndi.

Eramızın ilk yüzilliklərində ölkə əhalisinin əksəriyyətini təşkil edən və hərbi-siyasi cəhətdən daha mütəşəkkil və daha qüvvətli olan türk etnosları vahid xalqın təşəkkülü prosesində mühüm rol oynayırdılar. Türk tayfaları, başqa xalqlar və etnik qruplardan fərqli olaraq, Azərbaycanın bütün ərazisinə - həm şimalına, həm də cənubuna yayılmışdılar və çoxluq təşkil edirdilər. Buna görə də türk dili Azərbaycan ərazisində yaşayan və sayca az olan xalqlar, etnik qruplar arasında da başlıca ünsiyyət vasitəsinə çevrilməkdə idi. Bu dil həm də şimalla cənub arasında birləşdirici, əlaqələndirici rol oynayırdı. Həmin amilin o zaman vahid xalqın təşəkkülü prosesində çox mühüm rolu vardı. Çünki bəhs olunan dövrdə **bütün Azərbaycan ərazisini əhatə edən vahid dini görüş - təkallahlı din hələ yox idi.** Qədim türklərin baş Allahı olan **Tanrıya sitayiş - tanrıçılıq** hələ başqa dini görüşləri sıxışdırıb aradan qaldıra bilməmişdi. Zərdüştlük, atəşpərəstlik, Günəşə, Aya, Göyə, ulduzlara, torpağa, suya və s. sitayiş davam etməkdə idi. Ölkənin şimalında - Albaniya ərazisinin bəzi yerlərində xristianlıq yayılmaqda idi. Lakin müstəqil Alban kilsəsi qonşu erməni və gürcü kilsələrinin kəskin rəqabəti şəraitində fəaliyyət göstərirdi. **Bu mürəkkəb tarixi şəraitdə güclü və aparıcı hərbi-siyasi qüvvəyə çevrilən çoxsaylı türk etnosları Azərbaycan dövlətçiliyinin əsas daşıyıcıları idilər. Hələ vahid təkallahlı dinin olmadığı bir dövrdə məhz türk etnosları və türk dili, şimallı-cənublu, bütün ölkə ərazisində birləşdirici rol oynayırdı. Türk etnosları Azərbaycan dövlətçiliyinin və ölkənin müstəqillik ənənələrinin qorunub saxlanmasında da aparıcı rol oynayırdılar.**

## İslam dininin qəbulundan sonrakı dövrdə Azərbaycan dövlətçiliyi

***«Cavanşir və Babək kimi sərkərdələrin qəhrəmanlıqları böyük vətənpərvərlik məktəbinə çevrilmiş, Vətənin bütövlüyü, xalqın birliyinin təcəssümü olmuşdur. Məhəmməd Cahan Pəhləvanın, Qızıl Arslanın, Uzun Həsənin, Şah İsmıayıl Xətainin və başqa dövlət xadimlərimizin həyat və fəaliyyəti xalqın Vətən sevgisi və dövlətçilik hissini daha da inkişaf etdirmiş, onu həyatın ən vacib, ən ümdə məqsədinə çevirmişdir.»***

***Heydər ƏLİYEV***

VII əsrdə **islam dininin qəbul olunması ilə Azərbayca-nın tarixi müqəddəratında əsaslı dönüş yarandı.** İslam dini vahid xalqın və dilin təşəkkülünə güclü təkan verdi, Azərbaycan dövlətçiliyinin gələcək inkişafı üçün daha etibarlı zəmin yaratdı. Bununla belə, ərəb işğalları dövründə Albaniyanın xristian əhalisi islam dininin təsir dairəsindən kənarda qaldı. Ölkədə dini ayrılıq baş verdi. Beləliklə, Azərbaycan dövlətçiliyi və ölkənin ərazi bütövlüyü ağır sınaqlar qarşısında qaldı.

Xilafət dağıldıqdan sonra - IX əsrin ortalarından Azərbaycanın qədim dövlətçilik ənənələri yenidən dirçəldi: İslam dininin yayılmış olduğu Azərbaycan torpaqlarında **Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər, Şəddadilər** dövlətləri yarandı. Siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində güclü oyanış baş verməkdə idi. Azərbaycan tarixinin İntibah dövrü başlanırdı.

Bəhs olunan dövrdə Azərbaycanın şimal-qərbində daha bir Azərbaycan dövləti-**Şəki hakimliyi** meydana gəldi. Şəki hakimləri Albaniya dövlətinin varisləri kimi çıxış edirdilər. Digər Azərbaycan dövlətlərindən fərqli olaraq Şəki dövlətinin ərazisi islamla xristianlıq arasında kəskin qarşıdurma məntəqəsinə çevrildi. Şəki hakimləri qonşuların işğalçılıq yürüşlərinə qarşı mübarizə aparır, Azərbaycanın şimal-qərb sərhədlərini uğurla qoruyub saxlayırdılar.

IX əsrin 70-ci illərindən başlayaraq yarım əsrdən çox davam edən bir tarixi dövr ərzində (879-941-ci illər) bütün Azərbaycan torpaqlarının vahid Azərbaycan türk dövlətinin - **Sacilər dövlətinin** tərkibində olması ölkə miqyasında iqtisadi və mədəni əlaqələrin daha da dərinləşməsinə, etnik fərqlərin aradan qalxması və Azərbaycan xalqının formalaşması prosesinin daha da sürətlənməsinə müsbət təsir göstərdi. Sacilər dövləti özünün ən qüdrətli çağlarında Zəncandan Dərbəndə, Xəzər sahillərindən Ani və Dəbil şəhərlərinə qədər geniş əraziləri əhatə edirdi. Sacilərin Bizans imperiyası

tərəfindən himayə olunan erməni və gürcü feodallarını məğlub edib özlərindən asılı hala salmaları Azərbaycanın ərazi bütövlüyünün, dövlətçiliyinin qorunub saxlanılmasında, ölkə ərazisində etnik-siyasi birliyin daha da möhkəmlənməsində mühüm rol oynadı. Məhz bu dövrdə Azərbaycan və ümumtürk ədəbiyyatının şah əsəri olan «Kitabi-Dədə Qorqud» dastanları, demək olar ki, bütün Azərbaycan torpaqlarında yayıldı.

Bununla belə, Ərəb xilafətinin tənəzzülündən sonra yaranmış Azərbaycan dövlətlərindən heç birinin uzun tarixi dövr ərzində yurdun bütün ərazisini əhatə edən vahid, davamlı və qüdrətli dövlətə çevrilə bilməməsi nəticəsində ölkədə uzun sürən siyasi sabitlik yaranmadı. Bu zaman Xilafətin zəifləməsindən istifadə edərək islama qarşı vahid cəbhədə birləşmiş Bizans imperiyası, erməni və gürcü feodallarından ibarət vahid xristian bloku özünün bütün zərbəsini Azərbaycana qarşı çevirdi. Məhz bu dövrdə - XI əsrin ortalarında Yaxın və Orta Şərq tarixində mühüm dönüş dövrü başlandı. Orta Asiyadan Aralıq dənizi sahillərinə və Dərbənd keçidindən İran körfəzinə qədər geniş əraziləri əhatə edən **Böyük Səlcuq imperatorluğu** yarandı. Azərbaycan növbəti oğuz-türk dövlətinin - Səlcuq imperatorluğunun tərkibinə daxil edildi.

**Səlcuq dövrü Azərbaycanın tarixi müqəddəratında həlledici rol oynadı. Sultan Alp Arslanın Məlazgird vuruşmasında (26 avqust 1071-ci il) Bizans imperiyasının hərbi qüvvələrini darmadağın etməsi ilə Azərbaycanı ələ keçirməyə çalışan xristian bloku (Bizans imperiyası, erməni və gürcü feodalları) iflasa uğradı. Bizans imperiyasının Cənubi Qafqazda möhkəmlənmək siyasəti və bu xristian dövlətinə arxalanaraq Azərbaycanın qərb torpaqlarını ələ keçirməyə çalışan erməni və gürcü feodallarının qəsbkarlıq planları puça çıxdı. Cənubi Qafqazı bütünlüklə xristianlığın təsir dairəsinə salmaq planı baş tutmadı. Xristian amili, ümumiyyətlə, Cənubi Qafqazda tənəzzülə uğradı. Səlcuq axınları nəticəsində oğuz-türk tayfaları qəti olaraq bütün Cənubi Qafqazda və Ön Asiyada başlıca etnik-siyasi amilə çevrildilər. Türk-islam amili bütün Yaxın və Orta Şərqin, o cümlədən Qafqazın bundan sonrakı tarixində uzun müddət müəyyənedici rol oynadı. Səlcuq axınları zamanı oğuz türklərinin yeni-yeni toplumları Azərbaycanda məskən saldılar. Eyni kökdən olan və islamı qəbul etmiş oğuz-səlcuq türkləri ilə Azərbaycan türkləri tez bir zamanda qaynayıb qarışdılar. Azərbaycan xalqının təşəkkülü prosesi başa çatdı. Azərbaycan türk dili bütün Cənubi Qafqazda, o cümlədən Azərbaycan ərazisində başlıca ünsiyyət vasitəsinə çevrildi. Sadə və anlaşıqlı Azərbaycan türk dili məhdud dairədə fəaliyyət göstərən xırda-məhəlli dilləri, həmçinin ərəb və fars dillərini sıxışdıraraq bütün ölkə miqyasında canlı ümumxalq dilinə çevrildi. El sənət-karlarının - ozanların (aşıqların) oba-oba, oymaq-oymaq gəzib yaydıqları şifahi xalq yaradıcılığı nümunələri çox keçmədən hamının**

**başa düşdüyü doğma Azərbaycan türk dilində nadir ədəbi nümunələrin meydana gəlməsi üçün zəmin yaratdı.**

Böyük Səlcuq imperatorluğunun süqutundan sonra qüvvətlənən **Şirvanşahlar** və **Eldənizlər** dövlətləri Azərbaycan xalqının dövlətçilik ənənələrinin daha da yüksəlişində mühüm rol oynadılar.

Yaxın və Orta Şərqin ən qüdrətli dövlətinə çevrilən **Eldənizlər dövləti** Azərbaycan xalqının etnik-siyasi tarixində xüsusilə böyük rol oynadı. Eldənizlərin hakimiyyəti dövründə Azərbaycan türklərinin, Azərbaycan türk dili və mədəniyyətinin yayıldığı ərazi daha da genişləndi. Beləliklə, Ərəb xilafətinin tənəzzülündən sonra Qafqazda, habelə bütün Yaxın və Orta Şərqdə türk-islam imperiyalarının rolu artdı. **Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər, Şəddadilər, Şəki hakimləri, Səlcuqlar, Eldənizlər, Monqollar, Elxanilər-Hülakular, Teymurilər, Osmanlılar, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar və başqa türk-islam sülalələrinin idarə etdikləri dövlətlər təkcə Azərbaycanın, həmçinin bütövlükdə Cənubi Qafqazın deyil, eyni zamanda, bütün Yaxın və Orta Şərqin dövlətçilik tarixində dərin iz qoydular.** Azərbaycan uzun zaman bu dövlətlərin əksəriyyətinin mərkəzi vilayəti, Təbriz isə paytaxtı oldu. Bu böyük türk-islam imperiyalarının bir çoxunu məhz Azərbaycan - türk sülalələri idarə edirdilər.

XV-XVIII əsrlərdə Azərbaycanın dövlətçilik mədəniyyəti daha da zənginləşdi. Bu dövrdə Şərqin geniş ərazili **Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi və Əfşar** imperiyaları bilavasitə Azərbaycan sülalələri tərəfindən idarə olunurdu. Bu mühüm amil ölkənin daxili və beynəlxalq əlaqələrinə müsbət təsir göstərir, Azərbaycanın hərbi-siyasi təsir dairəsini, Azərbaycan dilinin fəaliyyət meydanını genişləndirir, Azərbaycan xalqının maddi və mənəvi mədəniyyətinin daha da inkişaf etməsinə əlverişli şərait yaradırdı.

Ağqoyunluların və Səfəvilərin hakimiyyəti dövründə Azərbaycan Qara dəniz və Aralıq dənizi hövzəsi ölkələrindən başlamış uzaq İngiltərə və Skandinaviyaya qədər bir çox Avropa dövlətləri ilə diplomatik əlaqə saxlayırdı. Uzun Həsən, Şah İsmayıl Xətai, Şah Təhmasib, Şah Məhəmməd Xudabəndə, Şah Abbas və başqa Azərbaycan hökmdarlarının saraylarında çoxsaylı qərb diplomatları Azərbaycanla sıx qarşılıqlı əlaqələr yaratmaq üçün danışıqlar aparmışdılar. Azərbaycan Şərqlə Qərb arasındakı qarşılıqlı əlaqələrdə mühüm rol oynamaqda davam edirdi.

Səfəvi dövlətinin süqutundan sonra hakimiyyətə gələn görkəmli Azərbaycan sərkərdəsi Nadir şah (1736-1747) keçmiş Səfəvi imperiyasının sərhədlərini daha da genişləndirdi. O, 1739-cu ildə Dehli də daxil olmaqla Şimali Hindistanı da ələ keçirdi. Lakin Azərbaycan hökmdarının bu geniş ərazidə qüdrətli mərkəzləşdirilmiş dövlət yaratmaq planları baş tutmadı.

Nadir şahın ölümündən sonra onun idarə etdiyi geniş ərazili imperiya süquta uğradı. Hələ Nadir şahın sağlığında ikən azadlıq mübarizəsinə qalxan və müstəqilliyə can atan Azərbaycan torpaqlarında yerli dövlətlər yarandı.

Beləliklə, XVIII əsrin II yarısında Azərbaycan xırda dövlətlərə - xanlıqlara parçalandı. Ölkənin hərbi-siyasi tənəzzül dövrü başlandı. Azərbaycanın qədim dövlətçilik ənənələrini yaşadan ayrı-ayrı xanlar bütün ölkəni yenidən vahid dövlət çərçivəsində birləşdirməyə çalışsalar da, bu heç bir nəticə vermədi. Siyasi pərakəndəlik daha da dərinləşdi. Bununla Azərbaycanı işğal etməyə çalışan yadelli təcavüzkarların əlinə çox əlverişli bir fürsət düşdü.

XVIII əsrin sonunda Azərbaycan sülaləsi olan Qacarlar (1796-1925) İranda hakimiyyətə gəldilər. Qacarlar vaxtı ilə Səfəvilərin və Nadir şahın hakimiyyəti altında olmuş bütün əraziləri, o cümlədən Azərbaycan xanlıqlarını yenidən mərkəzi hakimiyyətə tabe etmək siyasəti yeritməyə başladılar. Beləliklə, Qacarlarla Cənubi Qafqazı işğal etməyə çalışan Rusiya arasında uzunsürən müharibələr dövrü başlandı. Azərbaycan iki böyük dövlət arasında qanlı müharibələr meydanına çevrildi. Rusiya tərəfindən hərbi əməliyyatlara başçılıq edən və ərazi vədləri ilə şirnikləndirilən erməni və gürcü generalları əllərinə düşmüş fürsətdən istifadə edərək Azərbaycanın dinc əhalisinə qarşı dəhşətli soyqırımları törətdilər. Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə əsasən müstəqil Azərbaycan dövlətlərinin varlığına son qoyuldu. Ölkə iki imperiya arasında bölüşdürüldü: **Şimali Azərbaycan** Rusiyaya, **Cənubi Azərbaycan** isə **Qacarların** idarə etdiyi İran şahlığına qatıldı. Azərbaycan xalqının şimalda ruslaşdırılması, cənubda isə farslaşdırılması dövrü başlandı.

Rusiya Şərqə doğru daha da irəliləmək, isti dənizlərə yol açmaq üçün azərbaycanlıları Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq siyasəti yeritməyə başladı. Bunun üçün ilk növbədə Cənubi Qafqazın xristian əhalisinə arxalandı, Azərbaycanın xristian-alban əhalisindən istifadə etdi. Müsəlman əhalinin zorla xristianlaşdırılmasına başlandı. Beləliklə, Bizans imperiyasının süqutundan sonra Cənubi Qafqazda xristian amili yenidən dirçəldildi. Rusiyadan Azərbaycana xristian əhalinin köçürülməsinə cəhd göstərildi. İlk zamanlar bu siyasət baş tutmadıqda işğal olunmuş Azərbaycan torpaqlarına, xüsusən Qarabağın dağlıq rayonlarına, keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisinə qonşu ölkələrdən kütləvi surətdə ermənlər köçürüldü. Türkiyə ilə həmsərhəd olan Qərbi Azərbaycan ərazisində - keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində «Erməni vilayəti» yaradıldı. Bununla da Azərbaycan ərazisində gələcək erməni dövlətinin əsası qoyuldu. Bundan əlavə, 1836-cı ildə müstəqil Alban kilsəsi ləğv olundu və erməni Qriqorian kilsəsinin tabeçiliyinə verildi. Beləliklə, Azərbaycanın qədim əhalisi olan xristian albanların qriqorianlaşdırılması və erməniləşdirilməsi üçün daha əlverişli şərait yaradıldı. Ermənilərin azərbaycanlılara qarşı yeni ərazi iddialarının əsası qoyuldu. Bütün bunlarla kifayətlənməyən çar Rusiyası daha çirkin siyasətə də əl atdı: erməniləri silahlandıraraq türk-müsəlman əhali üzərinə qaldırdı və azərbaycanlılara qarşı kütləvi qırğınlar törədilməsinə başlandı. Eyni zamanda, Rusiyadan Azərbaycana xristian əhalisinin

köçürülməsinə diqqət artırıldı. Azərbaycanın cənub torpaqlarında da eyni cür siyasət həyata keçirilirdi.

Çox çəkmədən, müstəqil yaşamaq ənənələrinə malik olan Azərbaycan xalqının həm şimalda, həm də cənubda azadlıq mübarizəsi gücləndi. Nəticədə, əvvəllər Azərbaycana yiyələnmək üstündə öz aralarında qanlı müharibələr aparmış Rusiya və İran dövlətləri Azərbaycan xalqının azadlıq mübarizəsinə qarşı etibarlı müttəfiqlərə çevrildilər. Bütün bunlara baxmayaraq, Azərbaycan xalqı Rusiya ağalığına və Qacarlar İranının şahlıq rejiminə qarşı istiqlal mücadiləsini dayandırmadı, özünün müstəqil dövlətini yaratmaq üçün dəfələrlə ölüm-dirim savaşına qalxdı, şəhidlər verdi. Rusiyada Birinci rus inqilabı (1905-1907), İranda isə 1905-1911-ci illər inqilabı dövründə Azərbaycan xalqı özünün müstəqil dövlətçiliyini bərpa etmək, demokratik idarəçilik sistemini yaratmaq uğrunda mübarizə aparırdı.

Birinci dünya müharibəsi dövründə Azərbaycan xalqı həm şimalda, həm də cənubda öz milli dövlətçilik ənənələrini dirçəltmək üçün yenidən ayağa qalxdı. Şimali Azərbaycanda azadlıq mübarizəsi misli görünməmiş faciələrlə nəticələndi. Burada hakimiyyəti ələ keçirən S.Şaumyanın daşnak-bolşevik hökuməti 1918-ci ilin martında azərbaycanlılara qarşı dəhşətli soyqırımı həyata keçirdi. Qardaş Türkiyə Azərbaycana kömək əlini yetirdi. Azadlıq hərəkatı qalib gəldi. 1918-ci il mayın 28-də Şimali Azərbaycanda Şərqdə ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Cənubi Azərbaycanda isə müstəqil və demokratik Azadıstan dövləti - «Azadıstan məmləkəti» quruldu (1920). Şeyx Məhəmməd Xiyabani Azadıstan Milli hökumətinin başçısı oldu. Hər iki Azərbaycan dövlətinin ərazisində geniş milli-demokratik islahatlar keçirilməsinə başlandı. Beləliklə, **Birinci Dünya müharibəsinin doğurduğu tarixi şəraitdən istifadə edən Azərbaycan xalqı həm şimalda, həm də cənubda özünün qədim dövlətçilik ənənələrini yenidən dirçəldə bildi, müstəqil yaşamağa layiq və qadir xalq olduğunu daha bir kərə sübuta yetirdi. Avropa ölkələrində olduğu kimi, Azərbaycanda da parlamentli respublika tipli demokratik idarəçilik qaydalarının tətbiq olunmasına başlandı. Bu, Azərbaycan xalqının çox böyük tarixi nailiyyəti idi.**

## Parlamentli respublikaya doğru

Bəşəriyyət tarixinin ən dəhşətli və ən qanlı hərbi-feodal müstəmləkə rejimi olan Çar Rusiyası da Azərbaycan xalqının dövlətçilik ənənələrini məhv edə bilmədi. Əsarət altına salınmış türk-müsəlman xalqlarının milli mənlik şüurunu və qədim dövlətçilik ənənələrini yox etmək siyasəti yeridən Rusiya imperiyası Cənubi Qafqazı bu siyasətin ən dəhşətli qırğın meydanına çevirmişdi. Bu qəddar siyasətin son məqsədi Cənubi Qafqazı Azərbaycanın türk-müsəlman əhalisindən «təmizləmək», bundan sonra isə İran və Türkiyəni aradan qaldırıb rahatca isti dənizlərə çıxmaq idi. Məhz bu niyyətlə də bir tərəfdən imperiyanın ayrı-ayrı yerlərindən Azərbaycana müxtəlif mənşəli xristian əhali köçürülür, digər tərəfdən də yerli əhalinin xristianlaşdırılması və ruslaşdırılması siyasəti yeridilirdi. Daha dəhşətlisi isə bu idi ki, həmin qanlı siyasəti daha «uğurla» həyata keçirmək üçün erməni-müsəlman qırğınları törədilirdi. Elə buna görə də məhz qədim dövlətçilik ənənələrinə malik olan Azərbaycan bütün Rusiya imperiyası ərazisində qanlı müstəmləkə rejiminə qarşı milli müqavimət hərəkatının əsas mərkəzinə çevrildi. İdarə olunmağa deyil, idarə etməyə vərdiş etmiş Azərbaycan xalqı özünün qabaqcıl ziyalılarının başçılığı altında bütün Rusiyanın türk-müsəlman xalqlarının milli-azadlıq hərəkatının önünə keçdi.

XX yüzilliyin əvvəllərində böyük xeyriyyəçi H.Z.Tağıyev tərəfindən himayə olunan Azərbaycan ziyalıları bütün başqa tələblərlə bərabər, ölkənin türk-müsəlman əhalisinin imperiyanın mərkəzi hakimiyyət orqanlarında təmsil olunmasını, yerli idarəçiliyə və məhkəmə orqanlarında fəaliyyətə cəlb olunmasını tələb edir, bu sahədə ayrı-seçkiliyin, məhdudiyyətin aradan qaldırılması uğrunda mübarizə aparırdılar. Görkəmli hüquqşünas Əlimərdan bəy Topçubaşov, Şəmsi Əsədullayev, Əhməd bəy Ağayev, Ədil xan Ziyadxanov, Əli bəy Hüseynzadə və bir çox digər milli ruhlu Azərbaycan ziyalıları bu hərəkatın önündə gedirdilər.

Şimali Azərbaycan çarizmə qarşı azadlıq mücadiləsinə qalxan bütün məzlum şərq xalqlarının mübarizə simvoluna çevrilmişdi. Təsadüfi deyil ki, imperiyanın bütün türk-müsəlman əhalisini çarizmə qarşı birləşdirmək və bu məqsədlə vahid siyasi təşkilat yaratmaq ideyası məhz Azərbaycanda doğulmuşdu. 1905-ci ildə ümumrusiya müsəlmanlarının Nijni-Novqorodda keçirilmiş I qurultayında **«Rusiya imperiyasında türklərin vəziyyəti və problemləri»**nə həsr olunmuş əsas məruzə ilə məhz azərbaycanlı Əlimərdan bəy Topçubaşov çıxış etmişdi. Yeni yaradılmış Ümumrusiya Müsəlmanları İttifaqının («İttifaqi - Müslimin») Nizamnamə və Proqramının yazılmasında da azərbaycanlı nümayəndələr fəal iştirak etmişdilər.

Mürəkkəb və çətin şəraitdə aparılan gərgin mübarizə nəticəsində Azərbaycanın tanınmış ziyalıları **Əlimərdan bəy Topçubaşov, İsmayıl xan Ziyadxanov, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Tağı Əliyev, Əsədulla bəy Muradxanov** 1906-cı ildə Rusiyanın ilk parlamentinə - I

Dövlət Dumasına deputat seçilmişdilər. Xalqımızı Rusiya parlamentində təmsil edən yüksək təhsil görmüş bu ziyalıların ikisi ixtisasca hüquqşünas idilər: Əlimərdan bəy Topçubaşov Peterburq Universitetinin, İsmayıl xan Ziyadxanov isə Moskva Universitetinin hüquq fakültəsini bitirmişdilər. Rusiya Dövlət Dumasının ən böyük fraksiyalarından birinə - Müsəlman fraksiyasına sədr məhz Əlimərdan bəy Topçubaşov seçilmişdi. Azərbaycanlı deputatlar Duma tribunasından çıxış edərək **Rusiya imperiyasının Cənubi Qafqazda yeritdiyi milli qırğın siyasətini, xalqımıza qarşı yol verilən ayrı-seçkiliyi, köçürmə siyasətini, bütöv bir xalqın hüquqsuzluğunu, kölə halına salındığını** bütün açıqlığı və kəskinliyi ilə tənqid edir, yalnız azərbaycanlıların deyil, **bütün Rusiya müsəlmanlarının mənafeyini müdafiə edirdilər.**

**II Dövlət Dumasının üzvləri Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Mustafa Mahmudov, Məhəmməd ağa Şahtaxtinski və Zeynal Zeynalov da,** öz sələfləri kim**i çarizmin bütün sahələrdə, o cümlədən dövlət idarəçiliyində yeritdiyi milli və dini ayrı-seçkilik siyasətinə kəskin etirazlarını bildirirdilər.**

Azərbaycanlı deputatların bütün Rusiyanın türk-müsəlman əhalisinin hüquqsuzluğuna qarşı kəskin çıxışları və bunun güclü oyadıcı təsirinin çarizmi vahiməyə salması I və II Dövlət Dumalarının buraxılmasında az rol oynamamışdı. Məhz buna görə də III Dumaya seçkilər zamanı türk-müsəlman əhalisinin yaşadığı Mərkəzi Asiya, Sibir və digər regionlar seçki hüququndan məhrum edilmiş, Bakıya isə öz nümayəndəsini irəli sürmək hüququ verilməmişdi. Elə həmin səbəbə görə də, əvvəlkilərdən fərqli olaraq, III Dövlət dumasında bütün Cənubi Qafqazın müsəlman əhalisini yalnız bircə nəfər deputat - **Xəlil bəy Xasməmmədov** təmsil edirdi. IV Dövlət Dumasında isə bütün Cənubi Qafqaz müsəlmanlarının yeganə nümayəndəsi **Məmməd Yusif Cəfərov** idi.

Rusiyanın dövlət dumalarına seçilmiş azərbaycanlı deputatların, demək olar ki, hamısı milli hərəkatımızın ən qabaqcıl nümayəndələri idilər. Duma deputatları Əlimərdan bəy Topçubaşov, İsmayıl xan Ziyadxanov, Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Məmməd Yusif Cəfərov peşəkar hüquqşünaslar idilər. Məhəmməd ağa Şahtaxtinski isə Sorbonna universitetinin dinləyicisi olmuş, Leypsiq universitetinin Fəlsəfə fakültəsini bitirmişdi.

Beləliklə, Birinci dünya müharibəsinin gedişində «xalqlar həbsxanası» olan Rusiya imperiyasının dağılması üçün real tarixi şərait yaranarkən Azərbaycan xalqı həm qədim dövlətçilik ənənələrinə, həm də ən müasir idarəçilik mədəniyyətinə yiyələndiyi üçün müsəqil dövlət halında yaşamağa tamamilə hazır idi.

**Qacarlar** sülaləsi tərəfindən idarə olunan İran şahlığının tərkibində qalmış Cənubi Azərbaycandan fərqli olaraq Şimali Azərbaycan Rusiya ağalığı dövründə Rusiyanın və qərbin yeni - demokratik dövlət quruculuğu təcrübəsi,

xüsusən parlament mədəniyyəti ilə yaxından tanış ola bilmişdi. **Azərbaycan ziyalılarının mühüm bir hissəsi, o cümlədən, Əlimərdan bəy Topçubaşov başda olmaqla peşəkar hüquqşünaslar Rusiyanın Dövlət Dumalarında zəngin parlamentçilik təcrübəsi qazanmışdılar. Onlar nifrət etdikləri və qəddar milli müstəmləkə zülmünün tüğyan etdiyi Rusiya mütləqiyyətindən tamamilə fərqlənən, bütün hüquq və azadlıqların hökmran olduğu ən demokratik respublika sistemi yaratmağa hazır idilər. Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin demokratik dövlət yaratmaq ideyaları onların hələ Rusiya Dövlət Dumalarında fəaliyyət göstərdikləri dövrdə formalaşmışdı. Buna görə də Azərbaycan Xalq Cümhuriyyətinin parlamentli respublika kimi formalaşması tarixi reallıqdan doğurdu. Çarizmin devrilməsindən sonrakı hadisələrin real inkişafı da işi buna doğru aparırdı.**

## Azərbaycan Xalq Cümhuriyyəti - Şərqdə ilk parlamentli respublika

1917-ci ilin fevralında Rusiyada monarxiya rejimi devrildi. Hakimiyyətə gələn Müvəqqəti hökumət Müəssislər Məclisinə seçkilər keçirdi. Lakin Müvəqqəti hökumət uzun müddət hakimiyyətdə qala bilmədi. 1917-ci ilin oktyabrında hakimiyyət çevrilişi baş verdi. Ona görə də Cənubi Qafqazdan Müəssislər Məclisinə seçilən deputatlar Rusiyaya gedə bilmədilər. Onlar 1918-ci il fevralın 14-də Tiflisdə Cənubi Qafqazın ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymini-Zaqafqaziya parlamentini yaratdılar. Seymdə Müsəlman Fraksiyasını Müəssislər Məclisinə seçkilər zamanı Azərbaycanın, habelə bütün Cənubi Qafqazın bir milyondan çox türk-müsəlman seçicisinin səsini qazanmış 44 deputat təmsil edirdi. Müsəlman fraksiyası və ya müsəlman şurası, əslində, Zaqafqaziya müsəlman parlamenti funksiyasını yerinə yetirirdi.

Dövlət dumalarında olduğu kimi, Zaqafqaziya Seyminin də ən ardıcıl üzvləri Azərbaycan nümayəndələri idilər. Məhz onların tələbi ilə 1918-ci il aprelin 9-da Zaqafqaziya Seymi Zaqafqaziyanın müstəqilliyini elan etdi və Birləşmiş Zaqafqaziya Cümhuriyyəti yaradıldı. Lakin kəskin milli mənafe ziddiyyətləri Zaqafqaziya Seyminin və Zaqafqaziya Cümhuriyyətinin konkret addımlar atmasına imkan vermədi. Nəticədə 1918-ci il mayın 25-də gürcü nümayəndələr Seymdən çıxdılar və mayın 26-da Gürcüstanın müstəqilliyini elan etdilər.

1918-ci il mayın 27-də Müsəlman Fraksiyasının, yəni Zaqafqaziya müsəlman şurasının (Zaqafqaziya müsəlman parlamentinin) üzvləri də ayrıca iclas keçirdilər və Azərbaycanın müstəqilliyini elan etmək qərarına gəldilər. Bu məqsədlə Zaqafqaziya müsəlman şurası özünü **Azərbaycan Milli Şurası,** daha doğrusu, **Azərbaycan Parlamenti** elan etdi. Bununla, əslində Azərbaycanın tarixində ilk parlament yarandı və ilk parlamentli respublikanın bünövrəsi qoyuldu. Həmin iclasda Azərbaycan Milli Şurasının rəyasət heyəti və sədri seçildi. M.Rəsulzadə Milli Şuranın sədri oldu. Mayın 28-də Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli Şurasının tarixi iclası keçirildi. İclasda iştirak edən **Həsən bəy Ağayev** (sədr), **Mustafa Mahmudov** (katib), **Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Yusifbəyli, Mir Hidayət Seyidov, Nəriman bəy Nərimanbəyov, Heybət Qulu Məmmədbəyov, Mehdi bəy Hacinski, Əli Əskər bəy Mahmudbəyov, Aslan bəy Qardaşov, Sultan Məcid Qənizadə, Əkbər Ağa Şeyxülislamov, Mehdi bəy Hacıbababəyov, Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlik-Aslanov, Rəhim bəy Vəkilov, Həmid bəy Şahtaxtinski, Firudun bəy Köçərlinski, Camo bəy Hacınski, Şəfi bəy Rüstəmbəyov, Xosrov Paşa bəy Sultanov, Cəfər Axundov, Məhəmməd Məhərrəmov, Cavad Məlik-**

**Yeqanov və Hacı Molla Səlim Axundzadə** Azərbaycanın **İSTİQLAL BƏYANNAMƏSİNİ** qəbul etdilər.

**İstiqlal Bəyannaməsi** bütün türk-müsəlman dünyasında, ümumiyyətlə bütün Şərqdə ilk dəfə olaraq Azərbaycanda ən demokratik respublika idarə üsulunun - parlamentli respublikanın yaradılacağından xəbər verirdi. Azərbaycan Milli Şurasının **İstiqlal Bəyannaməsində** deyilirdi:

**1. Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət haqqına malik olduğu kimi, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tam hüquqlu müstəqil bir dövlətdir.**

**2. Müstəqil Azərbaycan dövlətinin idarə forması Xalq Cümhuriyyətidir.**

**3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusilə qonşu olduğu millətlər və dövlətlərlə mehriban münasibətlər yaratmaq əzmindədir.**

**4. Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlarına siyasi hüquqlar və vətəndaşlıq hüququ təmin edir.**

**5. Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərin sərbəst inkişafı üçün geniş imkanlar yaradır.**

**6. Müəssislər Məclisi toplanıncaya qədər Azərbaycanın başında xalqın seçdiyi Milli Şura və Milli Şura qarşısında məsuliyyət daşıyan Müvəqqəti hökumət durur.**

Azərbaycan Milli Şurası həmin iclasında, eyni zamanda, bitərəf Fətəli xan Xoyskinin başçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin ilk Müvəqqəti hökumətinin tərkibini də təsdiq etdi. İlk Müvəqqəti hökumət bu tərkibdə idi: **Fətəli xan Xoyski** - Nazirlər Şurasının sədri və daxili işlər naziri; **Xosrov Paşa bəy Sultanov** - hərbi nazir; **Məmməd Həsən Hacınski** - xarici işlər naziri; **Nəsib bəy Yusifbəyli** - maliyyə naziri və xalq maarifi naziri; **Xəlil bəy Xasməmmədov** - ədliyyə naziri; **Məmməd Yusif Cəfərov** - ticarət və sənaye naziri; **Əkbər Ağa Şeyxülislamov** - əkinçilik naziri və əmək naziri; **Xudadat bəy Məlik-Aslanov** - yollar naziri və poçt-teleqraf naziri; **Camo bəy Hacınski** - dövlət nəzarətçisi.

Beləliklə, Birinci Dünya müharibəsinin gedişində və Romanovlar mütləqiyyətinin devrilməsi nəticəsində yaranmış çox mürəkkəb bir tarixi şəraitdə Azərbaycanın şimal torpaqlarında dövlətçilik ənənələrimiz yenidən, özü də bu dəfə parlamentli respublika formasında dirçəldi.

**Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti öz fəaliyyəti ərzində, o cümlədən 17 aylıq aramsız fəaliyyəti dövründə həyata keçirdiyi müstəqil dövlət quruculuğu təcrübəsi ilə, qəbul etdiyi yüksək səviyyəli qanunvericilik aktları və qərarları ilə Azərbaycan dövlətçiliyi tarixində, xüsusən də parlament mədəniyyəti tarixində dərin və zəngin iz qoymuşdur.**

Azərbaycan Xalq Cümhuriyyəti dövründə parlamentçilik tariximiz **iki dövrə** ayrılır: **birinci dövr - 1918-ci il mayın 27-dən noyabrın 19-dək** davam etmişdir. Altı aya qədər davam edən bu müddət ərzində **Azərbaycan Milli Şurası** adı ilə fəaliyyət göstərən və 44 nəfər müsəlman-türk nümayəndədən ibarət olan ilk Azərbaycan Parlamenti çox mühüm tarixi qərarlar qəbul etmişdi. İlk Parlamentimiz 1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyini elan etmiş, ölkənin idarə olunmasını öz üzərinə götürmüş və tarixi **İstiqlal Bəyannaməsini** qəbul etmişdir. Azərbaycan Milli Şurasının o zaman çox mürəkkəb və həlledici bir tarixi məqamda Tiflisdə - Qafqaz canişininin iqamətgahında elan etdiyi **İstiqlal Bəyannaməsi** Azərbaycan demokratiyası və parlamentarizm ənənələri tarixinin ən parlaq hüquqi sənədi olaraq bu gün də öz tarixi və praktiki əhəmiyyətini saxlamaqdadır. Milli Şura dövründə Azərbaycan Parlamen-tinin təsis toplantısı ilə birlikdə cəmi 10 iclası keçirilmişdir. İlk iclas **- 1918-ci il mayın 27-də Tiflisdə,** son iclas **- 1918-ci il noyabrın 19-da Bakıda keçirilmişdir. Mayın 27-də** Azərbaycan Milli Şurası təsis olunmuş, iyunun 17-də isə fəaliyyətini müvəqqəti dayandırıb, 6 aydan gec olmayaraq Müəssislər Məclisi çağrılmaq şərti ilə bütün qanunverici və icraedici hakimiyyəti Müvəqqəti hökumətə vermişdi. Xalq Cümhuriyyəti hökuməti 1918-ci il sentyabrın 17-də Bakıya köçdükdən sonra Azərbaycan Milli Şurası noyabrın 16-da öz fəaliyyətini yenidən bərpa etmişdir. Noyabrın 19-da Azərbaycan Milli Şurası həmin il dekabrın 3-də Müəssislər Məclisinin - geniş tərkibli Azərbaycan Parlamentinin çağırılması haqqında qanun qəbul etdi və öz fəaliyyətini dayandırdı. Beləliklə, Azərbaycan Parlamenti öz fəaliyyətinin bu dövründə, daha doğrusu, Milli Şura dövründə Tiflisdə, Gəncədə və Bakıda fəaliyyət göstərmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin parlamentçilik tarixində **ikinci dövr** və ya **Bakı dövrü 1918-ci il dekabrın 7-dən 1920-ci il aprelin 27-dək -** cəmi 17 ay davam etmişdir. İlk iclas **- 1918-ci il dekabrın 7-də, son iclas - 1920-ci il aprelin 27-də** keçirilmişdir. Bu dövrdə Parlamentin cəmi 145 iclası olmuşdur. Bütün bu iclaslarda Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti **İstiqlal Bəyannaməsinin** müəyyən etdiyi prinsiplərə sadiq qalaraq və konkret tarixi şəraiti nəzərə alaraq ölkənin ərazi bütövlüyünü təmin etmək və müstəqilliyini qoruyub saxlamaq, insan haqları və azadlıqlarının dolğun təmin olunduğu ən müasir hüquqi-demokratik dövlət yaratmaq məqsədi daşıyan çox mühüm qanunlar və qərarlar qəbul etmişdi. Bütün bu qanunlar və qərarlar, nəticə etibarilə, hakimiyyətin üç qolunun - qanunvericilik, icra və məhkəmə orqanlarının formalaşdırılmasına yönəlmişdi.

Birinci Dünya müharibəsində böyük dövlətlərin dünyanı bölüşdürmək uğrunda mübarizəsinin həlledici mərhələyə daxil olduğu və ölkənin başı üzərini yeni işğal təhlükəsinin aldığı çox mürəkkəb bir daxili və beynəlxalq tarixi şəraitdə fəaliyyət göstərən Azərbaycan Parlamenti öz fəaliyyətinin mühüm hissəsini dövlət müstəqilliyinin qorunub saxlanmasına və ordu

quruculuğu məsələlərinə yönəltmişdi. Qeyd olunmalıdır ki, Parlamentin bu sahədə qəbul etdiyi qanun və qərarların müzakirəsində Parlament üzvləri, bir qayda olaraq, həmrəylik və yekdillik nümayiş etdirirdilər.

Çox mürəkkəb şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, xalqımızın milli oyanışını əbədi etməyə çalışan Cümhuriyyət Hökuməti və Parlamenti elmin, təhsilin və xalq maarifinin, səhiyyənin inkişafını diqqət mərkəzində saxlayırdı. Ölkənin hər yerində müxtəlif pillədən olan məktəblər, gimnaziyalar, qız məktəbləri, uşaq bağçaları, qısa müddətli müəllim kursları, kitabxanalar açılır, kənd yerlərində xəstəxana və feldşer məntəqələri şəbəkəsi yaradılır, yoluxucu xəstəliklərə qarşı mübarizə aparılırdı. Bu baxımdan Parlamentin **1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin təsis olunması** haqqında qəbul etdiyi qanunu xüsusi qeyd etmək lazımdır. Milli universitetin açılması Cümhuriyyət xadimlərinin doğma xalq qarşısında çox mühüm tarixi xidməti idi. Sonralar Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də, Cümhuriyyət ideyalarının yaşamasında və xalqımızın yenidən müstəqilliyə qovuşmasında Bakı Dövlət Universiteti misilsiz rol oynadı. Ölkədə elm və təhsilin inkişafına xüsusi diqqət yetirən Cümhuriyyət Hökuməti və Parlamenti son dərəcə ağır şəraitdə, vaxt itirmədən, xarici ölkələrdə milli kadrlar hazırlanmasına da lazımi qayğı göstərirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti və Höku-məti ölkənin başı üstünü alan xarici müdaxilə təhlükəsini sovuşdurmaq məqsədilə gənc respublikanın beynəlxalq aləmdə tanınması üçün də böyük iş aparırdı. Bununla bağlı olaraq Cümhuriyyət Parlamenti 1918-ci il dekabrın 28-də Parlamentin sədri Ə.Topçubaşovun başçılığı ilə Paris sülh konfransına xüsusi nümayəndə heyətinin göndərilməsi haqqında qərar qəbul etmişdi. Görkəmli dövlət xadimi Ə.Topçubaşov ağır çətinlikləri dəf edərək Azərbaycan Xalq Cümhuriyyətinin bir sıra böyük dövlətlər tərəfindən de-fakto tanınmasına nail olsa da, XI Qızıl Ordunun Şimali Azərbaycanı işğal etməsi ilə onun bu sahədəki fəaliyyəti yarımçıq qaldı.

Azərbaycan Parlamentinin və Cümhuriyyət Hökumətinin daim böyük diqqət yetirdiyi problemlərdən biri də yaxın qonşularla münasibətlər və sərhəd məsələləri olmuşdur. Aparılan çox gərgin işdən sonra Gürcüstanla münasibətlər nizama salınsa da, Ermənistan hökumətinin böyük ərazi iddiaları üzündən Azərbaycan-Ermənistan münasibətlərini normal məcraya yönəltmək mümkün olmamışdı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə qonşu İranla da bir sıra saziş və müqavilələr imzalanmış və həmin sənədlər Parlamentdə təsdiq olunmuşdur.

Cümhuriyyət dövründə Azərbaycanda parlamentçilik ənənələri getdikcə möhkəmlənir və inkişaf edir, ən müasir parlament mədəniyyəti formalaşırdı. Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdə, ümumiyyətlə 155 parlament iclası keçirilmişdir ki, bunun da 10-u Azərbaycan Milli Şurasının **(27 may-19 noyabr 1918-ci il),** 145-i isə Azərbaycan Parlamentinin fəaliyyət göstərdiyi dövrdə **(7 dekabr 1918-ci il-27 aprel 1920-ci il)** olmuşdur.

Parlamentin müzakirəsinə 270-dən çox qanun layihəsi çıxarılmış, onlardan 230-a yaxını qəbul olunmuşdu. Qanunlar qızğın və işgüzar fikir mübadiləsi şəraitində müzakirə edilir, özü də yalnız üçüncü oxunuşdan sonra qəbul olunurdu.

Parlament qanunlarının hazırlanması, müzakirəsi və təsdiq olunmasında 11 fraksiya və qrupa mənsub olan millət vəkilləri iştirak edirdilər.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 11 komissiyası vardı.

Parlamentin fəaliyyəti xüsusi olaraq bu məqsəd üçün hazırlanmış nizamnamə - «Azərbaycan Parlamentinin nakazı (təlimatı)» əsasında idarə olunurdu.

Sovet Rusiyasının hərbi müdaxiləsi və XI Qızıl Ordu hissələrinin qanlı hərbi əməliyyatları nəticəsində Şimali Azərbaycan yenidən Rusiya tərkibinə qatılsa da, Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın azadlıq hərəkatı tarixində dərin iz qoydu. Cəmi 23 ay yaşamasına baxmayaraq Azərbaycan Xalq Cümhuriyyəti sübut etdi ki, ən qəddar müstəmləkə və repressiya rejimləri belə, Azərbaycan xalqının azadlıq ideallarını və müstəqil dövlətçilik ənənələrini məhv etməyə qadir deyildir.

**«Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır»** (Heydər Əliyevin «Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına Müraciəti»ndən).

Azərbaycan xalqının tarixində ilk Parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti, eyni zamanda, bütün Şərqdə, o cümlədən türk-islam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi.

**Azərbaycan Xalq Cümhuriyyəti özünün siyasi quruluşuna, həyata keçirdiyi demokratik dövlət quruculuğu tədbirlərinə, həmçinin qarşısına qoyduğu məqsəd və vəzifələrə görə də Avropanın ənənəvi demokratik respublikalarından heç də geri qalmırdı.**

*Tofiq VƏLİYEV,*
*tarix elmləri doktoru,*
*professor*

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANLI DEPUTATLARIN PARLAMENT FƏALİYYƏTİ HAQQINDA

Rusiya XX əsrə dünya iqtisadi böhranının tüğyan etdiyi bir şəraitdə qədəm qoymuşdu. Bu böhran Rusiyada daha ağır keçirdi, çünki Avropanın böyük dövlətləri burjua inqilabları mərhələsini çoxdan keçdikləri bir dövrdə Rusiyada mütləqiyyət quruluşu və mülkədar torpaq sahibliyi hələ də qalmaqda idi.

1903-cü ildən iqtisadi böhran dayansa da, imperiya iqtisadiyyatı durğunluqdan çıxa bilmirdi. Kapitalizmin tsiklik inkişaf qanunu bir sıra amillərlə bağlı olaraq pozulmuşdu. Başqa sözlə desək, iqtisadi böhran başa çatdıqdan sonra xalq təsərrüfatında, xüsusilə sənaye sahələrində canlanma baş verməmişdi. 1909-cu ilədək davam etmiş durğunluğa iki siyasi hadisə səbəb olmuşdu. Bunlardan biri 1904-cü ilin yanvarında, yəni iqtisadi böhran qurtaran kimi başlanan rus-yapon müharibəsi idi. Bu müharibə bir ildən bir qədər çox davam etməsinə baxmayaraq, dövlət xəzinəsini boşaltmış və Rusiya üçün rüsvayçılıqla başa çatmışdı. Müharibənin vurduğu zərbədən hələ özünə gəlməmiş çar hökuməti 1905-ci ildə başlanmış birinci rus inqilabı haqqında düşünməli olmuşdu. 1905-1907-ci illər inqilabı hakim dairələri təşvişə salmışdı. İnqilabdan çıxış yolları haqqında düşünməyə başlamışdılar. Bu inqilab təkcə metropoliyada deyil, müstəmləkələrdə – milli ucqarlarda da kütlələr arasında ümid qığılcımları yaratmışdı. Məşəqqət içində və hüquqsuz yaşayan insanlar öz həyatlarını yaxşılaşdırmaq uğrunda mübarizəyə başlamışdılar.

Mütərəqqi burjua nümayəndələri, eləcə də milli ziyalılar inqilab gedişində öz xalqları üçün çarizmi güzəştlərə getməyə məcbur etmək əzmində idilər. Azərbaycanda inqilabın təsiri ilə genişlənməkdə olan milli hərəkat xalqımızın oyanışına və azadlığına yönəlmişdi. XX əsrin əvvəllərinin ictimai-siyasi təlatümləri şəraitində xalqımız öz siyasi varlığını gerçəkləşdirmək əzmində idi.

1905-ci ildə azadlıq mübarizəsinin geniş vüsət aldığı bir şəraitdə çarizmin böyük dövlətçilik siyasətinin, milli və ictimai zülmün güclənməsi, xalqların hüquqlarının pozulması və s. cəmiyyətin, demək olar ki, bütün təbəqələrinin nümayəndələrini milli məsələ ətrafında birləşdirirdi. Mövcud quruluşun yeniləşdirilməsi və islahatlar keçirilməsi zərurəti yaranmışdı. Belə mühüm və məsul işi həyata keçirmək milli ziyalıların öhdəsinə düşürdü. 1905-ci ilin yaz-

yay aylarında Nazirlər Şurasına və Qafqaz canişininə petisiyalarda (ümumi ərz-hallarda) xalqın ehtiyaclarından bəhs edilirdi. Onların, demək olar ki, hamısını məşhur hüquqşünas Əlimərdan bəy Topçubaşov hazırlayırdı. 1905-ci ilin martında Hacı Zeynalabdin Tağıyevin evində keçirilmiş müşavirədə hökumətə ümumi ərz-hallarla müraciət edilməsinə qərar verilmişdi. Burada Şəmsi Əsədullayev, Rəşid bəy Şirvanski, Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşov, Ədil xan Ziyadxanov, Zülqədərov qardaşları, M.Vəkilov və başqaları tərtib edilmiş petisiyanı imzalamışdılar. Ən əhəmiyyətli cəhət orasıdır ki, bu petisiya Azərbaycanın çar hökumətinə təqdim etdiyi ilk proqram sənəd idi. Həmin sənəd sonralar yuxarı dairələrə təqdim edilmiş bütün müraciətlərin əsasını təşkil etmişdi.

Petisiyada şəhər bələdiyyələrində işləmək üçün müsəlmanlara məhdudiyyət qoyulmasının ləğvi, ana dilində pulsuz və icbari ibtidai məktəblərin açılması, bütün ali məktəblərə daxil olmağa icazə verilməsi, orta məktəblərdə milli kadrlara dərs demək imkanı yaradılması, imperiya hakimiyyət orqanlarında müsəlmanların iştirakına yol verilməsi, Qafqazda zemski idarələrinin yaradılması, andlılar məhkəmələrinin təsisi, məhkəmədə işlərin ana dilində aparılması, seçkili təmyiz məhkəmələrinin təsis edilməsi, pay torpaqlarının icbari şəkildə satın alınması, torpaqsız və aztorpaqlı kəndlilərin torpaqla təmin edilməsi, vergilərin torpaq sahəsinə görə alınması və başqa mühüm məsələlər qoyulmuşdu. Burada söz, mətbuat, vicdan azadlıqları, şəxsiyyətin toxunulmazlığı, millətlərin hüquq bərabərliyi və s. məsələlər də öz əksini tapmışdı. Müsəlmanların digər regionlardan göndərdikləri petisiyalar bu petisiya ilə səsləşirdi.

Görkəmli ictimai və dövlət xadimi Əlimərdan bəy Topçubaşov Qafqaz canişini ilə görüşündə petisiyanın, demək olar ki, bütün maddələrinə şərh vermişdi. Canişin bu görüşdə nümayəndələrə ana dilində ibtidai dünyəvi və dini məktəblərin açılmasına, qəzet və jurnalların nəşrinə icazə verəcəyini bildirmişdi. Az sonra, yəni aprel ayında Ə.Topçubaşova «Həyat» qəzetinin nəşri üçün icazə verilmişdi. Qəzetin redaktorları Əhməd bəy Ağayev və Əli bəy Hüseynzadə idi. Qəzeti məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev maliyyələşdirirdi.

Türk məmləkətlərinin mütərəqqi burjua nümayəndələri, xüsusilə ziyalılar 1905-1907-ci illərin rus inqilabında mütləqiyyətə qarşı mübarizəni təşkil etmək üçün vahid siyasi təşkilatın zəruri olduğunu aydın dərk edirdilər. Müstəmləkə əsarətinə qarşı mübarizədə vahid partiya yaratmaq məqsədi ilə 1905-ci ilin avqustunda Nijni-Novqorodda Ümumrusiya müsəlmanlarının I qurultayı çağırıldı. Qurultayda Əlimərdan bəy Topçubaşovun «Rusiya imperiyasında türklərin vəziyyəti və problemləri» mövzusunda etdiyi məruzə böyük maraq doğurdu. Qurultayın qərarı ilə Rusiya müsəlmanlarının ittifaqı — «İttifaqi-müslimin» yaradıldı. Qurultayda Əlimərdan bəy Topçubaşovla bərabər, Əhməd bəy Ağayev, Şəmsi Əsədullayev, Haşım bəy Vəzirov, Səfər

Tağızadə və başqaları da iştirak edirdilər. Ümumrusiya müsəlmanlarının I qurultayı «bütün müsəlmanların birliyi» çağırışı ilə başa çatmışdı.

Bilavasitə inqilabın təsiri ilə 1905-ci il oktyabrın 17-də II Nikolay bir sıra azadlıqlar haqqında manifest verdi. Bu manifest ölkədə islahatlar keçiriləcəyinə ümidi daha da artırmışdı. Həmin ilin sonunda Cənubi Qafqazda milli qırğına son qoyulması ilə əlaqədar Peterburqa şikayət məktubu aparmış Əlimərdan bəy Topçubaşov və Əhməd bəy Ağayev burada Əbdürrəşid İbrahimovla görüşmüş, «Müsəlman ittifaqı»nın nizamnamə və proqramını hazırlamışdılar. Hər iki sənədi Əlimərdan bəy Topçubaşov ruscaya çevirmişdi.

1906-cı ilin yanvarında Peterburqda Ümumrusiya müsəlmanlarının II qurultayı keçirildi. Nizamnamə və proqram bəyənildi. Proqramda çarizmə qarşı birgə mübarizə əsas vəzifə kimi qarşıya qoyuldu. İttifaq Dumaya seçkilərdə nəzərdə tutulmuş taktikanı müzakirə etdi. Qurultay İttifaqın Dumada Xalq Azadlığı Partiyası ilə bir blokda çıxış etməsinə qərar verdi.

II Nikolay 1905-ci il dekabrın 11-də seçkilər haqqında fərman vermişdi. Azərbaycan Dumada təmsil olunmaq hüququ əldə etmişdi. Azərbaycan ziyalıları seçkiləri təbliğ edərkən kadetlərin proqramını müdafiə etdiklərini bildirirdilər. Bakı və Gəncə quberniyalarında seçkilər bir qədər gec – 1906-cı il mayın 31-də keçirilmişdi, halbuki Rusiyanın digər yerlərində bu iş apreldə başa çatdırılmışdı. I Dumaya seçkilərdə Kadet partiyası qələbə çalmışdı. Çünki onların seçki platformasında əhalinin əsas təbəqələrinin mənafeləri geniş şəkildə müdafiə edilirdi. Onlar elan etmişdilər ki, indi hökumət «süngü və güllə ilə Rusiyada birlik yarada bilməyəcəkdir. Hər bir xalqın dilinə, ənənəsinə və dininə hörmətlə yanaşılmalıdır.» Xalq Azadlığı Partiyası yığcam yaşayan bütün xalqlara muxtariyyət, ümumi, pulsuz və icbari təhsil tələbini irəli sürmüşdü. Eyni proqramla partiyanın Bakı şöbəsi də çıxış edirdi.

Azərbaycanda I Dövlət Dumasına keçirilmiş seçkilərdə Bakı və Gəncə quberniyaları, eləcə də Bakı şəhəri üzrə Məmməd Tağı Əliyev (tacir ailəsindən idi və Petrovsk Kənd Təsərrüfatı Akademiyasını bitirmişdi), Əsədulla bəy Muradxanov (bəy nəslindən idi və Qori Müəllimlər Seminariyasını bitirmişdi), Əlimərdan bəy Topçubaşov (bəy mənşəli idi və Peterburq Universitetinin hüquq fakültəsini bitirmişdi), İsmayıl xan Əbülfət xan oğlu Ziyadxanov (Moskva Universitetinin hüquq fakültəsini bitirmişdi), yazıçı Əbdürrəhim bəy Haqverdiyev (Peterburq Universitetinin Şərq fakültəsinin məzunu olmuşdu) deputat mandatı qazanmışdılar. Onların hər biri bir neçə Duma komissiyasına üzv seçilmişdi. Dumada 36 müsəlman deputat Müsəlman fraksiyası yaratmışdı. Fraksiyanın sədrliyinə Əlimərdan bəy Topçubaşov seçilmişdi. Yeddi nəfərdən ibarət büroya isə Ə.Topçubaşov və İ.Ziyadxanov daxil edilmişdi. Fraksiya öz üzvlərinin sayına görə ən böyük fraksiyalardan biri idi. Onun ayrıca kabineti var idi.

Dumanın ilk sessiyasında deputatlar aqrar məsələ, vətəndaşların hüquq bərabərliyi, vicdan azadlığı və s. məsələlərin müzakirəsinə başladılar.

Fraksiya müzakirəyə qoyulan bütün məsələlərdə Xalq Azadlığı Partiyası ilə birlikdə çıxış edirdi və bu barədə Ə.Topçubaşov partiyanın sədri, tanınmış tarixçi P.Milyukova məlumat vermişdi. Xalq Azadlığı Partiyasının, yuxarıda deyildiyi kimi, bütün millətlərin hüquq bərabərliyi çağırışı müsəlman deputatları özünə cəlb etmişdi.

İyunda azərbaycanlı deputatlar öz həmkarları ilə birlikdə milli ucqarlarda aqrar islahatlar keçirilməsini müzakirəyə təqdim etdilər. Amma müsəlman fraksiyasının bütün sorğularına baxmaq mümkün olmadı. Tək I Dumada deyil, qalan Dumalarda da aqrar-kəndli məsələsi müzakirələrdə əsas mövzuya çevrilmişdi.

Çox aydın şəkildə göstərilirdi ki, torpaqsız kəndlilər torpaqla təmin edilməlidirlər. Mülkədarların kəndlilərə verdikləri torpaqların əvəzi dövlət xəzinəsi hesabına ödənilməlidir. Mərkəzi Rusiyadan kəndlilərin Qafqaza, o cümlədən Azərbaycana köçürülməsi dayandırılmalıdır.

İyunun 23-də Duma sədri başda olmaqla aqrar komissiyanın bir qrup deputatı hökumət qəzetlərində müzakirə edilmiş məsələlərin təhrif olunması haqqında bəyanat vermişdi. Bəyanatı Məmməd Tağı Əliyev də imzalamışdı.

Aqrar komissiyanın işində iştirak edən Ə.Topçubaşov komissiyanın hökumətin verdiyi məlumata etirazını haqlı hesab etmiş və bu etirazın mətninin yerlərdə də çap edilməsinə ehtiyac olduğunu bildirmişdi. Əgər belə edilərsə, onda hər bir xalq bu məlumatla öz dilində tanış olar və müəyyən edər ki, indiki nazirliklər nə ilə məşğul olurlar və xalq elçilərinin Dumadakı fəaliyyətinə onlar necə əngəllər törədirlər.

Azərbaycanlı deputatlar kəsərli və cəsarətli çıxışlarında mütləqiyyət üsuli-idarəsini tənqid etməkdən belə çəkinmirdilər. Daxili işlər naziri Cənubi Qafqazda baş vermiş milli qırğınla əlaqədar sorğuya cavab verdikdən sonra görkəmli ictimai xadim İsmayıl xan Ziyadxanov söz alıb Duma tribunasına qalxdı. O, bu regionda törədilmiş milli qırğından, müstəmləkəçilərin xalqımızın başına açdığı bəlalardan danışdı. ***«Biz (Azərbaycan) bir əsr əvvəl işğal edilmişik. Bizə heç bir hüquq verilməmişdir. Kölə halına salınmışıq. Milli varlığımıza təcavüz edilmişdir. Bir sıra ali məktəbə qəbul olunmağımıza qadağa qoyulmuşdur. Dövlət idarələrində türk məmurlarına rast gəlmək mümkün deyildir. Torpaq azlığından əziyyət çəkirik. Lakin buraya Rusiyadan axın-axın kəndlilər köçürülür. Bilavasitə dövlətin əli ilə törədilən milli qırğın zəminində qana boyanmış bu torpaqlarda rus kəndliləri üçün planlaşdırdığınız yaşayış məntəqələrini quracaqsınız. Bu, hökumətin gizli surətdə hazırlayıb həyata keçirdiyi «parçala və hökmranlıq et» idarə tərzindən başqa bir şey deyildir. İki ildən bəri qan dəryasında boğulan Vətənimdə insan cəsədlərinin üstündən keçirik. Artıq səbrimiz tükənmişdir.»*** Çar II Nikolayın böyründə, Tavriçeski sarayda, həm də Stolıpinin qanlı rejiminin hökm sürdüyü bir şəraitdə mütləqiyyət quruluşunu beləcə ittiham etmək öz xalqına ürəkdən bağlı olan, onun taleyinə acıyan ər kişilərin işi ola bilərdi. İ.Ziyadxanovun çox geniş nitqində xalqımızı,

bütövlükdə Rusiya müsəlmanlarını narahat edən məsələlərin hamısına bu və ya digər şəkildə toxunulmuşdu.

Dumanın iyun iclaslarında Əlimərdan bəy Topçubaşov və İsmayıl xan Ziyadxanovla bərabər Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Tağı Əliyev, Əsədulla bəy Muradxanov da müxtəlif məsələlər haqqında çıxış etmişdilər. Onlar öz çıxışlarında bir ildən çox Bakı və Gəncə quberniyalarında davam edən «gücləndirilmiş müdafiə»nin ləğvini, vəzifəli şəxslərin siyasi məhbuslara verdikləri işgəncələrin dayandırılmasını, Krım müsəlmanlarının ehtiyaclarının ödənilməsini, Novominskdə əsassız çıxarılmış ölüm hökmlərinin icrasının dayandırılmasını, Xarkov quberniyasının Sumsk qəzasında törədilən özbaşınalıqlara son qoyulmasını və bir çox bu kimi vacib məsələlərin həllini tələb edirdilər.

I Dövlət Dumasının buraxılması haqqında hökumətin qərarına etiraz olaraq, Xalq Azadlığı Partiyası Duma iclaslarını Vıborqda keçirməyi qərara almışdı. Digər partiyalar da onlarla həmrəy olduqlarını elan etmişdilər. İyulun 10-da burada keçirilən iclasda müxtəlif fraksiya üzvlərindən təşkil edilmiş komissiya xalqa bəyannamə qəbul etdi. Bəyannaməni Əlimərdan bəy Topçubaşov və İsmayıl xan Ziyadxanov da imzalamışdılar. Bəyannamədə xalqı Dumanın buraxılmasına etiraz etməyə çağırırdılar. Vıborq bəyannaməsini imzalayanlara divan tutuldu. Onlara qarşı cinayət işlərinə başlanıldı. 1907-ci ilin dekabrında məhkəmənin qərarı ilə Dumanın 167 deputatı, o cümlədən Ə.Topçubaşov və İ.Ziyadxanov üç aylıq həbsə məhkum edildilər. Onlar gələcəkdə Dumaya deputat seçilmək hüququndan məhrum olunurdular. Ə.Topçubaşov «Kaspi» qəzetinin rəhbərliyindən də uzaqlaşdırılmışdı.

Azərbaycanda II Dumaya seçkilər 1906-cı ilin dekabrında başlanmışdı. Azərbaycandan II Dövlət Dumasına Fətəli xan İsgəndər xan oğlu Xoyski (Moskva Universitetinin hüquq fakültəsini bitirmişdi), Xəlil bəy Hacıbaba oğlu Xasməmmədov (Moskva Universitetinin hüquq fakültəsini bitirmişdi), İsmayıl Zeynalabdin oğlu Tağıyev (Hacı Zeynalabdin Tağıyevin oğlu – kommersant), Mustafa Hacı Musa oğlu Mahmudov (Kürdəmirdə kəndli ailəsində anadan olmuşdu, Qori seminariyasının məzunu idi), Məmmədağa Məmmədtağı Sultan oğlu Şahtaxtinski (mülkədar ailəsindən olub, Sorbonna Universitetinin dinləyicisi olmuş, Leypsiq Universitetinin fəlsəfə fakültəsini bitirmişdi) və Zeynal Eynal oğlu Zeynalov (kəndli ailəsindən olub, ibtidai təhsil almışdı) seçilmişdilər. Bakı şəhərinin deputatı İsmayıl Zeynalabdin oğlu Tağıyev Peterburqa getməkdən imtina etmiş və onun yerinə heç kəs seçilməmişdi.

Əvvəllər olduğu kimi, yeni seçilmiş azərbaycanlı deputatlar müsəlman fraksiyasına daxil olmuşdular. Fətəli xan Xoyski və Xəlil bəy Xasməmmədov büroya da seçilmişdilər. Fraksiyanın işində Əlimərdan bəy Topçubaşov çox fəal iştirak edirdi. Elə bir məsələ yox idi ki, onun müzakirəsi Ə.Topçubaşovsuz keçirilsin. Fraksiya öz proqramını ayrıca broşüra şəklində

çap etdirmişdi. Proqramda qoyulmuş əsas məsələlər petisiyalarda verilmiş məsələlərin, demək olar ki, eyni idi. 1907-ci il fevralın 20-də öz işinə başlayan II Dumada müzakirəyə çıxarılan məsələlərin çoxu hələ də həllini tapmamış məsələlər idi.

Mart ayında Zeynal Zeynalov müsəlman əmək fraksiyasının Əməkçi Partiyasına birləşdiyini elan etdi. O, eyni zamanda bildirmişdi ki, iqtisadi məsələlər istisna edilməklə, qalan məsələlərdə müsəlman fraksiyası ilə həmrəydir.

Azərbaycanlı deputatlar Xalq Azadlığı Partiyasının Dumadakı komissiyalarının çoxunda iştirak edirdilər.

9 mart iclasında Mustafa Mahmudov və Məmmədağa Şahtaxtinski hərbi-səhra məhkəmələrinin ləğv edilməsi lehinə çıxış etmişdilər. M. Şahtaxtinski yazırdı ki, mövcud şəraitə uyğun gəlməyən qanunları Dumanın ləğv etmək hüququ vardır. Çox təəssüf ki, Dumanın çıxardığı qərarlara əhəmiyyət verən yoxdur. X.Xasməmmədov və M.Mahmudov hərbi nazirə məktubla müraciət edərək Qafqaz hərbi-səhra məhkəməsinin haqqında ölüm hökmü çıxardığı adamların vəziyyətini yüngülləşdirməyi xahiş edirdilər.

Martın 28-də parlament komissiyasında milli-dini hüquq bərabərliyi məsələsinin müzakirəsində Məmmədağa Şahtaxtinski çıxış edərək göstərmişdi ki, şəhər dumalarına seçkilərdə, təhsildə və dövlət idarələrində xidmətdə müsəlmanlar böyük məhdudiyyətlərlə rastlaşırlar. Aprel ayında keçirilən iclaslarda da M.Şahtaxtinskinin müxtəlif məsələlər ətrafında tutarlı çıxışları olmuşdu.

Təkcə M.Şahtaxtinski deyil, bütün deputatlar komissiyaların işində fəal iştirak edirdilər. Z.Zeynalov aclara və işsizlərə kömək edilməsi məsələsi ətrafında öz fikirlərini deputatların nəzərinə çatdırmışdı. Bu məsələdə M.Şahtaxtinski və M.Mahmudov onu müdafiə etmişdilər.

Aqrar məsələlərin müzakirəsi ilə əlaqədar Ə.Topçubaşov, Q.Qarabəyov və B.Axundov fraksiyanın təklifi ilə Peterburqa çağırılmışdılar. Fətəli xan Xoyski öz çıxışında bildirmişdi ki, kəndlilər dövlətin əsasını təşkil edirlər və biz bu gün onların sayəsində burada əyləşmişik. Hökumətə etirazını bildirən natiq aqrar məsələnin kəndli torpaq bankı vasitəsilə həllinin tamamilə səhv olduğunu göstərmişdi. Hökumətin köçürmə siyasətini tənqid edərək onun kəndlilərin mənafeyinə zidd olduğunu bildirmiş və bu prosesi dayandırmağı tələb etmişdi. F.Xoyski mülkədar torpaqlarının bir hissəsinin icbari yolla torpaqsız və aztorpaqlı kəndlilərə verilməsinə tərəfdar çıxsa da, bu torpaqlar müqabilində mülkədarlara dövlət xəzinəsindən kompensasiya ödənilməsini məqsədəuyğun hesab etmişdi. Z.Zeynalov isə kəndlilərə torpaqların pulsuz verilməsinə tərəfdar olduğunu bildirmişdi. II Dumada əvvəlki Dumada müzakirəyə çıxarılmış məsələlərin təkrar müzakirəyə qoyulması bir daha onu göstərirdi ki, onların çoxu öz həllini tapmamışdı.

Müsəlman fraksiyası qadınlarla kişilərin hüquq bərabərliyi məsələsini də qaldırmışdı.

Xəlil bəy Xasməmmədov amnistiya məsələsinin müzakirəsini təklif etmiş və onun qanunvericilik yolu ilə həllini tələb etmişdi.

Mustafa Mahmudov, maarif nazirinin çoxmilyonlu müsəlmanların təhsil məsələsinin üstündən sükutla keçməsini, təhsil komissiyasının üzvü kimi, böyük narazılıqla qarşılamışdı. O, müsəlman müəllimlərinin xüsusi kastaya aid edildiyini, hüquqsuzluğunu və hətta məktəbdə öz ana dilində danışmaqdan məhrum olunduqlarını xüsusi qeyd etmiş, Xalq Azadlığı Partiyasının bu məsələ ilə bağlı verdiyi bütün təklifləri müdafiə etdiyini bildirmişdi.

Duma komissiyasında yerli məhkəmələr haqqında F.Xoyski və X.Xasməmmədov kəskin çıxış etmişdilər. Onlar məhkəmə islahatlarının yalnız zemski idarələrinin olduğu quberniyalarda aparılmasına qəti etirazlarını bildirmişdilər. Məhkəmələrin yerli əhalinin dilində aparılmamasını müstəmləkə siyasətinin həyata keçirilməsi kimi qiymətləndirmişdilər.

Azərbaycanlı deputatların çıxışları ölkənin sosial-iqtisadi vəziyyəti barədə Duma deputatlarında müəyyən təsəvvür yaradır və çox hallarda onların təklifləri müdafiə olunurdu.

II Dövlət Dumasının fəaliyyəti mütləqiyyəti razı salmadığına görə II Nikolay 1907-ci il iyunun 3-də onun buraxılması haqqında manifest verməli olmuşdu. Bundan az sonra isə III Dumaya seçkilər haqqında qanun verilmişdi. Yeni seçki qanununa əsasən Dumaya seçiləcək deputatların ümumi sayı 100 nəfərədək azaldılmışdı. Əhalisinin guya qeyri-yetkin olması bəhanə gətirilərək Sibir, Mərkəzi Asiya və digər regionlar seçki hüququndan məhrum edilmişdi.

Bir çox şəhərlər, o cümlədən Bakı da nümayəndəlikdən məhrum olunmuşdu. Yeni seçki qanununa görə, Cənubi Qafqazın 3 quberniyasının müsəlman əhalisindən yalnız bir deputat seçilə bilərdi. Həmin yerə II Dumanın deputatı olmuş görkəmli hüquqşünas X.Xasməmmədov seçilmişdi. O, peşəkar bir hüquqşünas kimi seçicilərin mənafeyini böyük ləyaqətlə müdafiə edirdi. III Dumanın sədri vəzifəsini əvvəlcə N.Xomyakov, sonra isə növbə ilə A.Quçkov və M.Rodzyanko icra etmişdilər.

1907-ci il noyabrın 1-də Dumanın açılışı günü çara müraciət hazırlamaq üçün 18 nəfərlik komissiyaya Xəlil bəy Xasməmmədov da daxil edilmişdi. Bu, onun böyük nüfuza malik olduğuna dəlalət edirdi. X.Xasməmmədov Duma üzvlərinin nəzərinə çatdırmışdı ki, son iki il ərzində müsəlmanların ruslarla eyni hüquqa malik olmaları üçün heç bir şey əldə edilməmişdir. Bu kimi məsələlərin müraciətə daxil edilməsini təkidlə tələb etmişdi. O, Duma deputatlarını inandıra bilmişdi ki, çar hökumətinin köçürmə siyasəti yerlərdə kəndlilərin vəziyyətini pisləşdirir.

Yenə də müsəlman deputatlar ayrıca fraksiyada birləşmişdilər. Həmişə olduğu kimi, Əlimərdan bəy Topçubaşov qeyri-rəsmi olaraq, ona başçılıq edirdi. O, deputat olmasa da, qanun layihələrinin hazırlanmasında yaxından iştirak edirdi.

1908-ci il mart iclasında müsəlman fraksiyası ana dilində ibtidai təhsil məsələsini müzakirəyə qoymuşdu. X.Xasməmmədov dəfələrlə çıxışlarında göstərmişdi ki, yalnız islahatlar yolu ilə əhalidə hakimiyyətə etimad yaratmaq olar. Onun qaldırdığı məsələlər XX əsrin əvvəllərində Azərbaycanın ehtiyac duyduğu bütün sahələri əhatə edirdi. X.Xasməmmədov inanırdı ki, müzakirəyə verilmiş problemlərin çoxu həllini tapacaqdır.

1909-cu ilin yaz iclaslarında Dumada Qafqaz məsələsi deyilən məsələnin müzakirəsi keçirilmişdi. Pruşkeviç kimiləri başda olmaqla «sağlar» xalqları bir-birinə qarşı qoymağa çalışırdılar. Xəlil bəy Xasməmmədov onların gətir-dikləri dəlilləri tənqid edərək göstərirdi ki, millətlər arasında fərq qoymaq nəticədə hüquq pozuntularına gətirib çıxarmalıdır. Elə buna görədir ki, Rusiya imperiyasında ən hüquqsuz insanlar müsəlmanlar və yəhudilərdir. Çar hökumətinin hakim dövlətçilik siyasəti bizləri məzlumlara çevirmişdir. O, dediklərini sübut etmək üçün olduqca inandırıcı statistik məlumatlar gətirmişdi. Onun fikrincə, milli müstəsnalıq iddiası heç zaman müsbət nəticələrə gətirib çıxarmır.

Təhsil məsələsinə dönə-dönə qayıdan X.Xasməmmədov deyirdi ki, nə qədər ki ibtidai təhsil türk-tatar dillərində aparılmır, məktəb məsələsini qaydaya salmaq işi baş tutmayacaqdır. O, təklif edirdi ki, Gəncədə müstəqil seminariya açmaq lazımdır. Yalnız bundan sonra məktəblərimizi müəllim kadrları ilə təmin etmək mümkün olacaqdır.

1909-cu il martın 16-da Dumada Abşeronun neftli torpaqlarından əhalinin – kəndlilərin köçürülməsi və həmin torpaqların sənayeçilərə icarəyə verilməsi məsələsinin müzakirəsində X.Xasməmmədov bildirmişdi ki, bu, on minlərlə kəndlinin öz ata-baba torpaqlarından qovulması deməkdir.

III Dövlət Duması da qanun layihələrinin hazırlanması və qəbulu məsələsində elə bir uğur əldə edə bilməmişdi. 1912-ci il iyunun 9-da II Nikolayın əmri ilə III Dövlət Duması da buraxıldı. 1912-ci ilin oktyabrında IV Dumaya seçkilər keçirildi. Əvvəlki məhdudiyyət yenə saxlanıldığına görə, Azərbaycandan Dumaya Məmməd Yusif Cəfərov deputat seçilmişdi. O, 1912-ci ildə Moskva Universitetinin hüquq fakültəsini bitirmişdi. Dumadakı müsəlman fraksiyası üzvləri bu dəfə bir qədər də azalmışdı.

Öz çıxışlarını konkret faktlarla zənginləşdirmək üçün Məmməd Yusif Cəfərov 1913-cü ilin aprelində Bakı, Quba, Muğan və başqa yerlərdə seçicilərlə görüşmüşdü.

Müsəlman fraksiyasının Dumadan kənar işləri müxtəlif sahələri əhatə edirdi. Müsəlman dünyasının görkəmli şəxsiyyətlərindən olan İsmayıl bəy Qasprinski, Əlimərdan bəy Topçubaşov və başqaları ilə dumadankənar görüşlər çox faydalı olurdu.

1913-cü ilin iyununda Köçürmə İdarəsinin büdcəsi ilə bağlı məsələnin müzakirəsində çıxış edən M.Cəfərov göstərmişdi ki, hökumət milli ucqarlardakı əhalinin vəziyyətinə laqeyd yanaşmamalıdır. Cənubi Qafqazda və Türküstanda bu məsələdə hərc-mərclik hökm sürür. Bu da hökumət

məmurlarının özbaşınalığına şərait yaradır. Köçürmə sahəsində dəhşətli vəziyyəti təsəvvür etmək çətindir. Belə bir dövlətdə köçürməni vandal üsulu ilə həyata keçirmək kimə lazımdır? Bu sayaq köçürməni «dövlət işi» yox, «dövlət şəri» adlandırmaq daha doğru olardı.

1915-ci ilin iyununda müsəlman fraksiyasının üzvləri adından çıxış edən M.Cəfərov göstərirdi ki, milli zülm siyasəti sahəsində məkrli təcrübə heç zaman indiki dərəcədə olmamışdır. Mərkəzi bürokratiya rus olmayan əhalinin milli hisslərinə rişxənd edir, onu ələ salır. İndi ucqarlarda cəbhəyə səfərbərlik elan olunmuşdur. ***«Müharibə əhalinin onsuz da ağır olan vəziyyətini pisləşdirmişdir. Müharibə gurultusunun arxasında köməksiz qalmış sülhsevər müsəlmanların başına dəhşətli faciələr gətirilir. Onların həyatı və əmlakı üçün heç bir təminat yoxdur. Müsəlmana qarşı zülm, talan və cinayət adi işlərə çevrilmişdir. Kişilərin elliklə arxa cəbhələrə aparılması, müdafiəsiz qalmış qadınlara edilən təcavüz, dağıdılmış, tərk edilmiş kəndlər, ac-yalavac, möhtac insanlar – bax belədir müsəlmanların vəziyyəti.»***

Vaxt keçdikcə aydınlaşırdı ki, mütləqiyyətin hakim olduğu bir şəraitdə heç bir islahat həyata keçirilməyəcəkdir. Ona görə də bir sıra fraksiyalar 1915-ci ilin avqustunda «Mütərəqqi Blok»da birləşməli olmuşdu. Müsəlman fraksiyası da buraya daxil edilmişdi. Bloka Xalq Azadlığı Partiyasının sədri P.Milyukov rəhbərlik edirdi. Bloka daxil olan 236 deputatın təklifi ilə ölkədə xalqın etimadını qazanmış nümayəndələrdən ibarət koalisyon hökumət yaratmaq qərara alınmışdı.

1917-ci ilin fevralında Rusiyada çoxəsrlik mütləqiyyət quruluşu devrildi. Yaranmış Müvəqqəti hökumətin qərarı ilə mart ayında Duma üzvlərindən ibarət «Cənubi Qafqaz Xüsusi Komitəsi» təşkil edildi. Məmməd Yusif Cəfərov da Komitəyə daxil edilmişdi.

Rusiya dumalarında azərbaycanlı deputatların parlament fəaliyyəti tarixinin öyrənilməsi bir daha göstərir ki, onlar deputat olduqları müddətdə xalqımızı yüksək səviyyədə təmsil etmişlər. Deputatlarımız o dövrdə cəmiyyəti narahat edən bütün məsələləri, xüsusən çarizmin imperiyada yaşayan müsəlmanların başına açdığı fəlakətləri Duma tribunasından böyük cəsarətlə bəyan etməklə bir daha sübut etmişdilər ki, ölkədə islahatların keçirilməsi zəruridir. Digər tərəfdən, deputatlarımızın son dərəcə gərgin əməyi, bizim fikrimizcə, heç də hədər getməmişdi. Onların əldə etdikləri böyük parlament təcrübəsi Azərbaycan Xalq Cümhuriyyəti dövründə yüksək dövlət vəzifələrində işləyən həmin deputatların səmərəli fəaliyyət göstərməsi üçün faydalı olmuşdur.

*Ataxan PAŞAYEV,*
*Azərbaycan Respublikasının*
*Nazirlər Kabineti yanında*
*Baş Arxiv İdarəsinin rəisi*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN PARLAMENT TƏCRÜBƏSİNDƏN

Azərbaycanda parlamentarizm ənənələrindən söz açarkən qeyd etmək lazımdır ki, cəmi 17 ay fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin bu sahədə öz yeri və rolu vardır. Məlum olduğu kimi, 1998-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 80 illik yubileyi geniş şəkildə bayram edilərkən Baş Arxiv İdarəsi tərəfindən Azərbaycan Cümhuriyyətinin fəaliyyətinə aid hazırlanaraq dərc edilmiş yeddi cildlik sənədlər toplusunun üç cildi məhz Cümhuriyyət Parlamentinin fəaliyyətinə aid sənəd topluları idi. Bu toplularda verilmiş və habelə dərc olunmayaraq arxivlərimizdə saxlanılan çoxlu sənədlər Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin yaranması və fəaliyyəti haqqında kifayət qədər məlumat verir.

1918-ci il noyabrın 16-da Bakıda yenidən fəaliyyətə başlamış Azərbaycan Milli Şurası həmin il noyabrın 19-da respublikada ali hakimiyyət orqanı kimi 120 nəfərdən ibarət Azərbaycan Cümhuriyyəti Parlamentini yaratmaq haqqında qanun qəbul edir. Həmin qanunla dekabrın 3-də Parlamentin ilk iclasını çağırmaq qərara alınır.

Bu münasibətlə həmin il noyabr ayının 29-da Milli Şuranın sədri Məmmədəmin Rəsulzadənin imzası ilə şuranın Azərbaycan və rus dillərində «Bütün Azərbaycan əhalisinə!» müraciəti dərc olunur. Müraciətdə deyilirdi ki, Bakıda toplanan Azərbaycan Milli Şurasının qəbul etdiyi qanunun məqsədi «sırf Azərbaycan müsəlmanlarına məxsus olan Şurai-Millini milli bir şəkildən çıxarıb dövləti bir şəkilə salmaq oldu… Bu məclisə azlıqda qalan millətlərdən nümayəndələr cəlb olunduğu kimi məmləkətin vilayətlərindən də vəkillər çağırılmışdır». Müraciətdə daha sonra göstərilirdi ki, bu Parlament «…irəlidə ümumi intixab üsulu ilə Azərbaycan Məclisi-Müəssisanı yığılıncaya qədər ***yurdumuzun sahibi olacaq, onun müqəddəratını həll, hökumətini təşkil və mənafeyini müdafiə edəcək.»***

Yuxarıda deyildiyi kimi, parlamentin ilk iclası 1918-ci il dekabrın 3-də açılmalı idi. Ancaq Parlamentin ilk iclası həmin il dekabrın 3-də deyil, 7-də açılır. Milli Şura və hökumət bunun səbəbini qəzalardan seçilmiş nümayəndələrin gəlməsinin gecikməsi ilə əlaqələndirməyə çalışırdı. Əslində isə başlıca səbəb bu dövrdə müttəfiq ordularının komandanı kimi Bakıya gələrək özünü Bakının general qubernatoru elan etmiş ingilis generalı Tomsonun razılıq verməməsi idi. Hələ Tomson Ənzəlidə olarkən onun görüşünə getmiş Bakı

erməni və rus milli şuralarının nümayəndələri onu inandırmağa çalışmışdılar ki, Azərbaycan milləti parlament yaratmaq, hökumət təşkil etmək səviyyəsinə çatmamışdır və ona bu ixtiyarı vermək olmaz. Onlar bundan istifadə edərək burada yaşayan başqa millətlərə divan tuta bilərlər. Ona görə də Tomsonu razı salmaq xeyli vaxt apardı. Nəhayət, 1918-ci il dekabrın 7-də gündüz saat 1-də Hacı Zeynalabdin Tağıyevin keçmiş qız məktəbinin binasında müsəlman şərqində ilk dəfə olaraq Azərbaycan Cümhuriyyəti Parlamentinin ilk iclası təntənəli şəkildə açılır.

Parlamentin iclasını giriş sözü ilə açan Azərbaycan Milli Şurasının sədri Məmmədəmin Rəsulzadə böyük təbrik nitqi söyləyir. Sonra isə təşkilati məsələlərə keçilir. «Müsavat» fraksiyasının təklifi ilə Əlimərdan bəy Topçubaşov Parlamentin sədri, doktor Həsən bəy Ağayev isə sədrin birinci müavini seçilirlər. Əlimərdan bəy Topçubaşov bu vaxt İstanbulda olduğu üçün Parlamentə Həsən bəy Ağayev sədrlik edir. 1918-ci il dekabrın 28-də Azərbaycan hökuməti, Parlamentin ağsaqqallar şurasının iştirakı ilə keçirdiyi iclasında Avropada ümumi sülh konfransında iştirak etmək üçün Parlamentin sədri Əlimərdan bəy Topçubaşovun sədrliyi ilə Parisə göndəriləcək xüsusi nümayəndə heyətini müəyyən edir. 1919-cu il dekabrın 29-da Parlamentin 111-ci iclasında Əlimərdan bəy Topçubaşov alternativsiz olaraq yenidən parlamentin sədri seçilsə də o, bir gün də olsun Azərbaycan Parlamentinə sədrlik etməmişdir. Bundan əlavə, Azərbaycan Parlamenti özünə üç dəfə birinci müavin, iki dəfə isə ikinci müavin seçib, üç dəfə Azərbaycan Cümhuriyyəti hökumətini təşkil edib və onların fəaliyyət proqramını dinləyərək bəyənibdir.

Azərbaycan Parlamenti sədrinin birinci müavini vəzifəsinə 1919-cu il dekabrın 29-da üç nəfərin – «Müsavat»dan Həsən bəy Ağayev, «İttihad»dan Sultan Məcid Qənizadə və Sosialistlər fraksiyasından Aslan bəy Səfikürdskinin namizədlikləri irəli sürülür. Səs çoxluğu ilə Həsən bəy Ağayev yenidən parlament sədrinin birinci müavini seçilir. Nədənsə o, 1920-ci il yanvarın 22-də istefa verir. Fevralın 2-də isə «Müsavat» partiyasının təklifi ilə Parlament sədrinin birinci müavini vəzifəsinə Məmməd Yusif Cəfərov seçilir və həmin il aprelin 27-nə, yəni Azərbaycan Cümhuriyyətinin süqutuna qədər bu vəzifədə qalır.

Parlamentin açılışı və fəaliyyəti ilə əlaqədar mühüm bir məsələyə də xüsusi diqqət yetirməliyik. Bu da ondan ibarətdir ki, Parlament haqqında qanunda Azərbaycan əhalisinin ümumi sayına müvafiq olaraq erməni nümayəndələri üçün 21 yer, rus nümayəndələri üçün isə 10 yer ayrılmasına baxmayaraq onlar Azərbaycan Parlamentinin ilk iclasının açılışında iştirak etməmişlər. Rus Milli Şurası 1919-cu il yanvarın 31-dən, ermənilər isə həmin ilin fevralından Parlamentin işinə qatılmışlar.

Onu da qeyd edək ki, Parlamentin yaradılması haqqında qəbul edilmiş qanunda Parlamentin 120 nəfərdən ibarət olması nəzərdə tutulmuşdusa da, müxtəlif səbəblərdən Parlament heç vaxt bu tərkibdə fəaliyyət göstərməmişdi.

1919-cu ilin axırlarına yaxın Parlamentdə 11 müxtəlif partiya fraksiyası və qrupunu cəmi 96 deputat təmsil edirdi. Parlamentdəki siyasi partiyalar və qurumların qüvvələr nisbəti aşağıdakı kimi idi: «Müsavat» və bitərəflər fraksiyası – 38 nəfər, «İttihad» – 13 nəfər, «Əhrar» – 6 nəfər, «Sosialistlər» bloku – 13 nəfər, partiyasızlar – 4 nəfər, müstəqillər – 3 nəfər, «Rus-slavyan cəmiyyəti» fraksiyası – 5 nəfər, erməni fraksiyası – 5 nəfər, «Daşnaksütyun» fraksiyası – 6 nəfər, «Azlıqda qalan millətlər» fraksiyası – 4 nəfər.

Azərbaycan Cümhuriyyəti Parlamentində fəaliyyət göstərən partiya fraksiya və qrupları onun iclaslarında həm də öz partiya və qruplarının mənafeyi və ideologiyası baxımından çıxış edirdilər. Onların arasında ən iri və aparıcı partiya Azərbaycan xalqının milli mənafelərinin daşıyıcısı və parlamentdə çoxluğu təşkil edən Müsavat partiyası idi.

Parlamentdə 11 komissiya fəaliyyət göstərirdi. Bunlar aşağıdakılar idi: maliyyə-büdcə, qanunvericilik təklifləri, mandat, hərbi, aqrar məsələlər, sorğular, təsərrüfat-sərəncamverici, ölkənin istehsal qüvvələrindən istifadə üzərində nəzarət, redaksiya və fəhlə məsələləri üzrə komissiyalar, habelə Müəssislər Məclisinə seçkilər keçirmək üzrə mərkəzi komissiya.

17 aylıq fəaliyyəti dövründə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 145 iclası keçirilmişdir. İlk iclas 1918-ci il dekabrın 7-də, son iclas isə 1920-ci il aprelin 27-də olmuşdur. Yetərsay olmadığı üçün bu iclaslardan 15-i baş tutmamışdır. Qalan 130 iclasdan ikisi tarixi – 1919-cu il mayın 28-də və sentyabrın 15-də Azərbaycanın istiqlalının və Bakının azad edilməsinin birinci ildönümləri münasibəti ilə; dördü təntənəli – 1919-cu il martın 12-də və 1920-ci il martın 12-də böyük rus inqilabının 2-ci və 3-cü ildönümləri münasibəti ilə; 1919-cu il iyunun 27-də Azərbaycanla Gürcüstan arasında hərbi əməkdaşlıq haqqında müqavilə bağlanması və 1920-ci il yanvarın 14-də Paris sülh konfransının iştirakçısı olan dövlətlər tərəfindən Azərbaycanın müstəqilliyinin de-fakto tanınması münasibəti ilə, ikisi isə fövqəladə – 1918-ci il dekabrın 20-də Ermənistanın Gürcüstana müharibə elan etməsi və Andranikin Zəngəzur və Qarabağda törətdiyi hadisələr ilə əlaqədar və 1920-ci il martın 17-də Gürcüstanla Azərbaycan arasında bağlanmış iqtisadi əməkdaşlıq haqqında müqavilələrin təsdiqi münasibəti ilə keçirilmiş iclaslar idi. Qalan iclaslar ölkənin daxili və xarici siyasəti, iqtisadiyyat və maliyyə məsələləri, qanunvericilik aktlarının müzakirəsi və qəbulu, məhkəmə islahatı, ordu quruculuğu və s. məsələlərin müzakirəsinə həsr edilmişdir. Parlamentdə müzakirəyə çıxarılan qanunlar, bir qayda olaraq, yalnız üçüncü oxunuşdan sonra qəbul edilirdi.

Öz fəaliyyəti dövründə Azərbaycan Cümhuriyyəti Parlamentinin müzakirəsinə 270-dən çox qanun layihəsi çıxarılmışdır ki, onlardan da 230-a yaxını qəbul olunmuşdur. Parlamentin fəaliyyəti bilavasitə onun nizamnaməsi rolu oynayan «Azərbaycan parlamentinin nakazı (təlimatı)» ilə tənzimlənirdi.

«Parlament nakazı (təlimatı)» əsasında ilk gündən Parlamentin iclasları məcburi surətdə yalnız Azərbaycan dilində aparılırdı. Ancaq başqa millətlərin

nümayəndələri rus dilində danışa bilərdilər. 17 aylıq fəaliyyəti dövründə Azərbaycan Cümhuriyyəti Parlamentinin keçirdiyi 145 iclasda bu prinsip iki dəfə pozulmuşdur. Birinci dəfə 1919-cu il fevralın 25-də hərbi nazir Səməd ağa Mehmandarovun şəxsi xahişi ilə Parlament onun rus dilində danışmasına razılıq vermişdi. İkinci dəfə isə 1919-cu il iyulun 7-8-də Qara bəy Qarabəyov və Şəfi bəy Rüstəmbəyov Şuşa qəzasının Qeybalı kəndində həmin il iyunun 4-də baş vermiş hadisələrlə bağlı erməni deputatları İ.Xocayan və P.Çubaryan ilə bir-birlərinin məruzələrini başa düşmək məqsədilə Parlamentin icazəsi ilə rus dilində məruzə etmişlər.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin iş prinsipindən bəhs edərkən qeyd olunmalıdır ki, iclasların keçirilməsi üçün yetərsaya da ciddi şəkildə əməl olunurdu. İlk dəfə olaraq 1919-cu il yanvarın 16-da yetərsay məsələsi Parlamentin 8-ci iclasında geniş müzakirəyə səbəb olur. Yetərsay üçün ümumi bir rəqəmin müəyyən edilməsinin müzakirəsi zamanı Parlamentin baş katibi Mehdi bəy Hacınski Parlament üzvlərinin bir qismi hökumətə daxil olduğu, bir qismi isə Paris sülh konfransına getdiyi üçün yetərsayın 33 nəfərdən ibarət müəyyən olunması təklifini verir. Məmmədəmin Rəsulzadə həmin günə qədər Parlamentdə faktik olaraq neçə nəfər üzvün olduğunu soruşur. Sədrlik edən Həsən bəy Ağayev cavab verir ki, bu günə qədər Parlamentin 82 nəfər üzvü var. Müzakirə nəticəsində yetərsay parlament üzvlərinin 50 faizi qədər, yəni 41 nəfər müəyyən edilir.

İlk dəfə olaraq 1919-cu il fevralın 18-də Parlamentin 15-ci iclası zamanı məsələ qalxır ki, «yetərsay yoxdur». Buna cavab olaraq sədr Həsən bəy Ağayev deyir: «Rica edirəm, sakit olasınız. Deyirsiniz ki, kvorum yoxdur. Yoldaşlarınızı buraxmayın çıxıb getsinlər. Papiros çəkmək bəhanəsi ilə dişarı çıxıb gedirlər, işlər də tökülüb qalır.»

Saymaq nəticəsində müəyyən olunur ki, həmin iclasda cəmi 35 nəfər Parlament üzvü iştirak edir və yetərsay yoxdur. Yetərsay olmadığı üçün sədr iclası bağlı elan edir.

Yuxarıda deyildiyi kimi, 17 aylıq fəaliyyəti müddətində yetərsay olmadığı üçün parlamentin 15 iclası keçirilməmiş, lakin onlar üçün protokollar tərtib olunmuşdur.

Həm tarix üçün, həm də bu günümüz üçün əməli əhəmiyyəti olduğunu nəzərə alaraq yetərsay olmadığından keçirilməmiş iclasların protokollarından bəzi nümunələri qeyd etmək yerinə düşərdi.

Məsələn, 1919-cu il 10 aprel tarixli protokolda oxuyuruq: «**Parlamentin sədri.** İclası açıram. Lakin kvorum olmadığına görə məclisi davam etdirə bilməyəcəyəm. Hərçənd 41 nəfərdən artıq adam yazılıbdır, lakin burada yoxdurlar. Bilmirəm haradadırlar. Mənə belə gəlir ki, bəlkə otaqlardadırlar. Kyüsterə: gedin bir baxın.

(Kyüster gedib baxandan sonra qayıdır.)

**Kyüster.** Dəhlizdə bir dəstə dayanıb söhbət edirlər.

**(Səs-küy, səslər.** Məclisə hörmətsizlikdir, bağlayın!).

**Rəis.** Belə şey olmaz ki…

**Səslər.** İclası qapayın, qapayın!

**Rəis.** Kvorum olmadığına görə iclas qapanır.»

Yaxud həmin il aprelin 21-də yetərsay olmadığından keçirilməyən iclas üçün tərtib olunmuş protokoldan:

«İclas açılır 10.30 dəqiqədə.

Rəis – Həsən bəy Ağayev.

Katib – Mehdi bəy Hacınski.

Həsən bəy Ağayev iclası açır.

**M.Ə.Rəsulzadə** (yerindən). Kvorum varmı?

**Rəis.** Kvorum yoxdur. Hərçənd məclis nakazda göstərilən vaxtdan gec açılır, amma kvorum yoxdur. Cümlətanı 14 adam yazılıbdır. Ona görə iclası qapamağa məcburam...

Saat 11.25 dəqiqədə məclis qapanır.»

İyunun 12-nə, iyulun 23-nə və avqustun 4-nə təyin olunmuş Parlament iclasları da yetərsay olmadığı üçün keçirilməmişdir. 1919-cu il 12 iyun tarixli 47 saylı protokolda oxuyuruq:

«Rəis iclası açdı. Lakin siyahını 41 üzv imza etdiyi halda iclasda 34 üzv olduğu üçün 5 dəqiqəlik tənəffüs elan etdi. Tənəffüs vaxtı bitdi. Siyahını imza edənlərdən Əbilov İbrahim, Malxazyan, Çubaryan, Papyan, Ter-Azaryan, Balayans iclasda mövcud olmadıqları üzrə kvorum düzəlmədi və rəis iclası qapamağa məcbur oldu.»

1919-cu il iyulun 23-də yetərsay olmadığı üçün keçirilməmiş iclasın 53 saylı protokolunda oxuyuruq: «Rəis – «Keçən dəfə iclas axşama təyin edildiyindən mən zənn edirdim ki, daha məbuslar vaxt müəyyəndə gələrlər. Təyin edilən vaxtdan yarım saat keçdisə də, yenə kvorum düzəlmədiyi üçün iclası qapamağa məcburam» – deyib iclası qapadı.»

Bu gətirdiyimiz misallardan göründüyü kimi, o vaxtlar da onlara göstərilmiş etimaddan sui-istifadə edən adamların tapıldığının da şahidi oluruq. Xüsusilə iyunun 12-ə təyin edilmiş iclasda adlarını qeyd etdirərək çıxıb getmiş altı deputatdan beşinin erməni mənşəli olması çox şeydən xəbər verir. Onlar Parlamentdə iştirak etməyə razı olmuş, hətta iki erməni fraksiyası yaratmışdılarsa da, imkan düşdükcə onun işinə mane olmağa çalışmışlar.

Azərbaycan Parlamentinin birinci iclasında Fətəli xan Xoyski öz hökumətinin fəaliyyəti haqqında hesabatdan sonra hökumətinin istefasını elan edir. Yeni, sayca 3-cü hökumətin təşkilini Parlament yenə də Fətəli xan Xoyskiyə tapşırır. Lakin o, yeni hökumətin təşkilindən imtina edir. Parlament rəhbərliyinin bir neçə dəfə təkidli xahişindən sonra dekabrın 26-da o, yeni hökumət təşkil edir və onun proqramını elan edir. «İttihad» fraksiyası istisna olmaqla bütün parlament fraksiyaları Fətəli xan Xoyski hökumətinə və onun proqramına etimad göstərir.

Lakin Fətəli xan Xoyski hökumətinin fəaliyyətinin ilk günlərindən başlayaraq «İttihad» və «Sosialistlər» fraksiyaları Parlamentdə onun

hökumətinin əleyhinə çox kəskin çıxışlar edir, demək olar ki, ölkədə baş verən bütün neqativ hallarda Fətəli xan Xoyski hökumətini təqsirli bilirlər.

Artıq 1919-cu il yanvarın 27-də keçirilən Parlamentin 10-cu iclasında «İttihad» fraksiyasının sədri Qara bəy Qarabəyov ölkədə neft, taxıl və Hacı Zeynalabdin Tağıyevin bez fabrikində istehsal olunan bez və çit möhtəkirliyinin baş alıb getdiyini, həmin fabrikdə bezin bir metri 5 manat olduğu halda möhtəkirlərin onu müxtəlif yollarla fabrikdən çıxararaq bir yerdən 12 manatdan satdığını, alverçilərin isə həmin bezi alaraq bazarda camaata 15-17 manata sırıdığını qeyd edir və hökumətin hara baxdığını soruşur.

1919-cu il fevralın 4, 5 və 6-da keçirilən Parlament iclaslarında əsasən «İttihad» və «Sosialistlər» fraksiyalarının verdiyi sorğular geniş müzakirəyə səbəb olur. Yenə də Q.Qarabəyov neft və taxıl möhtəkirliyi ilə bağlı hökuməti kəskin tənqid edir. Ona cavab verən Məmmədəmin Rəsulzadə bildirir ki, cəmi 5 həftə fəaliyyət göstərən hökumətdən bütün işləri dəyişdirməsini tələb etmək o deməkdir ki, insandan onun imkanı xaricində şeylər tələb edilərsə, şübhəsiz, heç bir nəticə alınmaz. Bu qısa müddətdə hökumət nə lazımdırsa, onu etmişdir. O, sözünə davam edərək deyir: ***«Siyasi firqələr hər yerdə gördüyü, eşitdiyi nizamsızlıq və haqsızlığı hökumətin üstünə atır və onu tənqid edirlər. Fəqət mən sual edirəm: hökuməti fəaliyyətsiz adlandıran siyasi firqələr əllərini döşlərinə qoyub vicdan rahatlığı ilə deyə bilərlərmi ki, onlar xalqın mənafeyi üçün vicdanla işləyirlər?… Bu firqələr camaat üçün nə etmişlər? Tiflisdə oturaraq qəzet çıxarmaq asandır, kənardan tənqid etmək mümkündür. Amma xalq içərisinə getmək, xalqla işləmək çətindir.»***

Bu üç gündə keçirilmiş Parlament iclaslarında çıxış edən Səmədağa Ağamalıoğlu, Qara bəy Qarabəyov, Əhməd Cövdət Pepinov, Aslan bəy Qardaşov, Hacı Kərim Sanılı, İbrahim Əbilov və başqaları hökuməti kəskin tənqid edirlər.

Onlara cavab verən hökumətin sədri Fətəli xan Xoyski öz nitqində deyir: «O günlər ki, siz neçə dəfə mənə müraciətlə bu hökumətin təşkilinə məni vadar etdiniz, mən birinci bəyanatımda sizə demişdim ki, belə xətərli bir zamanda heç kəs cəsarət edib hökuməti ələ ala bilməz. O vaxt mən dedim ki, sizin sidqi dil ilə hökumətin arxasında durub kömək edəcəyinizə ümid oluruq, əgər gördüm ki, hökumətə sədaqət yoxdur, bir dəqiqə də hökumət başında durmaram».

Sonra o, öz nitqində qeyd edir ki, ***bir var sorğu ilə hökumətə kömək edilsin, onun nəzərdən qaçırdıqları yada salınsın – o vaxt hökumət belə sorğulardan inciməz. Amma bir sorğu da var ki, zəhərli, bədxah sorğudur. Bu sorğu hökumətə badalaq vurmaq, biz soxmaq deməkdir.*** Mənim yoldaşlarım burada puldan ötərimi, yaxud olmayan ixtiyardan ötərimi əyləşmişlər? Daha sonra o, üzünü parlament üzvlərinə tutaraq soruşur: «Aya, bu müqəssirlər skamyasıdırmı ki, hərə gəlib bir söz desin, bir ləkə yapışdırsın? Aya, bizim tərəfimizdən böyük fədakarlıq, millətə böyük xidmət

deyilmi ki, öz sələmətliyimizi, bu saat bazarlarda danışılan təmiz adımızı və rahatlığımızı millətə fəda edərək bu skamyalarda əyləşmişik. Hərə gəlib bir söz deyir, hətta ixtiyarımız yoxdur onlardan bir qədər nəzakətlə davranmağı tələb edək.»

O dövrdə Azərbaycanın necə təhlükəli bir vəziyyətdə olduğundan, hökumətin başlıca vəzifəsinin Azərbaycanın müstəqilliyini qoruyub saxlamaqdan ibarət olduğundan danışan Fətəli xan Xoyski deyir: ***«Siz bunu bilirsiniz ki, Azərbaycanın istiqlalı hər dəqiqə təhlükədədir. Biliniz, indi elə vaxtdır ki, nəinki bez və çit, hətta elə əhval çıxa bilər ki, Azərbaycan belə qalmaz, istiqlalımız gedər. Belə mühüm zamanlarda hökumətin işlərini Tağıyev fabrikasının bezi ilə ölçmək olarmı? Xarici siyasət o qədər hücum edir ki, bu halda mümkündürmü ki, hökumət gedib sənin bezlərini ölçsün? Azərbaycanın başına bir bəla gələrsə, onda bez nəyə gərək, çit və neft nəyə gərək olar?»***

Nitqinin sonunda F.Xoyski deyir ki, mənim qulağıma yetişdiyinə görə, Parlament üzvlərindən birisi digərinə deyibdir ki, hətta Biçeraxov və Denikinin köməyi ilə də olsa, bu hökuməti yıxacağam. Lazım gəlsə o adamın adını da deyə bilərəm. Sonra o sual edir: «Aya, bilirsiniz Biçeraxov kimdir? Denikin kimdir? Bunlar o adamlardır ki, Azərbaycanın adını da çəkməyə qoymazlar. ***Qoyun belə qorxulu bir vaxtda dalğalar arasında bulunan qayığımızı bir tövr salamat sahilə çıxaraq ki, məqsədimizə müvəffəqiyyətlə nail ola bilək.»***

Parlamentin sonrakı iclaslarında da yuxarıda göstərilən şəxslər tərəfindən Fətəli xan Xoyski hökuməti yenə kəskin tənqid olunur. Bunlara dözməyən F. Xoyski fevralın 25-də istefa verir, yeni, dördüncü hökumətin təşkili işi Nəsib bəy Yusifbəyliyə tapşırılır və o, aprelin 14-də keçirilən Parlamentin 29-cu iclasında özünün hökumət proqramını və hökumətin yeni üzvlərini Parlamentə təqdim edir.

Parlamentdə tez-tez «Sosialistlər» bloku tərəfindən qaldırılan məsələlərdən biri də fəhlə-kəndli məsələsi, kəndlilərin torpaqla təmin olunması və torpaq məsələsinin ədalətli şəkildə həlli ilə bağlı idi. Məhz Rusiya bolşeviklərinin təsiri ilə Azərbaycanda, xüsusilə Bakıda tez-tez fəhlə tətilləri keçirilirdi. Parlamentin, demək olar, elə bir iclası olmurdu ki, «Sosialistlər» bloku orada fəhlə-kəndli məsələsini qaldırmasın.

Hətta 1919-cu il mayın 6-da keçirilən Parlament iclasında gündəlikdə duran məsələlər təxirə salınaraq həmin gün Bakıda keçirilən fəhlə tətili ilə bağlı məsələ müzakirə edilir. Bu barədə ilk çıxış edən Məmmədəmin Rəsulzadə deyir: «Bu tətili elan edən fəhlə konfransı adından sui-istifadə edən təşkilatdır. Onlar bu tətilin məqsədinin iqtisadi tətil olduğunu deyirlərsə də, fəqət onların məqsədlərinin nədən ibarət olduğu kimsədən ötəri gizli deyil.»

Sonra o, qeyd edir ki, iqtisadi tələblər bəhanəsi altında sosialistlər tələb edirlər ki, Həştərxana yol açılsın, Rusiyaya neft göndərilsin, nəticədə isə Rusiyanı burada «hakim» etsinlər. Sosialistlərin bu dövrdə ölkədə və

Parlamentdə yeritdikləri siyasətin mahiyyətindən bəhs edən Məmmədəmin Rəsulzadə deyir: ***«Sosialistlərlə bizim fərqimiz ondadır ki, onlara şuluqluq və ixtilaf lazımdır, bizə isə hürriyyət və istiqlal.»***

Məmmədəmin Rəsulzadə Sovet Rusiyası ilə münasibətlərdən bəhs edərkən sosialistlərdən soruşurdu: «Əvvəla, görək Sovet hökuməti bizim istiqlalımızı tanıyırmı? Saniyən, daxili işlərimizə qarışmayacaqdırmı? Zaqafqaziya üzərində hakim olmaqdan qəti imtina edəcəklərmi? Rusiya hakimiyyətini burada tətbiq etmək istəməyəcəklərmi?»

Sonra o, qeyd edirdi ki, əgər bu şərtlərimiz qəbul olunarsa, onda biz Sovet Rusiyasına neft verərik. Lakin Çurayevlər, Mirzoyanlar, Anaşkinlər bu tətillərdən başqa məqsədlər üçün istifadə etməyə çalışırlar.

Həmin iclasda çıxış edən baş nazir Nəsib bəy Yusifbəyli öz nitqində bildirir ki, bu tətillər iqtisadi tətillər deyil, siyasi tətillərdir. Onlar «hər vasitə ilə Azərbaycanı Rusiyaya ilhaq etmək istəyirlər.»

Emosional və Azərbaycan dilinə çoxlu rus sözləri qataraq çətinliklə danışan Səmədağa Ağamalıoğlu onlara cavab verərək deyir: «Fəhlələr sizə zakonnu saldat deyillər ki, dədənizin qulu deyillər ki, (ümumi gülüş) istəmirlər, işləmirlər, vəssalam». Abasqulu Kazımzadə isə öz çıxışında bildirir ki, tətilin təşkilatçıları bu gün bizim zəhmətkeşlərimizə «bir əldə şirin alma və o biri əldə zəhər təklif edirlər… Sosialistlərin sözünü təhlil etdikdə anlaşılır ki, bizi bolşeviklərə basdırmaq istəyirlər.»

1920-ci il martın 8-də keçirilən Parlamentin başqa iclasında inflyasiyanın artması ilə bağlı fəhlə və qulluqçuların maaşlarının 80 faiz artırılması məsələsi müzakirə olunarkən sosialistlərdən Əliheydər Qarayev, Aslan bəy Səfikürdski, Səmədağa Ağamalıoğlu və başqaları yenə də fəallıq göstərirlər. Bu o vaxt idi ki, artıq həmin ilin fevralında Azərbaycan K(b)P yaradılmış, hakimiyyəti ələ almaq məsələsini bolşeviklər qarşılarında başlıca vəzifə kimi qoymuşdular. Hətta Parlamentin iclasında belə Ə.Qarayev bu məqsədlərini gizlətmir və yaxın zamanlarda hakimiyyəti öz əllərinə alacaqlarını bəyan edirdi. Parlamentin həmin iclasındakı çıxışında o demişdi: «Burada dedilər əlac. Əlacı sizə inqilab göstərəcək. Nə qədər ki, kapitalistlər, sərvətdarlar iş başındadır, heç bir yaxşılıq olmayacaqdır… Hökumət və məmləkəti bu bəladan qurtarmaq üçün fəhlə-kəndli hökuməti lazımdır. Siz hökumət başından çəkilib hökuməti fəhlə və kəndlilərə veriniz, onda işlər düzələcək.»

Parlamentin iclaslarında vaxtaşırı qaldırılan məsələlərdən biri də varlı balalarının ordudan yayınması problemi idi.

1919-cu il fevralın 4-də keçirilən Parlamentin 12-ci iclasında ordunun təminatından danışarkən H.K.Sanılı demişdi: «Biz Qafqazda hamıdan zəngin olduğumuz halda əsgərlərimiz necə saxlanılır? Hətta bir çoxu çörəyi öz evində yeyir. Bəs necə olur, pullar kimin cibinə girir ki, əsgərlərimizə çatmır.»

Həmin iclasda çıxış edən Qara bəy Qarabəyov isə demişdi: «Dövlətlilər əsgər getmirlər, rüşvət verib xilas olurlar. Kasıblar, sahibsizlər əsgər alınırlar.»

Həmin il fevralın 25-də hərbi məsələlərə dair Parlament iclasında çıxış edən hərbi nazir Səməd ağa Mehmandarov bu haqda belə demişdir: «Hər yerdə kasıblar əsgər alınırlar. Heç yerdə qoşun içində bir dövlətli, ya bir bəy, ya xan oğlu görmədim.»

Hərbi çağrışla bağlı 1919-cu il aprelin 15-də baş nazir Nəsib bəy Yusifbəyliyə yazdığı məktubunda S. Mehmandarov bu haqda rəsmən məlumat vermişdi.

1919-cu il dekabrın 22-də N. Yusifbəylinin təşkil etdiyi ikinci hökumət və onun proqramı ilə bağlı məsələnin müzakirəsi zamanı çıxış edən Q. Qarabəyov bu məsələyə yenidən toxunur: «Əxz-əsgər məsələsində, əvvəlki kimi indi də xəyanətlər davam edir. Bu bir alver yeri olmuşdur. Hər kəs beş min, on min verirsə, əsgərliyə getməyəcəkdir. Bu saat biz tanıdığımız bir çox doktorlar var ki, milyonlarca paralar alıb, minlərcə əsgəri azad edir. Kim dövlətli isə, kimin tanışı varsa, o, əsgər getmir.»

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin öz fəaliyyəti dövründə ən çox məşğul olduğu məsələlərdən biri də ermənilər və Ermənistan Respublikası ilə münasibətlər və ermənilərin ərazi iddiaları ilə bağlı məsələlər idi.

Məlum olduğu kimi, Azərbaycan Parlamenti haqqında Azərbaycan Milli Şurası tərəfindən qəbul olunmuş qanunla Azərbaycan Parlamentində ermənilər üçün 21 yer ayrılmışdı. Amma Parlament fəaliyyətə başlayarkən onlar Parlamentin işinə qatılmadılar, Rus Milli Şurası ilə birlikdə onu boykot etdilər. 1919-cu ilin fevralından isə onlar Parlamentin işinə qatılaraq orada iki fraksiya – erməni fraksiyası və daşnak fraksiyası yaradırlar. Ancaq erməni deputatlar Azərbaycan Parlamentində fəaliyyətləri zamanı parlament tribunasından yalnız öz siyasi məqsədləri üçün bir vasitə kimi istifadə edirlər. Parlament iclaslarının birində (7 iyul 1919) daşnak P.Çubaryan deyəndə ki, «biz erməniləri bərabər hüquqlu vətəndaşlar hesab edin» Q.Qarabəyov ona belə cavab vermişdi: «Bizim aramızda hansı bərabərlikdən söhbət gedə bilər ki, bizim bütün çağırışlarımıza, bizim bütün təkliflərimizə baxmayaraq, sizə verilmiş 21 nümayəndə yeri əvəzinə, burada sizin cəmi 8 nəfər nümayəndəniz oturub. Siz özünüz bunu istəmirsiniz. Erməni nümayəndələrinin yalnız kiçik bir hissəsi burada bu xitabət kürsüsündən istifadə edir ki, biz müsəlmanları söysün, təhqir etsin. Digər hissəsi isə müsəlmanları əldə silah qarşılayır».

1919-cu il iyunun 16-da keçirilən Parlamentin 48-ci iclasında erməni fraksiyası Bakıdakı erməni kilsəsinin anbarında silah saxlanılması ilə bağlı axtarış aparılmasına qarşı öz etirazlarını bildirərək, ermənilərin dini və milli heysiyyətlərinə toxunulduğunu iddia edir. Onlara cavab verən baş nazir Nəsib bəy Yusifbəyli bildirir ki, erməni fraksiyasının sorğusunda elə qələmə verilir ki, guya erməni millətinin dini heysiyyəti təhqir olunub: «Mən bunu rədd

edirəm. Əlbəttə, bir yerdə şübhəli şeylər olsa, polisin haqqı var ki, oranı yoxlasın.»

Həmin il iyunun 23-də keçirilən Parlamentin 50-ci iclasında erməni fraksiyasının tələbi ilə yenə də Bakıda erməni kilsəsindəki hadisə ilə bağlı məsələ müzakirəyə çıxarılır. Çıxış edən erməni deputatlardan P.Çubaryan, A.Malxazyan, A.Papyan, E.Taqiyonosov və başqaları yenə də Azərbaycan hökumətini ermənilərin dini heysiyyətinə toxunmaqda təqsirləndirirlər. Yenə də baş nazir Nəsib bəy Yusifbəyli onlara ətraflı cavab verir. Bu məsələnin müzakirəsi ilə əlaqədar çıxış edən azərbaycanlı deputat Mustafa Mahmudov isə öz nitqində deyir ki, erməni fraksiyasının verdiyi dörd sualdan biri də budur ki, guya axtarış zamanı kilsəyə ehtiramsızlıq olub. «Kamali-məmuniyyətlə erməni fraksiyasını sakit edə bilərəm ki, müsəlman milləti kilsəyə heç vaxt ehtiramsızlıq etməyib və həmişə onlara məscid nəzəri ilə baxıblar. Bunu sübut üçün deyirəm ki, buyursunlar Şamaxı tərəfinə, baxıb görsünlər nə qədər erməni kəndi dağılıbsa, kilsələri salamatdır. Amma müsəlman kəndlərində bir məscid də olsun, qalmamışdır. Əgər ehtiramsızlıqlar varsa, o ancaq bu sualı verən millət tərəfindən olunur.»

Parlamentin 1919-cu il 7-8 iyul tarixli iclasları isə həmin il iyunun 4-də Şuşa qəzasının Qeybalı kəndində baş vermiş hadisələrə həsr olunmuşdur. Belə ki, həmin gün erməni əhalisindən ibarət Qeybalı kəndinə hücum olmuş, erməni evlərinin bir qismi dağıdılmış, əhalisinin bir hissəsi qətlə yetirilmişdir. Bundan məharətlə istifadə edən ermənilər yenidən bütün dünyada təbliğat maşınını işə salırlar. Hətta bu işin təşkilini Qarabağ general-qubernatoru Xosrov bəy Sultanovun adı ilə bağlamaq istəyirlər. Bu hadisə ilə bağlı Azərbaycan hökuməti 4 nəfər parlament üzvündən ibarət komissiya yaradır. Buraya 2 nəfər erməni-daşnak – P.Çubaryan və İ.Xocayev, 2 nəfər isə azərbaycanlı – Q.Qarabəyov və Ş.Rüstəmbəyli daxil edilirlər. Onlar Qarabağa gedərək yerindəcə məsələ ilə tanış olurlar. Lakin Bakıya qayıtdıqdan sonra ümumi nəticəyə gəlib vahid fikri əks etdirən bir məruzə hazırlaya bilmirlər. Ona görə də hər nümayəndə ayrılıqda öz məruzəsini hazırlayır. Parlamentin 1919-cu il iyul ayının 7, 8 və 17-də keçirilən iclaslarında bu məsələ müzakirə edilir. Qarabağa göndərilmiş 4 nümayəndənin məruzəsi ayrı-ayrılıqda dinlənilir. Erməni deputatları Qarabağda və Qeybalıda baş vermiş hadisələrin bütün günahını azərbaycanlıların və general-qubernator X.Sultanovun üstünə yıxmaq istəyirlər. Buna cavab olaraq Q.Qarabəyov öz çıxışında deyir: «Azərbaycanlılar 20-30 dəfə çox zərər çəkmişlər, nəinki ermənilər. Bu məsələ o qədər sadə, o qədər aydındır, çətin ki, kimsəni inandırmaq lazım gəlsin. Sizin hər yerdə qəzetləriniz var, adamlarınız var, pulunuz var. Bunların köməyi ilə siz Avropada ictimai fikri bizə qarşı yönəldə bilirsiniz. Bundan sonra biz də yazacağıq.»

Bu məsələ barəsində iyulun 17-də çıxış edən baş nazir Nəsib bəy Yusifbəyli deyir ki, məruzələrdən belə nəticə çıxır, guya Qarabağda «iki növ adamlar vardır. Birisi zalım, o birisi məzlum. Zalımlar onlardır ki, orada olan

məzlumlara son dərəcə zülm etmişlər. Zalımlar müsəlmanlar, məzlumlar isə ermənilərdir. Guya ermənilər tərəfindən heç bir hərəkət vaqe olmamışdır.» O, qeyd edir ki, məruzələr elə bir tərzdə qurulmuşdur ki, erməni tərəfi hücum edir, müsəlman tərəfi müdafiə olunur. Elə qələmə verilir ki, guya Qeybalı kəndindən olan müsəlmanların evləri dağılmamışdır.

1920-ci il martın 22-də Novruz bayramı günü Şuşa qalasının yaxınlığında olan Şuşa kəndindən verilən top atəşinin siqnalı ilə Şuşa şəhərində, Xankəndində, Şuşa, Cavanşir və Zəngəzur qəzalarında olan erməni əhalisi eyni vaxtda qiyam qaldırmışdır. Qiyam nə qədər böyük bir miqyasda hazırlansa da, orada olan Azərbaycan ordusunun əsgərləri ermənilərin üsyanını yatıra bilir. Ermənilər yalnız Əsgəran qalasını tuta bilirlər.

1920-ci il aprelin 1-də keçirilən Azərbaycan Parlamentinin 137-ci iclasında bu məsələ barəsində daxili işlər naziri Mustafa bəy Vəkilov məlumat verir. O, qeyd edir ki, ermənilər bu üsyana bir neçə aydan bəri böyük hazırlıq görmüşlər.

Xalqımız üçün taleyüklü ciddi məsələnin müzakirəsi zamanı «Sosialistlər» fraksiyasından olan deputatlar, xüsusilə Ə.Qarayev ermənilərin Qarabağ və Zəngəzurdakı qiyamlarını bir tərəfə qoyub onun günahlarını hökumətin üzərinə yıxır. O, qeyd edir ki, bu gün erməni-müsəlman davasına xitam verəcək bir qüvvə varsa, o da Azərbaycan zəhmətkeşləridir. Azərbaycan zəhmətkeşlərinin mənafeyini müdafiə edə bilən bir qüvvə varsa, o da qırmızı Rusiya qoşunlarıdır. Bu gün biz ciddi surətdə qırmızı ordu ilə danışığa girməliyik. Fəqət bu danışığı bu hökumət bacarmayacaqdır. Çünki onun əli Əli Bayramovun qanına boyanmışdır. Onun bu çıxışı məclisdə böyük etiraza səbəb olur.

Əli Bayramovla bağlı daxili işlər nazirinin müavini Şəfi bəy Rüstəmbəyov məlumat verir ki, bir neçə gün bundan əvvəl polis bir zaqovor və üsyan qaldırmaq planı aşkar etmişdi. Həmin planda üsyanla hökuməti yıxmaq, Parlamenti dağıtmaq, burada Şura hökuməti elan etmək nəzərdə tutulur. O zaqovora imza edənlərin biri də Əli Bayramovdur. Habelə o kağızlarda Parlament üzvü Əliheydər Qarayev cənablarının da imzası var. Bu vaxt iclas salonunda «Ar olsun! Eyib olsun! Rədd olsun xain!» nidaları eşidilir.

Şəfi bəy qeyd edir ki, polisə həmin şəxslərin tutulması əmr olunmuşdu. Polis axtarsa da, Əli Bayramovu tapa bilməmişdir.

Bu məsələ ilə əlaqədar çıxış edən Məmmədəmin Rəsulzadə deyir: ***«…Qarabağda Azərbaycan istiqlal və hürriyyətinin düşməni olan bir ünsür tərəfindən fəsad və üsyan qaldırılmışdır. Bu fəsad qarşısında hökumət və bütün məmləkət əmri-vaqe qarşısında bulunaraq mübarizə edir. Burada digər bir sui-qəsdin şəriki, Qarabağda deyil, Bakının özündə, Azərbaycanın mərkəzində böyük bir üsyan qaldırmaqda iştirak edən birisi, bir asi burada deyir ki, nə qədər siz biz asilər ilə üzləşməmisiniz, Qarabağ asiləri ilə mübarizə edə bilməyəcəksiniz, bundan sonra bu üsyanı yatırmaq üçün hökuməti, ümumi idarəni biz asilərin əlinə verməlisiniz. Əfəndilər! Üsyana***

***çağıranın adı Əliheydərmi olsun, ya Vartazarmı olsun, ikisi də asidir. Qarabağdamı və ya Bakıdamı çıxışda bulunsun, ikisi də birdir.»***

Sonra M.Rəsulzadə bildirir: «Bizə deyirlər ki, siz ermənilərlə mübarizə edə bilməzsiniz, bu mübarizəni Azərbaycan davam edə bilməz, bunun üçün Sovet Rusiyasının qırmızı ordularını buraya gətirməlisiniz. Bu nədir? Bunu söyləyən əcəba kimdir? Bunu deyən Azərbaycan xalqının nümayəndəsidir və yaxud Məclisi Məbusan üzvü sifətilə guya bizimlə Azərbaycanın müqəddəratı məsələsində şərik görünən Rusiya vəkilidir? Öz içərimizdən bizə ultimatum verir, bizi qırmızı Rusiyanın orduları ilə qorxudur?»

Bu zaman salondan «Ar olsun!» nidaları eşidilir. M.Rəsulzadə sözünə davam edərək deyir: «Bumudur vətənpərvərlik? Böyləmi danışar bir Cümhuriyyət Parlamentinin üzvü? Böyləmi sözlər söylər bir xalq nümayəndəsi?»

Sonra sözünə davam edən natiq üzünü Ə.Qarayevə tutaraq bildirir ki, rusların pulu ilə bombalar alıb bizi o vasitə ilə hesablaşdırmaq istəyirsinizsə, qoyun millət öz işini görsün. Əgər ruslar sənin kimilərin əqli ilə Şərq məsələlərini həll edəcəklərsə, onda mən onlara inanmıram.

Sonra yenə söz alan Ə.Qarayev «Azərbaycan istiqlalının yeganə bir müdafiəçisi varsa, o da Azərbaycan kommunistləridir» deyir. Daha sonra o, bildirir ki, «...Rusiyanın qırmızı qoşunu Azərbaycan sərhədlərini keçməyəcək və Azərbaycanı bərbad etməyəcəkdir. Onlar Azərbaycan füqareyi-kasibəsinin əlində tutduğu bayrağa böyük qiymət verirlər.»

Azərbaycan Xalq Cümhuriyyətini tanıması haqqında Azərbaycan hökumətinin təkidli müraciətlərinə qarşı Sovet Rusiyası hökumətinin susduğu bir vaxtda Ə.Qarayevin bu cür çıxışına M. Rəsulzadə haqlı olaraq belə cavab vermişdi: «Bunu biz səndən deyil, Çiçerinin ağzından eşitmək istəyirik. Sən hələ uşaqsan.»

Qarabağda ermənilərin törətdikləri vəhşiliklər müzakirə olunarkən başlıca məsələ bir tərəfdə qalır. Hakimiyyət və partiyalar arasındakı mübarizə ön plana çəkilir. Parlament üzvü Ağa Aşurov bu cür müzakirəyə etirazını bildirərək deyir: Yenə partiyabazlıq, yenə xalqın ayağından dartmaq… «Əfəndilər, bu gün yanğın vardır. Ev yanır, amma biz yığılıb gələcəkdə onun daşdanmı və ya ağacdanmı tikilməsini mübahisə edirik. Gəlin yanğını söndürək, sonra bunları danışarıq.»

1919-cu ilin avqustunda ingilislər Azərbaycanı tərk edirlər. Azərbaycan hökumətinin bütün cidd-cəhdlərinə baxmayaraq onlar öz donanma gəmilərinin bir hissəsini Azərbaycana deyil, Denikinə verirlər. Bununla bağlı 1919-cu il avqustun 28-də keçirilən Parlament iclasında «Sosialistlər» fraksiyası hökumətə sorğu verir və həmin iclasda bu barədə çıxış edən sosialist Əhməd Cövdət Pepinova cavab verən baş nazir Nəsib bəy Yusifbəyli deyir ki, burada sosialistlərin qaldırdığı məsələlər haqqında düşünəndə görürük ki, «Əhməd bəy iki cür arşın qollayır. Birisi Denikin, ikincisi bolşevik. Birinci məsələyə gələndə Denikinin Bakıda qərargahı var, rəsmi

möhürləri var. Millətə (rus milləti nəzərdə tutulur – A.P.) işləyir deyir. Fəqət bolşeviklərdən bəhs olunanda deyirlər ki, xeyr, onlara toxunmaq olmaz. Hürriyyəti-vicdan var, hürriyyəti-kəlam var… Məlumunuzdur ki, cəmiyyətimiz arasında bolşevizmin artmasına çalışanlar və hökuməti yıxmaq istəyənlər də vardır. Bolşevikləri buraya dəvət edəlim deyənlər də var, hətta bizim içimizdə də var. Onun üçün mən yenə təkrar edirəm ki, bolşevizm bizim üçün bir təhlükədir, bəlkə də böyük təhlükədir.»

Öz nitqində Nəsib bəy Yusifbəyli bildirir ki, Əhməd əfəndi bir tərəfə tam sərbəstlik vermək istədiyi halda, digər tərəfi boğmaq istəyir. ***Lakin hər şeyin bir həddi var. İstər bolşevik olsun, istər menşevik olsun, istər Denikin tərəfdarı olsun, hüdudu keçərsə, onun hərəkəti bizim tərzi-idarəyə sədəmə vurarsa, onu orada dayandıraram.***

Sonra o, deyir: «Mən heç görmədim ki, Əhməd əfəndi bir kərə də olsun hətta ədalətsiz olaraq tutduğum Denikin adamlarından birinin xilası üçün xahişə gəlsin. Lakin hətta tam ədalətli şəkildə də olsa elə bir bolşevik tutmadım ki, Əhməd əfəndi onun xilası üçün xahişə gəlməsin.»

1919-cu il oktyabrın ayının 9-da keçirilən Parlamentin 81-ci iclasında «Üsyançılar və hökumət əsaslarına sui-qəsd edənlərin məsuliyyəti haqqında» qanunun layihəsi müzakirə edilərkən S.Ağamalıoğlu bu layihəyə qarşı qəti etirazını bildirir. O, deyir: «Bu qanunla istəyirlər ki, o azadlıq, hürriyyət ki, almışıq, onun səbəbinə evimizdə də olsa danışırıq, istəyirlər onu da alıb dibindən götürsünlər. Görünür, Azərbaycan bu az hürriyyətdən də yorulub. O gündən ki Parlament dəvət olunub, bu azadlığı az-az əlimizdən almağa başlayıblar. Bu günədək mıs-mıs deyirdilər, bu gün isə mustafa deyirlər.»

Əhməd Cövdət Pepinov isə öz çıxışında deyir: «Məsələ burasındadır ki, o məmləkətdə ki söz azadlığı yoxdur, o məmləkət yaşamaz, dirilməz.»

Onlara cavab verən M.Rəsulzadə bildirir ki, «Əgər hürriyyət məmləkətdə qanun olmamaq icab edərsə, o zaman məmləkət hərc-mərc içində bərbad olar, anarxiya doğar. İştə o zaman siz də istibdadın təkrar geri dönməsini təmin edərsiniz.»

Sonralar Parlamentin bir neçə iclasında bu qanun layihəsinin yenə də qızğın müzakirəsi keçirilir. «Sosialistlər» fraksiyasından olan deputatlar — S. Ağamalıoğlu, Ə.Qarayev, İ.Əbilov, Ə.C.Pepinov, H.K.Sanılı çıxış edərək təqdim olunmuş qanun layihəsinin ölkədə söz və mətbuat azadlığını daha da məhdudlaşdırdığını qeyd edirlər. Onlara kəskin cavab verən M.Ə.Rəsulzadə və A.Q.Kazımzadə bildirirlər ki, sosialistlərin məqsədi ölkədə söz və mətbuat azadlığı adı altında anarxiya yaratmaq, axır nəticədə isə bolşevikləri Azərbaycana gətirməkdir.

Məmmədəmin Rəsulzadə deyir: ***«Burada Qarayevin müdafiə etdiyi hürriyyəti–mətbuat deyil, anarşi-mətbuatdır. Mətbuatda bir əndazə və nizam lazımdır. Bunu istəməyənlər hürriyyəti-mətbuatı deyil, anarşi mətbuatı müdafiə edirlər.»***

Özünün əlavə çıxışında Ə.Qarayev qeyd edir ki, «Mətbuat nizamnaməsi haqqında» qanun layihəsi «Füqəra sədası»na qarşıdır. Ona cavab verən Məmmədəmin Rəsulzadə bildirir ki, «Siz dediyiniz o, «Füqəra sədası» deyil, füqəranı aldadanların nidasıdır.»

1919-cu il noyabrın 24-də keçirilən Parlamentin 100-cü iclasında 600 milyon manat kağız pul kəsmək üçün hökumətə icazə verilməsi haqqında qanun layihəsinin müzakirəsi gedişində məlum olur ki, ingilislər Azərbaycanda olarkən onlara 177 milyon manat pul borc verilmiş, lakin onlar borcu geri qaytarmamışlar.

Bununla bağlı çıxış edənlərdən «Əhrar» fraksiyasından Muxtar Əfəndizadə hökuməti tənqid edir ki, niyə ingilislərə bu qədər pul borc vermisiniz. Ona cavab olaraq Ağa Aşurov deyir: «...Bilməlisiniz ki, hökumət o pulu öz xoşuna verməmiş, verməyə məcbur olmuşdur. Nə üçün yadınızdan çıxarırsınız keçən il bu vaxtdakı halınızı? Görünür ki, adamın yadından yaman şey çox tez çıxır. Əgər yadınızda olsa, bilərsiniz ki, biz o pulları verməyə məcbur idik.»

1919-cu il dekabrın 22-də Nəsib bəy Yusifbəyli yeni təşkil etdiyi sayca 5-ci və özünün 2-ci hökumətinin proqramı ilə Parlamentdə çıxış edir. Hökumət proqramının müzakirəsi zamanı çıxış edən Parlament üzvləri A.Malxazyan və V.Kravçenko proqramın xarici siyasətlə bağlı müddəalarını tənqid edirlər. V.Kravçenko öz çıxışında bildirir ki, «biz hər zaman bir nöqteyi-nəzərdə, yəni böyük, vahid və bölünməz Rusiya fikrindəyik!»

Onların çıxışları Parlament üzvləri tərəfindən narazılıqla qarşılanır. Onlara cavab verən Məmmədəmin Rəsulzadə bildirir: «Kravçenkonun «böyük, vahid və bölünməz Rusiya!» çağırışına qarşı pək haqlı olaraq Parlament bir gurultu yapdı. Məncə, elələrinin hökumət daxilində deyil, Parlamentdə əyləşməyə də haqları yoxdur.»

Erməni fraksiyası adından çıxış edən A.Malxazyan Azərbaycanda yaşayan ermənilərin hüququnun tapdalandığından, bütün hakimiyyət və hüquq mühafizə orqanlarında ermənilərin təmsil edilmədiyindən şikayətlənir. Ona cavab verən M.Rəsulzadə deyir: «Erməni fraksiyası naminə söz söyləyən zat özünə sosialist adı verdiyi halda buraya bütün erməni firqələrinin nümayəndəsi şəklində çıxdı… Siz hökumət rəisindən tələb edirsiniz etiraf etsin ki, bu günə qədər Azərbaycan erməniləri təcavüzə məruz qalmışlar. Siz dünyanın heç bir yerində olmayan şeyi tələb edir, deyirsiniz ki, ermənilərin sayı nisbətində onlardan idarə məmurları qəbul etməlidir, qorodovoylara varıncaya qədər hökumət milliyyət əsasını qoyaraq vəzifələri bölməlidir.»

Natiq sözünə davam edərək deyir ki, «heç bir hökumət rəisi belə ölçüsüz tələbləri qəbul edə bilməz. Belə tələb qoyanları Ermənistana baxmağı tövsiyə edirəm. Orada hökumətdə bir nəfər də olsun türk yoxdur. Bütün Ermənistan parlamentində iki nəfərdən artıq müsəlman görünməz. Gürcüstana baxın, orada ermənilər də var, azərbaycanlılar da. Fəqət hökumətdə nə erməni var, nə müsəlman.»

Yuxarıda Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin fəaliyyəti zamanı bir sıra vacib məsələlərin müzakirəsinə aid gətirdiyimiz qısa məlumatlar o dövrdə Cümhuriyyət Parlamentində müzakirə olunan məsələlərin çox cüzi bir hissəsi haqqındadır.

Maraqlanan şəxslər Parlament iclaslarının çap olunmuş protokolları və stenoqrafik hesabatları ilə tanış ola bilərlər. Onlar orada ölkəmizdə 1918-1920-ci illərin parlament həyatı, ölkə tarixinin bu və ya digər məsələlərinə aid çoxlu faktik bilik əldə edə bilərlər.

*Tahir QAFFAROV,*
*tarix elmləri doktoru,*
*professor*

# SOVET HAKİMİYYƏTİ İLLƏRİNDƏ AZƏRBAYCANDA QANUNVERİCİLİK

Azərbaycanın qanunvericilik hakimiyyəti XX əsrin böyük bir bölümündə – sovet hakimiyyəti dövrü adlanan 1920-1991-ci illərdə bir sıra obyektiv və subyektiv amillərlə bağlı mühüm xarakterik cəhətlərə malik olmuşdur. Onların bəziləri bütün keçmiş sovet respublikalarına xas ictimai-siyasi, iqtisadi quruluşun, rejimin doğurduğu ümumi cəhətlər idisə, bir qrupu da Azərbaycan dövlətinin yerləşdiyi məkanın geosiyasi dəyəri, böyük maddi sərvətləri, xalqın mənsubiyyəti və mentaliteti ilə bağlı münasibətlərin yaratdığı özünəməxsus cəhətlər idi. Ən xarakterik cəhət 70 ildə müxtəlif inkişaf mərhələlərindən keçməsinə, forma və kəmiyyət baxımından müəyyən dəyişikliklərə uğramasına baxmayaraq onun asılı bir dövlətin qanunvericilik orqanı olması idi. Digər mühüm cəhət bu orqanın təkpartiyalı siyasi sistemdə, Kommunist Partiyasının «parçala, hökm sür» prinsipinə əsaslanan metodlarla amiranə rəhbərliyi şəraitində fəaliyyət göstərməsi ilə bağlı idi. Onun qəbul etdiyi qanunlar və qərarlar Kommunist Partiyasının siyasi, iqtisadi və ideoloji məqsədlərini reallaşdırmaq üçün hüquqi baza yaradırdı.

Sovet dövründə Azərbaycanın qanunvericilik hakimiyyəti orqanı hakimiyyət strukturunda tutduğu mövqeyinə, imkan və səlahiyyətlərinə, təşkilat və fəaliyyət formalarına görə müxtəlif mərhələlərdən keçmişdir.

Sovet Rusiyasının istilaçı ordusunun hücumu, habelə daxildə siyasi qüvvələrin kəskin qarşıdurması nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra qurulmuş sovet hakimiyyətinin ilk ilində Azərbaycanda qanunvericilik və nəzarət orqanı olan Azərbaycan İnqilab Komitəsi 1920-ci il aprelin 29-da bundan üç gün əvvəl AK(b)P MK və RK(b)P Qafqaz Komitəsi Bakı bürosunun birgə iclasında təşkil olunmuş Müvəqqəti İnqilab Komitəsinin qərarı ilə yaradılmışdı. Sovet Azərbaycanının ilk qanunvericilik orqanına yalnız azərbaycanlı kommunistlər N.Nərimanov, Ə.Qarayev, Q.Musabəyov, M.D.Hüseynov, H.Sultanov, Ə.Alimov daxil idilər. Təbii ki, bu təşkilatın real səlahiyyəti yox idi, müstəqil deyildi. Real hakimiyyət əslində RK(b)P-nın yerli təşkilatı olan AK(b)P MK-ya, daha dəqiq desək, katibliyi ermənilər tərəfindən sanki varisliklə bir-birinə ötürülən Bakı bürosuna məxsus idi.

O illərdə əsasən başqa millətdən olan rəhbərlər tərəfindən idarə olunan, cəlbedici olsa da, əslində mahiyyətcə müsəlman, türk dünyasına yad bir

ideologiyanın daşıyıcısı olan bu təşkilat Moskvadakı ağalarının əlində oyuncaq, xalqı parçalamaq və diz çökdürmək vasitəsi idi. Onun göstərişi ilə yerli şəraiti, əhalinin mentalitetini nəzərə almadan Azərbaycanın qanunvericilik hakimiyyəti orqanı fəhlə sinfinin maraqlarını qabardıb bayraq edən, əslində isə öz ambisiyalarının quluna çevrilmiş bir qrup bolşevik liderin iradəsi ilə kobud, zorakı metodlarla həyata keçirilən siyasi, iqtisadi islahatların və mədəni inqilabın hüquqi bazasını yaradan radikal qanunlar qəbul etdi.

Azərbaycan İnqilab Komitəsi 1920-ci ilin mayında Azərbaycan Cümhuriyyətinin Müdafiə Nazirliyini, Azərbaycan milli ordusunu «burjua hərbi təşkilatları» adı ilə ləğv etdi. İşğalçı XI Ordu tabeliyində Azərbaycan hərbi hissələrini təşkil etdi. Milli atıcı diviziya yaratdı. Onun dinməz razılığı ilə milli ordu generalları həbs edildi. 266 zabit güllələndi. Mayın 5-də qanunvericilik orqanı bəy, xan torpaqlarının müsadirə edilməsi və kəndlilərə pulsuz paylanması haqqında dekret verdi. Onun qərarı ilə kənd və qəza torpaq komitələri yaradıldı. Kəndlilərə 1300 min desyatin torpaq paylandı. Neft sənayesi (24 may), meşə, su, yerin təki (1 iyun), banklar, Xəzər ticarət donanması (iyun) milliləşdirildi. İstehsal üzərində fəhlə nəzarəti haqqında dekret verildi. Silklərin və vətəndaş rütbələrinin ləğvi haqqında dekret verildi (12 may), bütün titullar ləğv edildi, əvəzində Azərbaycan vətəndaşı adı müəyyən olundu. Vicdan azadlığı haqqında dekret verildi, din məktəbdən ayrıldı (15 may).

İnzibati dəyişikliklər həyata keçirildi. General qubernatorluq, Bakı şəhər rəisliyi, quberniya polis idarəsi ləğv olundu. Qanunvericilik orqanının qərarı ilə məhkəmə islahatı keçirildi. Azərbaycan Məhkəmə Palatası, Bakı, Gəncə dairə məhkəmələri, Zaqatala dairə şəriət məhkəməsi ləğv olundu. «Xalq məhkəmələri haqqında» dekret verildi (12 may). Hakimlərin və müavinlərinin seçilməsi, məhkəmə, istintaq və icraat qaydaları müəyyən edildi. Mühakimə prosesləri yerli əhalinin dilində aparılmağa başlandı.

1920-ci il sentyabrın 30-da Azərbaycan SSR Sovet Rusiyası ilə bağlamağa məcbur olduğu hərbi-iqtisadi ittifaq haqqında müqavilə ilə özünün hərbi və iqtisadi müstəqilliyini itirdi və təbii ki, respublikada bu sahəyə aid qanun yaradıcılığı fəaliyyəti, demək olar ki, dayandırıldı.

Respublikanın siyasi müstəqilliyi də tamamilə formal xarakter daşıyırdı. Xalqda hakimiyyətin ona məxsus olması illüziyası yaratmaq üçün nümayəndəli hakimiyyət orqanları sisteminin təşkilinə başlanıldı. Mayın 20-də Bakı Sovetinə seçkilər keçirildi. Seçki qaydası elə müəyyən olunmuşdu ki, paytaxt Sovetində qeyri-müsəlman deputatların çoxluğu təmin edilsin. Azərbaycan qanunvericilik orqanının 23 sentyabr tarixli dekreti ilə kənd və sahə (rayon) inqilab komitələri əvəzinə əvvəl yoxsul və ortabab kəndlilərdən ibarət yoxsul komitələri, 1921-ci ilin baharında isə fəhlə və kəndli deputatları sovetləri seçilməyə başlandı. Respublikada 30 min deputatı olan 1400 kənd soveti təşkil edildi. Şəhər sovetlərinə hər min nəfərdən bir, kənd sovetlərinə

isə hər beş min nəfərdən bir deputat seçilməsi qaydası müəyyən olunmuşdu. Birinci Ümumazərbaycan sovetlər qurultayına seçkilər də bu qaydada keçirildi. Deputatların əsasən yoxsul və təbii ki, hazırlıqsız, səbatsız fəhlə və kəndlilərdən, kommunistlərdən seçilməsi parlamentin yuxarıdan idarə edilməsini asanlaşdırırdı.

Qanunvericilik hakimiyyəti orqanının fəaliyyətinin birinci dövrü üçün xarakterik cəhətlərdən biri onun üzvlərinin həyata keçirilən islahatların metodlarına münasibətdə «sağ» və «sol» qüvvələrə parçalanması və kəskin mübarizə aparması idi.

Sosialist islahatlarının həyata keçirilməsində, xüsusən milliləşdirmə və müsadirə, din, sinfi düşmən barəsində siyasətin reallaşdırılmasında sərt tədbirlərə, yakobinsayağı terrora üstünlük verən sollarla (M.D.Hüseynov, Ə.Qarayev), Sovet Rusiyasında inqilabi dəyişikliklər zamanı yol verilmiş səhvlərin, xüsusən xırda burjuaziyanın və ortabab kəndlilərin əmlakının müsadirə edilməsi, xırda sənaye sahələrinin və ticarətin milliləşdirilməsi təcrübəsinin Azərbaycanda təkrar olunmamasını, xalqın dininə, adət-ənənələrinə hörmətlə yanaşılmasını tələb edən Nəriman Nərimanov və onun tərəfdarları – müsəlman kommunistlər arasında ixtilafı bəhanə edən Mərkəz buraya öz canişinini təyin etdi.

1920-ci ilin noyabrında Azərbaycanın qanunvericilik orqanına ümumi siyasi rəhbərliyə Serqo Orconikidze göndərildi. Bu, əslində, Nəriman Nərimanovun respublikaya rəhbərlikdən uzaqlaşdırılmasında ilk addım idi. 1921-ci ildə keçirilən təmizləmə prosesində onun tərəfdarlarından 35 min nəfər partiyadan və sovet orqanlarından çıxarıldı. Başı çəkişmələrə qarışan, daim Moskvanın nəzarəti altında fəaliyyət göstərən Azərbaycanın qanunvericilik orqanı respublikanın ərazi bütövlüyünün pozulmasına, torpaqlarının hərraca qoyulmasına, xalqın parçalanmasına, mənəvi haçalanmasına, dilinin, dininin təhqir olunmasına, repressiyalara məruz qalmasına, sərvətlərinin talan olunmasına, ruslaşdırma siyasətinin həyata keçirilməsinə mane ola bilmirdi, əksinə, çox vaxt bunlar üçün hüquqi əsas yaradan aktlar qəbul edirdi.

1921-ci ilin mayında Ümumazərbaycan sovetlər qurultayında Azərbaycan SSR-in ilk Konstitusiyasının qəbulu və Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin yaradılması (ilk sədri Muxtar Hacıyev idi) ilə əlaqədar respublikada qanunvericilik hakimiyyəti orqanının tarixində ikinci dövr başlandı. Bu mərhələdə qanunvericilik orqanı yeni formatda və tərkibdə fəaliyyət göstərirdi. İndi bu orqana seçkilər, demək olar ki, çoxpilləli idi. Əvvəl ali hakimiyyət orqanı olan Ümumazərbaycan qurultayına seçkilər keçirilir, sonra qurultay qanunvericilik orqanı olan Mərkəzi İcraiyyə Komitəsini, o isə özünün Rəyasət Heyətini seçirdi. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 75 üzvü və 25 namizədi vardı. Rəyasət Heyəti isə 13 nəfərdən ibarət seçilirdi. Oraya, demək olar, bütün partiya rəhbərləri daxil idi. Bu, respublikanı Zaqafqaziya Federasiyasına və SSRİ-yə qatmaqla onun

formal siyasi müstəqilliyini ləğv etmək prosesini asanlaşdırmağa mühüm təsir göstərdi.

Birinci Zaqafqaziya Sovetləri qurultayında (10-13 dekabr 1922-ci il, Azərbaycandan 175 deputat iştirak edirdi) Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi (150 üzv və 50 namizəd) seçildi. Bu qanunvericilik orqanının sədrlərindən biri Səmədağa Ağamalıoğlu, Rəyasət Heyətinin katibi Böyükağa Talıblı seçildilər. Burada Zaqfederasiyanın Konstitusiyası qəbul olundu. Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi bu respublikanın Rusiya, Ukrayna və Belorusiya ilə birlikdə SSR İttifaqı təşkil etməsi haqqında qərar qəbul etdi. 1922-ci il dekabrın 30-da Moskvada I Ümumittifaq sovetlər qurultayında təşkil edilmiş SSRİ Mərkəzi İcraiyyə Komitəsinin dörd sədrindən biri də Nəriman Nərimanov seçildi.

Azərbaycanın 1922-ci ilin martında Zaqafqaziya Respublikaları Federativ İttifaqına, həmin ilin dekabrında vahid dövlət olan Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasına və onun tərkibində SSRİ-yə qatılması Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin mövcud formal müstəqilliyini də itirməsi, birbaşa Zaqafqaziya və SSRİ Mərkəzi İcraiyyə Komitələrindən asılı vəziyyətə düşməsi və fəaliyyətində prinsipcə yeni bir dövrün başlanması demək idi.

Bütün bu qanunvericilik orqanlarında Azərbaycan nümayəndələrinin iştirak etməsinə, hətta yüksək vəzifə tutmasına baxmayaraq, mərkəzin əli ilə antiazərbaycan siyasəti yeridilirdi. Hətta vəziyyət o yerə çatmışdı ki, yüksək vəzifə sahibi olan azərbaycanlı kommunistlər arasında belə narazılıq baş verirdi. Məsələn, əvvəllər özünü Nəriman Nərimanova və onun tərəfdarlarına qarşı barışmaz mübariz kimi göstərib Orconikidze və Mirzəyanın köməyi ilə AK(b)P MK katibi vəzifəsinə qalxa bilmiş Əyyub Xanbudaqov 1924-cü ildə Moskvanın Azərbaycanda sovet və partiya işinə hədsiz müdaxiləsinə, respublikanın simasızlaşdırılmasına, buraya rusların köçürülməsinə, milli kadrlar hazırlığına diqqət yetirilməməsinə qarşı açıq çıxış etmişdi. 1924-cü ilin mayında o, rəhbər vəzifələrdən uzaqlaşdırıldı və partiyadan qovuldu. Azərbaycana qarşı aparılan ədalətsiz siyasəti SSRİ Mərkəzi İcraiyyə Komitəsinin həmsədri Nəriman Nərimanov RK(b)P MK-ya, Stalinə yazdığı «Ucqarlarda inqilabımızın tarixinə dair» adlı məşhur məktubunda cəsarətlə ifşa etdi. Azərbaycanın taleyinin daşnaklara tapşırıldığını bildirdi. 1928-30-cu illərdə milli təmayülçülərə qarşı keçirilən təmizləmə kampaniyasında 6,3 mindən çox adam nümayəndəli hakimiyyət orqanlarından qovuldu, repressiyalara məruz qaldı.

1927-ci ildə Zaqafqaziya MİK-in qərarı ilə Mehri-Cəbrayıl qəzalarından 24 kənd, Aşağı Zəngəzurdan 1065 desyatin torpaq sahəsi, 1929-cu ildə daha 13 min hektar Azərbaycan ərazisi – Nüvədi, Tuğut və Yernəzir kəndləri, habelə Naxçıvandan 9 kənd, Qaymaqlı ilə Kürumuzlu arasındakı sahələr (228,9 desyatin) Ermənistana verildi. Zaqafqaziyanın və SSRİ-nin qanunvericilik orqanlarında fəaliyyət göstərən Azərbaycan nümayəndələri isə

respublikanın suveren hüquqlarının pozulmasına qarşı əməli bir iş görə bilmədilər.

Ölkədə, xüsusən 20-ci illərin ortalarından «NEP»-ə son qoyulması, inzibati-amirlik üsuli-idarəsinin inkişaf etməsi qanunvericilik hakimiyyəti orqanlarının işinin xarakterinə mühüm təsir göstərdi. Mövcud siyasi və iqtisadi sistemin qorunması, məhkəmə sisteminin təkmilləşdirilməsi sahəsində qanun yaradıcılığı prosesi xeyli sürətləndi. 1922-23-cü illərdə Rusiya Federasiyasının qanunları nümunəsində Cinayət Məcəlləsi, Mülki Məcəllə, Cinayət-Prosessual Məcəlləsi və Torpaq Məcəlləsi hazırlandı və qəbul edildi. Mərkəzi İcraiyyə Komitəsi 1922-ci ilin dekabrında Məhkəmə haqqında Əsasnamə qəbul etdi. Xalq məhkəmələrindən, Bakı, Gəncə dairə məhkəmələrindən və Ali Məhkəmədən ibarət vahid məhkəmə sistemi yaradıldı. 1923-cü ildə Xalq Ədliyyə Komissarlığı haqqında Əsasnamə qəbul edildi. Üç il sonra ədliyyə komissarına respublikanın Baş prokuroru səlahiyyəti verildi. Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə 1925-28-ci illərdə inzibati məhkəmələr sistemi tətbiq olundu. Qanunvericilik orqanı yanında Baş İnzibati Məhkəmə, Bakı, Gəncə, Naxçıvan və Xankəndidə vilayət inzibati məhkəmələri yaradıldı.

Yerli nümayəndəli hakimiyyət orqanlarının sayı 1923-cü ildə heç bir əsas olmadan yarıbayarı azaldıldı. Lakin tezliklə bunun düşünülməmiş addım olduğu, çətinliklər yaratdığı məlum oldu. İki il sonra yenidən islahat keçirildi və bu sovetlərin sayı 600-dən 1428-ə çatdırıldı. 62 əvəzinə 141 dairə (rayon) icraiyyə komitəsi təşkil edildi. 1925-ci ildə yerli nümayəndəli hakimiyyət orqanlarında 46 min deputat fəaliyyət göstərirdi.

1927-ci ilin martında beşinci Ümumazərbaycan sovetlər qurultayı Rusiyanın Əsas Qanunu nümunəsində hazırlanmış Azərbaycan SSR-in ikinci Konstitusiyasını qəbul etdi. Bu vaxta qədər respublikanın siyasi, iqtisadi həyatında baş vermiş hüquqi dəyişikliklər özünün konstitusiya əsasını tapdı.

1936-cı il tarixli SSRİ Konstitusiyasına və ona müvafiq 1937-ci ildə qəbul olunmuş Azərbaycan SSR-in Konstitusiyasına əsasən Azərbaycanın ali qanunvericilik orqanı 1938-ci ildən yeni formatda – respublikanın Ali Soveti kimi təşkil olundu. Lakin bu, adi forma dəyişikliyi deyildi. Mövcud ictimai-siyasi durum, siyasi sistemin bütün pillələri üzərində partiya təzyiqinin artması, ayrıfikirliyin düşmənçilik kimi qiymətləndirilməsi, repressiya maşınının sürət götürməsi, təşəbbüslərin buxovlanması insanları dövlətçiliyə yadlaşdırırdı. Deputatların tərkibi, kimlərin seçilməsi, parlamentdə neçə nəfər fəhlə, kolxozçu, qulluqçu, qadın, gənc, bitərəf və s. olması yuxarıdan müəyyən edilirdi.

Birinci çağırış Azərbaycan SSR Ali Sovetinə birbaşa seçkilərdə (24 iyun 1938-ci il) seçilmiş 310 deputatdan 107-si fəhlə, 88-i kolxozçu, 115-i ziyalı-qulluqçu, bunlardan 193-ü azərbaycanlı, 38-i erməni, 36-sı rus, 72-si qadın idi. Onların arasında respublikada nüfuzu olan yazıçı və alimlər, incəsənət xadimləri, əmək adamları – Səməd Vurğun (1-ci çağırış), Mustafa

Topçubaşov (1-10-cu çağırışlar), Süleyman Rüstəm (1-11-ci çağırışlar, 8-11-ci çağırışlar Ali Sovetin sədri), Əziz Əliyev (1,3-cü çağırışlar) və başqaları vardı. Sonralar Azərbaycan parlamentinə görkəmli alim Fuad Əfəndiyev (3-6-cı çağırışlar), bəstəkar Fikrət Əmirov (4-9-cu çağırışlar), yazıçı, partiya xadimi Şıxəli Qurbanov (5,7-ci çağırışlar), görkəmli hüquqşünas Abbas Zamanov (8-9-cu çağırışlar), görkəmli fizioloq alim Abdulla Qarayev (2-ci çağırış), rəssam Mikayıl Abdullayev (5-9-cu çağırışlar), aktrisa Mərziyə Davudova (2-5-ci çağırışlar), rejissor Ədil İsgəndərov (4-5-ci çağırışlar) və başqaları deputat seçildilər.

Birinci çağırış SSRİ Ali Sovetində isə Azərbaycanı 52 deputat (11-i İttifaq Sovetində, 41-i Millətlər Sovetində)- bəstəkar Üzeyir Hacıbəyov (1-2-ci çağırışlar), şair Səməd Vurğun (1-4-cü çağırışlar), yazıçı Mirzə İbrahimov (1-5, 7, 8, 10-cu çağırışlar), akademik İ.M.Qubkin, professor Mirəsədulla Mirqasımov (1-3-cü çağırışlar), professor Əziz Əliyev (1-3-cü çağırışlar), kolxozçu, əmək qəhrəmanı Bəsti Bağırova (1-3-cü çağırışlar), sonrakı çağırışlarda şair Abdulla Şaiq (2-4-cü çağırışlar), müğənni Rəşid Behbudov (7-9-cu çağırışlar), bəstəkar Qara Qarayev (5-9-cu çağırışlar), görkəmli alimlər Həsən Abdullayev (8-9-cu çağırışlar), Əliəşrəf Əlizadə (2-ci çağırış), əmək qabaqcılları Şamama Həsənova (4-11-ci çağırışlar, 1960-74-cü illərdə SSRİ Ali Soveti sədrinin müavini), Sərdar İmrəliyev (6-9-cu çağırışlar) və başqaları təmsil edirdilər.

Deputatların sayı və tərkibi demoqrafik dəyişikliklərə uyğun şəkildə, əvvəlki proporsiyalar gözlənilməklə sonralar müəyyən qədər dəyişmişdi. Məsələn, 1967-ci ildə yeddinci çağırış Azərbaycan SSR Ali Sovetinə 380 deputat seçilmişdi. Onların 96 nəfəri fəhlə, 85 nəfəri kolxozçu, 123 nəfəri qadın, 84 nəfəri bitərəf, 293 nəfəri azərbaycanlı, 31 nəfəri erməni, 41 nəfəri rus idi. Lakin artıq qeyd etdiyimiz kimi, Kommunist Partiyasının əslində bütün dövlət funksiyalarını mənimsədiyi, yerdən hər bir siyasi təşəbbüsün düşmənçiliklə qarşılandığı şəraitdə onlar səmərəli fəaliyyət göstərə bilmirdilər. Buna görə də nümayəndəli qanunvericilik orqanlarına seçilmiş azərbaycanlılar 1937-38-ci və sonrakı illərdə respublikanın elmi, mədəni, siyasi elitasının məhv edilməsinə, xalqın genofonduna zərbə vurulmasına, torpaqlarının dəfələrlə parça-parça qoparılıb Ermənistana verilməsinə qarşı etiraz səslərini qaldıra bilmədilər. Əksinə, yuxarının təzyiqi ilə Azərbaycan SSR Ali Soveti 1938-ci il mayın 7-də Laçın, Qubadlı, Kəlbəcər və Qazax bölgələrindən 2 min hektar torpaq sahəsinin Ermənistana verilməsi haqqında protokolu təsdiq etdi. (Yeri gəlmişkən, qeyd edim ki, o zaman sadə insanlar, kənd camaatı yerlərdə müqavimət göstərdilər və torpaqlarını əldən vermədilər. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969-cu il mayın 7-də 1938-ci ildə qəbul etdiyi bu bədnam qərarını yenidən təsdiq etdi. Lakin az sonra hakimiyyətə gəlmiş cənab Heydər Əliyev bu qərarın icrasına yol vermədi).

Xalqın dövlətçilik fəaliyyətinə yadlaşmasını hətta 1953-cü ildə Stalinin vəfatından sonra əmələ gələn müvəqqəti siyasi isinmə, «şəxsiyyətə pərəstişin ağır nəticələrinin aradan qaldırılması», «sosialist demokratiyasının dərinləşdirilməsi» şüarları altında həyata keçirilən islahatlarla əlaqədar yaranan yeni siyasi mühit də aradan qaldıra bilmirdi. Bunun bir səbəbi islahatların kosmetik xarakter daşıması, cəmiyyətin siyasi və iqtisadi əsaslarının toxunulmaz qalması idisə, başqa bir səbəbi sovet mühitində, kommunist ideologiyasının təzyiqi altında formalaşmış, tərbiyə olunmuş bir çox insanların şüurunda təşəbbüssüzlüyün, ətalətin kök salması, bəzilərinə əlverişli olan köhnə münasibətləri mühafizəkarcasına qorumaq cəhdləri idi. Lakin mövcud olan məhdud imkanlardan xalqın xeyrinə istifadə etmək, diqqəti cəlb etmədən milli-mənəvi oyanışa kömək göstərmək üçün ehtiyatlı addımlar atılırdı. Məsələn, 1950-ci illərin birinci yarısında Azərbaycan dilinin dövlət işlərində istifadə olunması, 1960-cı illərin ortalarında Novruz bayramının «bahar bayramı» adı ilə geniş qeyd edilməsi təşəbbüsləri irəli sürülmüşdü.

Lakin bu istiqamətdə məqsədyönlü iş Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçildiyi vaxtdan başlandı və ardıcıl surətdə davam etdirildi. Heydər Əliyev böyük uzaqgörənliklə bütün dövlət hakimiyyəti orqanlarının, parlamentin işini xalqın iqtisadi, sosial-mədəni tərəqqisi və milli oyanışı siyasətinin reallaşmasına yönəltdi. Partiya lideri olmaqla bərabər o həm də SSRİ Ali Sovetinin (8-10-cu çağırışlar) deputatı, onun yuxarı palatası olan İttifaq Sovetinin sədr müavini (9-cu çağırış), habelə Azərbaycan SSR Ali Sovetinin (7-10-cu çağırışlar) deputatı və Rəyasət Heyətinin üzvü kimi geniş dövlətçilik fəaliyyəti göstərirdi. Onun təşəbbüsü ilə SSRİ rəhbərliyi – Sov.İKP MK və SSRİ Nazirlər Soveti Azərbaycanın iqtisadi inkişafı üçün olduqca böyük əhəmiyyətə malik beş mühüm qərar qəbul etdi. Onların hər biri Azərbaycanın xalq təsərrüfatının inkişafına ittifaq fondundan külli miqdarda vəsait ayrılmasına əsas oldu. Heydər Əliyevin həyata keçirdiyi kadr siyasəti bütün sahələrdə olduğu kimi, qanunvericilik orqanına da ən bacarıqlı və layiqli adamların seçilməsinə imkan yaratdı. Ali Sovetin işi xeyli fəallaşdı, yeni daimi komissiyalar yaradıldı, onların səmərəli işləməsi üçün tədbirlər görüldü. Azərbaycan parlamenti respublikanın iqtisadi, mədəni inkişafı üçün hüquqi baza yaradan onlarca qanun qəbul etdi. Heydər Əliyev respublikada qanunçuluğun hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlərin təşəbbüsçüsü oldu.

1970-ci illərdə və 1980-ci illərin əvvəllərində Azərbaycanın Mülki, Mülki-Prosessual, Cinayət-Prosessual məcəllələrinə əlavələr və dəyişikliklər edildi. Azərbaycan SSR-in məhkəmə quruluşu, səhiyyə, dövlət notariatı, xalq təhsili, tarix və mədəniyyət abidələrinin qorunması və onlardan istifadə edilməsi, Nazirlər Soveti, xalq deputatları sovetləri haqqında qanunlar, Torpaq və Əmək haqqında qanunlar məcəllələri, İnzibati hüquq pozuntuları haqqında, Ailə və nikah haqqında məcəllələr qəbul edildi. Heydər Əliyev

Azərbaycanın suveren hüquqlarının pozulmasına yönələn bütün cəhdlərin qarşısını vaxtında, qətiyyətlə alırdı. SSRİ-nin 1977-ci ilin oktyabrında qəbul olunmuş Konstitusiyası hazırlanarkən ermənilərin belə cəhdləri xüsusən artmışdı və yalnız Heydər Əliyevin SSRİ rəhbərləri qarşısında qoyduğu qəti tələblər nəticəsində o vaxt Dağlıq Qarabağın statusu məsələsinə baxılmadı. Heydər Əliyevin rəhbərliyi altında fəaliyyət göstərən Konstitusiya Komissiyasının hazırladığı və 1978-ci il aprelin 21-də qəbul edilmiş Azərbaycan SSR-in yeni Konstitusiyası mövcud olan məhdud imkanlar daxilində xalqın mənəvi sərvətlərinin, xüsusən dilinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün hüquqi əsasları genişləndirdi. Azərbaycan dili respublikada dövlət dili statusu aldı.

«Qoy ədalət zəfər çalsın!» – o zaman Heydər Əliyevin söylədiyi və bütün işlərinin mahiyyətini təşkil edən bu sözlər xalqın dilində şüara çevrilmişdi.

1970-ci illərdə və 1980-ci illərin əvvəllərində Azərbaycan parlamenti respublikada həyata keçirilən böyük quruculuğun hüquqi bazasının yaradılmasında mühüm işlər gördü. Ölkədə, xüsusən qanunvericilik hakimiyyəti orqanının işində mühüm irəliləmələr Heydər Əliyev şəxsiyyəti, onun çoxcəhətli idarəçilik istedadı, möhtəşəm siyasi-dövlətçilik fəaliyyəti ilə sıx bağlı idi. Təəssüf ki, o, 1982-ci ilin sonlarında Moskvada SSRİ-nin yüksək partiya və dövlət vəzifələrinə irəli çəkildikdən sonra bu işləri davam etdirmək üçün respublikanın yeni rəhbərliyində, habelə parlament üzvlərində lazımi güc, iradə, təpər olmadı.

SSRİ-nin süqutu ilə bağlı dünyada baş verən prosesləri vaxtında və düzgün qiymətləndirib nəzərə almaq, xalqı gözləyən təhlükələri əvvəldən duymaq və qabaqlayıcı tədbirlər görmək, vahid milli platforma yaratmaq vacib olduğu halda, təəssüf ki, Azərbaycanın o vaxtkı rəhbərliyi, parlamenti bağışlanmaz passivlik, laqeydlik göstərdi. Erməni separatizmini faktik olaraq müdafiə edən SSRİ rəhbərliyinin Azərbaycanın suveren hüquqlarını açıq-aşkar pozan qərarlarına (məsələn, «1988-1995-ci illərdə Azərbaycan SSR DQMV-nin sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında» Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1988-ci il 24 mart tarixli, habelə «Azərbaycan SSR-in DQMV-də xüsusi idarəçilik formasının tətbiqi haqqında» SSRİ Ali Soveti Rəyasət Heyətinin 1989-cu il 12 fevral tarixli qərarlarına) qarşı respublika parlamenti, eləcə də SSRİ-nin ali qanunvericilik orqanındakı azərbaycanlı deputatlar heç bir etiraz bildirmədilər. Əksinə, Azərbaycan parlamenti bu qərarların münaqişəni həll etmək baxımından əhəmiyyət kəsb etdiyini bildirmişdi. Belə mövqe xalqda respublika rəhbərliyinə və parlamentə inamı tamamilə qırdı.

O zaman müxtəlif siyasi ambisiyalarını, hakimiyyəti ələ keçirmək niyyətlərini populist çıxışlarla pərdələyə bilən, siyasi təcrübəsi olmayan səbatsız qüvvələr qabağa çıxdı və xalqı öz ardınca aparmağa çalışdı. SSRİ-nin süqutu nəticəsində müstəqilliklər paradının labüdlüyünün aydın olduğu bir vaxtda başlanmış bu prosesin Azərbaycanda böyük qurbanlar, itkilər hesabına

getməsi bir tərəfdən, respublika rəhbərliyinin, parlamentin, digər tərəfdən, meydana çıxan yeni siyasi qüvvələrin naşılığı üzündən baş vermişdi.

1990-cı il sentyabr parlament seçkilərinin qeyri-demokratik şəkildə, fövqəladə vəziyyət şəraitində keçirilməsi siyasiləşmiş cəmiyyətdə bu orqanın səmərəli işləməsini qeyri-mümkün etmişdi. Burada demokratik qüvvələr azlıq təşkil edirdi (30 nəfər). Təklifləri keçmirdi. Parlament artıq süqut etməkdə olan SSRİ-ni saxlamağa çalışan qüvvələrin əlində oyuncaq idi.

Bu vaxt Naxçıvandan Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan MR Ali Sovetinə deputat seçilmiş Heydər Əliyevin dövlətçilik fəaliyyətində yeni bir dövr başlandı. O, xalqı azadlıq uğrunda sonacan mübariz olmağa çağırırdı. Mühafizəkar Azərbaycan parlamenti SSRİ-nin saxlanılmasına münasibət bildirmək üçün keçirilən referenduma razılıq verərkən «Bizim ümumi ittifaqdan nicatımız yoxdur!» deyən deputat Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Ali Məclisi muxtar respublikada referenduma yol vermədi. Heydər Əliyevin təşəbbüsü ilə muxtar respublikada milli dövlətçilik ənənələri bərpa edilməyə başlandı. Ali Məclisin qərarı ilə muxtar respublikanın adından «sovet sosialist» sözləri götürüldü. Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul olundu və bu barədə Azərbaycan parlamenti qarşısında qanunvericilik təşəbbüsü irəli sürüldü. Naxçıvan parlamentinin fəaliyyəti Azərbaycan üçün nümunə idi. Onun ardınca Azərbaycan parlamenti də (5 fevral 1991-ci il) respublikanın adının dəyişməsi və dövlət bayrağı haqqında qərarlar qəbul etdi.

Moskvada mühafizəkar qüvvələrin dövlət çevrilişi etmək cəhdinin qarşısı alındıqdan, demokratik qüvvələr qalib gəldikdən sonra demokratik qüvvələrin tələbi ilə 1991-ci il avqustun axırlarında keçirilmiş parlament sessiyasında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunması haqqında bəyanat qəbul olundu. Lakin parlamentin bu qərarının legitimləşdirilməsi üçün referendum keçirilməsi tələbi ilə çıxış edən deputat Heydər Əliyevə qarşı yeni hücumlar başlandı. Hələ də gözləmə mövqeyi tutan respublika rəhbərliyinin təzyiqi ilə parlament Dövlət müstəqilliyinin bərpa olunması haqqında Konstitusiya Aktını xeyli gec – oktyabrın 18-də qəbul etdi. Referendum isə SSRİ artıq bir hüquqi subyekt kimi mövcudluğunu dayandırdıqdan (8 dekabr) sonra – dekabrın 29-da keçirildi.

Atdığı səhv addımlar parlamenti xalqın dəstəyindən məhrum etmişdi. Azərbaycanın qanunvericilik orqanı malik olduqları silahlı hərbi hissələri ilə döyüş meydanlarında vəziyyəti hər an pisləşdirməyə qabil olan müxalif qüvvələrin, sessiyanın keçirildiyi binanı mühasirəyə alan camaatın, habelə öz siyasi iradəsini ona zorla qəbul etdirən iqtidarın əsirinə, oyuncağına çevrilmişdi. İqtidarla müxalifət arasında sövdələşmənin nəticəsi olaraq Azərbaycan Ali Sovetinin səlahiyyətləri bərabərlik əsasında formalaşdırılmış 50 nəfərlik Milli Şuraya verilmişdi. Yerdə qalan 210 deputatın və onları seçmiş insanların hüquqları isə tapdalanmışdı. Parlamentin qeyri-demokratik tədbirləri bununla bitmirdi. Xalqın təkidli tələbi ilə Naxçıvan MR parlamenti-

nin sədri seçilmiş Heydər Əliyevin hüquqlarının pozulmasına, onun siyasi fəaliyyətinin məhdudlaşdırılmasına yönəldilmiş qərarlar qəbul olunurdu. Naxçıvan MR parlamenti sədrinin Azərbaycan parlamenti sədrinin müavini olması qaydası ləğv edildi, Prezident üçün yaş senzi müəyyənləşdirildi və s.

Azərbaycan parlamenti AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə də öz funksiyasını layiqincə yerinə yetirə bilmədi. Sabitlik, qayda-qanun yaradılmadı. Ölkədə ümumi böhran daha da dərinləşdi. Keçmiş cəbhəçilər arasında hakimiyyət uğrunda mübarizə getdikcə dərinləşdi. Hərbi müxalifət Gəncədə qiyam qaldırdı. Vətəndaş müharibəsi başlandı, qardaş qanı töküldü. Separatçılıq artdı. Ölkənin müstəqilliyi və dövlətçiliyi böyük təhlükə qarşısında qaldı. Öz yaratdıqları vəziyyətin girovuna çevrilmiş respublika rəhbərləri də Heydər Əliyevin hakimiyyətə qayıtması haqqında Azərbaycan xalqının təkidli tələbinə qoşulmağa məcbur oldular. Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın müstəqil dövlətçiliyini, siyasi varlığını məhv olmaq təhlükəsindən xilas etməklə bərabər Azərbaycan parlamentinin tarixində yeni bir dövrün başlanğıcını qoydu.

*Yaşar ƏLİYEV,*
*Azərbaycan Respublikası Milli Məclisinin deputatı, QİƏT Parlament Məclisi sədrinin müavini*

# AZƏRBAYCAN PARLAMENTİ VƏ REGİONAL PARLAMENT TƏŞKİLATLARI

Azərbaycan Respublikası Milli Məclisinin fəaliyyətinin əsas istiqamətlərindən birini beynəlxalq əlaqələr təşkil edir. Parlamentdə dünyanın 60-dan çox ölkəsinin qanunvericilik orqanı ilə əlaqələr üzrə işçi qrupları yaradılmış, bu qruplar ölkəmizin dünya dövlətləri ilə əlaqələrinin inkişafı sahəsində mühüm işlər görmüşlər. Hazırda Milli Məclis Parlamentlərarası İttifaqın, MDB ölkələrinin Parlamentlərarası Assambleyasının, ATƏT-in Parlament Assambleyasının, Qara dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisinin, Avropa Şurası Parlament Assambleyasının, İslam Konfransı Təşkilatı Parlament Məclisinin və digər nüfuzlu beynəlxalq təşkilatların üzvüdür.

Milli Məclisin qanunvericilik fəaliyyətinin təkmilləşdirilməsi, qarşılıqlı təcrübə mübadiləsi aparılması, parlamentlərarası əlaqələrin genişləndirilməsi məqsədi ilə sıx əməkdaşlıq etdiyi qurumlardan biri də MDB ölkələrinin Parlamentlərarası Assambleyasıdır. MDB ölkələrinin qanunlarının uzlaşdırılmasına kömək üçün qəbul olunan model qanunların hazırlanmasında Azərbaycan Respublikasının parlament nümayəndələrinin də rolu böyükdür. Mütəmadi olaraq Parlamentlərarası Assambleyanın Katibliyindən alınan model qanunlar və digər normativ hüquqi sənədlər Azərbaycan Respublikası Milli Məclisinin müvafiq komissiya və şöbələrində müzakirə olunur, bu sənədlərin müddəalarının bir qismindən milli qanunvericiliyin yaradılmasında yardımçı vəsait kimi istifadə edilir. Bütün bunlar Azərbaycan milli qanunvericiliyinin səmərəliyini yüksəltməyə imkan verir.

Parlamentlərarası Assambleyanın daimi komissiyalarının üzvü olan Milli Məclisin 15 deputatı Assambleyanın bütün daimi komissiyalarında model normativ hüquqi aktların hazırlanmasına öz dəyərli töhfələrini verirlər. Deputatlardan biri Parlamentlərarası Assambleyanın Sosial siyasət və insan hüquqları daimi komissiyasına rəhbərlik edir. Milli Məclisin deputatları Parlamentlərarası Assambleyada Mülki, Cinayət, Cinayət-Prosessual, Cəzaların İcrası, Vergi və Kitabxana məcəllələrinin, Dəmir yollarının model Nizamnaməsinin, Səhmdar cəmiyyətlər haqqında, Kiçik sahibkarlığa dövlət köməyi haqqında, Xarici investisiyaların tənzimlənməsinin ümumi prinsipləri haqqında, Müəlliflik hüququ və əlaqədar hüquqlar haqqında, Ekoloji

təhlükəsizlik haqqında, Əməyin mühafizəsi haqqında, Diplomatik xidmət haqqında, Konsulluq idarələri haqqında, Təhsil haqqında və bir çox başqa model qanunların müzakirəsində və qəbulunda xüsusilə fəal iştirak etmişlər.

Azərbaycan Respublikası Milli Məclisinin deputatları və icra hakimiyyəti orqanlarının nümayəndələri beynəlxalq elmi-praktik seminarlarda, konfranslarda, beynəlxalq məsləhət seminarlarında müntəzəm iştirak edirlər. Artıq 4 ildən bəri hər il keçirilən Peterburq İqtisadi Forumunda MDB ölkələrinin sosial-iqtisadi inkişafının aktual problemləri barədə beynəlxalq müzakirələr aparılır. Azərbaycan Respublikası bu forumun işinə xüsusi diqqətlə yanaşır.

2000-ci il aprelin 10-15-də mənim rəhbərliyimlə MDB ölkələri Parlamentlərarası Assambleyasının nümayəndə heyəti BMT-nin Avstriyanın Vyana şəhərində keçirdiyi Cinayətkarlığın tədqiqinə və qanun pozucuları ilə rəftara dair 10-cu Konqresin işində müşahidəçi qismində iştirak etmişdir.

Azərbaycan Respublikası parlamentinin təşəbbüsü ilə dəfələrlə Bakıda Parlamentlərarası Assambleyanın daimi komissiyalarının səyyar iclasları keçirilmiş, «Cinayətkarlıqla mübarizə haqqında», «İnsan hüquqları haqqında» və başqa aktual model qanunvericilik aktları qəbul edilmişdir.

Müstəqil dövlətimizin qanunvericilik orqanının yaxından əməkdaşlıq etdiyi beynəlxalq qurumlardan biri də Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisidir. On bir ölkənin daxil olduğu bu təşkilatın təməli 1992-ci il iyunun 25-də imzalanmış Boğaziçi Bəyannaməsi ilə qoyulmuşdur. Bundan səkkiz ay sonra İstanbulda toplaşan doqquz ölkənin - Albaniya, Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya Federasiyası, Türkiyə və Ukraynanın parlament sədrləri tərəfindən Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin yaradılması haqqında Bəyannamə qəbul edildi.

1995-ci ildə Yunanıstan, 1997-ci ildə isə Bolqarıstan QİƏT Parlament Məclisinə tam hüquqlu üzv kimi qəbul edildilər. Misir Xalq Məclisi, İsrail Knesseti, Slovakiya Dövlət Şurası və Almaniya Bundestaqı Məclisin işində müşahidəçi qismində iştirak edirlər.

Təşkilatın fəaliyyətinin əsasını təşkil edən ümdə məqsədlər aşağıdakılardır:

- Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının ideya və məqsədlərinin xalqlar tərəfindən anlaşılıb mənimsənilməsini təmin etmək;
- üzv ölkələr arasında iqtisadi, ticarət, sosial, mədəni və siyasi əməkdaşlıq üçün hüquqi baza yaratmaq;
- dövlət və ya hökumət başçıları, yaxud xarici işlər nazirləri tərəfindən qəbul olunmuş qərarların həyata keçirilməsi üçün lazımi tədbirlər görmək;
- parlament demokratiyasının gücləndirilməsi üçün milli parlamentlərə yardım göstərmək;
- digər beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq etmək.

Hazırda QİƏT altı əsas orqandan ibarətdir:

- Qara dəniz İqtisadi Əməkdaşlığı (QİƏ - hökumətlərarası orqan);

- Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisi (QİƏTPM - parlamentlərarası orqan);

- Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının İş Şurası (QİƏTİŞ - iş sahəsi orqanı);

- Qara dəniz Ticarət və İnkişaf Bankı (QTİB - maliyyə orqanı);

- Qara dəniz Tədqiqatları və Beynəlxalq Mərkəzi (QTBM - akademik birliklər);

- Qara dəniz Paytaxtlar Birliyi (QPB - yerli hakimiyyətlər).

1998-ci il iyunun 5-də Yaltada Qara dəniz İqtisadi Əməkdaşlığı Xartiyası imzalanmış, 1999-cu ilin iyun ayında isə «Yalta Sammitindən sonra QİƏT Parlament Məclisinin rolu» mövzusunda tövsiyə qərarı qəbul edilmişdir.

Təşkilata üzv olan ölkələr arasında iqtisadi və mədəni sahələrdə əməkdaşlıq durmadan genişlənir. Hər bir üzv dövlət qurumun onlar üçün yaratdığı imkanlardan maksimum istifadə etməyə çalışır. Yunanıstan və Türkiyə arasında anlaşmalar, Azərbaycanla Ermənistan arasında davam edən danışıqlar bölgədə və bütün Avropada sabitliyin möhkəmlənməsinə təkan verir. Yeni minilliyin əvvəlində dünyada gedən proseslərdə Qara dəniz bölgəsinin rolunun artması Qara dəniz ailəsini daha sıx birləşməyə ruhlandırır.

Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı bölgədə iqtisadi proqramların hazırlanmasında böyük rol oynayır. Bu gün təşkilatın Parlament Məclisinin orqanları bu qurum tərəfindən yaradılmış layihələrin həyata keçirilməsi üçün səylə çalışırlar. Bu layihələrin bir-biri ilə uzlaşdırılması üçün təşkilata üzv ölkələrdə hüquqi baza yaradılır. 1996-cı ilin dekabrında Tbilisidə QİƏT Parlament Məclisinin səkkizinci plenar sessiyasında üzv ölkələrin qanunvericilik orqanları arasında hüquqi bilgilərin mübadiləsinə dair müqavilə imzalanmışdır. Bu müqaviləyə əsasən 2000-ci il oktyabrın 3-də Afinada üzv ölkələrin parlamentləri arasında hüquqi və normativ sənədlərin mübadiləsi sisteminin yaradılması məqsədi ilə işçi qrupunun təşkil olunması barədə razılığa gəlinmişdir. 2001-ci il aprelin 12-də Buxarestdə işçi qrupunun birinci iclası keçirilmişdir.

Təqdirəlayiq haldır ki, QİƏT Parlament Məclisi üzv ölkələr arasında qanunvericiliyin uyğunlaşdırılması üçün sərhəd keçmə və viza qaydalarına baxmış və bu təşkilatla əlaqəli olan vətəndaşların - millət vəkillərinin, diplomatların, hökumət məmurlarının, iş adamlarının viza formalarından azad edilməsi barədə təkliflər hazırlamışdır. Təşkilat üzv ölkələr arasında ticarətin həcmini artırmaq, bu ölkələrin dünya iqtisadiyyatına inteqrasiyasını inkişaf etdirmək üçün bölgədə uzlaşdırılmış gömrük mexanizminin yaradılmasına çalışır. 1997-ci il fevralın 7-də üzv ölkələrin iqtisadiyyat və xarici işlər nazirlərinin İstanbulda keçirilmiş xüsusi görüşü bu sahədə görülən mühüm tədbirlərdəndir. Görüşdə Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının ticarət zonasının yaradılmasına dair Niyyət bəyannaməsi qəbul edilmişdir.

Təşkilatın Parlament Məclisi bank və maliyyə sahəsində də əməkdaşlığın genişləndirilməsinə böyük önəm verir. Buna görə parlamentlərə yerli və xarici investisiyaların qorunması və bu sahədə qanunvericiliyin inkişaf etdirilməsi məsləhət görülmüşdür.

QİƏT-in İş Şurası nəqliyyat sahəsinin inkişaf etdirilməsi üçün aparılan işlərə və hazırlanan layihələrə, bölgədə nəqliyyat sistemlərinin yeniləşdirilməsinə və onun Avropa sisteminə uyğun qurulmasına xüsusi diqqət yetirir. Bu məqsədə nail olmaq üçün 1996-cı ildə «QİƏT üzvü olan dövlətlər arasında nəqliyyat əməkdaşlığı» və 1998-ci ildə «Avropada nəqliyyat texnologiyası və inteqrasiyası» adlı iki tövsiyə qərarı təsdiq olunmuşdur.

Bölgədə çoxməqsədli iqtisadi layihələrin həyata keçirilməsində müasir nəqliyyatın vacib rolu nəzərə alınaraq, QİƏT Parlament Məclisi İqtisadiyyat, ticarət, texnologiya və ətraf mühit məsələləri komitəsinin 2000-ci il sentyabrın 13-də Buxarestdə keçirilmiş on beşinci toplantısında «Qara dəniz bölgəsində nəqliyyatın genişləndirilməsi» mövzusunda mühüm tövsiyələr hazırlanmışdır. Burada kommunikasiyaya yol açacaq tutarlı strategiyanın həyata keçirilməsi və üzv ölkələrin parlamentləri tərəfindən Avropa qanunlarına uyğun qanunlar qəbul edilməsi barədə məsləhətlər öz əksini tapmışdır.

Bölgədə böyük əhəmiyyətə malik sahə olan turizmin inkişafı QİƏT çərçivəsində çox vacib sayılır. Ötən dövrdə bu ölkələrin çoxu beynəlxalq turizm üçün qapalı olduğuna görə bölgədə bu sahə inkişaf edə bilməmişdir. Təşkilata üzv ölkələrin tanınmış turizm mərkəzlərinə çevrilməsi üçün lazımi layihələrin həyata keçirilməsinə ehtiyac duyulurdu. Bu nəzərə alınaraq, QİƏT Parlament Məclisi İqtisadiyyat, ticarət, texnologiya və ətraf mühit komitəsinin 1999-cu il martın 17-18-də Sofiyada keçirilən iclasının gündəliyinə «Qara dəniz bölgəsində turizmin inkişafı» məsələsi daxil edildi. QİƏT Parlament Məclisinin 1999-cu ilin iyun ayında Ankarada keçirilən iclasında bu mövzuda məruzə dinlənildi və tövsiyə qərarı qəbul olundu.

Bölgənin ən böyük problemi Qara dənizdə ətraf mühitin çirklənməsinin qarşısının alınması məsələsidir. Bu problem çox ciddi olduğuna görə, bu sahədə sıx əməkdaşlığa, hətta beynəlxalq müdaxiləyə ehtiyac duyulur. Bunu nəzərə alan qurumun Parlament Məclisi 1994-cü ildə «Qara dənizdə ətraf mühitin qorunması» mövzusunda tövsiyə qərarı qəbul edib. 1996-cı il iyulun 10-12-də 24 ölkənin parlament nümayəndələrinin, beynəlxalq təşkilatların və mütəxəssislərin iştirakı ilə keçirilən parlamentlərarası konfrans da ətraf mühitin qorunması mövzusuna həsr olunmuşdu. Bu tədbir istər bölgədə, istərsə də Avropa miqyasında böyük əhəmiyyətli bir hadisə idi.

Fəaliyyətinin əsasını iqtisadi məsələlər təşkil edən QİƏT Parlament Məclisi eyni zamanda, demokratiya və hüququn üstünlüyü məsələlərinə də ciddi əhəmiyyət verir. Bu məqsədlə «Demokratik qurumların inkişafı» mövzusunda keçirilmiş seminar, bölgədəki ölkələr arasında yeni əlaqələrə

imkan açan ortaq bir hüquq şəbəkəsinin yaradılması üçün əsas şərtlərin parlament demokratiyası, azad seçkilər və hakimiyyət bölgüsü olduğunu nəzərə çatdırmışdır.

QİƏT Parlament Məclisini ən çox narahat edən məsələlərdən biri də qanunun aliliyinə zərbə vuran korrupsiya və mütəşəkkil cinayətkarlıqdır. Bu hallara qarşı mübarizədə parlament üzvlərinin böyük məsuliyyətini nəzərə alaraq, Parlament Məclisinin Hüquq və siyasət məsələləri komitəsi 2000-ci ilin oktyabr ayında geniş tövsiyələr planı tərtib etmişdir.

Təşəkkül tapdığı gündən QİƏT Parlament Məclisi üzv ölkələr arasında mədəni əməkdaşlığın inkişafı üçün də səylə çalışır. Təşkilat 1993-cü ildə Qara dəniz Mədəniyyət Konvensiyasını imzalamaqla bu inkişafa münbit şərait yaratmışdır.

Demokratik inkişafda və qanunun aliliyində kütləvi informasiya vasitələrinin mühüm rolu nəzərə alınaraq, 2000-ci il sentyabrın 27-də Sofiyada QİƏT Parlament Məclisi Mədəniyyət, təhsil və sosial məsələlər komitəsinin on beşinci iclasında bu məsələ müzakirə olunmuş və 2000-ci il noyabrın 30-da keçirilmiş iclasda tövsiyə qərarı qəbul edilmişdir. Həmin tövsiyədə KİV-in demokratik dəyərlərə, dostluq və əməkdaşlığa, eləcə də QİƏT-in imicinə əsaslı dəstəyi vurğulanır. Bundan əlavə, 2001-ci ilin may ayında QİƏT Parlament Məclisinin Buxarestdə təşkil etdiyi QİƏT üzvü olan ölkələrin milli televiziya şirkətləri rəhbərlərinin görüşündə də bu barədə söhbət getmişdir.

QİƏT Parlament Məclisi təhsil sahəsində də əməkdaşlığın inkişafı üçün mühüm işlər görmüşdür. Bu məqsədlə qurum «QİƏT üzvü olan ölkələr arasında təhsilin yaxşılaşdırılması sahəsində əməkdaşlıq», «QİƏT üzvü olan ölkələr arasında akademik birliklərin əməkdaşlığı və bu əməkdaşlığın hüquqi çərçivəsi» və «QİƏT üzvü olan ölkələrin ali təhsil diplomlarının qarşılıqlı tanınması» haqqında tövsiyələr qəbul etmişdir.

Parlament Məclisi bölgə ölkələrində sosial problemlərin həll olunması üçün də tədbirlər görür. Bu təşkilat tərəfindən Keçid dövründə sosial təminatlar haqqında, Qara dəniz hövzəsində qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsi haqqında, Səhiyyə haqqında, QİƏT üzvü olan ölkələrdə uşaqların və yaşlıların sosial müdafiəsi haqqında tövsiyələr qəbul olunmuşdur.

Göründüyü kimi, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı yarandığı gündən indiyədək çox böyük işlər görmüş və beynəlxalq aləmdə nüfuzlu bir təşkilat kimi öz layiqli yerini tutmuşdur. O, Parlamentlərarası İttifaq, Avropa Şurasının Parlament Assambleyası, ATƏT-in Parlament Assambleyası, NATO-nun Parlament Assambleyası, Qərbi Avropa Birliyi Assambleyası və MDB ölkələrinin Parlamentlərarası Assambleyası kimi beynəlxalq təşkilatlar və parlamentlərarası orqanlarla əməkdaşlığı inkişaf etdirir. QİƏT Parlament Məclisi, həmçinin Mərkəzi Avropa Təşəbbüsünün Parlament Təsisatı, Baltik ölkələri Şurası, Şimal Şurası, YUNESKO, BMT-nin Qaçqınlar üzrə Ali

Komissarlığı və Beynəlxalq Miqrasiya Təşkilatı ilə də sıx əlaqələr yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyev 2001-ci il iyunun 19-21-də bu mötəbər beynəlxalq təşkilatın ən yüksək forumunun ikinci dəfə Bakı şəhərində keçirilməsini əlamətdar hadisə kimi qiymətləndirmişdir. O, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin XVII plenar sessiyasının iştirakçılarına müraciətində qurumun fəaliyyətini yüksək dəyərləndirərək demişdir: «İri beynəlxalq qurum olan Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və onun Parlament Məclisi bölgə dövlətləri arasındakı münasibətlərin genişlənməsinə qüdrətli təkan verir və ölkələrimizin parlamentlərarası dialoquna geniş perspektivlər açır. Bu təşkilat coğrafi yaxınlığımızdan, tarixi keçmişimizdən və mədəni birliyimizdən irəli gələn üstünlüklərdən istifadə edərək bölgə dövlətlərinin ikitərəfli və çoxşaxəli əməkdaşlıq etməsi üçün münbit şərait yaradır.»

Yşıöy gığöhö ijyj, səv cıişışmjk lamıaydko nşğmışmj mgoanjza qazğanxkğa oşuijıaoa mşübşmıji dğjmışm. QJŞO Lamıaydko Yşfıjnjkjk XVII ndnnjzanxkxk jfıanxkğa Aəşmbazfak Mdnlöbıjianx Yjıij Yşfıjnjkjk nljidmj, oşuijıaoa nşğmıji dğşk fşkab Yömoöə Şışnçşmgv Lamıaydko Yşfıjnjkjk pşaıjzzşoj üaqqxkğa üdnabaoıa txrxu doyju, qömöyök ksyazşkğşışmjkjk ysroşıjp bdzkşıraıq oşğbjmışmğş juojmaixkğak vş çcmsışk juışmğşk ğakxuyxuğxm.

Ermənistan bütün dünyanın gözü qarşısında əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağı və onun ətrafındakı 7 rayonu işğal etmişdir. Hazırda 1 milyondan çox azərbaycanlı öz dədə-baba torpaqlarından didərgin salınmışdır. Biz iştirak etdiyimiz bütün mötəbər tədbirlərdə həmişə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsini ön plana çəkirik və bu problemin aradan qaldırılmasında beynəlxalq qurumlardan dəstək almağa çalışırıq.

Azərbaycan Respublikasının Milli Məclisi bütün mötəbər beynəlxalq təşkilatların parlament məclisləri ilə əməkdaşlığı uğurla davam etdirir. Heç şübhəsiz, bu əməkdaşlıq müstəqil dövlətimizin beynəlxalq əlaqələrinin güclənməsinə, xalqımızın haqq işinin beynəlxalq miqyasda dəstəklənməsinə dəyərli töhfələr verərək, nəticə etibarı ilə Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmlənməsinə kömək göstərəcəkdir.

# OUR INDEPENDENT STATE AND THE PARLIAMENT

**EDITION OF THE MILLI MEJLIS
OF THE REPUBLIC OF AZERBAIJAN**

**Baku-2001**

**Murtuz ALESKEROV
Responsible for Edition**

DECREE OF THE PRESIDENT
OF THE REPUBLIC OF AZERBAIJAN

## ON THE TENTH ANNIVERSARY OF THE STATE INDEPENDENCE OF THE REPUBLIC OF AZERBAIJAN

This year a significant historical event – tenth anniversary of restoration of the state independence of Azerbaijan will take place in the life of the people of Azerbaijan. By adopting the Constitutional Act «on the State Independence of Azerbaijan» on October 18, 1991 a new era started in the history of Azerbaijan – a period of the independent development. The independence gained by the Republic of Azerbaijan was an inevitable result of the continued socio – political processes, since the middle of 80s in the former USSR and all over the world. The objective historical reality brought to the collapse of USSR, retiring of the Communist Party from the historical scene, and as a result each union republic established its independent state. Following that, the recognition of all the new independent states, including the Republic of Azerbaijan, by the countries of the world, different international organizations and as well as the United Nations was a legitimate manifestation of the norms of international law.

History by itself repeatedly demonstrated that the defense of independence as an indispensable national heritage of the people is much more difficult and complicated task than to gain it. At its new historical period of development, before the Republic of Azerbaijan, making first steps on the way to the independence there were such essential historical tasks as strengthening its state independence, building of democratic, secular and rule of law state, restoring the country's territorial integrity, resolving the problem of Nagorno-Karabakh within the national interests, ensuring security and prosperity of all the population. All this required to conduct consistent, expedient and well-thought – internal and external policy and for this purpose to make a better use of intellectual and socio – economical potential and the socio – political forces of the country.

Unfortunately, nothing was done in this direction in 1991-1993. At the new period of the independence of Azerbaijan its internal and external policy not corresponding with economic and political interests, security and territorial integrity of the country, inflicted serious damage to the independent state-hood and its further destiny. Side by side with the Armenian aggression against Azerbaijan, the internal social stability had been breached, different illegal armed groups had been formed, and fierce fight for power had started in the country.

